AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ISSN 2790-0738 (Print)
ISSN 2791-0911 (Online)

# AZƏRBAYCAN DİLİ
## VƏ ƏDƏBİYYAT TƏDRİSİ

ELMİ-METODİK JURNAL

2022, №4 / 274

## TEACHING of AZERBAIJANI LANGUAGE and LITERATURE

SCIENTIFIC-METHODICAL JOURNAL

Jurnalın indekslənməsi / Indexed by

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası

ISSN

CiteFactor
Academic Scientific Journals

idealonline

INTERNATIONAL
Scientific Indexing

ADVANCED SCIENCE INDEX

ERIHPLUS
EUROPEAN REFERENCE INDEX FOR THE HUMANITIES AND SOCIAL SCIENCES

ИСТИНА
Интеллектуальная Система
Тематического Исследования
НАукометрических данных

calaméo

ASOS indeks

SCRIBD

Directory of Research Journal Indexing
DRJI

Academia.edu

issuu

INTERNET ARCHIVE

ROOTINDEXING
JOURNAL ABSTRACTING AND INDEXING SERVICE

Academic Resource Index
ResearchBib

ESJI
Eurasian Scientific Journal Index
www.ESJIndex.org

JOURNALS DIRECTORY

**AZƏRBAYCAN DİLİ və ƏDƏBİYYAT TƏDRİSİ**
Elmi-metodik jurnal. 1954-cü ildən nəşr olunur.
ISSN 2790-0738 (Print); ISSN 2791-0911 (Online)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 may 1997-ci il tarixli Nizamnaməsi ilə təsdiq edilmiş, Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində dövlət qeydiyyatına alınmışdır. Seriya AB № 022436, Qeydiyyat № B236

"Azərbaycan dili və ədəbiyyat tədrisi" humanitar elmlər istiqaməti üzrə dilçiliyin və ədəbiyyatşünaslığın bütün sahələrinə aid Azərbaycan, türk, ingilis və rus dillərində orijinal, yüksək keyfiyyətli elmi məqalələr dərc edən, dilimizin saflığı və işləkliyini qoruyan, Azərbaycan dili və ədəbiyyatın (həmçinin xarici ədəbiyyatın) tədrisi metodikasını, onun tədqiqi və təbliği məsələlərini araşdıran resenziyalı, açıq girişli elmi-metodik jurnaldır. İl ərzində dörd dəfə nəşr olunur. Jurnal dilçilik məsələləri, metodika, qrammatika, dialektologiya, mətnşünaslıq, Azərbaycan ədəbiyyatı, türk dili və ədəbiyyatı, xarici ədəbiyyat, uşaq ədəbiyyatı və folklorşünaslıq mövzularını əhatə edən bölmələrindən ibarətdir. "Nəşrlər" bölməsində elmi-pedaqoji sahədə yeni nəşr edilən kitablar tanıdılır. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər sırasındadır.

© Azərbaycan dili və ədəbiyyat tədrisi 2022

**TEACHING of AZERBAIJANI LANGUAGE and LITERATURE**
Scientific-methodical journal. Published since 1954.
ISSN 2790-0738 (Print); ISSN 2791-0911 (Online)

Approved by the Charter of the Ministry of Education of the Republic of Azerbaijan dated May 5, 1997, registered with the Ministry of Press and Information of the Republic of Azerbaijan. Series AB № 022436, Registration № B236

"Teaching of Azerbaijani language and literature" publishing original, high-quality scientific articles in Azerbaijani, Turkish, English and Russian languages in all fields of linguistics and literary (including foreign literature) criticism in the field of humanities is a peer-reviewed, Open Access scientific-methodical journal that studies the methodology, its research and promotion. Published four times a year. The journal consists of sections covering linguistics, methods, grammar, dialectology, textology, Azerbaijani literature, Turkish language and literature, foreign literature, children's literature and folklore. In the section "Publications" are presented new books published in the scientific and pedagogical field. The journal is among the publications recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan.

© Teaching of Azerbaijani language and literature 2022

*TƏSİSÇİ*
AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

*BAŞ REDAKTOR*
**Sehran Səfərov**

*REDAKSİYA ŞURASI*
**İsa Həbibbəyli**, Azərbaycan Milli Elmlər Akademiyası
**Elnur Nəsibov**, Azərbaycan Respublikası Təhsil Nazirliyi
**Rüfət Əzizov**, Azərbaycan Respublikası Təhsil İnstitutu
**Nadir Məmmədli**, AMEA Nəsimi adına Dilçilik İnstitutu
**Mahirə Nağıyeva**, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Qəzənfər Kazımov**, AMEA Nəsimi adına Dilçilik İnstitutu
**Yaqub Babayev**, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Mahmud Allahmanlı**, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Özcan Bayrak**, Fırat Universiteti, Türkiyə Cümhuriyyəti
**İrfan Erdoğan**, Atılım Universiteti,Türkiyə Cumhuriyyəti
**Vaqif Qurbanov**, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Ənvər Abbasov**, Azərbaycan Respublikası Təhsil İnstitutu
**Piralı Əliyev**, Azərbaycan Respublikası Təhsil İnstitutu

*REDAKSİYA HEYƏTİ*
**Gülnar Əliyeva**, Məsul katib
**İsmayıl Kazımov**, AMEA Nəsimi adına Dilçilik İnstitutu
**Sədaqət Həsənova**, Naxçıvan Dövlət Universiteti
**Bilal Həsənli**, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Soltan Hüseynoğlu,** Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Sevinc Rəsulova**, Bakı Şəhəri üzrə Təhsil İdarəsi
**Fəxrəddin Yusifov**, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Sevda Abbasova**, Azərbaycan Dövlət Pedaqoji Universiteti
**Nuray Əliyeva**, AMEA Naxçıvan bölməsi

*REDAKSİYA*
Könül Yadigarova, Zibeydə Səfərli, Xanımgül Əsgərova, Xatirə Məmmədova, Nazlı Səmədzadə, Ramilə İsmayılova, Fəridə Əhmədova, Cəvahir Quluzadə,

---

***ÜNVAN***
AZ 1118, Bakı şəhəri, Nəsimi küçəsi 37
Telefon: (012) 520 18 65
E-mail: tall@edu.gov.az
http://tall.edu.az

*FOUNDER*
MINISTRY OF SCIENCE AND EDUCATION REPUBLIC OF AZERBAIJAN

*EDITOR-IN-CHIEF*
**Sehran Safarov**

*EDITORIAL COUNCIL*
**Isa Habibbayli**, Azerbaijan National Academy of Sciences
**Elnur Nasibov**, Ministry of Education of the Republic of Azerbaijan
**Rufat Azizov**, Institute of Education of the Republic of Azerbaijan
**Nadir Mammadli**, Institute of Linguistics named after Nasimi of ANAS
**Mahira Nagiyeva**, Azerbaijan State Pedagogical University
**Gazanfar Kazimov**, Institute of Linguistics named after Nasimi of ANAS
**Yagub Babayev**, Azerbaijan State Pedagogical University
**Mahmud Allahmanli**, Azerbaijan State Pedagogical University
**Ozcan Bayrak**, Firat University, Republic of Turkey
**Irfan Erdogan**, Atilim University, Republic of Turkey
**Vagif Gurbanov**, Azerbaijan State Pedagogical University
**Anvar Abbasov**, Institute of Education of the Republic of Azerbaijan
**Pirali Aliyev**, Institute of Education of the Republic of Azerbaijan

*EDITORIAL BOARD*
**Gulnar Aliyeva,** Executive Secretary
**Ismayil Kazimov**, Institute of Linguistics named after Nasimi of ANAS
**Sadagat Hasanova**, Nakhchivan State University
**Bilal Hasanli**, Azerbaijan State Pedagogical University
**Soltan Huseynoghlu,** Azerbaijan State Pedagogical University
**Sevinj Rasulova**, Baku City Education Department
**Fakhraddin Yusifov**, Azerbaijan State Pedagogical University
**Sevda Abbasova**, Azerbaijan State Pedagogical University
**Nuray Aliyeva**, Nakhchivan branch of ANAS

*EDITORIAL TEAM*
Konul Yadigarova, Zibeyda Safarli, Khanimgul Asgarova, Khatire Mammadova, Nazli Samedzade, Ramila Ismayilova, Farida Ahmadova, Javahir Guluzade

---

***ADDRESS***
AZ 1118, Baku, str. Nasimi 37
Phone: (012) 520 18 65
E-mail: tall@edu.gov.az
http://tall.edu.az

# İÇİNDƏKİLƏR / № 4, 2022

## DİLÇİLİK MƏSƏLƏLƏRİ


- 10 – 16
  **Elşad Abışov**
  Müasir Azərbaycan dilində sintaktik əlaqələrin bəzi məsələləri

- 17 – 25
  **Qələmşah İdrisov**
  Azərbaycan dilində alınma təsviri sənət terminlərinin tədqiqinə dair


## METODİKA


- 26 – 39
  **Piralı Əliyev**
  Yazı müasir təhsildə problem kimi

- 40 – 50
  **Fəxrəddin Yusifov**
  Orta məktəbdə Molla Pənah Vaqif irsinin tədrisində şəxsiyyətyönümlülük

- 51 – 61
  **Gülnarə Əlixanova**
  Məktəbli təfəkkürünün inkişafında folklor nümunələrinin rolu


## ƏHMƏD CAVAD – 130


- 62 – 71
  **Xanımbacı Məlikzadə**
  Əhməd Cavadın Türkiyə sevgisi

- 72 – 85
  **Vəfa Məmmədova**
  Əhməd Cavadın “Azərbaycan bayrağına” şeirinin tədrisi təcrübəsindən

- 86 – 92
  **Səbinə Əliyeva**
  Milli istiqlal şairimiz Əhməd Cavad


## A Z Ə R B A Y C A N  Ə D Ə B İ Y Y A T I


- 93 – 108
  **Təyyar Salamoğlu**
  Cəlil Məmmədquluzadə nəsri sosial mühit və zaman kontekstində

- 109 – 118
  **Sevil Mehdiyeva**
  Yeni fars ədəbi dilinin zənginləşməsində Şeyx Nizaminin rolu


## Ə D Ə B İ  M Ü H İ T


- 119 – 125
  **Ədalət Abbasov, Həmzə Əliyev**
  Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzidir

- 126 – 134
  **Nübar Bayramova**
  Nəsirəddin Tusinin multikultural görüşləri

- 135 – 142
  **Ülviyyə Qasımova**
  Cümhuriyyət dövrü türk marşları

- 143 – 153
  **Aynur Səfərli**
  Real tarixi şəxsiyyət Alp Ər Tonqa əfsanəvi Turan şahı Əfrasiyabdırmı?

# CONTENTS / № 4, 2022

## LINGUISTIC ISSUES


- 10 – 16
  **Elshad Abishov**
  Some issues of syntactic relations in the modern Azerbaijani language

- 17 – 25
  **Galamshah Idrisov**
  On the study of the terms of fine arts in the Azerbaijani language


## METHODS


- 26 – 39
  **Pirali Aliyev**
  Writing as a problem in modern education

- 40 – 50
  **Fakhraddin Yusifov**
  Personality orientation in teaching Molla Panah Vagif heritage in secondary school

- 51 – 61
  **Gulnara Alikhanova**
  The role of folklore samples in the development of school thinking


## AHMAD JAVAD – 130


- 62 – 71
  **Khanimbaji Melikzade**
  Ahmad Javad’s love for Turkey

- 72 – 85
  **Vafa Mammadova**
  From the experience of teaching Ahmad Javad's poem "Azerbaijan bayraghina"

- 86 – 92
  **Sabina Aliyeva**
  Our national independence poet Ahmad Javad


## AZERBAIJANI LITERATURE


- 93 – 108
  **Tayyar Salamoghlu**
  Jalil Mammadguluzadeh´s prose in the context of social environment and time

- 109 – 118
  **Sevil Mehdiyeva**
  The role of Sheikh Nizami in the development of the New Persian literary language


## LITERARY ENVIRONMENT


- 119 – 125
  **Adalat Abbasov, Hamza Aliyev**
  Multiculturalism is a way of life in Azerbaijani society

- 126 – 134
  **Nubar Bayramova**
  Nasraddin Tusi's multicultural ideas

- 135 – 142
  **Ulviyya Gasimova**
  Turkish marches of the Republican period

- 143 – 153
  **Aynur Safarli**
  Is Alp Er Tonga a real historical figure the legendary Turan shah Afrasiyab?

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 10-16
doi.org/10.48445/h0055-7140-1443-u

DİLÇİLİK MƏSƏLƏLƏRİ

# Müasir Azərbaycan dilində sintaktik əlaqələrin bəzi məsələləri

***Elşad Abışov***
Filologiya üzrə fəlsəfə doktoru, dosent. ADPU, Müasir Azərbaycan dili kafedrası. Azərbaycan. E-mail: elsad_abisov@mail.ru
https://orcid.org/0000-0002-5048-1872

**XÜLASƏ**
Məqalədə sintaktik əlaqələr və bu əlaqələrin spesifikası ilə bağlı sistemli şəkildə məlumat verilir. Tədqiqat prosesində, həmçinin sintaktik əlaqələrin qurulması haqqında qeyd olunan ziddiyyətli fikirlərin məzmununa aydınlıq gətirilir, yeri gəldikcə fikir dolaşıqlığına yol açan bu problemin aradan qaldırılmasında müəllifin arqumentləşdirilmiş elmi analizləri təhlil edilir. Söylənilən hər bir analitik mülahizə dilin qrammatik quruluşunda sabitləşmiş mövcud qanunauyğunluqlar və faktiki dil materialları ilə əsaslandırılır.

**AÇAR SÖZLƏR**
sintaksis, sintaktik əlaqə, qrammatika, qrammatik quruluş, qrammatik məna

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 12.10.2022
qəbul edilib: 17.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 10-16
doi.org/10.48445/h0055-7140-1443-u

LINGUISTIC ISSUES

# Some issues of syntactic relations in the modern Azerbaijani language

***Elshad Abishov***
Doctor of Philosophy in Philology, Associate Professor. ADPU, Department of Modern Azerbaijani Language. Azerbaijan. E-mail: elsad_abisov@mail.ru
https://orcid.org/0000-0002-5048-1872

**ABSTRACT**
The article provides systematic information on syntactic relations and the specifics of these relations. In the process of research, the content of the contradictory opinions about the establishment of syntactic connections is clarified, and the authors' argumentative scientific analysis is given a wide place in overcoming this confusing problem. Each of these analytical considerations is based on existing patterns and factual language materials that have been established in the grammatical structure of the language.

**KEYWORDS**
syntax, syntactic connection, grammer, grammatical structure, grammatical meaning

**ARTICLE HISTORY**
Received: 12.10.2022
Accepted: 17.12.2022

## Giriş / Introduction

Söz birləşmələrinin tərəfləri və cümlə üzvləri arasında qrammatik münasibətlərin qurulmasına xidmət edən sintaktik əlaqələr (və onların növləri) haqqında dilçilik ədəbiyyatında müxtəlif mülahizələrə təsadüf edilir. Bu əlaqələrdən cümlənin predikativ mərkəzinin formalaşmasında həlledici rola malik olan uzlaşma əlaqəsi barədə dilçi alim Y.Seyidov yazır: "Uzlaşma şəxsə və kəmiyyətə görə olur. Tabe edən tərəf hansı şəxsə aiddirsə, tabe tərəf də həmin şəxsə məxsus qrammatik əlaqələri qəbul edir. Tabe olan tərəfin tək və cəmliyi də tabe edən tərəfdə əks olunur. Predikativ əlaqəli birləşmələrdə uzlaşma əlaqəsi xəbərlik və şəxs sonluqları vasitəsilə reallaşır. Məsələn, mən tələbəyəm, biz tələbəyik, sən tələbəsən, siz tələbəsiniz, siz gəlirsiniz və s." [1, s.24].

Dilçi alimlər Q.Kazımov, B.Xəlilov və başqalarının araşdırmalarında da asılı tərəfin əsas tərəflə şəxsə və kəmiyyətə görə uyğunlaşması *uzlaşma əlaqəsi* adlandırılır [6, s.21-25; 9, s.17-25].

Predikativ birləşmələrdə uzlaşma əlaqəsi ilə bağlı fikir ayrılığı demək olar ki, müşahidə olunmur. Məlum olduğu kimi uzlaşma predikativ birləşmələrlə yanaşı, həm də qeyri-predikativ birləşmələrin tərəfləri arasında özünü göstərir. Məsələn, mənim kitabım, sənin kitabın, onun kitabı, bizim kitabımız, sizin kitabınız, onların kitabı və s.

Mənbələrdə qeyri-predikativ birləşmələrin komponentlərini əlaqələndirən uzlaşmanın ikinci və üçüncü növ təyini söz birləşmələri adlandırılan ismi birləşmələrin tərəfləri arasında işləndiyi qeyd edilir [11, s.26-28]. B.Xəlilov bu barədə məlumat verərkən yazır: "Üçüncü növ təyini söz birləşmələrindəki uzlaşma bütün şəxslərə görə olur, yəni üçüncü növ təyini söz birləşmələrinin birinci tərəfi hər üç şəxsdə ola bildiyi üçün ikinci tərəf də hər üç şəxsin mənsubiyyət şəkilçisini qəbul edir. Məsələn, mənim arzum, sənin arzun, onun arzusu, bizim arzumuz, sizin arzunuz, onların arzusu və s. [9, s.19-21]. Üçüncü növ təyini söz birləşməsi ilə müqayisədə ikinci növdə uzlaşma məhduddur. Bu tip birləşmələrdə uzlaşma yalnız ikinci tərəfin üçüncü şəxsin mənsubiyyət şəkilçisini qəbul etməsi ilə düzəlir. Məsələn, ellər atası, şairlər yurdu və s.

Professor Y.Seyidov da buna uyğun olaraq struktur baxımdan üçüncü növ təyini söz birləşməsi modelində qurulan mənim arzum, sənin arzun, onun arzusu, bizim arzumuz, sizin arzunuz, onların arzusu və s. birləşmələrdə olduğu kimi, məktəb direktoru, kolxoz sədri və s. ikinci növ təyini söz birləşmələrini uzlaşma əlaqəsinə aid edir [11, s.25-28].

Deməli, hər iki tədqiqatçı (Y.Yusifov, B.Xəlilov) həm ikinci, həm də üçüncü növ təyini söz birləşmələrini, başqa sözlə, birinci tərəfi ismin yiyəlik və qeyri-müəyyən yiyəlik hallarda olan bütün birləşmələri fərq qoymadan uzlaşma əlaqəsinə aid edir ki, bu da nəticədə sintaktik əlaqələrin sərhədinin qarışdırılmasına və tədris prosesində fikir dolaşıqlığına səbəb olur.

Sintaktik əlaqələrin izahında müşahidə olunan ziddiyyətli fikirlər bununla məhdudlaşmır. Belə ki, araşdırmalarda *Əhmədin bacısı, onun sözləri* üçüncü növ ismi birləşmə konstruksiyalı sərbəst birləşmələrinin tərəfləri arasında qrammatik münasibətlər əvvəlcə uzlaşma, sonra isə idarə əlaqəsi şəklində izah olunur, yəni eyni struktura malik olan söz birləşmələrinin tərəflərini bir-birinə bağlayan sintaktik əlaqələr hər hansı elmi şərh verilmədən bir yerdə uzlaşma, başqa bir yerdə isə idarə əlaqəsi kimi təqdim edilir [11, s.19-2; 9, s.16-23].

B.Xəlilov belə birləşmələrdə idarə əlaqəsinin olmasını ismin yiyəlik halını idarə etməsi ilə əlaqələndirir. Onun bu mülahizəsi məzmun etibarilə Q.Kazımovun idarə əlaqəsi haqqındakı fikri ilə demək olar ki, eyniyyət təşkil edir.

Professor Q.Kazımov adlıq, qeyri-müəyyənlik bildirən yiyəlik və qeyri-müəyyənlik bildirən təsirlik hallar istisna olmaqla, ismin digər hallarının idarə əlaqəsinə xidmət etdiyini qeyd edərək yiyəlik, yönlük, təsirlik, yerlik və çıxışlıq hallarda olan (-ın$^4$, -a$^2$, -ı$^4$, -da$^2$, -dan$^2$) sözlərin idarə olunan tərəf olduğunu yazır [6, s.22-24]. Lakin o, digər tədqiqatçılardan fərqli olaraq tərəfləri arasında bəzən uzlaşma, bəzən isə idarə əlaqəsinin olduğu iddia edilən birinci tərəfi yiyəlik hal, ikinci tərəfi mənsubiyyət şəkilçili *Əhmədin bacısı, onun sözləri* söz birləşmələrinin komponentlərinin bir-biri ilə (uzlaşma və idarədən ibarət) qarşılıqlı tabelilik yolu ilə əlaqələndiyini göstərmiş, bununla da problemin uğurlu elmi şərhini verməyə nail olmuşdur [6, s.21-24].

Şübhəsiz ki, müəllifin bu konsepsiyası ismin söz birləşmələrinin tərəfləri arasında təbii əlaqənin qurulmasına xidmət edən hal dəyişmələri qanunauyğunluğuna əsaslanır, yəni yiyəlik hal şəkilçili birləşmələrdə birinci tərəf ikinci tərəfin mənsubiyyətə görə dəyişməsini tələb edərək onu özünə uyğunlaşdırdığı kimi (məs., *təbiətin* gözəlliyi), ikinci tərəf də öz növbəsində birinci tərəfin adlıq haldan çıxıb yiyəlik hala düşməsini tələb etməklə (məs., təbiətin *gözəlliyi*) onu idarə edir, bununla da tərəflər arasında (uzlaşma və idarədən ibarət) qarşılıqlı tabelilik əlaqəsi yaranır.

İdarə əlaqəsində mübahisə doğuran mülahizələrdən biri də ənənəvi dilçilikdə idarə əlaqəsinə daxil edilən *məktəb direktoru, dağ havası* modelində qurulan ikinci növ təyini söz birləşmələrinin əsas tərəfin (ikinci tərəfin) tələbinə əsasən bir sıra hallarda yanaşma əlaqəsinə aid edilməsidir.

"Dəniz suyu", "dənizin suyu" ismi birləşmələrinin tərəfləri arasında sintaktik əlaqənin tədqiqinə xüsusi məqalə həsr edən R.Xəlilov bu tip birləşmələrin tərəfləri arasında tabelilik əlaqəsinin üçünün də (uzlaşma, idarə, yanaşma – E.A) olduğunu qeyd etmişdir [8, s.44-46]. Ondan fərqli olaraq prof. Ə.Dəmirçizadə "dağ havası", "bulaq suyu" birləşmələrinin tərəfləri arasında uzlaşma, Y.Yusifov və Q.Kazımov yanaşma və uzlaşma, M.Şirəliyev, M.Hüseynzadə və N.X.Dimitriyev yanaşma və idarə, Ə.Abdullayev isə idarə və uzlaşma əlaqələrinin olduğunu qeyd etmişlər [3, s.194-197; 11, s.23-26; 7, s.26-28; 1, s.19-21].

Bu tip birləşmələrin sintaktik münasibətlərində yanaşmanı əsas götürənlər fikirlərini birinci tərəfin şəkilçisiz işlənməsi, başqa sözlə, qeyri-müəyyənlik bildirən yiyəlik halda olması ilə izah edirlər [11, s.29-34; 6, s.23-27]. Doğrudur, ikinci növ ismi birləşmələrdə asılı tərəf şəkilçisiz işlənir, ancaq bu onların tərəfləri arasında yanaşma əlaqəsinin olması anlamına gəlmir, çünki ikinci növ ismi birləşmələrlə müqayisədə yanaşma əlaqəli birləşmələrdə, ümumiyyətlə, morfoloji göstərici olmur. Tabelilik əlaqəsinin bu növü söz sırası və intonasiyanın köməyi ilə qurulur. Asılı tərəf əvvəl, əsas tərəf sonra işlənir. Asılı tərəf əsas tərəfə yanaşır və tabe olur. Məsələn, yaşıl yarpaq, uca çinar [6, s.18-21].

Verilən izahatdan aydın olur ki, substantiv birləşmələrdə yanaşmanın formalaşmasında iştirak edən tərəflər yalnız adlıq halda olmalıdır, çünki ismin digər hallarında söz sırası və intonasiya ilə əlaqə mümkün deyildir.

Bu xüsusiyyət *dağ havası, bulaq suyu* söz birləşmələrinin yanaşma əlaqəli birləşmələrlə eyni struktura malik olmadığını göstərir. Belə ki, yanaşma yalnız söz sırası və intonasiyanın köməyi ilə düzəldiyi halda, bu tip birləşmələr ikinci tərəfə üçüncü şəxsin mənsubiyyət şəkilçisinin qoşulması ilə formalaşır. Bundan əlavə, yanaşma əlaqəli birləşmələrin birinci tərəfi sintaktik təhlil zamanı cümlədə təyin vəzifəsində çıxış edir. Məsələn:

Mərmər abidələr, tökmə heykəllər
Bəzəkdir hər böyük, kiçik şəhərə
[S.Vurğun].

Şeir parçasında verilmiş mərmər, tökmə, böyük, kiçik sözləri təyin, abidələr, heykəllər mübtəda, şəhərə sözü isə tamamlıqdır.

*Dağ havası, bulaq suyu* konstruksiyalı ikinci növ ismi birləşmələr yanaşma əlaqəli söz birləşmələrindən fərqli olaraq belə bir xüsusiyyətə malik deyil. Bütün məqamlarda tərəflər parçalanmadan bütövlükdə cümlənin bir üzvü olur. Məsələn, *"Təmiz dağ havası və bulaq suyu bir çox xəstəliklərin dərmanıdır"* nümunəsində *dağ*

*havası* və *bulaq suyu* birləşmələrinin tərəfləri parçalanmadan cümlənin mürəkkəb və həmcins mübtədası vəzifəsində çıxış etmişdir.

Dil faktları və gətirilən nümunələr aydın şəkildə göstərir ki, qeyri-müəyyən yiyəlik hallı birləşmələrin ikinci tərəfin tələbi əsasında yanaşma yox, idarə əlaqəsinə daxil edilməsi daha çox məntiqə uyğundur. İdarə əlaqəsinin spesifikası haqqında söylənən fikirlər də bu mülahizənin doğruluğunu şərtləndirir. Y.Seyidov bununla bağlı yazır: "İdarə əlaqəsinin əsas xüsusiyyəti bundan ibarətdir ki, burada tabe söz tabe olduğu sözün tələbi ilə ismin bu və ya digər hallarında durmalı olur. İdarə əlaqəsi ismin halları ilə əlaqədar olduğundan, bu əlaqə əsasında yaranan birləşmələrin tabe tərəfi hallana bilən substantiv və ya müvəqqəti olaraq substantivləşən sözlərdən ibarət olur. Məsələn, qapını açmaq, evə gəlmək, məni dinləmək və s." [1, s.28-30].

M.Şirəliyev, M.Hüseynzadə, Ə.Abdullayevin tədqiqatlarında da idarə əlaqəsi tabeedici sözün tələbi ilə tabe sözün adlıq haldan çıxıb başqa hallara düşməsi şəklində izah olunur [1, s.29-30].

Bəzən sintaktik əlaqələrin araşdırılmasında qeyri-müəyyənlik bildirən yiyəlik halda olduğu kimi, qeyri-müəyyənlik bildirən təsirlik hallı birləşmələrin tərəfləri arasındakı əlaqələr də yanaşmaya aid edilir.

Birinci tərəfi qeyri-müəyyənlik bildirən təsirlik halda olan birləşmələrin strukturu və tərəfləri arasındakı əlaqə forması onun yanaşmaya uyğun gəlmədiyini göstərir. Burada ziddiyyət doğuran ən əsas məqam ondan ibarətdir ki, yanaşma əlaqəsində birinci tərəf cümləyə əsasən təyin kimi daxil ola bildiyi halda, qeyri-müəyyən təsirlik hallı birləşmələrdə birinci tərəf həmişə cümlədə vasitəsiz tamamlıq olur, birbaşa feillərlə əlaqələnərək hərəkətin təsirinə məruz qalır və müstəqim obyektə çevrilir. Feillə qeyri-müəyyənlik bildirən təsirlik halda olan söz arasındakı əlaqə o qədər möhkəm olur ki, feil bu halda olan sözün qoşmalarla belə, əlaqələnməsinə imkan vermir. Bundan əlavə, qeyri-müəyyənlik bildirən təsirlik halda olan birləşmələrdə birləşmənin tərkibinə söz artırmadan və söz sırasını pozmadan istənilən vaxt birinci tərəfə təsirlik hal şəkilçisini asanlıqla artırmaq mümkün olur. Məsələn, kitab oxumaq, kitabı oxumaq; su içmək, suyu içmək və s.

Bu fakt onu deməyə əsas verir ki, qeyri-müəyyənlik bildirən yiyəlik halda olduğu kimi, burada da sintaktik əlaqə söz sırası və intonasiya ilə deyil (bu yanaşmaya xas xüsusiyyətdir), əsas tərəfin (ikinci tərəfin) tələbi ilə asılı sözün adlıq haldan çıxıb qeyri-müəyyənlik bildirən təsirlik hala düşməsi, idarə olunması və bu səbəbdən də əsas tərəfin üçüncü şəxsin şəxs şəkilçisini qəbul etməsi ilə qurulur.

## Nəticə / Conclusion

İsmin hal dəyişmələrinin qanunauyğunluğu da bu tip birləşmələrin tərəfləri arasında yanaşma yox, idarə əlaqəsinin olduğunu göstərir. Belə ki, isim cümlədə müxtəlif vəzifələr daşıyır. Bu vəzifələri daşımaq üçün isimlər hər şeydən əvvəl xəbərlə, xüsusən feili xəbərlə sintaktik əlaqəyə girməlidir. Yəni xəbər olan feilin və ya feildən əmələ gələn başqa sözün tələbinə görə isimlər öz şəkillərini dəyişməli olur. Məsələn, *"baxıram"* feilinin tələb etdiyi *nəyə?* sualı "kitab" isminin bir şəkildə (kitaba şəklində), *"görürəm"* feili isə başqa bir şəkildə (kitabı şəklində) işlənməsinə səbəb olur [4, s.44-46]. Deməli, söz birləşməsi və cümlə daxilində işlənən hər hansı isim əlaqələndiyi feilin tələbi ilə adlıq haldan çıxıb, qeyri-müəyyənlik bildirən təsirlik hala düşərək idarə olunub. Deməli, burada yanaşma əlaqəsindən danışmaq absurddur.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Abdullayev Ə., Seyidov Y., Ağamalıyev H. (2007). Müasir Azərbaycan dili. Sintaksis, IV hissə. Bakı, "Şərq-Qərb". 424 s.
2. Azərbaycan dilinin qrammatikası. (1960). I hissə (morfologiya). Bakı, Azərb. SSR EA-nın nəşriyyatı. 334 s.
3. Dəmirçizadə Ə. (1962). Azərbaycan dilinin üslubiyyatı. Bakı, 245 s.
4. Hüseynzadə M. (2007). Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı, "Şərq-Qərb". 280 s.
5. Şirəliyev M., Hüseynzadə M. (1970). Azərbaycan dilinin qrammatikası. 6-8 siniflər üçün dərslik. Bakı, "Maarif". 189 s.
6. Kazımov Q.Ş. (2010). Müasir Azərbaycan dili (sintaksis). Bakı, "Elm və təhsil". 500 s.
7. Kazımov Q.Ş. (2010). Müasir Azərbaycan dili (morfologiya). Bakı, "Elm və təhsil". 400 s.
8. Xəlilov R. (1958). Müasir Azərbaycan dilində II və III növ təyini söz birləşmələrinin tərəfləri arasında sintaktik əlaqə üsulları. Azərb. SSR EA-nın məruzələri, XIV cild, s.42-48.
9. Xəlilov B. (2017). Müasir Azərbaycan dili (sintaksis). Bakı, 428 s.
10. Müasir Azərbaycan dilinin sintaksisi. (1960). Bakı, APİ-nin nəşriyyatı. 154 s.
11. Seyidov Y. (1966). Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, "Maarif". 340 s.

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 17-25
doi.org/10.48445/f4656-4061-8865-m

DİLÇİLİK MƏSƏLƏLƏRİ

# Azərbaycan dilində alınma təsviri sənət terminlərinin tədqiqinə dair

***Qələmşah İdrisov***
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim. Azərbaycan Dövlət Pedaqoji Universiteti, Quba filialı. Azərbaycan. E-mail: qelemshahidrisov@mail.ru
https://orcid.org/0000-0001-5823-2590

**XÜLASƏ**
Bu tədqiqatı aparmaqda əsas məqsəd rus dili və onun vasitəsi ilə Avropa dillərindən dilimizə keçən bir sıra təsviri sənət terminlərinin araşdırılaraq təhlillərinin aparılması, həmin terminlərin dilimizdəki adekvat qarşılığının tapılması, dilin terminlər sisteminə milli keyfiyyət və formada daxil edilməsi yollarına aydınlıq gətirməkdir. Bununla yanaşı, tədqiqat işində dilimizdə qarşılığı olmayan terminlərin dilin fonetik, morfoloji və sintaktik qanunları çərçivəsində dəyişdirilərək mənimsənilməsi, mənbə dilində olduğu kimi saxlanılması və kalka edilməsi kimi məsələlər də öz əksini tapmışdır. Son zamanlar dünya incəsənətində gedən proseslər Azərbaycan təsviri sənətinə də öz təsirini göstərmişdir. Bu prosesdə yaranmış yeni cərəyanlar daxilində təsviri sənətə fərqli baxışlar müəyyənləşərək *nonkonformist, opalist, installyasiya* kimi təsviri sənət terminləri dilimizə daxil olmuşdur ki, bu sözlər əsasında da yaranan terminoloji birləşmələr dilimizin leksik fondunu zənginləşdirmişdir.

**AÇAR SÖZLƏR**
təsviri sənət, termin, opalist rəssam, kalka, bədii qrafika

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 03.11.2022
qəbul edilib: 15.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 17-25
doi.org/10.48445/f4656-4061-8865-m

LINGUISTIC ISSUES

# On the study of the terms of fine arts in the Azerbaijani language

***Galamshah Idrisov***
Doctor of Philosophy in Philology, senior lecturer. Azerbaijan State Pedagogical University, Guba branch. Azerbaijan. E-mail: qelemshahidrisov@mail.ru
https://orcid.org/0000-0001-5823-2590

**ABSTRACT**
The main purpose of this research is to examine and analyze a number of fine arts terms transferred from Russian and European languages to our language, to find adequate equivalents of these terms in our language, clarify the ways of including language in the system of terms in national quality and form. In the research work, issues such as the acquisition of terms that have no equivalent in our language by changing them within the phonetic, morphological and syntactic laws of the language, as well as their preservation and transliteration as in the source language were reflected. Recent developments in world art have also had an impact on Azerbaijan's fine arts. Within the new trends created in this process, new views on fine arts were identified and non-conformist, opalist, installation terms such as fine arts entered our language, and many terminological combinations based on these words enriched the lexical fund of our language.

**KEYWORDS**
fine arts, terminology, opalist artist, kalka, graphic art

**ARTICLE HISTORY**
Received: 03.11.2022
Accepted: 15.12.2022

## Giriş / Introduction

Sahə terminologiyasının tədqiqi məsələləri dilçilik tədqiqatlarında əsas yerlərdən birini tutur. Elmi-texniki tərəqqi, cəmiyyətdə baş verən ictimai-siyasi proseslər, mədəniyyət və incəsənətin müxtəlif sahələrinin inkişafı, modernləşməsi fasiləsiz olaraq yeni anlayışlar yaradır ki, bunlar da müəyyən terminlərlə ifadə olunur.

Dilin zənginləşməsi prosesində müxtəlif sahə terminləri mühüm rol oynayır. Belə terminlər elmi, bədii, texniki, pedaqoji və s. sahələr üzrə yarandıqdan sonra leksikamıza mətbuat, əsasən də informasiya vasitələri əsasında daxil olur. Terminlər çox vaxt dilimizin qayda-qanunları nəzərə alınmadan işlədilsə də, dildə sabitləşə bilmir. Sovet dövründə Avropa mənşəli terminlərin dilimizə keçməsində rus dili əsas rol oynayırdısa, müstəqillik illərində bu proses birbaşa kütləvi informasiya vasitələri ilə həyata keçirilir.

Hər bir dilin terminoloji leksikasında olduğu kimi, dilimizdə istifadə edilən bütün sahələr üzrə terminlərlə yanaşı, təsviri sənət terminləri də dil mənsubiyyəti baxımından əsl Azərbaycan və alınma sözlərdən ibarətdir. Alınma təsviri sənət terminlərinin müəyyən hissəsi ilkin orta əsrlərdən başlayaraq ərəb və fars, XIX əsrin ortalarından etibarən isə rus dilindən və bu dil vasitəsilə Avropa dillərindən alınmışdır.

Termin yaradıcılığında alınma prosesi müəyyən tarixi hadisələrlə bağlı olur. Bu, təsviri sənət leksikasında ərəb-fars və rus dilindən alınma sözlərdə özünü daha çox büruzə verir. Məqalədə son dövrlərdə dilimizə birbaşa daxil olan, eləcə də rus dili və bu dil vasitəsilə Avropa dillərindən alınan bəzi təsviri sənət terminlərindən bəhs edilir.

Alınma təsviri sənət terminlərinin bir qismi olduğu kimi, digər bir qismi isə dilimizin fonetik, leksik və qrammatik quruluşuna uyğun şəkildə dəyişiklik edilərək dilimizə daxil olmuşdur. Digər tərəfdən, bu terminlər əsasında dilimizin söz yaradıcılığı vasitələrinin köməkliyi ilə yeni terminlər yaradılmışdır. Məsələn:

- mənbə dildəki kimi qalan alınanlar: *molbert, triptix, rakurs, avtoportret, mozaika, emblem, siluet, karikatura, eskiz, süjet, qotika, kolorit, modern, freska, perspektiv, motiv* və s.
- dəyişiklik edilərək alınanlar: *plakatçı rəssam, realist boyakarlıq, hava perspektivi, isti kolorit, karikaturaçı rəssam, konstruktiv quruluş, naturadan çəkmə, kitab miniatürü, plener boyakarlığı* və s.

Alınma təsviri sənət terminlərinin bir qismi də kalka yolu ilə əmələ gəlmişdir.

*Kalkalar* digər bir dilə məxsus söz və ya söz birləşmələrinin tərkib hissələrini ana dilinin müvafiq söz və söz birləşmələri ilə dəqiq şəkildə əvəz etməklə həmin sözlərin modeli üzrə qurulmuş sözlər, ifadələrdir [4, s.134].

Kalka yolu ilə yaranan təsviri sənət terminləri quruluş etibarilə müxtəlif olur. Belə ki, onlar həm morfoloji, həm də leksik yolla əmələ gəlir.

Morfoloji yolla yaranan təsviri sənət terminləri həm milli, həm də azərbaycanlaşmış ərəb və fars mənşəli sözlərə sözdüzəldici şəkilçilərin əlavə edilməsi yolu ilə əmələ gəlir. Bu yolla yaradılan kalkalarda rus və başqa dillərdəki təsviri sənət terminləri milli sözlərə sözdüzəldici şəkilçilərin qoşulması ilə düzəlir. Məsələn: *бытовизм – məişətçilik, гармоничность – ahəngdarlıq, пейзажистъ – mənzərəçi, керамистъ – dulusçu, декоратор – bəzəkçi* və s.

Sintaktik yolla yaranan kalkalar *mürəkkəb kalkalar* adlanır. Kalka edilmiş təsviri sənət terminlərinin bəzən birinci tərəfi kalka olunur, ikinci tərəfi isə olduğu kimi saxlanılır. Məsələn: *творческий метод – yaradıcılıq metodu, художественная графика – bədii qrafika, воздушный перспектив – hava perspektivi, крупный план – geniş plan, сложный натюрморт – mürəkkəb natürmort, предворительный ескиз – ilkin eskiz* və s.

Tədqiqatçılar kalkaları tərcümə alınmalar hesab edirlər. Terminin başqa dildən tərcümə olunmasından bəhs edərək rusiyalı dilçi-alim N.A.Baskakov yazır: "Kalkaetmə, daha doğrusu, terminin başqa dillərdən və birinci növbədə, rus dilindən süni surətdə tərcümə olunması nəticəsində müəyyən bir termin, yaxud termin birləşməsi əvvəl dildə mövcud olmamış yeni məna kəsb edir" [10, s.61].

Ötən əsrin əvvəllərindən dünya incəsənətində gedən proseslər Azərbaycan təsviri sənətinə də öz təsirini göstərmiş, müxtəlif cərəyanlar daxilində təsviri sənətə yeni baxışlar müəyyənləşmişdir. Sovet ideologiyası çərçivəsində bu proses birmənalı qarşılanmasa da, Azərbaycan təsviri sənətinə yeni baxışlar sferasında yaranmış "*nonkonformistlər*" adlanan yeni cərayan ətrafına öz nümayəndələrini toplaya bilmişdir.

*Nonkonformizm* – XVI əsrdə Qərbi Avropada ingilis protestantizmində hakim kilsəyə qarşı bir sıra meylləri gücləndirməyə yönəlmiş cərəyan kimi meydana çıxmışdır. Azərbaycan təsviri sənətində bu cərəyanın ən görkəmli nümayəndəsi Cavad Mircavadov olmuşdur. Onun Azərbaycan rəngkarlığına avanqard baxışı və innovativ düşüncələri yaradıcılıq sərhədlərini genişləndirərək yeni rəngkarlıq improvizələri yaratmışdır. C.Mircavadovun müasir Azərbaycan rəngkarlığındakı bu novatorluğu təsviri sənətdə yeni terminlər yaradır. Məsələn, *nonkonformist rəssam*,

*deformasiyalı fiqur, kobud fiqur, ekspressiv rəng, cansıxıcı fiqur, siluetik xətt, kontrast xətt, tekstura, simvolika, avanqard üslub* və s.

Göründüyü kimi, "Nonkonformistlərin üslub axtarışları" məqaləsindən seçdiyimiz bu termin və terminoloji birləşmələr dilimizin terminoloji fondunu zənginləşdirsə də, qeyd olunduğu kimi müəyyən ifadələrin qəbul olunmasını məqbul saymaq olmaz. Məsələn, "*tekstura*"nın əvəzinə "*mətn*"in, "*siluetik xətt*" ifadəsinin əvəzinə isə "*siluet xətti*"nin işlədilməsi dilimizin normalarına daha uyğundur.

Beləliklə, incəsənətdə müasir istiqamətin nəticəsi olaraq *nonkonformizm* sözü təsviri sənət leksikasına son dövrlərdə "*nonkonformistlər*", "*nonkonformist rəssam*", "*nonkonformist üslub*" kimi yeni terminlər gətirmişdir.

Hər bir dildə beynəlmiləl terminlər geniş istifadə olunur. Azərbaycan dilində beynəlmiləl təsviri sənət terminləri mənbə dildəki mənaları ilə işlənir. Məsələn: *motiv, obelisk, dekor, barelyef, rakurs, qorelyef, natura, realizm, ofort, impressionizm, perspektiv, relyef, interyer, quaş, proyeksiya, simvolizm* və s.

M.Qasımov beynəlxalq terminlərdən bəhs edərək yazır ki, bir sıra dillərin əsas vahidi olmaq etibarilə, beynəlxalq əhəmiyyət daşıyan xüsusi təsviri sənət terminləri də mövcuddur ki, bunlar səs-hərf tərkibinə görə müəyyən dərəcə fərqlənir. Belə terminlərin yaranmasında optimal vəziyyət o vaxt yaranır ki, terminin həm xarici forması, həm daxili mənası, həm də definitiv-təsviri məzmunu ən müxtəlif dillərdə bir-birinə maksimum dərəcədə yaxın olur [4, s.127].

Alınma terminlərin Azərbaycan dilində geniş inkişafı və intensiv çoxalması, hər şeydən əvvəl, müxtəlif dillərdə yaranıb inkişaf edən elmin qarşılıqlı əlaqəsini təmin edir. Bu cür qarşılıqlı əlaqə və münasibətlər terminoloji sistemdə beynəlxalq terminlər məsələsini doğurur [5, s.128].

Son dövrlərdə dünya təsviri sənətində olduğu kimi Azərbaycan incəsənətində də yeni texniki üsullarla yaradılmış incəsənət nümunələri geniş yayılmışdır ki, bunlar əsasında yaranan terminlər də beynəlxalq səciyyə daşıyır. Məsələn: *installyasiya və opalizm.*

Termin yaradıcılığında unifikasiya vacib şərtdir. Dildə yeni termin yaradarkən və ya başqa dildəki termini kalka edərkən dilin ahəngini, səslərdəki melodikliyi nəzərə almaq lazımdır [1, s.31]. Bu baxımdan *installyasiya* terminini dilin ahənginə görə *instalyasiya* kimi qəbul etmək daha məqbul olardı. *İnstallyasiya* ingilis sözü olub, dilimizdə "quraşdırma", "yerləşdirmə", "montaj" mənalarını verir. Müxtəlif elementlərdən quraşdırılaraq yaradılan incəsənət əsərləri hazırda gənc rəssamlarımızın yaradıcılığında geniş yayılmışdır. Bədii installyasiya postmodern

sənətkarlarının yaratdığı çağdaş sənət əsərləridir. Bu növ əsərlər yalnız muzey üçün deyil, açıq havada da quraşdırıla bilər. Belə əsərlər çox vaxt həcmli materiallardan hazırlanır. Həmin termin də hazırda mətbuat səhifələri və vikipediyada işlənməkdədir. İngilis mənşəli *installyasiya* sözü əsasında *installyasiya üslubu, dinamik installyasiya, qabarıq installyasiya, boyalı installyasiya* və s. kimi təsviri sənət terminləri yaranmışdır.

*Opalist, opalist rəssam, opalizm* kimi terminlər isə təsviri sənətə akademik rəssam Sakit Məmmədovun yaradıcılığı ilə daxil olmuşdur. Sənətşünaslar onu opalizm məktəbinin banisi hesab edirlər. Bu üslub öz adını opal mineral daşından almışdır. "Opal" qədim yunan dilində "gözqamaşdıran", latın dilində "valehedici görünüş", sanskrit dilində isə "qiymətli daş" mənalarını verir. *Opalizm* sözü əsasında *opalizm məktəbi, opalist, opal rəssam, opalizm üslubu, opal tonu, opal naxış* və s. kimi terminlər dilimizin normalarına uyğun olaraq söz birləşməsi şəklində işlədilməkdədir[1].

Professor Ə.Orucov beynəlxalq tipli alınmalardan danışarkən yazır ki, hər bir milli dilin terminologiyasının yaradılması üçün əsas mənbə, beynəlmiləl sözlər ehtiyatı istisna olmaqla dilin özü, leksik tərkibidir. Amma bu dillərin heç biri artan tələbatlarını yalnız özünün daxili leksik resursları hesabına ödəyə bilmir. Ona görə də biz bir sıra dillərdə işlənən bu və ya digər terminə rast gəliriksə, onu haqlı olaraq beynəlmiləl terminlər sırasına daxil edə bilərik [11, s.175].

Deməli, beynəlxalq terminlərin işlədilməsi müəyyən sahə terminologiyasını zənginləşdirməklə onun başa düşülməsinə zəmin yaradır və dillərin lüğət tərkibini bir-birinə yaxınlaşdırır.

Məsələyə aydınlıq gətirmək üçün "*keramika*" terminə nəzər yetirək:

Bu termin beynəlmiləl səciyyə daşıyır. Keramika (yun. "keramike" – dulusçuluq, "keramos" – gil) dulusçuluq sənətidir. Gil və onun qarışıqlarının mineral əlavələrlə, həmçinin oksid və digər qeyri-üzvü birləşmələrlə qarışığından alınan məmulat və materiallardır. Məişətdə, tikintidə, texnikada, heykəltəraşlıqda, tətbiqi sənətdə geniş yayılmışdır [2, s.179].

Azərbaycan dilində bu terminlə yanaşı, "*dulusçuluq*" sözündən də istifadə olunur. İngilis dilində "çeramik", rus dilində "keramika", Türkiyə türkcəsində "seramik", qırğız dilində "keramika", qazax dilində "kremika", özbək dilində "kremika" formalarında işlədilir.

[1] https://az.wikipedia.org/wiki/Sakit_M%C9%99mm%C9%99dov

Digər Avropa dillərinə məxsus elementlərdən əmələ gəlmiş bir sıra təsviri sənət terminlərini də beynəlmiləl terminlər hesab etmək olar. Məsələn: *avtoportret, emblem, illüstrasiya, kalliqrafiya, ofort, konstruksiya, vitraj, freska, quaş, akvarel, impressionizm* və s. belə terminlərdəndir.

Azərbaycan dili təsviri sənət terminlərini araşdırarkən məlum oldu ki, bəzi alınma terminlərin dilimizdə qarşılığı olsa da onlar mənbələrdə rus və digər dillərə məxsus sözlərlə əvəzlənir. Məsələn: "*Nizaminin Bakıdakı tunc abidəsi sintezin gözəl nümunəsidir. 6 metrlik heykəl – fiqur 9 metrlik çəhrayı qranit postament üzərində yüksəlir*" [7, s.85].

*Postament* termininin dilimizdəki qarşılığı *kürsü, altlıq* sözüdür. "*Kürsü*" sözü adətən muzey, emalatxana və otaq şəraitində qoyulmuş heykəllərin, büstlərin altlıqları kimi işlənir. Təsviri sənətə dair mənbələrdə buna rast gəlirik. Bu mənada, M.Nəcəfovun "Rəssam və zaman" kitabından oxuyuruq: "*...nümayəndələr emalatxananın bir tərəfində, hündür kürsü üstündə qoyulmuş heykəli dövrəyə alırlar*" [8, s.134].

*Kürsü* sözü bəzən monumental heykəl altlığı kimi də işlədilir. Məsələn: "*Layihədə Füzulinin ayaqüstü heykəli aşağı hissəsi barelyeflərlə bəzədilmiş qranit kürsiyyə üzərində dururdu*" [8, s.136]. Bizcə, eyni mənbədə bir obyektiv məna daşıyan terminin müxtəlif variantlarda verilməsi məqbul sayıla bilməz. Burada *kürsiyyə* əvəzinə *altlıq* sözünün işlədilməsi daha doğru olardı.

M.Nəcəfov digər bir monoqrafiyada arxitektura, peyzaj terminlərindən də istifadə etmişdir. Məsələn: "Münhenin damları", "Dürerin evi" və bu tipli arxitektura peyzajları orijinal sənət nümunələri kimi qiymətlidir [9, s.48].

M.Qasımov dilimizdə qarşılığı olan terminlərin alınma sözlərlə əvəz edilməsinə heç bir ehtiyac olmadığını göstərir. Müəllif yazır ki, məsələn, XIX əsrdən etibarən tərcümə və terminoloji lüğətlərdə rus dilindəki *arxitektor* termininin qarşılığı Azərbaycan dilində *memar*, eləcə də *arxitektura* termininin qarşılığı *memarlıq* termini kimi işlədilir. Həqiqətən də bu terminlər dilimizdə asan tələffüz olunur və nəzərdə tutulan məfhumu dəqiq ifadə edir [4, s.108].

"Azərbaycan incəsənəti" monoqrafiyasında da *miniatürçü* əvəzinə *miniatürist*, *ornamentçi* əvəzinə *ornamentalist* kimi işlədilən bir çox başqa termin əvəzlənmələrini də müşahidə edirik [3, s.130].

Professor A.Qurbanov qeyd edirdi ki, Azərbaycan dili terminologiyasını daha da zənginləşdirmək üçün, ilk növbədə, bütün sahələri əhatə edəcək mükəmməl termin lüğətləri hazırlanmalıdır. Bu lüğətlər terminlərə xas olmayan, çoxmənalılıq,

sinonimlik, çoxkomponentlik, qeyri-dəqiqlik, sistemsizlik, dəyişkənlik, anlaşılmazlıq, alınma terminlərə aludəçilik və s. xüsusiyyətlərdən uzaq olmalıdır [6, s.4].

Beləliklə, deyə bilərik ki, digər sahə terminlərində olduğu kimi, təsviri sənət terminlərinin də formalaşmasına və dilimizin lüğət tərkibinin zənginləşməsinə son dövrlərdə respublikamızda gedən sosiolinqvistik proseslər, digər xalqlarla qurulan mədəni əlaqələr, incəsənətə aid elmi-kütləvi ədəbiyyatlar, sosial şəbəkələr və KİV əlverişli təsir göstərə bilmişdir. Bu vasitələr dilimizin təsviri sənət terminologiyasını zənginləşdirməklə yanaşı, dilimizə başqa dillərdən yeni təsviri sənət terminləri gətirmiş və ayrı-ayrı leksik vahidlərin terminləşməsi prosesini sürətləndirmişdir.

## Nəticə / Conclusion

Müxtəlif sistemli dillərdən təsviri sənət terminlərinin alınması dilimizdə mühüm rola malikdir. Xüsusilə, son zamanlar elmin, mədəniyyətin, incəsənətin inkişafı ilə əlaqədar yaranmış yeni alınma təsviri sənət terminləri müxtəlif mətbu orqanlarında, informasiya vasitələrində səsləndirilir, sabitləşir, daha sonra isə kütləviləşir. Bu terminlər lüğətlərdə dağınıq haldadır. Odur ki, təsviri sənət terminlərinin xüsusi lüğətlərdə toplanmasına böyük ehtiyac var.

Məlum olmuşdur ki, alınma təsviri sənət terminlərinin müəyyən hissəsi ilkin orta əsrlərdən başlayaraq ərəb və fars, XIX əsrin ortalarından etibarən isə rus dili və bu dil vasitəsilə Avropa dillərindən alınmışdır. Bu terminlərin bir qismi mənbə dildə olduğu kimi, bir qismi isə dilimizin fonetik, leksik və qrammatik quruluşuna uyğunlaşdırılaraq işləklik statusu qazanmışdır.

Alınma təsviri sənət terminləri və terminoloji birləşmələr respublikamızda təsviri sənətin inkişaf dinamikasını əks etdirir və onun dünya incəsənətinin bir tərkib hissəsi olduğunu aydınlaşdırır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Aslanov V.İ. (1988). Termin yaradıcılığında unifikasiya vacib şərtdir. Bakı, APİ-nin nəşri.
2. Atayev S. (2004). İbtidai siniflərdə təsviri incəsənətin tədrisi metodikası. Bakı, 207 s.
3. Azərbaycan incəsənəti. (1992). Bakı, İşıq. 344 s.
4. Qasımov M. (1973). Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Elm. 186 s.
5. Quliyeva S. (2003). Azərbaycan dilində ədəbiyyatşünaslıq terminləri. Bakı, Nurlan. 184 s.
6. Qurbanov A. (1988). Azərbaycan terminologiyasının müasir vəziyyəti və qarşıda duran vəzifələr. Bakı, APİ-nin nəşri.
7. Müasir Azərbaycan memarlığı və incəsənəti. (1992). Bakı, Elm. 224 s.
8. Nəcəfov M. (1977). Rəssam və zaman. Bakı, Gənclik. 174 s.
9. Nəcəfov M. (1980). Tahir Salahov. Bakı, Yazıçı. 62 s.
10. Баскаков Н.А. (1961). Современное состояние терминологии в языках народов СССР – Вопросы терминологии. Москва, Изд.АН СССР. 229 с.
11. Оруджев А. (1983). О состоянии дельнейшем усовершенствовании терминологии на Азербайджанском языке. Проблема разработки и упорядочения терминологии в академиях наук союзных республик. Москва, Наука. 336 с.
12. az. wikipedia. org/wiki/ installyasiya
13. https://azgallery.az/az/news/203
    https://az.wikipedia.org/wiki/Sakit_M%C9%99mm%C9%99dov

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 26-39
doi.org/10.48445/p6914-4105-2325-h

**M E T O D İ K A**

# Yazı müasir təhsildə problem kimi

***Piralı Əliyev***
Pedaqogika üzrə elmlər doktoru, professor. "Pedaqogika və psixologiya" kafedrası,
Bakı Slavyan Universiteti. Azərbaycan.
E-mail: piralibexbud56@mail.ru
https://orcid.org/0000-0003-2420-1125

**XÜLASƏ**
Ümumtəhsil müəssisələri təhsilalanların yazı bacarıqlarının formalaşdırılmasını aktual məsələ olaraq həmişə diqqət mərkəzində saxlayır. Yazılı və şifahi nitqin vəhdətdə aparılmasına baxmayaraq, məktəblilərin bu sahədə bacarıqları günü-gündən zəifləyir. Müəllimlər şagirdlərin yazı bacarıqlarının bu cür geriləməsini bir neçə səbəblə əlaqələndirirlər. Xüsusilə kompüter və mobil telefonlardan geniş istifadə buna aid edilən əsas səbəblərdəndir. Bu sahədə yaranmış nöqsanları aradan qaldırmaq və Vətən müharibəsində qazanılmış qələbəni yazılı şəkildə tarixiləşdirmək məqsədilə Azərbaycan Respublikası Təhsil nazirinin 2021-ci il 24 sentyabr tarixli F-455 nömrəli əmrinə əsasən ümumtəhsil məktəblərinin şagirdləri arasında "Zəfər yolu" inşa müsabiqəsinin keçirilməsi nəzərdə tutuldu. Məqalədə müsabiqənin keçirilmə məqsədindən söz açılmış, inşaların qiymətləndirilmə meyarları və nəticələr təqdim edilmiş, həmçinin məktəbli yazısının əhəmiyyəti, ədəbiyyat dərslərində yazıya verilən tələblər və şagirdlərin yazı bacarıqlarının formalaşdırılması yollarından bəhs olunmuşdur.

**AÇAR SÖZLƏR**
yazı işi, yazılı və şifahi nitq, yazı bacarıqları, zəfər, yazının strukturu

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 24.10.2022
qəbul edilib: 09.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 26-39
doi.org/10.48445/p6914-4105-2325-h

**M E T H O D S**

# Writing as a problem in modern education

***Pirali Aliyev***
Doctor of Sciences in Pedagogy, professor. Department of Economics and Management of Education. Institute of Education of the Republic of Azerbaijan. Azerbaijan.
E-mail: piralibexbud56@mail.ru
https://orcid.org/0000-0003-2420-1125

**ABSTRACT**
General education institutions always focus on the formation of students' writing skills as an actual issue. From the first to the eleventh grade, students are writing different writing samples in one form or another every day. Despite being carried out in the unity of written and oral speech, schoolchildren's skills in this field are weakening daily. Teachers attribute declining students writing skills due to several reasons. Especially the widespread use of computers and mobile phones is one of the main reasons attributed to this. According to the order of the Minister of Education of the Republic of Azerbaijan No. F-455 dated September 24, 2021, in order to eliminate the shortcomings in this field and to chronicle the victory won in the Civil War in writing, it was planned to hold a "The way of victory" essay competition among students of secondary schools. In the article the purpose of the competition was discussed, the evaluation criteria and results of the essays were presented, as well as the importance of student writing, requirements for writing in literature classes, and ways of forming students' writing skills.

**KEYWORDS**
writing work, written and oral speech, writing skills, victory, structure of writing

**ARTICLE HISTORY**
Received: 24.10.2022
Accepted: 09.12.2022

## Giriş / Introduction

Təhsilalanların yazı bacarıqlarının formalaşdırılması aktual məsələ olaraq hər zaman ümumtəhsil müəssisələri tərəfindən diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikası Təhsil nazirinin 2021-ci il 24 sentyabr tarixli F-455 nömrəli əmrinə əsasən ümumtəhsil məktəblərinin şagirdləri arasında "Zəfər yolu" inşa müsabiqəsinin keçirilməsinin nəzərdə tutulması da bu istiqamətdə atılan mühüm addımdır.

Müsabiqənin təşkil edilməsində əsas məqsəd Azərbaycan torpaqlarında – qoşunların təmas xəttində 2020-ci ilin sentyabrında ölkəmizə qarşı növbəti təxribata və hərbi təcavüzə cavab olaraq, uzun illər işğal altında qalmış torpaqlarımızın azad olunması, Ermənistanın sülhə məcbur edilməsi, köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün səfərbər və həmrəy olaraq Vətən müharibəsində öz tarixi qələbəsini qazanması ilə bağlı idi. Ölkənin işğal altında olan ərazilərinin azad edilməsində ordumuzun və dövlətimizin əldə etdiyi nailiyyətlərin təşviq edilməsi, Azərbaycan ordusunun tarixi qələbəsi barədə şagirdlərin məlumatlılıq səviyyəsinin artırılması, habelə, "Zəfər Günü"nün ölkənin təhsil müəssisələrində yüksək səviyyədə qeyd olunmasını təmin etmək məqsədilə: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev Fondu və Qarabağ Dirçəliş Fondunun birgə təşkilatçılığı ilə ümumi təhsil müəssisələrinin VIII-XI sinif şagirdləri arasında "Zəfər yolu" başlığı altında inşa müsabiqəsinin keçirilməsi; müsabiqənin rayon (şəhər) və ölkə üzrə olmaqla 2 mərhələdə təşkil olunması üçün əmr verildi. Rayon (şəhər) mərhələsinin yerlərdə, ölkə mərhələsinin isə Bakı şəhərində keçirilməsi nəzərdə tutuldu.

Yerli təhsil idarəetmə orqanları inşa müsabiqəsinin mütəşəkkil və yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə müvafiq işçi qrupu yaradaraq müsabiqənin rayon (şəhər) mərhələsinin qaliblərinin inşa yazılarını və onlar haqqında məlumatları (adı, soyadı, atasının adı, oxuduğu məktəb, sinif) Təhsil Nazirliyinə göndərdi.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24.09.2021-ci il tarixli F-455 nömrəli əmrinə əlavə olaraq "Zəfər yolu" başlığı altında keçirilən müsabiqəyə aşağıdakı mövzular təklif edildi: "Qarabağ Azərbaycandır!", "Əziz Şuşa, sən azadsan!", "Ordumuzun Zəfər yürüşü", "Dəmir yumruğ"un gücü", "Müzəffər ordunun komandanı", "Azərbaycan ordusunun dünya hərb tarixində açdığı yeni səhifə", "Zəfərə aparan 44 gün", "Vətən müharibəsi beynəlxalq aləmdə", " Şəhidlər ölməz, Vətən bölünməz", "Dastana dönən qəhrəmanlar", "Qızıl hərflərlə yazılan tarix – 8 Noyabr", "Xarı bülbülün ətri gəlir", "Havalanır Xanın səsi, Qarabağın şikəstəsi",

"Cıdır düzündə qalanan tonqallar", "Mədəniyyətimizin incisi Şuşa", "Azad Vətəndə tikib-qurmaq vaxtıdır". Yazının qiymətləndirilməsində: məzmunun mövzuya uyğunluğu, ideyanın dəstəklənməsi; Azərbaycan ədəbi dilinin orfoqrafik və durğu işarələrindən düzgün istifadə qaydalarına riayət edilməsi; yazının strukturu; funksional üslublardan düzgün istifadə, lüğət tərkibi, cümlələr arasında rabitəlilik və s. məsələlər nəzərə alındı.

**Məktəbli yazısının əhəmiyyəti**

Ümumtəhsil məktəb şagirdlərinin yazı bacarıqlarının formalaşdırılmasının əhəmiyyətindən bəhs edən prof. Ə.Qarabağlı qeyd edir: "Ədəbi yazıların köməyi ilə – sadə, bəsit, mürəkkəb sərbəst yazılar və müstəqil yaradıcı yazılar şagirdlərdə nəinki bu və ya digər mövzunu sərbəst olaraq ifadə etmək vərdişləri yaradır, habelə şagirdi bədii yaradıcılıq yoluna da sala bilər" [5, s.373], yaxud "Məktəbin qarşısında duran ən mühüm məsələ şagirdləri inşa yazmağa, yəni yazılı surətdə sərbəst fikir söyləməyə alışdırmaqdır" [5, s.278].

Bu məsələyə aydınlıq gətirən prof. C.Əhmədov yazır: "Təlim prosesində inşa yazıların böyük təcrübi əhəmiyyəti vardır. Bu yazılar şagirdlərin ana dili və ədəbiyyatdan qazandıqları bilik və bacarıqları müəyyən edir. Şagirdlərin qrammatik və ədəbi yazılarda qazandıqları bilik və vərdişlər inşa yazılar zamanı tamamlanır, möhkəmlənir" [2, s.407]. Öz bilik və bacarıqları sayəsində fikir və həyati müşahidələrini müstəqil yazan, orijinallığa meyil göstərən, bədii təsvir və ifadə vasitələrindən istifadə yolu ilə daha təsirli yazan şagirdlərin inşası isə bir-birindən seçilir və hər biri özünəməxsus keyfiyyət kəsb edir..." [7, s.193].

Professor A.C.Hacıyev yazının şagirdin inkişafında oynadığı rolu belə dəyərləndirir: "Yazı işləri şagirdlərin bacarıqlarının inkişafında, nitq vərdişlərinin təkmilləşdirilməsində aldığı biliklərin möhkəmləndirilməsində, ümumiyyətlə, onların mədəni səviyyəsinin yüksəldilməsində böyük rol oynayır. Ədəbi yazılar şagirdlərin təfəkküründü inkişaf etdirir, emosional cəhətdən zənginləşdirir, onu müstəqilliyə alışdırır. Savadlı, rəvan, səlis yazmaq və danışmaq şəxsin mənəvi zənginliyini, bilik dairəsinin genişliyini göstərir" [3, s.230].

Dosent B.A.Həsənli Mətni, üslub, orfoqrafik, qrammatik baxımdan düzgün çatdırmaq bacarığının formalaşdırılmasını ədəbi yazıların qarşısında duran məqsəd olaraq qeyd edir [4, s.234-235].

Dosent R.M.Məmmədov yazır: "İnşa vasitəsilə şagirdlərin bədii təfəkküründü inkişaf etdirmək üçün təfəkkür yaradıcılığının üç əsas mərhələsini müəyyənləşdirmək lazımdır: 1) problemi başa düşmək; 2) problemi həll etmək; 3) hökmün doğruluğunu təsdiq edən müəyyən nəticəyə gəlmək..." [6, s.157].

Professor Z.Y.Rezin redaktorluğu ilə hazırlanan dərs vəsaitində məktəbli yazı janrlarının az sayda olduğu halda, onların gərəkliliyi əsaslandırılır və inşanın aparılması yolları üzərində dayanılır [18, s.302-328].

Ümumtəhsil məktəb şagirdlərinin yazılı nitqinin inkişafında yaş xüsusiyyətlərinin nəzərə alınması, nitq inkişafı və ədəbi səviyyəsi, məktəblilərin ədəbiyyat fənni üzrə bilik və bacarıqlarını əhatə edən növ və janrlar üzrə məzmunun olması və kommunikativ tapşırıqların müəllimin bələdçiliyi ilə strukturlaşdırılması önə şəkilir [16, s.366].

"Yazı – fərqli bədii, publisistik və elmi üslubun istənilən janrında: ədəbi-tənqidi məqalə, rəy, esse, oçerk, gündəlik, xatirə, səyahət yazıla bilən ədəbi və ya publisistik mövzuda nəsrlə ifadəsidir" [17, s.3-4].

Yazının əhəmiyyəti haqqında Azərbaycan və xarici ölkə alimlərinin tədqiqatları göstərir ki, bu məsələ keçmişdə olduğu kimi bu gün də öz aktuallığını qoruyub saxlayır.

**Ədəbiyyat fənn proqramlarında (kurikulumunda) yazıya verilən tələblər**

Ümumtəhsil məktəblərinin ədəbiyyat proqramlarında şagirdlərin rabitəli nitqinin inkişafına hər zaman xüsusi önəm verilmişdir. Belə ki, inşa yazılarda şagirdlərin həyati təcrübəsi ilə əlaqədar şifahi məlumatı (V sinifdə); təsvir xarakterli yazılı ifadəsi (VI sinifdə); şagirdlərin şəxsi təəssürat və müşahidələri ilə əlaqədar olaraq mövzular üzrə yazılı ifadəsi (VII sinifdə); ədəbi mövzularda, xüsusən qəhrəmanı xarakterizə edən mövzularda inşa yazmaq bacarığı və mövzular üzrə mühakimə xarakterli inşalar yazmağı irəli sürürlər (VIII sinifdə) [1, s.52-55].

Ümumi orta təhsil səviyyəsində (V-IX siniflər) şagirdlərin yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirməsi, söz ehtiyatından səmərəli istifadə edərək fikirlərini ardıcıl və məntiqi ifadə etməsi, ümumiləşdirmələr aparması; tam orta təhsil səviyyəsində isə (X-XI siniflər) şagirdlərin ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim etməsi göstərilmişdir.

Şagirdin müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini ardıcıl (V sinif) şərh etməsi, faktlarla əsaslandırması, başlıca fikri anladığını nümayiş etdirməsi (VI sinif); əsas problemi müəyyənləşdirməsi, əsaslandırılmış münasibət bildirməsi (VII sinif); müxtəlif səciyyəli yazılarda şəxsi təcrübə, təəssüratlara və əlavə məlumatlara əsaslanmaqla mövzuya və problemə münasibət bildirməsi (VIII sinif); müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktə fərqli mənbələrdən topladığı məlumatlara əsaslanmaqla münasibət bildirməsi; şəxsi müşahidə və əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirməsi (IX sinif); ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə rəy, məruzə

hazırlaması (X sinif); müxtəlif ədəbi mövzularda referatlar, təqdimatlar hazırlaması, təsviri, mühakimə xarakterli mətnlər (inşa, esse, hekayə) yazması (XI sinif) qarşıya qoyulmuş əsas tələblərdəndir.

**Şagirdlərin yazı bacarıqlarının formalaşdırılması yolları**

Yazı – bəşəriyyətin min illər boyu istifadə etdiyi ən vacib və təsirli ünsiyyət vasitələrindən biridir. İnsanın özünü məqsədə uyğun ifadə etməsi, ünsiyyət qurması üçün təsirli bir üsuldur. Yazı yaranışı ilə bəşəriyyətə yeni bir ünsiyyət vasitəsi gətirmiş, onun sayəsində insanlar sivilizasiyaya mühüm töhfələr vermişdir. Bilik və mədəniyyətin ötürülməsinin asan, daha təsirli və qalıcı olması bu töhfələrdən ən əhəmiyyətlisidir.

Ö.Dəmirəl göstərir ki, duyğuların, düşüncələrin, xəyal və təəssüratların, bilinən, görünən, oxunan və təsəvvür edilənlərin kağız (yaxud, elektron vasitələr) üzərində dil vasitəsilə təsirli və gözəl əks olunmasına *yazı* deyilir. Hiss, düşüncə və faktları başqalarına yazılı şəkildə ifadə etmək "*yazılı ifadə*" adlanır. Yazı bacarığı yazmaqla öyrənilir. Yazı təhsili metodunun əsas prinsipi "çap etmək"dir [Demirel Ö. Ankara, 1999].

E.Özdəmir qeyd edir: "Yazılı ifadə şəxsi, peşə və ictimai aspektlər baxımından müəyyən bir məqsəd üçün zəruri olan ifadə formasıdır" [15, s.7].

Şagirdlərin fikirlərinin yazılı ifadəsi, şifahi nitqdən sonra gündəlik həyatda ən çox istifadə olunan bacarıq sahəsidir. Yazılı ifadənin əsas məqsədi oxucuya mövzu ilə bağlı müəyyən xəbəri (mesajı) çatdırmaq, ona məlumat verməklə əks əlaqə yaratmaqdır.

Yazı insanların özünüifadə vasitələrindən biridir. Daxili aləmi təlatümlə dolu olan insan dediklərini və ya deyə bilmədiklərini, hiss və fikirlərini ətrafı ilə bölüşmək istəyərkən yazmağa meyil edir. "Deyilənlər unudulur, yazı qalır" – fikri yazının vacibliyini düzgün şəkildə izah edir. İnsanlar min illik təcrübələrini, hiss və düşüncələrini yazı vasitəsilə ifadə edə bilmişlər [Baş B. Ankara, 2006].

Hiss və düşüncələri, fikir və xəyalları şifahi şəkildə ifadə etmək kifayət deyil. Dilin inkişafında yazı vacib amil hesab edilir. O, yalnız gündəlik həyatda deyil, həm də peşəkar biliklərin başqalarına ötürülməsi baxımından da zəruri əhəmiyyətə malikdir. Təkcə ədəbiyyatla məşğul olan insanlar deyil, başqa sahələrdə çalışanlar da yazı bacarıqlarına yiyələnməlidirlər. Alim öz ideya və kəşflərini məhz yazı vasitəsilə müəyyən edərək başqalarına ötürür. Bu baxımdan yazı hissləri, düşüncə və xəyalları müəyyən zaman və məkanla məhdudlaşmaqdan xilas edir.

Yazı aktı zamanı emosiyaların boğulması və idarə olunması vəziyyəti aradan qalxır. Yazmaq insanın öz duyğuları ilə baş-başa qalması üçün çox rahat və faydalı

bir üsuldur: müəyyən mənada insana müalicəvi təsir göstərir, ona psixoloji rahatlıq verir. Bu vəziyyəti insanın özü ilə tanışlığı da adlandırmaq olar.

B.Göğüş fransız yazıçısı Jean Ajalbertdən "Yazmaq öyrənilə bilən bir sənətdir; bu baxımdan müəllimi əvəz edə biləcək istedadlı yoxdur" sitatını nümunə gətirərək yazı ilə nitqi aşağıdakı kimi müqayisə edir:

1. Yazılı nitqdə səs, vurğu, üz, əl-qol və bədən hərəkətlərini ifadə etmək vasitələri yoxdur.
2. Natiq yazıçı kimi düşünür, nitqinə müqəddimə axtarır, fikirlərini nizamla düzür, sözlərini seçir, lakin yazıda bunlar daha vacib olur, çünki yazı qalıcıdır.
3. Şifahi nitqdə bəzi səhvlər nəzərə çarpmır; dinləyici danışanın məqsədini qavramağa çalışdığı üçün sözlərə fikir vermir. Yazı oxucunun gözləri qarşısında olur; orada yerində olmayan söz və cümlələr dərhal diqqəti cəlb edir.
4. Yazı danışıqdan daha çox vaxt tələb edir.
5. Yazıda başlıq, giriş, fəsil, paraqraf və s. olur və məzmun buna uyğun qurulur [10, s.7-11].

Yazılı ifadə, yaxın və uzaq məkanda olanların hər cür hiss və düşüncələrini insanlara səmərəli şəkildə çatdırmağa imkan verir. Şifahi nitqdə bəzi qeyri-dəqiqliklərə göz yummaq olur, lakin yazıdakı səhvlər oxucunun gözləri qarşısında olduğundan diqqət cəlb edir. Bundan əlavə, yazıda səhvləri düzəltmək üçün şifahi nitqdən daha çox vaxt olur. Yazı insanları araşdırma aparmağa, nöqsan və səhvləri düzəltməyə yönəltdiyi üçün bilik əldə etməyə, zehni cəhətdən yetkinləşməyə, ardıcıl düşünmə vərdişi qazanmağa imkan verir [14, s.39-40].

Yazı düşüncənin məhsulu olduğu üçün daha diqqətli və nizamlı bir ifadə üsuludur. Belə ki, o, müəllif tərəfindən yoxlanılaraq korrektə olunduğu üçün mümkün qədər qrammatik səhvlərdən azad olur. Digər bacarıq sahələrində olduğu kimi, bu sahədə də söz və anlayışların birliyi böyük əhəmiyyət kəsb edir. Çünki hər şeydən əvvəl düşünməyə imkan verən xammal – sözdür. İnsan sözlə düşünür, duyğu və düşüncələrini bu sözləri mənalı və ardıcıllıqla əlaqələndirərək həm şifahi, həm də yazılı şəkildə ifadə edir. Fikrin inkişafı baxımından da yazı fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Ən təsirli düşünmə üsullarından biri yazmaqla düşünməkdir. Onun vasitəsilə düşüncənin dərinliyi və effektivliyi təmin edilir.

Ədəbiyyatın tədrisi prosesində şagirdlərin yazı bacarıqlarının inkişafı barədə deyə bilərik ki, tədqiqatçılar bu məsələni müxtəlif cəhətdən izah edirlər. Mübahisəli görünsə də, son vaxtlar "ədəbiyyat" sözünün yazılı fəaliyyətdən meydana gəlməsi göstərilir. Bununla belə, şübhəsiz ki, ədəbiyyat təkcə yazı fəaliyyəti ilə yaranan əsərlər toplusu deyil, həm də şifahi məhsulları özündə birləşdirən bir qoldur. Yazı

yolu ilə yaradılmış məhsul dil, üslub xüsusiyyətləri baxımından orijinallığa və təsirliliyə nail olarsa, ədəbiyyat sənətinə aid mətn kimi qəbul ediləcək. B.Moran bu mövzuda fikirlərini belə ifadə edir: "Əlyazmada təqdim olunan məhsulun ədəbi olub-olmaması müzakirə olunur. Halbuki ədəbiyyat yazı təhsili ilə yaradılır. Yazanda insan öz işinə səmimiyyət, orijinallıq, təxəyyül qatır. Eyni zamanda yazıçı hisslərinin və ya özünün mənəvi dəyərini ortaya qoyur. Yazıçı mütləq hansısa şəkildə özünü əsərində əks etdirir" [13, s.30].

Yazı vasitəsilə fikir dolğunlaşır, inkişaf edir və hər şeydən əvvəl orijinallığı təmin olunur, duyğuların ifadəsinə daha təsirli yol tapılır, bununla da ədəbiyyata gedən istiqamət müəyyənləşir. Ədəbiyyat üçün çox mühüm məfhum olan insanın özünəməxsus ifadə tərzi (üslubu) yazıçılarda daha qabarıq şəkildə özünü göstərir və ancaq yazı ilə qazanılan bir xüsusiyyət kimi diqqət çəkir. Nə olursa olsun, hər yazıda əsas məqsəd ədəbi əsər yaratmaq olmasa da, bunun üçün yazı məharətindən səmərəli istifadə etmək çox vacibdir. Yazı məharəti insana üslub xüsusiyyəti bəxş etməklə yanaşı, dilin incəliklərini öyrənməkdə, təsirli ifadə bacarığı yaratmaqda da mühüm rol oynayır. Bu, təbii ki, ədəbiyyatın əsas məqsədlərindən biridir.

Yazı sirlərin həlli, həyatın mahiyyətini qavramaq üçün çıxış yolu, dünyada nəyisə dəyişmək üsuludur. Yazmaq – həyatı kəşf etmək, başqalarının kainatını tanımağa çalışmaq deməkdir [Gündüz S. İstanbul, 2003].

Daxili aləmimizdə bəzən yaranan boşluğu doldurmaq, özümüzlə söhbət edərək tənhalığımızı bölüşmək, duman və buludların əhatəsində olan emosional dünyamızı gündəlik günəş kölgəsinə çevirmək üçün yazdıqlarımız bir həqiqətdir.

Yazının psixoloji, sosial, pedaqoji və dil inkişafı baxımından bir çox üstünlüklərini inkar etmək olmaz. Bilik əldə etməyin yollarından biri olan bu bacarıq sayəsində insan özünü rahat şəkildə ifadə edərək psixoloji problemlərindən qurtula və rahatlıq tapa bilər. Yazdıqca yetkinləşən ideyalar sayəsində həm də mühüm ictimai qazanc əldə etmək olar.

*Ədəbiyyat fənninə aid digər bacarıqlar kimi, yazı bacarığı da ancaq təcrübə yolu ilə əldə oluna bilər.*

Ədəbiyyatdan danışarkən, oxuyarkən hiss edə bilmədiyimiz məna incəlikləri, ifadə xətaları və üslub səhvləri yazıda nəzərə çarpır.

Materialı – dil, mövzusu – insan olan ədəbiyyat cəmiyyətin hər bir üzvünün sosial varlıq kimi öz hiss və düşüncələrini başqalarına daha təsirli şəkildə ötürməsi

baxımından son dərəcə əhəmiyyətlidir. Ədəbiyyat, digər tərəfdən, duyğu və düşüncənin yetkinləşməsidir.

Ədəbiyyat dedikdə, ağlımıza ən çox ədəbi dildən istifadə etməklə yaradılmış yazılı əsərlər toplusu gəlir. Xalqların tarixində şifahi xalq ədəbiyyatı nümunələri olsa da, onun mədəniyyətinin və tarixinin davamlılığına nümunə olan, nəsillərə böyük təsir göstərən məhz yazılı ədəbiyyatdır. Bütün bunlar yazılı ifadə və ya yazı bacarığı ilə ədəbiyyat arasında mühüm əlaqənin mövcud olduğunu göstərir.

İdeyaların, duyğuların, xəyalların müəyyən ardıcıllıqla ifadə naxışlarına çevrilməsi kimi təyin oluna bilən kompozisiya birbaşa nəzərə alınmasa da, yaradıcılıq gücündən istifadə və orijinallığın təmin edilməsi nəticəsində ədəbi yaradıcılığa gedən yolda mühüm addımdır. Yazı, hərəkət gücünə görə bəzi yazarlar tərəfindən bir sənət kimi qələmə verilmiş və "yazı sənəti" termini ilə yazılı ədəbiyyat arasında hər zaman bir əlaqə olduğu izah edilməyə çalışılmışdır.

B.Moran ədəbiyyatda yazı ilə bəstəkarın əsərlərini öyrətmə aktı arasındakı fərqə diqqət çəkir və belə bir müqayisə aparır: "Bəstəkarın əsərlərinin tədrisi ədəbiyyat tədrisi deyil. Kompozisiya tam ədəbiyyat deyil. Ədəbiyyatın tədrisində ədəbi əsərin bədii dəyəri və keyfiyyəti vurğulansa da, əsas diqqət kompozisiyada təfəkkürün, düşüncə həyatının, ifadə qabiliyyətinin inkişafına yönəlib. Bəstəkarın əsərlərinin tədrisində şagirddən tələb olunan şeir, hekayə, roman və ya dram əsəri yazmaq deyil, problem və ya mövzu üzərində düşünüb, düşündüyünü yazmaqdır" [11, s.127].

Hiss və düşüncələri, xəyalları, dizaynları kağız üzərinə köçürmək heç də həmişə ədəbi əsər ərsəyə gətirmək demək olmasa da, ədəbi əsərin yaranmasında bu üsuldan istifadəni inkar etmək olmaz. Odur ki, şagird bədii əsər yaratmağın ən mühüm şərti olan yaradıcılıq xüsusiyyətlərinə malik olsa da, yazı bacarığı sayəsində əldə etməli olduğu dil biliyinə ehtiyac duyacaqdır. Hər ədib yazıçı kimi qəbul edilməsə də, lakin hər bir ədəbiyyatçının təsirli yazılı ifadə bacarığı olmalıdır.

*Ədəbi əsərin materialı emosiya, təxəyyül və estetik həyəcana əsaslanan dildir.*

Bu bir həqiqətdir ki, qıcıqlar vasitəsi ilə özünü zehnində yerləşdirmək gücünə malik olan ədəbiyyat söz ehtiyatına əsaslanır. Ədəbi əsər dilin lüğəti üzərində qurulur. Burada dildə müxtəlif mənalı sözlərdən, atalar sözləri və deyimlərdən, münasibətə bağlı sözlər və stereotiplərdən istifadə etməklə bir tərəfdən dilin inkişafı və zənginləşməsi təmin edilir, digər tərəfdən isə nəsillər arasında mədəni ötürmə, sənət, estetika və zövqün vəhdəti əldə edilir. Dildəki hər bir sözün *mədəni dəyəri var.* Ona görə də bu sözlər, atalar sözləri və deyimlər əsasında həmin xalqın tarixi, sivilizasiyası və mədəniyyəti haqqında məlumat əldə edə bilərik.

Şair və yazıçılar çox vaxt dildəki sözlərə lüğəvi mənaları ilə yanaşı, onlara yeni və fərqli mənalar da aid edirlər. Bununla da dildəki sözlər məna baxımından zənginləşir. Onlar təmsil etdikləri xalqın dilini bir sənətkar kimi işləyib gözəlləşdirirlər. Bir xalqın dilinin zənginliyini müəyyən etmək istəyənlər, şübhəsiz ki, o xalqın ədəbi əsərlərinə nəzər salmalıdırlar. Çünki bir xalqın dilinin işlənib ən mükəmməl şəkildə təmsil olunduğu məhsullar *bədii mətnlərdir.*

Professor M.Kaplan yazır: "Ədəbiyyat dil üzərində qurulur. Şeirdə, hekayədə, romanda və ya dramda bizi həyəcanlandıran o dərin və ülvi hisslər, başımızda dünya yaradan xəyal və təsvirlər varlığını, təsirini sözə borcludur. Musiqidə səs, rəssamlıqda boya, memarlıqda daş hansı rola malikdirsə, söz də ədəbiyyatda həmin funksiyanı yerinə yetirir. Dil insanın və həyatın ən vacib hissəsidir. Sözlə həyat arasında çox incə damarlar və sinir şəbəkələrilə toxunan əlaqələr var. Belə ki, dildə on minlərlə söz, söz birləşmələri və ifadələr var. Onların hər birinin xüsusiyyətləri fərqlidir. Onları yazıçıya heç bir dilçi öyrədə bilməz. Müəllif onları şəxsən yaşayaraq öyrənir. Ədəbiyyatda mövcud olan "şəxsi üslub" da bu təcrübənin nəticəsidir. Seçdiyi söz, qurduğu cümlə ədəbiyyat adamını ya yaşadır, ya da öldürür".

Türk şairi Namiq Kamal məqalələrinin birində "*Ədəbiyyatsız millət lal kimidir"* yazırdı. Doğrudan da, ədəbiyyatı xalqların dili hesab etmək düzgün fikirdir. Fərdlər qarşısındakı insanlara duyğu və düşüncələrini dillə ifadə etdikləri kimi, ədəbiyyatlar da millət və insanlıq müstəvisində eyni vəzifəni yerinə yetirir. Lakin bu fikrə belə bir əlavə də etmək lazımdır: Ədəbiyyat hissləri, düşüncələri məişət dilindən qat-qat güclü, daha gözəl ifadə edir. Hansı dindar öz hisslərini Mövlana və Yunus Əmrədən daha gözəl və təsirli şəkildə ifadə edə bilər?" [12, s.161-162].

Cəmiyyəti təşkil edən fərdlər dünyaya öz dillərinin pəncərəsindən baxırlar. Dilin lüğət tərkibini təşkil edən sözlər xalqın qəlbi və düşüncəsi olaraq təcəssüm edilir. Çünki insan yalnız öz dilində düşünməklə milləti üçün dəyərli fikirlər yarada bilər. Başqa dillərin lüğətindən istifadə edilərək yaranan fikirlər milli fakturaya uyğun gəlməz və onun cəmiyyətə heç bir faydası olmaz.

Ədəbi əsərlərin söz ehtiyatı dilin zənginliyini üzə çıxarmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bir millətin dilinin zənginliyi o millətin qüdrətli bədii əsərlər yaratması ilə müəyyən edilir. Bədii əsərlər müxtəlif sözləri yalnız ədəbi dildən deyil, həmçinin dialektlərdən də götürür. Bu zaman hətta jarqonlardan da istifadə edilir. Ona görə də dil bütün xüsusiyyətlərini və zənginliyini məhz yazı vasitəsilə meydana çıxarır. Elə bu səbəbdəndir ki, ədəbi əsərlər lüğət tərkibinə görə dilin ən zəngin məhsulları hesab edilir.

Tədqiqatçılar araşdırmalarında şagirdlərin yaxşı yazı yazmasına kömək edə biləcək "Yazının öyrədilməsinə təsir edən on bir təsirli element" müəyyən etmişlər. Bunlar aşağıdakılardan ibarətdir [8, s.211-212]:

1. İnşa mövzuları müəyyənləşdirmək, planlaşdırmaq, yazmaq və səhvləri düzəltmək strategiyalarını öyrətməyi nəzərdə tutur;
2. Şagirdlərə mətnləri sistemli və aydın şəkildə ümumiləşdirməyi öyrətməyi nəzərdə tutur;
3. Co-Writing, planlaşdırma, layihə hazırlama, təftiş və redaktəetmə kimi birgə fəaliyyətlərdə şagirdlərin öz kompozisiyalarını qurmaq üçün istifadə nəzərdə tutulur;
4. Xüsusi nəticə yazmaq üçün gözlənilən konkret məqsədləri nəzərdə tutur;
5. Lüğət ehtiyatı və kompüterdən yazı tapşırıqlarında struktur dəstək kimi istifadə edilməsini nəzərdə tutur;
6. Düzgün cümlə qurulma tələbi gözlənilməklə daha mürəkkəb cümlələr yazılmasını nəzərdə tutur;
7. Ön yazı şagirdin öz kompozisiyalarını qurarkən fikir yaratmağa və onu formalaşdırmağa çalışmasıdır;
8. Tədqiqatçılıq fəaliyyəti konkret yazı işində məzmun və təfəkkürün inkişafına kömək etmək məqsədilə qısa və dəqiq məlumat vermək üçün əsas yaradır;
9. Yazı metodu yazının imkanlarını genişləndirmək, fərdi öyrənmə və yazının transformasiyasını vurğulayan iş mühitində bəzi strukturlaşdırılmış yazı fəaliyyətlərini birlikdə nəzərdən keçirməkdir;
10. Nümunəvi iş şagirdlərə maraqlı kompozisiyanın daha fərqli nümunələrini oxumaq, təhlil etmək və işləmək imkanları yaratmaqdır;
11. Məzmunu öyrənmək üçün yazmaq materialların məzmununu öyrənmək üçün bir vasitə kimi istifadə etməkdir.

## Nəticə / Conclusion

Ümumtəhsil məktəblərində şagirdlərin yazı bacarıqlarının formalaşması prosesini özündə əks etdirən bu metodika bir neçə mərhələdən ibarət olub, sonda yazının qiymətləndirilməsi ilə nəticələnir. Qiymətləndirmə isə şagirdin oxuduğunu anlaması, onun tərbiyəvi cəhətini, ideyasını dərk etməsi deməkdir. Lakin bu dərketmənin özü də nisbidir.

"Zəfər yolu" müsabiqəsində şagirdlərin inşalarının qiymətləndirilməsində aşağıdakı meyarlar nəzərə alınmışdır: məzmunun mövzuya uyğunluğu, ideyanın dəstəklənməsi; Azərbaycan ədəbi dilinin orfoqrafik qaydalarına riayət edilməsi; yazının strukturu; funksional üslublardan düzgün istifadə, lüğət tərkibi, cümlələr arasında rabitəlilik, yaxud mövzunun mahiyyət etibarı ilə əhatə olunması; inşa yazı üçün maraqlı formanın seçilməsi; mövzu ilə bağlı müstəqil fikir və mülahizələrin əks olunması; mövzuya yaradıcı yanaşma, habelə təhlil, müqayisə, ümumiləşdirmə və nəticəçıxarma bacarıqlarının nümayiş etdirilməsi; fikirlərin əsaslandırılmış, aydın, ardıcıl və lakonik ifadə olunması; yazıda bədiiliyin təmin edilməsi.

Nəticəyönlü yazıda şagirdin yazı bacarıqları bir-biri ilə sıx bağlı olur. Burada əsas məqsəd şagirdin mətn yaratması və uyğun mövzu seçimi əsas sayılır; şagird inşa yazmaq üçün təklif olunan bir neçə mövzudan yalnız birini seçir; şagirdin mətn tərtib etməsi üçün lazımi bacarıqlara malik olması təmin edilir; yazı bacarıqları ilə koqnitiv bacarıqlar arasındakı əlaqə nəzərə alınmır; şagirdlərin səhvlərindən asılı olmayaraq fikirlərini sərbəst ifadə etmələri vacib amil hesab olunur. Qiymətləndirmə prosesində ən mühüm məsələ şagirdlərin mövzunu yaşayaraq qələmə almasıdır. Müsabiqənin nəticələri 100 ballıq şkala ilə ölçüldü. Qiymətləndirmə zamanı suallar 4 müxtəlif səviyyədə tərtib edilərək "2", "3", "4" və "5" olaraq müəyyənləşdirildi. Belə ki, 30 baladək "2", 30 baldan 60-dək "3", 60 baldan 80-dək "4", 80 baldan 100-dək "5" qiymət verildi. Rayon (şəhər) turu iştirakçılarının ümumi sayı 3556 nəfər olmuş, bunlardan 106 şagirdin işi respublika turunda iştirak etmişdir.

**Cədvəl. Nəticələr (%-lə)**

| Sinif | İştirakçı Sayı | Qeyri-kafi | Kafi | Yaxşı | Əla | Müvəffəqiyyət | Keyfiyyət |
|---|---|---|---|---|---|---|---|
| VIII | 23 | 4,37 | 21,73 | 56,52 | 17,39 | 95,64 | 73,91 |
| IX | 23 | 0,00 | 30,43 | 52,17 | 17,40 | 100 | 69,57 |
| X | 35 | 0,00 | 20,00 | 77,15 | 2,85 | 100 | 80,00 |
| XI | 25 | 0,00 | 24,00 | 64,00 | 12,00 | 100 | 76,00 |
| **Ümumi** | **106** | **0,95** | **23,58** | **64,15** | **11,32** | **99,05** | **75,47** |

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Azərbaycan dili və ədəbiyyat proqramı. (1961, 1968). Bakı, Azərtədrisnəşr.
2. Əhmədov C.M. (1991). Ədəbiyyatın tədrisi metodikası (Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün dərslik). Bakı, Bakı Universitetinin nəşriyyatı.
3. Hacıyev A.C. (2003). Azərbaycan ədəbiyyatının tədrisi metodikası (Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün vəsait). Bakı, Təhsil.
4. Həsənli B.A. (2011). Ədəbiyyatın tədrisi metodikası (müzakirə mətnləri). Pedaqoji ali məktəblərin filologiya fakültələri üçün kredit təhsil sistemi üzrə dərs vəsaiti. Bakı, "Müəllim" nəşriyyatı.
5. Qarabağlı Ə.M. (1968). Azərbaycan ədəbiyyatının tədrisi metodikası (Ali məktəblər üçün dərslik). Bakı, Maarif.
6. Məmmədov R.M. (1975). Ədəbiyyat təlimində şagirdlərin bədii təfəkkürünün inkişaf etdirmək yolları. Bakı, Maarif.
7. Mikayılov Ş., Babayev A., Aslanov M., Mustafayev R. (1976). Orta məktəbdə ədəbiyyat tədrisi, II hissə. Bakı, Maarif.
8. Baş B. (2006). 1985-2005 yılları arasında çocuk edebiyatı sahasında yazılmış tahkiyeli metinlerin söz varlığı üzerine bir araştırma. Gazi Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Ankara.

9. Demirel Ö. (1999). Türkçe programı ve öğretimi. Ankara, Kardeş Yayınları.
10. Göğuş B. (1990). Liselerimizde türk dili ve edebiyatı derslerinin amaçları. Ankara Üniversitesi, TÖMER Yay.
11. Gündüz S. (2003). Öykü ve roman yazma sanatı. İstanbul, Toroslu.
12. Kaplan M. (1975). Kültür ve dil. İstanbul, Dergah Yayınları.
13. Moran B. (1994). Edebiyat kuralları ve eleştiri. İstanbul, Cem Yayınları.
14. Özbay M. (2000). İlköğretim okulu öğrencilerinin yazılı anlatım becerileri (Alan Araştırması). Ankara, Bizim Büro Basımevi.
15. Özdemir E. (1987). İlkokul öğretmenleri için türkçe öğretim kılavuzu. İstanbul, İnkılap Kitabevi.
16. Богданова О.Ю., Леонов С.А., Ермов В.Ф. (2018). Теория и методика обучения литературе. Москва, Издательский центр «Академия».
17. Брандесов Р.Ф., Звере Т.В., Качурин М.Г. и др. (1985). Методика преподавании литературы: учеб. для студентов пед.ин-тов по спец. № 2101; Под ред. З.Я. Рез. 2-е изд.дораб., М., Просвещение.
18. Калганова Т.А. (2017). Сочинение различных жанров в старших. М., Просвещение.
19. https://edu.gov.az/az/esas-senedler/umumi-tehsil-muessiselerinin-sagirdleri-arasinda-zefer-yolu-insa-musabiqesinin-kecirilmesi-haqqinda-azerbaycan-respublikasi-tehsil-nazirinin-emri

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 40-50
doi.org/10.48445/y4280-3124-1775-b

**M E T O D İ K A**

# Orta məktəbdə Molla Pənah Vaqif irsinin tədrisində şəxsiyyətyönümlülük

***Fəxrəddin Yusifov***
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent. ADPU, "Ədəbiyyatın tədrisi texnologiyası" kafedrası. Azərbaycan. E-mail: yusifovf56@bk.ru
https://orcid.org/0000-0002-8418-1931

**XÜLASƏ**
Gənclərin həyata hazırlanmasında, onların təfəkkürü, mənəvi aləmi və dünyagörüşünün inkişafında, əqidəli bir vətəndaş, şəxsiyyət kimi yetişməsində Molla Pənah Vaqif irsinin xüsusi yeri vardır. Şairin əsərlərində ifadə olunan fikirlər poetik söz pərdəsinə elə məharətlə bürünür ki, onların açıqlanıb dərk olunması şagird mənəviyyatına, onların bir şəxsiyyət kimi yetişməsinə müsbət təsir göstərir. "Hayıf ki, yoxdur" qoşmasının tədrisi zamanı məqsədin hansı ustalıqla çatdırılması, bu zaman sərgilənən ifadə tərzi diqqətlə müşahidə olunmalı, nəticələr çıxarılmalıdır. Eləcə də "Pəri" qoşması üzərində iş aparılan zaman gözəlin, gözəlliyin təqdimatının orijinallığı, portret cizgilərinin təsviri, tərənnümündəki poetik üsul və vasitələrin müşahidə edilib dərk olunması da şagirdin estetik zövqünün inkişaf etdirilməsinə zəngin material verir. Fəal/interaktiv təlim metodu ilə keçilən dərslərdə bu imkanlardan istifadə nəzərə alınmalıdır.

**AÇAR SÖZLƏR**
Molla Pənah Vaqif, orta məktəb, şəxsiyyətyönümlülük, "Hayıf ki yoxdur", "Pəri"

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 24.10.2022
qəbul edilib: 09.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 40-50
doi.org/10.48445/y4280-3124-1775-b

**M E T H O D S**

# Personality orientation in teaching Molla Panah Vagif heritage in secondary school

***Fakhraddin Yusifov***
Doctor of philosophy in pedagogy, Associate professor. ASPU, department of "Literature Teaching Technology". Azerbaijan. E-mail: yusifovf56@bk.ru
https://orcid.org/0000-0002-8418-1931

**ABSTRACT**
In the preparation of young people for life, in the development of their thinking, inner world, worldview, and their development as conviction citizens and personalities Molla Penah Vagif's legacy have a special place. The ideas expressed in the poet's works are covered with the veil of poetic words so skillfully that their explaining and understanding has a positive effect on the student's morale and their development as a personality. During the teaching of the couplet "Hayıf ki, yokhdur", the skilfully delivery of the goal, the style of expression displayed at this time should be carefully observed, and conclusions should be drawn. As well, when working on the couplet "Peri", observing and understanding the beauty, the presentation of originality of the beauty, the description of the portrait lines, and the poetic methods and tools in the chanting also provide rich material for the development of the student's aesthetic taste. The use of these opportunities should be taken into account in classes held with the active/interactive learning method.

**KEYWORDS**
Molla Panah Vagif, secondary school, personality orientation, "Hayif ki yokhdur ", "Peri"

**ARTICLE HISTORY**
Received: 24.10.2022
Accepted: 09.12.2022

## Giriş / Introduction

Hazırda ümumtəhsil məktəblərində qarşıya qoyulan ümumi vəzifələrdən biri də şagirdyönümlülük, gənclərin bir şəxsiyyət kimi yetişdirilməsidir. Digər fənlər kimi bu sahədə ədəbiyyat fənninin də üzərinə böyük məsuliyyət düşür. Gənclərin həyata hazırlanmasında, onların təfəkkürünün, mənəvi aləminin və dünyagörüşünün inkişaf etdirilməsində, əqidəli bir vətəndaş, şəxsiyyət kimi yetişməsində klassik bədii irsimizin, xüsusən də M.P.Vaqif irsinin öz dəyəri və yeri vardır [4, s.110]. Şairin əsərlərində ifadə olunan fikirlər poetik söz pərdəsinə elə məharətlə bürünmüşdür ki, onların açıqlanıb dərk olunması şagird mənəviyyatına və onların bir şəxsiyyət kimi yetişməsinə böyük təsir göstərir. Bədii sözün qüdrəti ilə tərənnüm olunan fakt və hadisələr, onların ifadə tərzləri yalnız filoloji biliklərin mənimsənilməsinə deyil, həmçinin gənclərin mənəvi aləminin formalaşmasına, onların bir şəxsiyyət kimi yetişməsinə də böyük təkan verir. Bu imkanlar diqqətlə öyrənilməli və tədris prosesində onların həyata keçirilməsi qayğısına qalınmalıdır.

Çağdaş Vaqif kursumuz ötən əsrin ortalarında çəkilən yoldan − "Hayıf ki, yoxdur" (VIII sinif proqramına daxildir, əlavə oxu materialı kimi "Durnalar" şeiri tövsiyə olunur) və "Pəri" (X sinif proqramına daxildir, əlavə oxu materialı kimi "Bəri bax", "Görmədim", "Bax" əsərləri tövsiyə olunur) qoşmalarının çevrəsindən kənara çıxa bilməsə də, burada şəxsiyyətyönümlülüklə bağlı xeyli faydalı işlər aparmaq mümkündür [3, s.107]. "Hayıf ki, yoxdur" qoşmasında niyyətin hansı ustalıqla çatdırılması, bu zaman sərgilənən ifadə tərzi diqqətlə müşahidə olunmalı, nəticələr çıxarılmalıdır. Məlumdur ki, bu əsərin yazılma tarixi ilə bağlı görkəmli ədəbiyyatşünas Salman Mümtazın xüsusi qeydləri vardır [1, s.39-40]. O, tarixçi Mirzə Yusif Qarabağiyə istinad edərək belə söyləyir ki, İbrahimxəlil xanın Kür qırağı kəndlərində dincəlməsi yerli əhalinin rahatlığına mane olurdu. Buna görə də onlar sarayın baş vəziri Molla Pənah Vaqifə müraciət edib dərdlərini danışırlar. Ondan rica edirlər ki, Qarabağa dönmək üçün bir əlac tapıb İbrahim xanın buradan getməsini tezləşdirsin. Vaqif də bu niyyəti ifadə edəcək bir qoşma yazıb xanəndələrdən birinə verib oxutdurur:

Siyah tel görmədim Kür qırağında,
Məgər heç yaşılbaş olmaz bu yerdə?
Tərlan könlüm yenə uça dağlara,
Havalanıb, hərgiz qalmaz bu yerdə.

Bu diyarda kəlağay yox, kətan yox,
Sinəm yotan müjgan oxun atan yox,
Sərxoş durub, bir nəzakət satan yox,
Heç sövdagər fayda bulmaz bu yerdə.

Bəzək bilməz bu diyarın göyçəyi,
Tanımaz al çarqad zərrin ləçəyi,
Ağ buxaq altından həlqə birçəyi,
Tər məmə üstündən salmaz bu yerdə.

Desələr, Vaqif, nə oldu sənə,
Rəngi ruyin dönüb heyvayə yenə,
Əlin tər məmədən üzən kimsənə,
Saralıban niyə solmaz bu yerdə?

S.Mümtaz qeyd edir ki, xanəndələrin ifa etdiyi bu qoşmadan murad hasil olmadığı üçün Vaqif bədahətən ikinci qoşmanı yazaraq onlara oxutdurur. "Bu mənzumə oxunarkən İbrahim xan Cavanşirə elə təsir edir ki, qoşuna filfövr köçmək əmrini verərək, özü də ordu ilə bərabər Qarabağa əzimət edir" (əzimət edir – geri qayıdır) [1, s.41]. Həmin qoşma "Kür qırağının əcəb seyrəngahı var" misraları ilə başlayan "Hayıf ki, yoxdur" adlanan bədii parça idi. Biz S.Mümtazın qeyd etdiyi "elə təsir edir ki" ifadəsinə xüsusilə diqqət yetirmək istərdik. İbrahim kimi xanları "adi" sözlərlə təsir altına almaq mümkün ola bilməzdi. Deməli, bu şeirdə xüsusi məqamlar var idi ki, onlar da gözəl və təsirli dillə ifadə oluna bilmişdi.

Məlum məsələdir ki, insanlar vəzifə və rütbəsindən asılı olmayaraq öz güzərgahlarını gözəl, gözəgəlimli və ruh oxşayan məkanlarda keçirməyi xoşlayar. İbrahimxəlil xan da bir başçı kimi Kür qırağının ən xoşagəlimli yerində məskən salmağa üstünlük verməli idi. Bu zaman camaatın istəyi və Vaqifin qarşısında duran çətinliyi təsəvvür etməmək mümkün deyildir. Necə etməli ki, həm bu məskən salınmış yerlərin üstünlüyünü təsvir etməklə xanın gözəl zövqə malik olduğunu göstərsin, həm də incə bir ifadə ilə buradakı "zərif" çatışmazlığı qabartsın, xanda geriyə – daha gözələ qayıtmaq həvəsini gücləndirsin? Təbii ki, bu iki incə məsələni bir yerdə ifadə etmək, qabartmaq asan məsələ deyildi. İşin gedişatından məlum olur ki, Vaqif ikinci şeirində bu mətləbi olduqca dolğun şəkildə ifadə etmiş, niyyətini xana çatdıra bilmişdi.

Birinci şeirlə ("Siyah tel görmədim Kür qırağında") ikincisi arasında sıx məna və niyyət bağlılığı vardır. Bəlkə də birincidə niyyət açıq şəkildə ifadə olunduğuna

görə mətləb hasil olmamışdı. Şeirdə istək, detal və təfərrüatlar çılpaq şəkildə təqdim olunmuş, bu isə həsrət motivini kifayət qədər gücləndirə bilməmişdi. Lakin buna baxmayaraq şeir az da olsa öz təsirini göstərmiş, ruha, istirahətə bir şübhə toxumu əkmişdi. Şair ikinci şeirini qələmə almağı, bəlkə də, ağlının ucundan belə keçirməmişdi. İlk şeirində xanın dəstəsinin buralardan geri qayıtmasını məhz aşağıdakı səbəblərə görə zəruri olduğunu ifadə etmək istəmişdi:

Kür qırağında "siyah tel" yox (gözəllər əvəzinə siyah tel!), insanın duyğularına rahatlıq verən "yaşılbaş" da görünmür və könlüm, özü də dəli könlüm yox, tərlan könlüm (şair həsrəti daha qabarıq ifadə etmək üçün bilərəkdən bu ifadəni seçir) uca dağlara havalanır və heç bir vəchlə burada qala bilməz deyir. Burada sözlərdə təsvir olunan real mənzərə sadələşdirilir, "geriyə çağırış", "gerinin həsrəti" obrazlı dillə qabardılır. Digər bəndlərdə də "gerinin həsrəti" "kəlağay yox, kətan yox" deyilməklə gözəllik və gözəllərin olmadığına işarə edilir. Həmçinin burada naz oxlarını ataraq sinəni yotan gözəllərin, sərxoş duruşlu nəzakət satanların da olmadığı vurğulanır. Deməli, belə yerdə hətta bir sövdəgar (tacir, burada insan, gözəllik sərrafı mənasında) da qalmaz, biz niyə qalaq ki?! Üçüncü bənddə isə digər bir çatışmazlıq bilərəkdən qabardılır. Bu diyarın göyçəkləri bəzək bilməz (yəni "geridə" olanlar bunu bilir), həlqə birçəkləri al buxaq altında, tər məmə üstündə olmaz ("geridə" olanlarda bunlar vardır) deyə vurğulanır. Şair sonuncu bənddə rənginin saralmasını həsrətlə, zövqlü istirahətdən məhrum olması ilə şərtləndirir.

Şeirin niyyəti və ona nail olmaq üçün seçilən ifadələr yerində işlədilmişdir. Məzmunundan göründüyü kimi, burada həsrət kifayət qədər açıq və dolğun şəkildə ifadə edilmişdir. Şeirdə bu ərazilərdən getmək istəyi estetik baxımdan düzgün canlandırılmışdır. Amma onun təsir imkanı ikinciyə nisbətən bir qədər zəif olmuşdur. Şair məsələni daha qabarıq formada ifadə etməli, xanı fikrindən daşındırmalı idi. İkinci şeir məhz bu amalla qələmə alındı. Onun ifadə tərzi yeniləndi, həcmi artdı (11 bənd) və nəticədə xanın saraya dönmək istəyi reallaşdı. Hansı söz və ifadələrin, təsvirlərin bu istəyi gerçəkləşdirdiyinə diqqət yetirək (həm də birinci şeirdəki məzmunla bu şeiri müqayisə edək):

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin
Hərdən tamaşası, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən söz:
cığa – başın ön və yan tərəfinə tökülən tellər.
Bəndin şərhi: Kür qırağının gözəl seyrəngahı (gəzinti üçün səfalı, mənzərəli yer) olsa da, amma bu gözəlliyi tamamlayan incə bir detalın − yaşılbaş sonanın olmadığı vurğulanır. Qeyd edilir ki, ucu tər cığalı siyah telli (qara saçlı gözəllər) gözəllər olsa da, onlara hər an tamaşa etmək olmur.

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur!

Bəndin şərhi: Bu bənddə Kür qırağındakı Qıraqbasan qışlağının təbii gözəlliyi təqdir olunsa da, buralarda başqa gözəl obanın olmadığı vurğulanır.

Elə gözəl var bunların içində,
Ələ düşməz hərgiz Çinü-Maçində.
Söyləgən, oynağan, dürüst biçimdə
Bəzəyi, libası, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən sözlər:
hərgiz – əsla;
Çinü-Maçin – Çin və Mancuriya.
Bəndin şərhi: Şeirin 3-cü bəndində müxtəlif əlaməti, zahiri cizgiləri ilə seçilən gözəllər (gözəllik) xatırladılır, mənəvi ehtiyacı ödəyən keyfiyyətlər sadalanır, lakin o keyfiyyətlərin buradakı gözəllərdə olmadığı qeyd olunur (həmin bəndin son iki misrası). Həmçinin buradakı gözəllərin heç bir yerdə tayı-bərabəri olmadığı vurğulansa da, incə bir ifadə ilə (söyləgən, oynağan, dürüst biçimdə bəzəyi, libası olmadığı) onların çatışmazlıqları da diqqətə çatdırılır.

Çoxdur ağ bədənli, büllur buxaqlı,
Lalə zənəxdanlı, qönçə dodaqlı.
Amma şirin dilli, açıq qabaqlı,
Könül aşinası, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən sözlər:
büllur – şəffaf, parlaq daş;
buxaq – insanın çənəsi ilə boğazı arasındakı hissə, çənəaltı;

zənəxdan – çənə və ya yanaqda olan çuxur;
aşina – məlumatlı, vaqif, tanış, xəbərdar, bələd.
Bəndin şərhi: Yuxarıda verilən bənddə də bu yerlərin gözəllərində büllur buxaq, lalə zənəxdan və qönçə dodaqlı gözəllərin çoxluğu ifadə edilir, amma bildirilir ki, onlar şirin dilli, açıq qabaqlı, könül aşinası deyillər (bu bənd dərsliyə daxil edilməmişdir – F.Y.).

Havasından torpağının, yerinin,
Dadızmaz dəhanın, ləbi-şirinin,
Pəri çoxdur, nə fayda heç birinin
Adamlıq ədası, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən sözlər:
dəhan – ağız;
ləb – dodaq;
əda – tərz, naz, qəmzə, iş, əməl (burada naz, qəmzə).
Bəndin şərhi: Bu gözəl məkanda pərilərin çoxluğunu bildirən şair, onların "adamlıq ədaları"nın olmadığından heyifsilənir (bu bənd də dərsliyə daxil edilməmişdir – F.Y.).

Ucu əşrəfili, bulut kimi saç,
Dal gərdəndə hər hörüyü bir qulac,
Kəlağayı əlvan, qəsabə qıyğac,
Altından cunası, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən sözlər:
əşrəfi – qızıl pul, saçın ucunun bəzəyi, keçmişdə zinət əşyası olaraq istifadə edilirdi;
gərdən – boyun;
qulac – qolları açdıqda bir əlin barmaqları ucundan digər əlin barmaqları ucuna qədər olan məsafə. Xalq arasında uzunluq ölçü vahidi kimi işlənir;
qəsabə – keçmiş dövrlərdə qadın paltarının yuxarı hissəsindən aşağıya doğru uzanan bəzəkli yaxalıq;
qıyğac – əyri, çəpəki, yanakı kəsilmiş, yaxud qatlanmış parça;
cuna – tənzif, tül (burada tül mənasında işlənmişdir).
Bəndin şərhi: Bu bənddə gözəlin və gözəlliyin portreti cızılır, onun zərif bir çatışmazlığı təsvir edilir, ucu əşrəfili bulud kimi boynunun arxasına bir qulac tökülən saçlı, əlvan kəlağayı qıyğac qəsabəsi altında da üzü tül ilə örtülən olmadığı vurğulanır.

Zər haşiyə al nimtənə üstündə,
Xallar üz yanında, çənə üstündə,
Buxağın altında, sinə üstündə,
Zülfün burulması, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən sözlər:
zər – qızıl;
haşiyə – paltarın kənarında rəngi, gülü və materialı cəhətdən ondan fərqlənən zolaq (burada qızılı zolaq mənasındadır);
al nimtənə – qolsuz üst qadın geyimi, gödəkçə;
zülf – saç, tel.
Bəndin şərhi: Bu bənddə gözəlliyin başqa bir çatışmazlığı diqqətə çatdırılır. Şair burada qızıl zolaqlı qırmızı gödəkçə geyinən, üzündə, çənəsində xallar, buxağın altı və sinəsinin üstündə buruq saçlı gözəllərin olmadığından heyifsilənir.

Laçın təki başda ala tomağa,
Yaşmağı tutmaya dişə, dodağa,
Cəllad kimi durub qabaq-qabağa
Baxıb can almağı, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən sözlər:
ala – qarışıq rəngli, tükünün bir hissəsi ağ, o biri hissəsi başqa rəngdə olan;
tomağa – kəkil (bəzi quşlarda olur, burada laçın quşunun kəkili anlamındadır);
yaşmaq – örtü, qadınların yad kişilərdən yaşınmaq üçün üzlərinin adətən gözdən aşağı hissəsini örtdükləri örtü.
Bəndin şərhi: Şair buradakı gözəllərin üzlərinə yaşmaq tutmadığı üçün he-yifsilənir (bu bənd də dərsliyə daxil edilməmişdir – F.Y.).

Çünki yorğunuyam mən bu yolların,
Qaydasını billəm hər üsulların,
Gümüş biləklərin, bəyaz qolların,
Sarı kəhrəbası, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən söz:
kəhrəba – müxtəlif xırda bəzək şeyləri qayrılan qatranlı şəffaf, sarı və ya sarı-qonur rəngli bərk maddə.

Bəndin şərhi: Şair bu bənddə bəyaz qollardakı biləklərdə sarı kəhrəbanın olmaması və bu yolların yolçusu olduğu üçün hər üsulların qaydasını bildiyini vurğulayır (bu bənd dərsliyə daxil edilməmişdir – F.Y.).

Ayna tutub hərdəm camal görməsi,
Zülfə, zənəxdana sığal verməsi,
Səhər ala gözün siyah sürməsi,
Əlinin hənası, hayıf ki, yoxdur!

Bəndin şərhi: Növbəti bənddə buradakı gözəllərin güzgülənməməsi, zülfə, zənəxdana sığal verməməsi, ala gözlərə siyah sürmə çəkməməsi, əllərində hənası olmaması kimi keyfiyyətlər qabardılır.

Qoşmanın sonuncu bəndində deyilir:

Vaqif haqdan dilər lütfü kərəmlər,
Belə yerdə qalan, vallah, vərəmlər.
Yenə yada düşdü bizim sənəmlər.
Getməyin binası, hayıf ki, yoxdur!

Bənddə mənası izah edilən sözlər:
haqq – Tanrı, Allah;
lütf – mərhəmət, mehribanlıq, xoş, alicənab münasibət, köməklik;
kərəm – lütf, mərhəmət.
Bəndin şərhi: Vaqif tanrıdan mərhəmət, xoş münasibət arzulayır və bu yerlərdə qalanların vərəmlədiyini bildirir. Bu cür təsvir və tərənnümdən sonra, heç şübhəsiz, daş da olsa yumşalardı.

Qoşmada mənası şagirdlər tərəfindən açıqlanacaq sözləri məqalədə təqdim etdik. Əsərin məzmununun anlaşılması üzrə işdə bu sözlərin mənasının izahlı lüğətdən, ərəb-fars sözləri lüğətindən istifadə etməklə bəndlərin mənasının şərh olunması qrup tapşırıqları formasında şagirdlərə təqdim olunmalıdır. Təhlil dərsində isə əsas məqsədin, ideyanın birinci bənddən addım-addım necə ifadə olunması, sözlərlə necə manevr edilməsi diqqətlə müşahidə etdirilməlidir.

## Nəticə / Conclusion

Mətnin hansı niyyətlə yazıldığı müəyyənləşdiyindən tədris prosesində aşağıdakılara nail olmaq lazımdır:

a) İlk olaraq şagirdlər Vaqifin insan, məkan gözəlliyinə dair təsəvvürləri ilə yaxından tanış olmalıdır. Bunun üçün mətn üzrə müşahidələr aparılmalıdır. Mətndə mənası tanış olmayan sözlərin lüğət vasitəsilə aydınlaşdırılmasına, həmçinin təsvir və ifadə vasitələrinin verdiyi imkanların araşdırılmasına ehtiyac vardır. Müəllim izahlı lüğəti, ərəb-fars sözləri lüğətini, həmçinin bir çox lüğətləri özündə əks etdirən Azleks mobil tətbiqinin mövcudluğunu şagirdlərə xatırlatmalıdır. Mətnə dair qrup işləri aparılarkən həmin mobil tətbiqdən istifadə oluna bilər;

b) Dərsdə şagirdlər niyyətin sözlə necə ifadə olunması məharətini müşahidə etməlidirlər. Şagirdin bir şəxsiyyət kimi yetişməsində bu müşahidənin böyük əhəmiyyəti vardır. Şair bir vəzir kimi "İbrahim xan, bizim qoşunlarımız camaata əziyyət verir, gəlin buralardan gedək, öz doğma sarayımız yaxşıdır" demir. Əvəzində həmin istəyi hiss etdirmək, qabartmaq üçün sözlərlə gözəl manevrlər edir. Addım-addım, misra-misra, bənd-bənd niyyətə doğru irəliləyir. Deməli, dərsdə sözlə niyyətin ifadə olunma bacarığına diqqətin yetirilməsi, belə bir keyfiyyətin izlənilməsi və müşahidə olunması şagirdlərdə müvafiq bacarığın formalaşdırılması işinə geniş imkanlar yaradır;

c) Şagirdlərdə bir şəxsiyyət kimi sözdən məharətlə istifadə etmək, sözlə fikirlərini ifadə etmək, öz fikrini başqalarına təlqin etmək bacarığını inkişaf etdirmək üçün də mətnin imkanlarından istifadə olunmalıdır. Hər bir bəndin ifadə etdiyi mənanın sadələşmiş variantı ilə indiki məzmunun tutuşdurulması, fikrin obrazlı formada təlqin olunması keyfiyyətləri bir daha mətn üzərində müşahidələr aparılmaqla şagirdlər tərəfindən araşdırılıb dərk olunmalıdır;

ç) Söz – insan qəlbinin aynasıdır. O, danışan insanın xarakterini, necə bir şəxsiyyət olduğunu açıb göstərir. Sözdən ünsiyyət prosesində düzgün, məqsədyönlü şəkildə istifadə etmək şəxsiyyəti xarakterizə edən mühüm cəhətlərdən biridir. Düşüncədən qaynaqlanaraq söylənən hər bir söz insanın kimliyi haqqında aydın təsəvvür yaradır. Ona görə də şairin mənəvi aləminin dərk olunmasında bu şeirdən, orada işlədilən bədii təsvir və ifadə vasitələrindən, sözlərdən bir vasitə kimi istifadə olunmalıdır. Şairin mənəvi dünyasının dərki şagirdlərin də bir şəxsiyyət olaraq mənəvi aləminin zənginləşməsinə mühüm töhfələr vermiş olar.

Dahi şəxsiyyətlər – yaradıcı insanlar, sənətkarlar həm də incə zövqə malik insanlar olmuşlar. Onlar təbiət və cəmiyyətdəki hər bir gözəlliyin vurğunu olmuş, onları duymaq və duydurmaq işində öz layiqli töhfələrini vermişlər. Vaqifin X sinifdə tədrisi nəzərdə tutulan "Pəri" qoşması da bu cəhətdən xali deyildir. Qoşma gözəlin, insan gözəlliyinin təqdimatının orijinallığı, portret cizgilərinin əlvanlığı, təsvir və tərənnümündəki poetik üsul və vasitələrin rəngarəngliyi, dilin bu keyfiyyətlərinin müşahidəsi, dərk olunması şagirdin bir şəxsiyyət kimi yetişməsinə, estetik zövqünün inkişaf etdirilməsinə zəngin materiallar verir [3, s.107]. İnsandakı gözəlliyi duymaq və onu sözlə bir rəssam kimi canlı təsvir etmək, şagirdlərdə bu gözəlliklərə köklənmək hissini inkişaf etdirir. Vaqifin gözü ilə "pərilərin" gözəlliyinə baxılır və onların qəlbində insanlığa, insan gözəlliyinə bir vurğunluq yaranır. Təkcə Vaqif irsinin tədrisində deyil, digər bədii mətnlərdə də şagirdlərin hərtərəfli yetişdirilməsi məsələsi daim diqqətdə saxlanılmalıdır.

Əgər deyilən cəhətlər, həmçinin əsərlərin meydanagəlmə şəraiti nəzərə alınmazsa, nə bu qoşmanın məzmunu, nə ideyası, nə də şəxsiyyətyönümlülük məsələsi şagirdlərə düzgün çatdırıla bilər.

Bədii söz, sənətkarların əsərlərində ifadə olunan ideyalar onların mənəvi aləminin dərk olunmasına, nəticədə isə şagirdlərin bir şəxsiyyət kimi yetişməsinə münbit şərait yaradır. Bu imkanı müəllim bir an belə olsa da gözdən qaçırmamalıdır.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Mümtaz S. (1986). Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı, Yazıçı. 445 s.
2. Tərtibçi heyət: Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. (2019). Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı, "Bakı-nəşr". 208 s.
3. Tərtibçi heyət: Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva. (2018). Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı, "Bakı-nəşr". 208 s.
4. Yusifov F. (2020). Ədəbiyyatın tədrisi metodikası. Bakı, ADPU-nun nəşriyyatı. 348 s.
5. https://www.azleks.az

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 51-61
doi.org/10.48445/n7368-7984-0060-r

**M E T O D İ K A**

# Məktəbli təfəkkürünün inkişafında folklor nümunələrinin rolu

***Gülnarə Əlixanova***
Psixologiya üzrə fəlsəfə doktoru. ADPU, Pedaqoji psixologiya kafedrası, baş müəllim.
Azərbaycan. E-mail: gulnare.alixanova@mail.ru
https://orcid.org/0000-0002-5241-0250

**XÜLASƏ**
Mənşəyinə üz tutmadan, milli mədəniyyət dəyərlərini dərk edib qəbul etmədən hər hansı bir xalqın yüksəlişi mümkün deyildir. Bu gün bir çox idealların əvəzlənməsi, əvvəlki nəsillərin dünyaya baxışının dəyişməsi hər bir xalqın düşüncəsinə, həyat tərzinə, davranışına yad olan kütləvi mədəniyyətin tətbiqi baş verir. Müxtəlif ölçülü gözəllik standartlarının təsvirləri, kiçik etiketdən böyük reklama qədər insanları hər tərəfdən əhatə edir, onların psixikasına şüurlu və şüursuz səviyyədə daxil edilir. Müasir məktəbin təhsil fəaliyyətində isə innovativ proseslərin inkişafı müəllim qarşısına daim artan tələblər qoyur: müasir müəllim yeni pedaqoji təfəkkürə, daim yaradıcı yüksəlişə malik olmalı, dərs dediyi şagirdlərdə yeni yaradıcı təfəkkürü inkişaf etdirməli və digər mövcud problemləri həll etməyi bacarmalıdır. Hazırda qeyd etdiyimiz bütün bu məsələlər dövlət əhəmiyyətlidir. Bu nöqteyi-nəzərdən uşaqların hərtərəfli formalaşmasında müxtəlif fənlərin tədrisi zamanı folklor nümunələrindən istifadə olduqca önəmlidir.

**AÇAR SÖZLƏR**
estetik hisslər, şifahi xalq yaradıcılığı, tapmacalar, atalar sözləri, folklor

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 01.11.2022
qəbul edilib: 08.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 51-61
doi.org/10.48445/n7368-7984-0060-r

**METHODS**

# The role of folklore samples in the development of school thinking

***Gulnara Alikhanova***
Doctor of Philosophy in Psychology. ASPU, department of Pedagogical Psychology, senior lecturer. Azerbaijan. E-mail: gulnare.alixanova@mail.ru
https://orcid.org/0000-0002-5241-0250

**ABSTRACT**
It is impossible without addressing its origins, understanding and accepting the values of national culture. Today, many ideals are being replaced, the views of previous generations are being destroyed, and a mass culture is being introduced that is alien to the thinking, way of life and behavior of every nation. Images of beauty standards of various sizes, from small labels to large advertisements, surround people from all sides, entering their psyche on a conscious and unconscious level. The development of innovative processes in the educational activity of a modern school places ever-increasing demands on the teacher: a modern teacher must have a new pedagogical thinking, constant creative growth, be able to develop new creative thinking in his students and solve other existing problems. All these issues we have mentioned today are of state importance. For this purpose, the use of folklore samples in the teaching of various subjects is extremely important in the comprehensive development and formation of children.

**KEYWORDS**
aesthetic feelings, oral folk art, riddles, proverbs, folklore

**ARTICLE HISTORY**
Received: 01.11.2022
Accepted: 08.12.2022

## Giriş / Introduction

Uşaqlıq dövrü, ümumiyyətlə, insanın şəxsiyyətinin formalaşmasına həlledici təsir göstərir. Belə ki, bu dövrdə, əsasən, şəxsiyyətin təməli formalaşır, ardıcıl olaraq insanın əxlaq və təhsilinin, mədəniyyət və dünyagörüşünün təməli qoyulur. İnamla deyə bilərik ki, uşaqlıq dövrü hər bir insanın keçəcəyi həyat yolu üçün həlledici zamandır. Bildiyimiz kimi, insanın nitq qabiliyyətinin formalaşması və ən əsas inkişafı, məhz bu dövrdə baş verir. Bu çox mürəkkəb bir prosesdir. Təfəkkürün inkişafı, əsasən, dil materialları əsasında formalaşmağa başlayır. Məlumdur ki, insan həm düşünərkən, həm də danışarkən məhz həmin an üçün lazım olan söz və cümlələrdən istifadə edir. Təfəkkürün təzahür forması dildir. Şagirdin də özünəməxsus düşünmə dili var. Onun öz fikrini başqasına çatdırmaq üçün istifadə etdiyi dilin mənbəyində təfəkkür dayanır. Şagirdlər, əsasən oxşar fikirlər düşünə bilər, bununla da o fikirlərin ifadə etdiyi söz və ya cümlələr hər şagirdin özünəməxsus işlətdiyi söz və cümlələr ola bilər [1, s.45].

Şifahi xalq ədəbiyyatımızın ilk örnəkləri hələ qədim zamanlarda yaranmış, nəsildən-nəslə, dildən-dilə, eldən-elə keçərək daha da zənginləşmişdir. Məktəb təcrübəsində folklorla tanışlıq, əsasən epizodik şəkildə olur. Bu prosesdə uşaqların mənsub olduğu xalqın mədəni ənənələrini sistemli şəkildə öyrənməsi onlarda marağın artmasına imkan yaradır. Milli oyun və bayramlara aid müxtəlif məzmunlu mahnılarda, məişətdə istifadə edilən laylalarda, tarixi mahnılarda qəhrəmanlığa, vətənpərvərliyə aid deyimlər, epik uşaq qafiyələrində, yanıltmaclarda, nağıllarda, tapmacalarda, atalar sözlərində, bayatılarda, zərb məsəllərdə, rəvayətlərdə, rübailərdə, dastanlarda şagirdlərin estetik hisslərinin inkişafı ilə yanaşı onlarda dünyagörüşün genişlənməsi və mədəni səviyyənin yüksəlməsi şüurun, təfəkkürün inkişafına güclü təkan verir.

Şüurun mövcudluğunda dilin əsas rolunu K.Marks və F.Engels belə vurğulayıblar: "Dil şüur qədər qədimdir; dil praktiki şüurdur, başqa insanlar üçün mövcud olan və yalnız bununla özüm üçün də mövcud olan real şüurdur və şüur kimi dil də yalnız ehtiyacdan, başqa insanlarla ünsiyyət üçün təcili ehtiyacdan yaranır". İ.P.Pavlovun insan təfəkkürünün fizioloji əsaslarının kəşfinə görə, bu, iki siqnal sisteminin birgə fəaliyyətidir. Birinci siqnal sistemi reseptorların xarici və daxili mühitdən yaranan stimullara məruz qalması zamanı heyvanların və insanların beyin qabığında əmələ gələn şərti refleks əlaqələr sistemidir. Burada ən vacibi ikinci siqnal sistemidir, yəni yalnız insana xas olan şərti refleks əlaqələr sistemi mərkəzi sinir

sisteminin yuxarı hissələrində formalaşır və birinci siqnal sistemi əsasında işləyir, çünki təfəkkür insanın nitq fəaliyyəti ilə ayrılmaz şəkildə bağlıdır.

Psixoloq L.S.Vıqotski nitqin inkişafının düşüncə vasitələrindən, uşağın sosial və mədəni təcrübəsindən asılılığını vurğulayırdı. Onun fikrincə, nitq inkişafı prosesində uşaq işarə (linqvistik) təfəkkür vasitələrinə yiyələnir. Simvolik təfəkkür vasitələrinin belə mənimsənilməsi, adətən uşağın ətrafındakılarla ünsiyyəti prosesində baş verir. İsveçli psixoloq-filosof J.Piaget nitq inkişafının koqnitiv (intellektual) əsasını ortaya qoyurdu. Onun fikrincə, uşaqda nitqin yaranması üçün ən vacib şərt onun sensomotor intellektinin inkişafıdır. Bu, olduqca aktual mövzudur. Uşağa ətrafdakı dünyanı anlamaq və naviqasiya etmək bacarığını aşılamaq yalnız düzgün formalaşmış düşüncə vasitəsi ilə mümkündür. Təfəkkürün inkişafı isə uşağın nitqi və onun lüğət ehtiyatı ilə ayrılmaz şəkildə bir-birilə bağlıdır. Söz ehtiyatının zənginləşdirilməsi uşaqlarda intellektin inkişafına kömək edir. Müasir pedaqoji təhsildə yeni, qeyri-standart metodlar fəal şəkildə axtarılır. Bu mənada folklora, xalq pedaqogikasının ən yaxşı nümunələrinə müraciət etmək daha məqsədəuyğun olar [6, s.41-56].

Bənzərsiz milli mədəniyyət və milli özünəməxsusluğun qorunub saxlanması ona görə mümkün oldu ki, xalq öz yaradıcılığını əzmkarlıqla qoruyaraq onun ən bariz nümunələrini nəsildən-nəslə ötürdü. Dahi rus yazıçısı Lev Tolstoy bu haqda yazırdı: "Xalq uşaq həyatının hər bir mərhələsini və onun inkişafının bütün istiqamətlərini mütəmadi olaraq poetik sözlə müşayiət etməyə həvəs göstərirdi. Bu da uşağın ailədə tərbiyə olunduğu ənənəvi qaydaların, prinsiplərin bütöv bir sistemini təşkil edirdi". Bu sistemin ilk özəyi əsrdən-əsrə, nəsildən-nəslə keçən şifahi xalq yaradıcılığı olub ki, o, müasir dövrümüzdə də olduğu kimi qalmaqdadır. Xalq ədəbiyyatı nəinki xalq yaradıcılığının qorunub saxlanmasına kömək etdi, həm də hər bir nəsildə ənənəvi ailə dəyərlərini canlandırdı, nikahları möhkəmləndirdi və sağlam demoqrafik mühiti təşviq etdi [7, s.77].

Uşaq xalq sənətini sevmək üçün ilkin olaraq onu dərk etməyi öyrənməlidir. Çünki bu zövqün formalaşması uşaq yaşlarında daha təsirli şəkildə baş verir. İbtidai məktəb yaşında olan uşaq ritmik təşkil olunmuş nitqi, qafiyələri və ifadəli intonasiyanı çox sevir. O, nəsrdən çox şeir dinləməyə və oxumağa maraq göstərir, qulaq asdığı şən rəqs melodiyalarına və cəld ritmlərə canlı olaraq cavab verir. Folklorda eyni zamanda şəxsi gigiyena və davranış qaydalarına, həmçinin əxlaqi anlayışlara da rast gəlinir. Uşaqlara gələcəkdə hansı hadisələrlə qarşılaşacaqları barədə məlumat sadə formada izah edilir. Folklor nümunələri yalnız həyat və mənəviyyat haqqında təsəvvür yaratmır, həmçinin uşağın ümumi inkişafına da

əhəmiyyətli dərəcədə təsir göstərir. Xalqının milli adət-ənənələrini mənimsəyən uşaqlar, ilk növbədə, onlara sevgi və hörmətlə yanaşmağı öyrənirlər.

Uşaqların məntiqi təfəkkürü və açıq dünyagörüşünün inkişafı, xalqının və digər xalqların irsinə səmimi münasibətin formalaşdırılması üçün folklor irsindən istifadə tamamilə zəruridir. Eyni zamanda folklordan istifadə ibtidai məktəb yaşlı uşaqlarda söz ehtiyatının zənginləşdirilməsinin effektivliyini artıraraq onların ümumi şəxsi inkişafına müsbət təsir göstərir. Müdrik və uzaqgörən ata-babalarımız uşaqların gələcəyi, sağlam təfəkkürü, nitq inkişafı kimi mühüm məsələlərə xüsusi diqqət ayırmış, sadə, lakin cəlbedici mətnlərlə uşaqların hərtərəfli tərbiyəsi üçün əsrarəngiz örnəklər yaratmışlar. Həmin nümunələr milli folklor xəzinəmizin qiymətli fondunu təşkil edir.

Müasir cəmiyyətdə folklorun müxtəlif janrları yaşamağa davam edir. Bunlara laylalar, tarixi mahnılar, qəhrəmanlığa, vətənpərvərliyə aid mahnılar, bayatılar, əmək və mövsüm nəğmələri, sayaçı sözlər, epik uşaq qafiyələri, yanıltmaclar, nağıllar, tapmacalar, atalar sözləri, lətifələr, zərb-məsəllər, holavarlar, rəvayətlər, rübailər, nağıllar, dastanlar, aşıq yaradıcılığı, xalq tamaşaları, şəbihlər və s. aiddir [2, s.123].

Kiçik yaşlı məktəblilərin şəxsiyyət kimi hərtərəfli inkişafında folklorun rolu əvəzsizdir: folklor əsərləri şagirdlərin əqli inkişafı, təfəkkürü və estetik tərbiyəsi üçün zəngin imkanlar yaradır. Belə ki, o, uşaqlara xalqın həyatı ilə təmasda olub, onun adət-ənənələri ilə yaxından tanış olmaq imkanı verir. Bildiyimiz kimi, kiçik məktəb yaşı dövründə təfəkkür özünəməxsus xüsusiyyətlərə malik olur. İlk dövrlər əyani-əməli təfəkkür özünü göstərsə də, sonralar əyani-obrazlı təfəkkürə keçid baş verir, sözlü məntiqi təfəkkürün inkişafı üçün müvafiq şərait yaranır.

Təlim prosesində təhlil və tərkibin inkişafı qarşılıqlı vəhdətdə həyata keçirilir. Kiçik yaşlı məktəblilərdə mücərrədləşdirmə və konkretləşdirmə prosesləri də inkişaf edir. Təlim prosesində onların təfəkkürünün qeyd olunan xüsusiyyətləri müəllim tərəfindən ciddi surətdə nəzərə alınır və inkişaf etdirilir. Professor Ə.Bayramovun tədqiqatlarına görə, dərs prosesində əlverişli şərait qurulduqda, hətta I-II sinif şagirdləri belə idrak obyektlərinin mahiyyətini anlayır, oradan müəyyən nəticə çıxarır, səhvləri və uyğunsuzluqları tapır, eyni zamanda onları əmələ gətirən səbəblər barədə müəyyən mülahizələr yürüdə bilirlər. Lakin uşaqlar eyni səviyyədə müstəqil və tənqidi düşüncə bacarığına malik olmurlar. Bu sahədə şagirdlər arasında bir sıra fərdi fərqlər özünü göstərir [3, s.15].

Ə.Bayramovun tədqiqatları kiçik yaşlı məktəbliləri təfəkkürün tənqidiliyinin inkişaf xüsusiyyətlərinə görə aşağıdakı qruplara ayırmağa imkan vermişdir:

1) Heç bir təhrik olmadan tənqidi düşünən şagirdlər. Bu şagirdlər müstəqil şəkildə öz idrak obyektlərinə tənqidi yanaşır və buradakı qüsurları, uyğunsuzluqları görmək qabiliyyətinə malikdirlər.
2) Qismən təhriklə tənqidi düşünən şagirdlər. Onlara idrak obyektində qüsur və ya çatışmazlığın olduğu haqda məlumat verildikdə onu asanlıqla müəyyənləşdirib düzəldə bilirlər.
3) Tam təhriklə tənqidi düşünən şagirdlər. Bu şagirdlər yalnız onlara konkret olaraq nədə səhv etdiklərini bildirdikdə qüsurları müəyyənləşdirə və aradan qaldıra bilirlər.
4) Heç cür təhriklə belə tənqidi düşünə bilməyən şagirdlər. Bu kateqoriyaya aid olan şagirdlərdə təfəkkürün ümumi inkişafının təzahürü həddən artıq aşağı səviyyədə olur.

Alimlərin fikrincə, ibtidai məktəb yaşı xüsusilə münbit həssaslığa malik olduğundan uşaqlarda vizual-obrazlı təfəkkür və təxəyyül intensiv şəkildə formalaşır, nitq inkişaf edir. Şagirdin psixi həyatı təcrübə ilə zənginləşir, onda dünyanı dərk etmək və ideyaya uyğun hərəkət etmək bacarığı yaranır. Folklorşünaslığın tərbiyəvi imkanları da məlumdur:

1. Xalqın mənəvi mədəniyyəti haqqında olan keçmiş və müasir biliklərin dərinləşdirilməsi. Folklorda müxtəlif xalqların məişət və adət-ənənələrinin təqdim edilməsi.
2. Xalqın mədəniyyətində əksini tapan əxlaqi davranışın norma və dəyərlərinin mənimsənilməsi. Nağıl personajlarının köməyi ilə onların hərəkətlərinin mahiyyətini açmaqla şagirdin nəyin yaxşı, nəyinsə pis olduğunu başa düşməsi, xoşuna gələn və bəyənmədiyi cəhətləri müəyyənləşdirməsi, insan gözəlliyi haqqında xalq təsəvvürlərini dərk etməsi.
3. Özünün və digər etnik qrup mədəniyyətinə tolerant münasibətin tərbiyə edilməsi. Uşaq anlayır ki, folklor hər bir etnik qrupun tarixini qoruyub saxlayan çoxəsrlik xalq əsəridir.
4. Estetik zövqün inkişafı. Uşaq xalq təfəkkürünün gözəlliyini hiss edərək xalqla ünsiyyətə girir. O, insanların istifadə etdiyi vasitələri həyatda öz işinə tətbiq etməyə səy göstərir.

Xalq yaradıcılığının məhsulu olan nağıl, rəvayət və dastanlardan istifadə uşaq təfəkkürü ilə yanaşı onun xarakterinin formalaşmasında da mühüm rol oynayır. Uşaqların təfəkkürü nağıl xarakterli hekayələrə daha maraqlıdır. Onları xüsusilə müsbət nağıl qəhrəmanları cəlb edir, çünki onlar oddan və sudan qorxmadan keçərək şər qüvvələri məğlub edirlər. Bu cəhətdən M.Qorki yazırdı: “Ən dərin və parlaq, bədii cəhətdən mükəmməl qəhrəman tiplərini folklor yaratmışdır”.

Müxtəlif məzmunlu əsərlərlə hər bir görüş, onun personajları və onların hərəkətləri kiçik yaşlı oxucunu düşündürür, təfəkküründü inkişaf etdirir. Müəllim şagirdlərə qəhrəmanın hərəkətlərini düzgün anlamağa, xeyir və şərin nə olduğunu başa düşməyə kömək edən müxtəlif üsullardan istifadəyə üstünlük verməlidir.

Azərbaycan folklorunu xalqın xəzinəsi kimi onun özünə təqdim edənlər sırasında Y.V.Çəmənzəminli, H.Zeynallı, S.Mümtaz, K.Araslı, M.T.Təhmasib, C.Cahanbaxış, Y.Şirvanlı, S.Vurğun, C.Cabbarlı, H.Cavid, M.Rzaquluzadə, H.Mehdi, B.Behcat, Ə.Dəmirçizadə, Ə.Abbasov, H.Əfəndiyeva, M.Arif və başqalarının adlarını çəkə bilərik [4, s.26].

Müasirlik mövqeyindən çıxış edən Azərbaycanın görkəmli yazıçıları folklor motivləri və ifadə vasitələrindən yaradıcılıqla istifadə edərək uşaq nəsrini zənginləşdirmişlər. Məhz buna görə də uşaq ədəbiyyatında folklor motivləri ilk sıralarda yer alır. Vətənə sonsuz məhəbbət, doğma ocağa bağlılıq, təbiət gözəlliyinin tərənnümü, insan əməyinə dəyər, böyüklərə hörmət, xeyirxahlıq, nəciblik, dostluğa sədaqət kimi mövzuları təsvir və tərənnüm edən yazıçılar folklor nümunələrindən yaradıcılıqla istifadə etmişlər.

Azərbaycan uşaq folklorunun toplanması və nəşri sahəsində ən mühüm hadisə Firidun bəy Köçərlinin "Balalara hədiyyə" kitabının nəşri olmuşdur. XX əsrin əvvəllərində, hələ dünya şöhrətli xalq yaradıcılığı incilərinin – dastan, nağıl, aşıq şeiri, əfsanə, bayatı və s. toplanıb ayrıca məcmuə halında nəşr edilmədiyi bir zamanda "Balalara hədiyyə" adlı uşaq folkloru toplusu kiçik yaşlı oxucularının ixtiyarına verilmişdi. Azərbaycan uşaq nəsri nümunələrinin yaranmasında əvəzsiz xidmətləri olan S.S.Axundov, M.F.Axundov, A.Şaiq, M.Cəlal, M.Rzaquluzadə, İ.Əfəndiyev, M.Hüseyn, A.Vəliyeva, Z.Xəlil, X.Hasilova, A.Əhmədova, Anar, Elçin və digərlərinin əsərlərinin mövzuları məhz milli folklordan götürülmüşdür. Tədqiqatçılar şifahi xalq nəzminin xüsusi bir növü olan uşaq folklorunun bütün əsərlərini funksional roluna görə iki qrupa bölürlər:

1. Oyun hərəkətləri ilə bağlı olan milli xalq nümunələri (uşaq mahnıları, sayma qafiyələri, oyun cümlələri və xorlar);
2. Şifahi məzmunu ilə uşaqları məşğul edən və oyun hərəkətlərindən asılı olmayaraq ifa olunan əsərlər (laylalar, təlqinlər, sükutlar, zarafatlar, nağıllar, yanıltmaclar və s.).

Müasir ibtidai məktəbdə müəllimin qarşısında oxu bacarıqlarına tam yiyələnmə ilə yanaşı, məktəblilərin ədəbi inkişafı vəzifəsi də özünü büruzə verir. Bu problem istənilən oxu materialında öz həllini tapa bilir.

Bədii dili zənginləşdirmək, ona ifadəlilik, dəqiqlik vermək üçün atalar sözləri və məsəllər ən böyük xəzinədir. Bir çox atalar sözlərinin məzmunu qrammatik qaydaları öyrənmək üçün material, eyni zamanda əxlaqi davranışların inkişaf etdirilməsi mənbəyidir. Onlar doğma təbiətə, Vətənə, əməyə əməli sevgi, insanlara qarşı isə düzgün və rəğbətli olmağı öyrədir.

Kiçik yaşlı məktəb şagirdlərinin ana dili dərslərində atalar sözü və məsəllər üzərində iş bilik öyrədilməsi ilə yanaşı şagird təfəkkürü və nitqinin inkişafı üçün əsas mənbə hesab edilir.

*Tapmacalar* – uşağın müşahidə qabiliyyətini və yaddaşını inkişaf etdirir, onlara müxtəlif yönümlü hadisələri müqayisə edərək nəticə çıxarmağı öyrədir, şagird təfəkkürünün inkişafına kömək edir. Tapmacalardan digər siniflərdə ana dili dərslərində orfoqrafiya və düzgün yazı qaydalarını öyrənərkən, lüğət sözləri ilə işləyərkən də istifadə oluna bilir. Onların məzmunu elə olmalıdır ki, yazı yazarkən şagirdlərin ən çox səhv etdikləri vurğusuz saitlər, cingiltili və kar samitlər, lüğət sözləri və çoxlu hərf birləşmələrindən ibarət olsun. Qeyd edək ki, tapmacalar uşağın zehni fəaliyyətini stimullaşdırır, ixtiraçılığın təkmilləşdirilməsinə kömək edir, eyni zamanda ümumən şagird təfəkküründə dünya anlayışını əhəmiyyətli dərəcədə genişləndirir. Şifahi sənət əsəri olan tapmacalar ətraf mühitin bədii qavrayışını tərbiyə edir və ana dilinin metaforik zənginliyini ortaya qoyur.

Vurğudan istifadə etməklə tələffüz olunan ifadələr şagirdlərdə düzgün nitqin formalaşması və inkişafına, düzgün və səlis oxu keyfiyyətlərinin daha da yaxşılaşdırılmasına, öyrəndiyini düşünərək anlayıb yadda saxlamasına kömək edir. Müxtəlif templə tələffüz olunan ifadələr ilə işləmək məzmunun dərindən mənimsənilməsi, ayrı-ayrı səslərin və ya onların birləşmələrinin düzgün tələffüzü xarakteri daşıyır. Onlardan qrammatik biliklərin tədrisi zamanı səslərin öyrənilməsində uğurla istifadə oluna bilər.

*Atalar sözləri və zərb məsəllər* – mühüm didaktik funksiyanı yerinə yetirir, insanlara düzgün yaşamaq və işləmək yollarını doğru və sadə şəkildə öyrədir, onları təbiət hadisələrinin uzunmüddətli müşahidələrinin nəticələri ilə tanış edir, müəyyən vəziyyətdə necə hərəkət etmələri barədə əsaslı məsləhətlər verir.

Bundan başqa uşaq folkloru içərisində müxtəlif oyun növləri də var ki, onlar uşaqların zəka və təfəkkürünün inkişafında əhəmiyyətli dərəcədə rol oynamaqla yanaşı, əyləncə və istirahət üçün də vasitə olub, uşaqların fiziki inkişafına olduqca faydalı təsir göstərir. “Bənövşə”, “Gizlənpaç”, “Çəlik-ağac”, “Qəcəmə daş”, “Həbə” və s. uşaqların sevə-sevə oynadıqları oyunlardandır. Bu oyunlar uşaqların bədən əzələlərini inkişaf etdirir, psixomotor yönümdən möhkəmlənməsinə təkan verir.

*Yanıltmaclar* – uşaqların zəka, bilik, duyğu və davranışlarını inkişaf etdirir, onlarda kollektiv şəkildə öyrənmə, bir-birinin işini rəğbətləndirmə, birgə fəaliyyət kimi qabiliyyətlərin təzahürünə səbəb olur. Yanıltmaclar uşaqların öz ana dilindən gözəl, səlis və doğru istifadəetmə bacarıqlarını inkişaf etdirməklə yanaşı onların söz ehtiyatının zənginləşməsində də mühüm rol oynayır.

Hal-hazırda Azərbaycanda ümumi təhsil sahəsində bu istiqamətdə həyata keçirilən mühüm islahatlarda yeni yanaşmaların tətbiq olunması dövrün aktual məsələlərindəndir. Bu gün orta məktəblərdə təhsilə fərqli yanaşma şagirdlərə yalnız biliyin öyrədilməsi deyil, onlarda müəyyən bacarıq və vərdişlərin inkişaf etdirilməsi vəzifəsini də yerinə yetirir. Deməli, müstəqil həyata hazırlanan şagird şəxsiyyətyönümlü təhsilin əsas məqsədidir. Şagirdlərin şəxsiyyət kimi formalaşmasında təfəkkürün inkişafı isə əsas amil kimi götürülür [5, s.67].

*Folklor* – sinifdə təlim fəaliyyətinin əvəzsiz elementidir. O, şagirdlərə yeni materialı daha yaxşı mənimsəməyə, onu möhkəmləndirib bacarıqları inkişaf etdirməyə kömək edir, şagirdlərin təşəbbüskarlığını, idrak fəaliyyətini aktivləşdirir və bununla da şagird təfəkkürünü inkişaf etdirir.

Folklorun mənimsədilməsinin əsas yollarından biri də əyanilikdir**.** Araşdırmalara görə, məqsədli şəkildə həyata keçirilən fəal təlim şagirdlərin idrak fəallığını artırmaqla onlarda düşünmə və müstəqil qərar qəbuletmə bacarığını inkişaf etdirir. İdrak fəaliyyəti ilə mütəmadi iş prosesində şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf edir. Məntiq şagirdlərin təfəkkürünü inkişaf etdirir, onların düşünmə qabiliyyətini və intellektual səviyyələrini yüksəldir, bilik, bacarıq və vərdişlərin düzgün formalaşmasına xidmət edir. Bu mənada hər bir sinif müəllimi ilkin olaraq tədqiqatçılıq keyfiyyətlərinə malik olmalıdır. Qabiliyyətlərin inkişaf etdirilməsi dərs zamanı şagird fəallığının müəllim tərəfindən hansı üsul və vasitələrdən istifadə etməsindən birbaşa asılıdır.

Xalqın keçmişindən bu gününə kimi gəlib çatan folklor nümunələri şagirdlərə geniş və dolğun şəkildə öyrədilməlidir ki, onlar da bu zəngin nümunələri gələcək nəsillərə olduğu kimi çatdırsınlar. Fikrimizcə, ibtidai siniflərdə kiçik folklor nümunələrindən uşaqlarda idrak proseslərinin, həmçinin çox mühüm əhəmiyyət kəsb edən təfəkkürün inkişaf etdirilməsində istifadə daha aktual və perspektivlidir. Milli folklorumuzu şagirdlərə dərindən sevdirmək hər bir müəllimin vəzifəsi olmalıdır. Əsrlərdən keçib dövrümüzə kimi gəlib çatan milli folklor nümunələrini qoruyaraq gələcək nəsillərin də bu zənginlikdən faydalanmaları üçün çalışmaq hər bir vətəndaşın borcudur.

## Nəticə / Conclusion

Folklorumuz xalqımızın tükənməz ilham mənbəyidir. Qeyd etdiyimiz kimi, Azərbaycan folkloru zəngin və qədim tarixə malikdir. O elə bir sehrli mücrüdür ki, hər dəfə açıldıqca yeni fikirlərlə rastlaşırıq. Folklor xalqın tarixindən qaynaqlanan yazısız ədəbiyyat, şifahi xalq yaradıcılığıdır. Şifahi xalq yaradıcılığı böyük bir psixoloji məktəbdir. Folklor müəyyən bir xalqın ən böyük dəyərlərini, bütövlükdə dünyanın ümumi mənzərəsini əks etdirir.

Azərbaycan xalqının yüzillər boyu yaratdığı şifahi xalq ədəbiyyatı onun tarixi, mədəniyyəti, mənəviyyatı, həyat tərzi, adət-ənənələri haqqında zəngin məlumat verən əsas qaynaqlardan hesab olunur. Bu nümunələr xalq zəkasının qüdrətini, onun bədii təfəkkürünün gücünü parlaq şəkildə əks etdirən, məzmun cəhətdən maraqlı, ideya baxımından zəngin, əsrlərin sınağından çıxmış əsərlərdir. Bu sənət inciləri janr əlvanlığı, dil-üslub aydınlığı, poetik tutumu və xəlqiliyi ilə seçilir. Şifahi ədəbiyyatda xalqımızın insan taleyi ilə bağlı düşüncələri, vətənpərvərliyi, humanizmi, arzu və istəyi, sevgisi, nifrəti, müxtəlif tarixi dönəmlərdə üzləşdiyi mühüm ictimai-siyasi hadisələrə münasibəti geniş şəkildə öz bədii əksini tapmışdır.

Müasir dövrümüzdə məktəb və müəllimin qarşısında duran ən mühüm vəzifə öz fikir və düşüncələrini sərbəst şəkildə ifadə etməyi bacaran, müstəqil mühakimə yürüdə bilən şəxsiyyət yetişdirməkdir. Bu gün dərslər elə qurulmalıdır ki, şagird təfəkkürünün hərtərəfli inkişafına nail olunsun. Bu məqsədlə hər bir şagirdin ümumi dünyagörüşə, geniş təfəkkürə və aydın nitq vərdişlərinə yiyələndirmək işinə aşağı siniflərdən başlamaq lazımdır. Dərsin bu və ya digər mərhələsində folklor nümunələrindən istifadə şagirdlərin dünyagörüşünü daha da genişləndirir, onlarda düzgün nitq qabiliyyətini inkişaf etdirir, onun dəqiq, zəngin və ifadəli olmasına müsbət təsir göstərir.

Deyilənləri ümumiləşdirərək qeyd edək ki, keçmiş haqqında məlumatlı olmaq, bu günü və gələcəyi düzgün dərk etmək istəyən hər kəs folkloru bilməlidir. Onun əhəmiyyəti bütün nümunələrinə gözəllik, xeyirxahlıq və sülh arzusunun hopmasındadır. Məktəbdə xalq adət-ənənələrinin öyrənilməsinin bütün formaları şagirdlərin təfəkkürünün inkişafına töhfə verməli, onlarda müstəqil düşünmək, öz təşəbbüslərinin təzahürü, yəni özünün ən yaxşısını etmək istəyini inkişaf etdirməlidir.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Abbaslı İ. (2009). Folklorşünaslıq axtarışları. İki cilddə. Bakı, Nurlan. 511 s.
2. Baxşəliyev Ə.T., Heydərova S.N. (2019). Azərbaycanda psixoloji fikrin ilkin qaynaqları. Bakı, ADPU nəşriyyatı. 285 s.
3. Baxşəliyev Ə.T. (2005). Azərbaycanda psixologiya elmi XX yüzillikdə. Bakı, 26 s.
4. Əlizadə H.Ə. (2019). Azərbaycan el ədəbiyyatı. I hissə. Bakı, 264 s.
5. Bahlul A., Babayev T., Qasımlı M. (2008). Novruz bayramı ensiklopediyası Bakı, Şərq-Qərb. 208 s.
6. Путилов Б. (2003). Фольклор и народная культура. Издательство: Петербургское Востоковедение. 204 с.
7. Аникин В. (2007). Теория фольклора. Курс лекций. Издательство: КДУ. 321с.

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 62-71
doi.org/10.48445/z2402-5831-4729-m



# Əhməd Cavadın Türkiyə sevgisi

***Xanımbacı Məlikzadə***
Elmi işçi, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: melikzade1977@inbox.ru
https://orcid.org/0000-0002-6431-9809

**XÜLASƏ**
Məqalədə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi – böyük şair, tanınmış maarifçi və ictimai xadim, publisist, repressiya qurbanı Əhməd Cavadın Türkiyə sevgisindən, türk xalqına olan xüsusi rəğbətindən bəhs edilir. Müəllif məqalədə şairə bir əsr zaman kəsiyində Türkiyədə şöhrət qazandıran "Çırpınırdın Qara dəniz" şeirinin populyarlığının səbəblərini izah edir, 1928-ci ildə Türkiyədə nəşr olunmuş şeirini bəhanə edən sovet ideoloqlarının ona qarşı təşkil etdiyi kompaniya haqqında məlumat verir, nəhayət, pantürkistlikdə ittiham olunaraq güllələnməsini diqqətə çatdırır. Təəssüf ki, şair doğma vətənində öz layiqli qiymətini yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra ala bilmişdir. Bunun nəticəsidir ki, hazırda Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən dövlət səviyyəsində Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi ilə bağlı tədbirlər planı hazırlanır.

**AÇAR SÖZLƏR**
Əhməd Cavad, Xalq Cümhuriyyəti, Türkiyə sevgisi, repressiya, pantürkistlik

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 21.10.2022
qəbul edilib: 29.11.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 62-71
doi.org/10.48445/z2402-5831-4729-m



# Ahmad Javad's love for Turkey

***Khanimbaji Melikzade***
Researcher, Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: melikzade1977@inbox.ru
https://orcid.org/0000-0002-6431-9809

**ABSTRACT**
The article talks about the love of Turkey and the special sympathy for the Turkish people of Ahmad Javad, a prominent representative of Azerbaijani literature - a great poet, a well-known educator and public figure, a publicist, a victim of repression. In the article, the author explains the reasons for the popularity of the poem "Chirpinirdin Gara deniz", which made the poet famous in Turkey for a century, provides information about the campaign organized against him by Soviet ideologues who used his poem published in Turkey in 1928 as an excuse, and finally draws attention to his shooting on charges of pan-Turkism. Unfortunately, the poet was able to receive his deserved appreciation in his native land only after Azerbaijan gained independence. As a result of this, a plan of events related to the celebration of the 130th anniversary of Ahmad Javad is being prepared at the state level according to the Decree of the President of the Republic of Azerbaijan.

**KEYWORDS**
Ahmad Javad,
Democratic Republic,
love for Turkey,
repression, panturkism

**ARTICLE HISTORY**
Received: 21.10.2022
Accepted: 29.11.2022

## Giriş / Introduction

XX əsr Azərbaycanın ictimai-siyasi və mədəni həyatına keşməkeşli dönəm kimi daxil olmuşdur. Rusiyada baş verən burjua inqilabları, Birinci Dünya müharibəsi, xalqların milli şüurunun dirçəlməsi 1918-ci ildə Xalq Cümhuriyyətinin elan edilməsi ilə nəticələndi. Bu dövrdə Azərbaycan ziyalıları regionda cərəyan edən bütün proseslərdə yaxından iştirak edirdilər. Xalqın formalaşan milli mənlik şüuru türkçülük ideyalarının inkişafına təkan verir, dövrün ziyalıları ilə Osmanlı Türkiyəsinin ziyalıları arasında ədəbi-mədəni əlaqələr genişlənirdi.

XX əsrin əvvəlləri Azərbaycan mədəniyyəti və ədəbiyyatında millətçilik, türkçülük, özünəqayıdış mövqeyində dayanan ziyalılar mübarizəni qələmləri ilə aparırdılar. Xüsusilə həmin vaxt mətbuat mübarizə meydanına çevrilmişdi. Onlarla qələm əhli xalqın maariflənməsi, milli kökünə qayıdışı üçün yorulmadan mübarizə aparırdı. Belə vətənpərvər ziyalılarımızdan olan Əhməd Cavadın milli mücadilə tarixində öz yeri, öz dəsti-xətti vardır. O, şəxsi keyfiyyətləri, ədəbi fəaliyyəti və yaradıcılığı ilə ümumtürk ədəbi-mədəni dünyasında özünəməxsus yer tutmuşdur. Şair publisist, tərcüməçi, müəllim kimi fəaliyyət göstərdiyi dövrdə azərbaycançılıq, türkçülük ənənələrinə sadiq qalmış, Xalq Cümhuriyyətinin əsas simalarından biri olmuşdur. Çoxşaxəli fəaliyyəti, bir neçə dilə yiyələnməsi, istedadı, öz əqidə və məsləkindən dönməzliyi ona şöhrət gətirmişdir.

Ümumiyyətlə, Əhməd Cavadın həm təhsilində, həm yaradıcılığında, həm də şəxsi həyatında Türkiyə faktoru mühüm rol oynamışdır. Belə ki, şairə yaxın olan zəkalı və nüfuzlu müəllimləri arasında Türkiyədən gələnlərlə yanaşı, orada təhsil alanlar da var idi. Ə.Cavad 1909-1912-ci illər ərzində Gəncə Ruhani gimnaziyasında Hüseyn Cavid və Abdulla Tofiq Şurdan da dərs almışdır.

Filologiya elmləri doktoru Əli Saləddin qeyd edir ki, Cavad Axundzadənin (Əhməd Cavad) bir şair olaraq püxtələşməsində Türkiyədən Gəncəyə gəlmiş Savad Cavadın rolu əvəzsizdir. O, şeirin yazılma qayda-qanunlarını demək olar ki, Savad Cavaddan öyrənmişdir [6, s.26].

Ə.Cavadın Türkiyəyə olan sevgi və rəğbəti yalnız ayrı-ayrı misra, beyt və dördlüklərdə ifadə olunmur, həm də bu sevgi bütövlükdə onun şeirlərinin ideya, mövzu və ruhunu əhatə edir. Şair şeirlərində bəzən türk, Turan adını çəkmir, lakin biz onun türk xalqlarına, Türkiyəyə olan məhəbbətini, birlik amalını şeirlərinin ümumi ruhunda, bəzən də pafosunda hiss edirik. "Çırpınırdın Qara dəniz" şeiri bu baxımdan diqqət cəlb edir.

Məlumdur ki, türk şairləri Qara dəniz haqqında kifayət qədər əsərlər yazmışlar. Lakin onların heç biri Türkiyədə Ə.Cavadın "Çırpınırdın Qara dəniz" şeiri qədər sevilib qiymətləndirilməmişdir. Bunun bir səbəbi şairin türk dünyasına rəğbəti, sevgisi ilə bağlı idisə, digər bir səbəbi də 1912-ci il dəniz savaşında Türkiyənin məşhur "Həmidiyyə" zirehli gəmisinin Yunanıstanın "Averof" hərbi gəmisini məhv etməsi ilə əlaqəli idi. Ə.Cavad bu hadisədən ilhamlanaraq 1914-cü ildə Gəncədə "Çırpınırdın Qara dəniz" şeirini yazır. Şeir Rusiyanın "Kazbek" hərbi zirehli gəmisinə meydan oxuyan məşhur "Həmidiyyə" hərbi gəmisi və onun hərbi heyətinin qəhrəmanlığı münasibəti ilə qələmə alınmışdır. Atatürklə yaxın münasibətdə olub, "başbakanlıq" və "böyük elçilik" vəzifələrində çalışmış gəminin kapitanı Rauf Orbay bu hünərinə görə "Həmidiyyə qəhrəmanı" kimi şöhrətlənmişdir. Tarixçi alim Muhiddin Nalbəndoğlu bu mövzudan bəhs edərkən yazırdı: "Dünya dənizçilik tarixində ilk korsan zirehlisi kimi tanınan "Həmidiyyə"nin bu hünəri bütün türk xalqlarında qürur hissi yaratmışdır. Şərqilərə, türkülərə keçən bu qəhrəmanlıq məşhur "Çırpınırdın Qara dəniz" şərqisində də yer almışdır [3, s.184].

Türkiyənin qələbəsini qürurla qələmə alan Ə.Cavad şeirdə həm də bütün türk xalqlarının sevincini ifadə etmiş, Vətənindən və bayrağından ayrı düşən Qara dənizin indi ona qovuşmaq, isti nəfəsini duymaq həsrəti ilə çırpınışını vəsf etmişdir. Bu çırpıntılar dalğa və ləpələrin sevinc səsi rəmzinə çevrilir [3, s.42-43]:

Çırpınırdın Qara dəniz
Baxıb Türkün bayrağına!
"Ah!.." deyərdin, heç ölməzdim,
Düşə bilsəm ayağına.
Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən!..
Vəfalıdır gəldi, gedən,
Yol ver Türkün bayrağına!
[6, s.212].

Şeirin Türkiyədə bu qədər sevilib məşhur olma səbəblərindən biri də onun "Mehtər marşları" adı ilə tanınan milli marşlar içində xüsusi yer tutmasıdır. "Mehtər marşları" Osmanlı dövlətinin hərbi musiqi qrupu olan "Mehtər takımı" tərəfindən döyüşçülərin əhval-ruhiyyəsini yüksəltmək məqsədilə əzəmətli bir şəkildə xorla ifa olunurdu [3, s.110].

XX əsrin əvvəllərində Azərbaycanla Türkiyə arasında işgüzar, qarşılıqlı ədəbi, ictimai-siyasi əlaqələrin davamı və inkişafında Əhməd Cavadın xüsusi rolu olmuşdur.

Şairə Milli hökümətin daxili və xarici fəaliyyətində iştirakı üçün 1918-ci il dekabr ayının 22-də Gəncə qubernatoru tərəfindən xarici pasport da verilmişdir. Bununla da o, azad şəkildə İran və Türkiyəyə gedib-gələ bilirdi [5, s.94].

1918-1920-ci illər Qafqaz İslam Ordusunun Bakını düşmənlərdən azad etdiyi dövrdə türkçülük ideyası onun yaradıcılığında istiqlal mövzusu ilə qovuşuq halda əks edilmişdir. Bunu həm onun türkçülük ruhlu şeirlərində, həm də əməli fəaliyyətində müşahidə etmək olar. Ə.Cavadın yaradıcılığında turançılıq türkçülüklə hər zaman paralel şəkildə əks edilmişdir. Onun türkçülüyü, Türkiyə mövzulu əsərləri həm öz yaradıcılığına, həm də romantik poeziyamıza rəngarənglik gətirmişdir. Bu işdə şairin M.A.Ərsoy, R.Tofiq, M.Ə.Yurdaqul kimi istiqlal və türk sənətkarlarından təsirlənməsi də az əhəmiyyət daşımırdı. Türk xalqlarının ədəbiyyatı tarix boyu qarşılıqlı şəkildə inkişaf etmişdir. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Hadi, Almaz İldırım, Hüseyn Cavid, Abdulla Şaiq, Axund Yusif Talıbzadə, Cəfər Cabbarlı və bu kimi digər azərbaycanlı ədiblərin əsərləri Türkiyənin elmi-ədəbi ictimaiyyəti və geniş oxucu kütləsi tərəfindən hər zaman oxunur, öyrənilir. Azərbaycanla Türkiyə arasındakı bu mədəni-mənəvi doğmalıq hər iki xalqın tarixi əlaqələrinin ayrı-ayrı mərhələlərində oxşar şəkildə üzə çıxır [3, s.57].

Əhməd Cavadın Türkiyədə sevilməsi və Cümhuriyyət dövründəki fəaliyyəti sovet imperiyasını narahat edirdi. İdeoloji sahədə rəhbər orqanlar, "Qızıl qələmlər" ədəbi cəmiyyəti, onun fəal üzvləri olan "proletar" şairlər, bir sözlə Ə.Cavadın əleyhdarları vaxtaşırı ona qarşı rəsmi və qeyri-rəsmi çıxışlar edir, haqqında yalanlar uydurur, şairi "düz yola", yəni məcburən yeni quruluşu, onun bütün sahələrdəki işini tərənnüm etməyə çağırır, əks halda, böyük cəzalara məruz qalacağı ilə hədələyirdilər. Belə bir vaxtda Ə.Nazim Moskvada çap olunmuş bir məqaləsində ("Печать и революция", №7, 1929 г.) qeyd edirdi ki, İstanbulda buraxılmış "İstiqlal uğrunda" adlı kitabında Ə.Cavadın da bir neçə şeiri dərc edilmişdir. Bu xəbər şairin ətrafında onsuz da gərginləşmiş bir mühitdə bomba kimi partladı və bu partlayış çox geniş miqyasda əks-səda doğurdu [4, s.16].

Məqaləsinin adını "Sükut edə bilməriz!" ("Kommunist" qəzeti, 3 noyabr, 1929-cu il) qoyan S.Rüstəm heç bir ciddi və əsaslı dəlil gətirmədən "sübut etməyə" çalışırdı ki, Türkiyədə nəşr olunmuş şeirləri doğrudan da Ə.Cavad yazmış, həm də onları "müəyyən məqsədlə" lazımi yerlərə çatdırmışdır [4, s.19].

Ə.Cavad "Kommunist" qəzetinin 1929-cu il 31 oktyabr tarixli sayında "Şiddətli protesto edirəm" məqaləsi ilə yazılanlara cavab verdi: "Aprel inqilabından sonra əlaqədar olmadığım bir təşkilat tərəfindən nəşr edilən bu kitabdan xəbərim

olmadığı kimi, hansı parçaların da ora düşdüyündən xəbərim yoxdur" [Fərəcova Z. Bakı, 2006]. Lakin Ə.Cavadın yazdıqlarına inanmayaraq ona qarşı qarayaxma kompaniyasını davam etdirirdilər.

Ə.Talıblı yazırdı: "On ildən bəri inqilaba qoşulmayaraq əməkçi siniflə yan-yana ayaqlaşmayan, ona yardım göstərməyən Ə.Cavad kimilərin ən axırda... üzr istəməsinə heç bir işçi və kəndli inanmaz!". Belə məsələlərdə xüsusi canfəşanlıq göstərən "Gənc işçi" qəzeti redaksiyası isə bu səpkili yazılar verməklə kifayətlənməmiş, 17 noyabr 1929-cu il tarixli nömrəsində şairin əleyhinə bir "şeir" də çap etmişdir:

...Yetişib Türkiyəyə yazdığı bir çox əsəri,
Yazdığından özünün yaxşıca vardır xəbəri:
Əyləşib Türkiyədə, dəvət edib dərbədəri.
Şeirinə çıxdı yiyə Türkiyə Əhməd Cavadın,
Bicliyi oldu əyan cümləyə Əhməd Cavadın.

1932-ci ilin aprelində ÜİK(b)P MK "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında" xüsusi qərar qəbul etdi. Qərara əsasən bütün ölkədə Proletar Yazıçıları Cəmiyyəti ləğv olunur, "sovet platformasına kömək edən" yazıçıların vahid təşkilatı, SSRİ-nin, yerlərdə isə milli respublikaların Sovet Yazıçılar İttifaqı yaradılırdı. Bu münasibətlə təsis olunan təşkilat komitələri yerlərdə işə başladılar. Bakıda keçirilən tədbirlərdən biri Təşkilat komitəsinin 1933-cü ilin yanvarında çağırılan plenumu oldu. Sözdə məsələ belə qoyulurdu ki, Proletar Yazıçıları Cəmiyyəti bir təşkilat kimi ləğv olunur, hər hansı ədəbi qrupa mənsubiyyətindən asılı olmayaraq ədəbiyyat yaradanların hamısı vahid Yazıçılar İttifaqı ətrafında birləşir. Mənşəcə proletar olmayan köhnə yazıçılara qarşı hücumlar dayandırılır, "cığırdaş" adı verilmiş yaradıcı ziyalılara "yeni dünyanın qurulmasında" yaxından iştirak etmək imkanı verilirdi. Sən demə bu növbəti partiya qərarının əsas məqsədi bolşeviksayağı hiyləgər yollarla ehtirasları qızışdırmaq, eyni xalqa mənsub olan yaradıcı ziyalıların birini o birinin əlilə ifşa etmək, son nəticədə, 1937-ci il soyqırımına zəmin hazırlamaq imiş [4, s.89].

Bu cür ədəbi simalardan biri, əleyhinə olan hücumların sayı və kəskinliyi etibarilə bəlkə də birincisi Ə.Cavad idi. Azərbaycan Şura Yazıçıları Təşkilat Komitəsinin 1933-cü ilin yanvar ayında Bakıda keçirilmiş birinci plenumunun materialları da buna bir sübutdur. Əslində, respublikada Yazıçılar İttifaqı yaradılmasına hazırlığın gedişini müzakirə etmək üçün toplanmış plenumda söhbətin əsas hissəsi yenə də, məhz "köhnə" yazıçıların, o cümlədən Ə.Cavadın taleyinə həsr

edilmişdir. Şairin əsərlərini əksinqilabi yazılar adlandırır, onu hər tərəfdən şiddətlə tənqid və ifşa edirdilər. Buna görə də şair plenumda ətraflı çıxış edərək bu hücumlara cavab verməli olur. Əlbəttə, o özünün bir zamanlar "müsavat yazıçısı" olduğunu etiraf edir.

Yazıçılar İttifaqının martın 18-i açılan plenumunda gündəlikdə əsas iki məsələ durduğuna (onlardan biri A.S.Puşkinin 100 illiyinə, digəri isə Oktyabr çevrilişinin 20 illiyinə həsr edilmişdir) baxmayaraq, ən çox və ən kəskin söhbətlər ədəbi həyatda yol verilən "əyintilərdən", sinfi sayıqlığı qüvvətləndirmək zərurətindən, Ə.Cavadın yeni cəmiyyət quruculuğuna biganəliyindən gedir, şair dönə-dönə açıq-aşkar hədələnirdi. Məruzəçilərdən S.Şamilov qeyd edirdi ki, bütün yazıçılar Oktyabr yubileyinə öz sözünü deməlidir, lakin Ə.Cavaddan bu barədə bir səs çıxmır [Nəbiyev B. Bakı, 2004].

Məlumdur ki, gənc proletar "Qızıl qələmlər" cəmiyyəti öz inkişafında mühüm zərbəni Ə.Cavada qarşı çevirmişdir. Bu da təsadüfi deyildi. Ə.Cavadda ölmüş sinfin ideologiyası davam etdirilirdi. Bu ədəbi taleyi mənə məlum olmayan Feyruz plenum iclasında Ə.Cavadın fəaliyyətinin bir qədər də əvvəlki mərhələsinə diqqəti istiqamətləndirərək göstərir ki, şair Yazıçılar Cəmiyyətinin katibi olanda guya yeni istedadların inkişafına mane olmuşdur. Feyruz fakt kimi bunu göstərir ki, vaxtilə "S.Rüstəm cəmiyyətə daxil olmaq üçün ərizə vermiş, lakin o, komsomolçu olduğu üçün" Ə.Cavad ərizəyə məhəl qoymamışdır.

S.Rüstəmin yuxarıda qeyd olunan çıxışında dediklərindən: "Cavad bizim proletar ədəbiyyatına çox zərər vermişdir. Onun şerlərini isə sinfi düşmənlər məktəblərə qədər yeridirdi... Bu hərəkətlər bizim inqilabi ədəbiyyatın qabağına çıxmaq, onun nüfuzunu öldürmək demək idi (Cavada müraciətlə). Bu qədər yazıçılıq stajın ola-ola partiyamız üçün əsərlərinlə öz səmimiyyətini göstərməli idin. Sən isə bunu etmədin... Nə vaxta qədər bizi aldadacaqsan? Yoldaşlar! Cavad məsələsini konkret qoyuram: O, həmişə bizi aldatdığına görə və bu vaxta qədər özünü göstərmədiyinə görə Yazıçılar İttifaqından çıxarılsın!" [4, s.29-30].

Məhəmməd Əmin Rəsulzadə Əhməd Cavadın taleyinə biganə qala bilmirdi. Mühacirətdə olduğu zamanlarda özünün "mənəvi oğul" adlandırdığı şair haqqında yazırdı: "Milli cərəyanın nümayəndəsi Cavad Axundzadənin (Əhməd Cavad) işi bolşevik dövründə qətiyyən gətirmir. Əski bir "müsavatçı" olduğuna görə onu həbs edirlər. Mətbuat səhifələrində, ədəbiyyat qurultaylarında hər yerdən uzaqlaşdırılır və qovulur. Əsərlərini nəşr etmir və nəşr olunanları isə toplayırlar. Bütün bunlara baxmayaraq onun yazdığı parçalar əldən-ələ gəzərək gənc kommunistlərin arasında

belə yayılır. Cavadın tənqid və təqdirinə ərz edəcək dərəcədə onun təsirinə düşürlər...” [5, s.317].

Faktlara əsasən Əhməd Cavad 1937-ci il martın 21-də Yazıçılar İttifaqından “xalq düşməni” adı ilə xaric edilmiş, 4 iyun gecəsində həbs olunmuş, oktyabrın 12-dən 13-nə keçən gecə isə güllələnmişdir [1, s.85].

Dəhşətli işgəncələrə məruz qaldığına baxmayaraq, Əhməd Cavad ilk aylarda özünə qarşı irəli sürülən ittihamları rədd etmiş, öz məsləkdaşlarından heç kəsə şər atmamış, düşmənlərin tərtib etdiyi, onsuz da çoxsaylı olan qara siyahılara yeni qurbanların əlavə olunmasının qarşısını almışdır. Amma təqiblər, alçaq və fitnəkar donoslar azad düşüncəli insanları gözdən salıb onların vətəndaş azadlığını boğdu.

Vəziyyəti ağırlaşdıran cəhət bir də bu idi ki, istedadına paxıllıq edən qabiliyyətsiz cahillər də mətbuatda, yığıncaq və disputlarda Ə.Cavada qarşı hücumlar edirdilər. O isə dəhşətli dövrün ekstremal şəraitində heç kimi şərə salmır, heç kimə böhtan atmır, öz mövqeyini və xalqına sədaqətini mərdanə müdafiə edir, rəqiblərinə qarşı həmişə açıq çıxış edir, lakin onları özünə düşmən hesab etmir, intiqam almağa çalışmır, insanlara mərhəmət göstərməyə və hörmət etməyə çağırırdı [Xüsusi arxivdə saxlanan qovluq, “Xalq” qəzeti, 7 mart 1992-ci il]. Buna görə də dəfələrlə döyülən, başı yarılan, qulaqları tutulan, yüksək hərarət içində çırpınan şairin gücü axırda özünə çatdı. Beriya, Bağırov, Gerasimov, Markaryan, Qriqoryan zindanlarında tətbiq edilən işgəncələrdən sonra bu çox qüvvətli şəxsiyyətin iradəsi qırıldı və o, özünü “müqəssir” bildi, ədəbiyyat sahəsində “ziyankarlıq” işi apardığını boynuna aldı. 1937-ci il oktyabr ayının 12-də SSRİ Ali məhkəməsinin hərbi Kollegiyası tərəfindən ölüm cəzasına məhkum edildi və elə həmin gecə də tarix bərqərar olandan bu günə qədər çıxarılmış ən ədalətsiz ölüm hökmlərindən biri yerinə yetirildi [1, s.93].

Əslən azərbaycanlı olan Türkiyədə yaşamış tədqiqatçı Hüseyn Baykara xatirələrində qeyd edir: “Hərdən Əhməd Cavadın evinə gedərdim. Bir gün Cavadla qeyri-leqal milli azadlıq komitəsinin rəhbəri doktor Dadaş Həsənzadə və liderlərindən biri Rahim bəy Vəkilli ilə rastlaşdıq. Uzun danışıqlardan sonra mən qeyri-leqal komitənin görkəmli nümayəndələrindən bir hissəsinin müvəqqəti olaraq Azərbaycandan çıxıb getmələrini təklif etdim. Azərbaycan azadlıq mübarizəsinin hər üç lideri mənim təklifimə qarşı çıxdılar və dedilər ki, mən gedim xarici ölkəyə, sən get, o getsin, çox yaxşı, bəs bu bədbəxt talesiz günləri millətlə kim bölüşsün? Çox yaxşı xatırlayıram, Əhməd Cavad və Rahim bəy Vəkilli mənim sözlərimə çox hirsləndilər və bir daha belə sözlər danışmamağı söylədilər” [5, s.322].

Şair başına gələcəkləri əvvəlcədən bilsə belə, son ana qədər vətənini, xalqını tərk etmədi. Bu, o zaman Əhməd Cavad və onun kimi minlərlə xalqının taleyindən nigaran qalan ziyalıların mövqeyi idi.

**Nəticə / Conclusion**

1937-ci il, yazıçı-publisist Flora Xəlilzadənin dili ilə desək, "qara yel" Əhməd Cavada və onun kimi minlərlə xalqını sevən ziyalılara, xalqımıza ağır zərbələr vurdu. Ədəbiyyatşünas pedaqoq Əkrəm Cəfər 1989-cu il 22 iyun tarixdə "Elm" qəzetində belə yazırdı: "Ağ yalandır! Caviddən, Müşfiqdən, Əhməd Cavaddan ..... nə xalq düşməni. Bağırovun məhkəməsində SSRİ prokuroru Rudenko Mircəfərə dedi ki, sən bu xalqın 28 min ziyalısını məhv eləmisən, 28 min seçmə ziyalı zarafatdır?! 28 min seçmə oğul getdi Azərbaycandan, əvəzində 28 min yaltaq, riyakar, satqın, bürokrat "ikiayaqlılar" vəzifə başına keçdi. Vəzifə başına keçib özləri kimi yaltaq, bürokrat kadrlar yetişdirməyə başladılar, camaatı qorxu içində, bir-birinə inamsızlıq hissi ilə tərbiyələndirdilər. Stalinin bugünkü tərəfdarları elə məhz həmin tərbiyə ilə böyüyənlərdir. Həmin şərəfsizlərin nadan xələfləridir".

1937-ci ildən 1989-cu ilə qədər Əhməd Cavadın adı hər yerdən yığışdırıldı, onu xalqın yaddaşından silməyə çalışdılar. Şairin doğulub böyüdüyü torpaqda onun adını unutdurmağa çalışsalar da, bütün qəlbi, məsləki ilə bağlı olduğu doğma Türkiyədə şairin irsini tədqiq edən araşdırmaçılar onu xalqın yaddaşına ömürlük həkk etdirdilər.

Ə.Cavad irsinin tədqiqatçılarından olan Sərvət Gürcan "Çırpınırdın Qara dəniz" şeirindən danışarkən fəxrlə yazır: "Ə.Cavadın "Çırpınırdın Qara dəniz" şeiri 75 ildir ki, milli bir şərqi olaraq nəsillərin könlünü titrətdi, milyonlarla türkün dilində əzbər oldu" [4, s.8].

Maraqlıdır ki, Türkiyədə Ə.Cavad haqqında nəşr edilən kitabların hər ikisinin də adı "Çırpınırdın Qara dəniz" şeirinin misralarından götürülmüşdür (S.Gürcan. "Çırpınırdın Qara dəniz", 1990; İ.M.Yıldırım. "Salam Türkün bayrağına", 1992) [1, s.141].

Əhməd Cavad irsi yalnız ölkəmiz müstəqillik əldə etdikdən sonra tədqiqata cəlb olunmağa başladı. İlk tədqiqat işini Əli Saləddin, Bəkir Nəbiyev və Afina Məmmədli apararaq, onun həyat və yaradıcılığı haqqında xalqımıza müfəssəl informasiya çatdırmağa nail oldular.

Şair müstəqillik əldə edildikdən sonra yenidən doğma vətənində xalqının sevimlisinə çevrildi. Bu gün o, müstəqil Azərbaycanın himni səslənən beynəlxalq tədbirlərdə Əhməd Cavad qələmindən, vətən sevdalı qəlbindən qopub gələn

misralarda yaşayır. Əhməd Cavadın 130 illik yubileyinin keçirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 aprel 2022-ci il tarixli fərman imzalamışdır. Fərmana əsasən respublikamızın elm, təhsil və mədəniyyət ocaqlarında Əhməd Cavad hörmətlə anılır, onun zəngin bədii irsindən söz açılır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Ədalət qızı S. (2011). İstiqlal abidəsi. Əhməd Cavad. Bakı, Nurlan. 271 s.
2. Fərəcova Z. (2006). Qırmızı siyahı. El dərgisi, aprel.
3. Məmmədli A. (2010). Əhməd Cavad və Türkiyə. Bakı, Elm və təhsil.
4. Nəbiyev B. (2004). Əhməd Cavad. Bakı, Ozan. 127 s.
5. Saləddin Ə. (1992). Əhməd Cavad. Bakı, Gənclik. 324 s.
6. Salmanlı R. (2011). Əhməd Cavadın yaradıcılıq yolu. Bakı, Ozan. 214 s.

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 72-85
doi.org/10.48445/u5807-8758-8929-h

**Ə H M Ə D  C A V A D – 1 3 0**

# Əhməd Cavadın “Azərbaycan bayrağına” şeirinin tədrisi təcrübəsindən

***Vəfa Məmmədova***
Qax şəhəri T.İsmayılov adına 5 nömrəli tam orta məktəbi, müəllim. Azərbaycan.
E-mail: vefarif@mail.ru
https://orcid.org/0000-0001-7548-6517

**XÜLASƏ**
Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra təhsil sahəsində həyata keçirilən islahatlar fənn proqramlarında da dəyişikliyin, yenilənmənin aparılmasına səbəb oldu. Ədəbiyyat fənni üzrə yeni təhsil proqramının (kurikulumun) hazırlanması dərsliklərin məzmununda ciddi dəyişikliyə imkan yaratdı. Yaradıcılığının öyrənilməsinə sovet dönəmində qadağa qoyulmuş bir çox ədiblərimizə məktəb dərsliklərində yer verildi. Belə sənətkarlardan biri də Əhməd Cavad idi. Aşağı siniflərdə şairin “Göygöl” şeiri, XI sinifdə isə həyatı, yaradıcılığı və “Səsli qız” poeması tədris edilməyə başlandı. Məqalədə bu cəhətlər diqqət mərkəzində saxlanılmış, şairin tərbiyəvi təsiri ilə seçilən “Azərbaycan bayrağına” şeirinin öyrədilməsi yolları açıqlanmışdır.

**AÇAR SÖZLƏR**
lirika, lirik şeir, fəal təlim, texnologiya, metod

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 19.10.2022
qəbul edilib: 12.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 72-85
doi.org/10.48445/u5807-8758-8929-h



# From the experience of teaching Ahmad Javad's poem "Azerbaijan bayraghina"

***Vafa Mammadova***
Teacher of Gakh city secondary school No.5 named after T.Ismayilov.
Azerbaijan. E-mail: vefarif@mail.ru
https://orcid.org/0000-0001-7548-6517

**ABSTRACT**
After the reconstruction of our country's independence, the reform implemented in the field of education has led to changes and updates in subject programs. The development of a new education program (curriculum) for the subject of literature has led to significant changes in the content of textbooks. Many of our poets, whose work was banned during the Soviet era, were included in school textbooks.One such spectacular artist was Ahmad Javad . The poet's poem "Goygol" was taught in the lower grades, and his life, creativity and the poem "Səsli qız" had been taught in the 11th grade. The article pays attention to these details and explains the ways of teaching the poet's poem "Flag of Azerbaijan" which has a great educational effect.

**KEYWORDS**
lyrics, lyric poem, active training, technology, method

**ARTICLE HISTORY**
Received: 19.10.2022
Accepted: 12.12.2022

**Giriş / Introduction**

Azərbaycanın görkəmli şairi Əhməd Cavad Məhəmməd oğlu Axundzadə yaradıcılığa lirik şeirlərlə başlamış, yaradıcılığı boyunca da lirikaya üstünlük vermişdir. Lakin çap olunmuş əsərlərindən onun siyasi lirikaya daha çox üstünlük verdiyi aydın görünür. Müxtəlif mövzularda qələmə aldığı lirik şeirlərin hər biri sənətkarın həqiqi istedadının təsdiqi kimi qəbul edilmişdir. Onun 1919-cu ildə çap olunmuş "Dalğa" adlı kitabında toplanmış şeirlərinin əksəriyyəti siyasi lirika nümunəsi kimi dəyərləndirilir. Həmin şeirlərdən olan "Azərbaycan bayrağına" istər yayıldığı dövrdə, istərsə də sonralar oxucuların böyük marağına səbəb olmuşdur. Şeiri bu gün də həyəcansız oxumaq mümkün deyil. Şairin coşqun hissləri, həyəcan və fərəhi elə ilk misralardan oxucuda əsərin ideya-məzmununa uyğun ovqatın yaranmasına səbəb olur.

Şeirin yaranma tarixi haqqında qısa giriş sözü şagirdlərdə əsərə böyük maraq oyadır.

Əsərin IX sinifdə tədrisinə 2 dərs saatı ayrılmışdır.

**Birinci saat**

**Mövzu:** Əhməd Cavad. "Azərbaycan bayrağına" əsərinin məzmunu üzrə iş.

**Standartlar:**

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeir və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeir, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir.

**Təlim nəticələri**:

1. Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırır.
2. Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.

**İş forması:** Qruplarla iş

**İş üsulu:** Beyin həmləsi, Müzakirə

**İnteqrasiya:** Azərbaycan tarixi

**Resurslar:** iş vərəqləri, marker, dərslik, kompüter, proyektor

**Dərsin gedişi:**

**Motivasiya:** Dərs Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlayır və şagirdlərin diqqəti monitorda əks olunmuş aşağıdakı misralara yönəldilir.

Daim ucalasan! Savaş günündə

Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm
[B.Vahabzadə].

Qabaran tunc köksümüzdür qalxanımız, sipərimiz,
Əvvəl-axır qıracağız qart düşmənin belini biz.
Alovlarda, çovğunlarda daim yaşa dolasıyıq,
Od yurdunda od tükənsə, özümüz od olasıyıq
[X.Rza Ulutürk].

Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
[Ə Cavad].

Şagirdlərə belə bir sualla müraciət edilir: Sizcə, bu şeir parçalarını birləşdirən ümumi cəhətlər hansılardır?

- vətənpərvərlik ruhu;
- cəsurluq hissləri;
- qəhrəmanlıq duyğusu;
- dövlət rəmzlərinə həsr olunması.

**Tədqiqat sualı:** *Azərbaycanın dövlət rəmzi olan bayrağa həsr olunan əsərlərdə, sizcə, daha çox hansı hiss və düşüncələr öz əksini tapmalıdır?*

**Tədqiqatın aparılması:**

Şagirdlər 4 qrupa bölünür. Hər qrup şeirin bir bəndi üzərində iş aparır. Bunun üçün qruplara şeirin bir bəndi və tapşırıqların yazıldığı iş vərəqləri təqdim edilir.

**Qruplara verilən tapşırıqlar:**

1. Verilmiş bənddəki tanış olmayan söz və ifadələrin mənasını lüğətdən istifadə etməklə və ya kontekstə uyğun olaraq şərh edin.
2. Verilmiş bənddəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.
3. İkihissəli gündəlikdə qeydlər edin.

1.

| **Bənddə daha çox diqqəti cəlb edənlər** | **Bunun səbəbi** |
|---|---|
| | |

**Təqdimat:** Qrup işləri başa çatdıqdan sonra hər bir qrupun təqdimatı dinlənilir. Digər qruplar təqdimatı diqqətlə dinləyərək qeydlər edirlər. Xüsusilə bəndin ifadəli oxusu zamanı sözlərin tələffüzünə, səs tonuna diqqət yetirilir. Şagirdlərin təqdimatları təxminən aşağıdakı formada olur:

**I qrup:**

1. Verilmiş bənddəki tanış olmayan söz və ifadələrin mənasını lüğətdən istifadə etməklə və ya kontekstə uyğun olaraq şərh edin.

*Türküstan* – türklərin yurdudur.

*Quzğun dəniz* – ("Kaspi dənizi", "Xarəzm dənizi", "Gürgan dənizi", "Mazandaran dənizi") Xəzərin qədim adlarından biridir.

*Ərməğan* – hədiyyə deməkdir.

2.

| **Bədii təsvir və ifadə vasitəsi işlənmiş cümlələr** | **Bədii təsvir və ifadə vasitəsinin növü** |
|---|---|
| Türküstan yelləri öpüb alnını | metafor |
| Söyləyir dərdini sana, bayrağım!<br>Ərməğan yollasın yara, bayrağım! | bədii xitab |

3.

| **Bənddə daha çox diqqət cəlb edənlər** | **Bunun səbəbi** |
|---|---|
| Üçrəngli əksini Quzğun dənizdən<br>Ərməğan yollasın yara, bayrağım! | Bu misralarda bayrağımızın rəngləri xatırlanır və bu rənglərin Xəzər dənizində əks olunması onun müqəddəsliyini bir daha sübut edir. |

**II qrup:**

1. *Turan* – Mərkəzi Asiyada tarixi bir ərazidir. Əsl turanlılar Turun nəslindən olan bir türk qəbiləsidir.

*Dövlət quşu* – zənginliyə, xoşbəxtliyə, səadətə qovuşmaq mənasını verir. Həmçinin gözlənilməz uğur qazanmaq mənasında işlədilən ifadədir.

2.

| **Bədii təsvir və ifadə vasitəsi işlənmiş cümlələr** | **Bədii təsvir və ifadə vasitəsinin növü** |
|---|---|
| Kölgən dövlət quşu, qondu başıma. | təşbeh |
| İzin ver gözümdə coşan yaşıma<br>Dinlətsin dərdini aha, bayrağım! | metafor |
| Dinlətsin dərdini aha, bayrağım! | bədii xitab |

3.

| **Bənddə daha çox diqqət cəlb edənlər** | **Bunun səbəbi** |
|---|---|
| Gedərkən Turana çıxdın qarşıma,<br>Kölgən dövlət quşu, qondu başıma. | Turana gedərkən bayrağın kölgəsinin üstünə düşməsini şair başına qonan dövlət quşuna, yəni ona xoşbəxtlik və səadətin nəsib olduğunu işarə edir. |

**III qrup:**

1. *Qayı xan soyu* – Oğuzların boz ox qolundan, osmanlıların da mənsub olduğu bir boy.

*qucamış* – ucalmış

*bəg* – bəyənmək

2.

| **Bədii təsvir və ifadə vasitəsi işlənmiş cümlələr** | **Bədii təsvir və ifadə vasitəsinin növü** |
|---|---|
| Gətirdin könlümə səfa, bayrağım! | metafor, bədii xitab |

3.

| Bənddə daha çox diqqət cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| Qayı xan soyundan aldığın rəngi,<br>Elxanın övladı, dinin dirəgi. | Bayrağın rəngini məhz türk soyundan alması göstərilir. Milli dövlətçilik ənənələrini izləyərək bu müqəddəs Oğuz-Türk yurdunda mövcud olmuş məşhur Elxanilər dövlətinə işarə edir. |

**IV qrup:**

1. Sığınmaq – təhlükədən etibarlı bir yerdə gizlənmək və ya birinə pənah gətirmək, himayəsi altına girmək, daldalanmaq.

Kölgən düşən mübarək yer – kölgənin düşdüyü müqəddəs, əziz yer.

2.

| Bədii təsvir və ifadə vasitəsi işlənmiş cümlələr | Bədii təsvir və ifadə vasitəsinin növü |
|---|---|
| Allahın yıldızı, o gözəl pəri,<br>Sığınmış qoynunda Aya, bayrağım! | metafor, təşbeh |
| Köksümdə tufanlar gəldim irəli | mübaliğə |
| Sığınmış qoynunda aya, bayrağım! | bədii xitab |

3.

| Bənddə daha çox diqqət cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| Allahın yıldızı, o gözəl pəri,<br>Sığınmış qoynunda Aya, bayrağım! | Bayrağın üzərindəki ay və ulduza işarə edilir. Ulduzun gözəl pəri adlandırılması şairin bayrağa olan sevgisinin poetik dildə əks olunmasıdır. |

**Müzakirə və nəticələrin çıxarılması**

Şeir özünün bədii təsir gücü, səmimiliyi və dövlətçilik dəyərlərinə vətəndaşlıq məhəbbəti ilə seçilən, bədii-estetik əhəmiyyətilə diqqəti cəlb edən əbədiyaşar bir əsərdir. Şeirə diqqət edilsə görünər ki, şair bayrağı yalnız tərənnüm və vəsf etmir, həm də onun üzərində əks olunan rəmzi işarələrin mənasını açır, onun müqəddəsliyi və ucalığını hiss etdirir, hətta milli dövlətçilik tarixinə nəzər salır, dövlətçilik ənənələrini izləyərək bu müqəddəs Oğuz-Türk yurdunda mövcud olmuş məşhur Elxanilər dövlətini xatırladır.

**Qiymətləndirmə**

| Standartlar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| 1.1.1. | Tanış olmayan sözlərin mənalarını lüğət və sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | Tanış olmayan sözlərin mənalarını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənalarını, əsasən, lüğətlərdən, sorğu kitablarından aydınlaşdırır. | Tanış olmayan sözlərin mənalarını lüğət və sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. | Şeirdə bədii təsvir və ifadə vasitələrinin bəzilərini müəyyənləşdi-rir. | Şeirdə bədii təsvir və ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə, əsasən, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**İkinci saat**

**Mövzu:** Əhməd Cavad. "Azərbaycan bayrağına" əsərinin təhlili üzrə iş.

**Standartlar:**

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

2.1.2. Mövzuya, problemə müqayisə və ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

**Təlim nəticələri:**

1. Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır.
2. Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış
3. münasibət bildirir.
4. Şeirin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

**İş forması:** Qruplarla iş, fərdi iş

**İnteqrasiya:** Azərbaycan tarixi

**Dərsin gedişi:**

**Motivasiya:** Dərs "Azərbaycan bayrağına" mahnısının səsləndirilməsi ilə başlanır. Şagirdlərin diqqəti mahnının "Qardaş türkün bayrağı" sözlərinə yönəldilir. Onların fikirləri dinlənildikdən sonra tədqiqat sualı formalaşır.

**Tədqiqat sualı:** "*Şeirdə yalnız Azərbaycanın deyil, bütün türk xalqlarının müstəqillik, azadlıq ideyası ifadə edilib*" fikrini doğru hesab etmək olarmı?

**Tədqiqatın aparılması:** Qruplarla iş

**I qrup:**

1. Sizcə, əsər hansı mövzuda yazılmışdır? Şeiri C.Cabbarlının "Azərbaycan bayrağına" şeiri ilə müqayisə etməklə fikrinizi əsaslandırın.

| **Hansı əsasa (əlamətə) görə müqayisə edilir?** | **Ə.Cavadın "Azərbaycan bayrağına"** | **C.Cabbarlının "Azərbaycan bayrağına"** |
|---|---|---|
| Mövzuya görə | | |
| Məzmuna görə | | |

2. Bayrağa aid sinkveyn qurun:
Bayraq

_____
_____
_____
_____
_____

**II qrup:**

1 . Əsərdə əksini tapmış mətləblərdən hansını daha əhəmiyyətli hesab edirsiniz?

| **Əsərdə əksini tapan əsas mətləblər** | **Bunu təsdiq edən nümunələr** | **Mühüm hesab etdiyiniz mətləblərə münasibətiniz** |
|---|---|---|
| | | |

2. Eyler-Venn diaqramındakı doğru fikirləri müəyyən edin.
I – Ə.Cavad "Azərbaycan bayrağına"
II – Torpağın üstünə kölgələr salan,
Mənim varlığımın cilası – bayraq
Zəfərdən doğulmuş,
Göytürkdən qalan,
Qurdbaşlı bayrağın balası bayraq! [B.Vahabzadə].



**III qrup:**

1. Lirik qəhrəman haqqında aydın təsəvvür qazandınız. Onu necə səciyyələndirərsiniz?

| **Lirik qəhrəmanın xarakterindəki başlıca cəhətlər** | **Bunu təsdiq edən nümunələr** | **Lirik qəhrəmana münasibətiniz** |
|---|---|---|
| | | |

2. Ə.Cavadın "Azərbaycan bayrağına" şeirinə aid sillogizm qurun.

**IV qrup:**

1. Əsərin bədii təsir gücünü artıran vasitələrin rolunu nümunələr əsasında aydınlaşdırın.

| **Əsərin bədii təsir gücünü artıran vasitələr** | **Onların rolunu nümunələr əsasında aydınlaşdırın** |
|---|---|
| Sözlərin, ifadələrin uğurla seçilməsi | |
| Uğurlu qafiyələr | |
| Bədii təsvir vasitələri | |
| Bədii ifadə vasitələri | |

2. Ə.Cavadın "Azərbaycan bayrağına" şeiri ilə bağlı doğru fikirləri müəyyən edin:

1. Milli bayrağın dalğalanmasından doğan qürur hissi öz əksini tapmışdır.
2. Bayrağın rəngləri maraqlı məcazlar vasitəsilə təqdim edilmişdir.
3. Lirik qəhrəman bayrağın kölgəsi düşən yerləri müqəddəs hesab edir.
4. Şəhid qanına boyanmış bayraq vətənin rəmzi sayılır.
5. Şeirdə lirik qəhrəmanın həyat sevgisi ifadə olunmuşdur.

**V qrup:**

1. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

| **Əsərdəki başlıca fikir – ideya** | **Nə üçün belə düşünürsünüz?** |
|---|---|
| | |

2. Nöqtələrin yerinə uyğun gələn fikri müəyyənləşdirin:
Ə.Cavadın "Azərbaycan bayrağına" şeirinin lirik qəhrəmanı...

- inadkardır;
- soykökünə bağlıdır;
- vətənpərvərdir;
- dosta sədaqətlidir.

**Təqdimat**

**I qrup:**

Şagirdlər aydınlaşdırırlar ki, milli bayrağımıza həsr olunan digər əsərlərdən fərqli olaraq, bu şeirdə mövzu daha genişdir, elə buna görə də o, başqalarından məzmunca fərqlənir.

**II qrup:**

| **Əsərdə əksini tapan əsas mətləblər** | **Bunu təsdiq edən nümunələr** | **Mühüm hesab etdiyiniz mətləblərə münasibətiniz** |
|---|---|---|
| Bütün türk xalqlarının taleyi | Türküstan yelləri öpüb alnını,<br>Söyləyir dərdini sana,<br>bayrağım! | Biz bir millət, iki dövlətik. Şairin də məhz bu fikri əks etdirməsi şeirə olan marağı daha da artırır. |

**Məlumat mübadiləsi**

Şagirdlərin fəal şəkildə dinləmələri təmin edilir, onlar bir-birinin işi ilə tanış olurlar.

**Məlumatın müzakirəsi və təşkili**

Qrup işinin təqdimatı zamanı səsləndirilmiş fikirlərə münasibət bildirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması**

Şagirdlərdə belə bir qənaət formalaşır ki, müstəqilliyini əldə edən Azərbaycanın milli bayrağının parlament binasının üzərində ucaldılması şairdə böyük sevinc və qürur hissi yaratmış, türk xalqlarının da bu taleyi yaşamasını arzulamışdır.

**Evdə iş.** Esse: "Şeir haqqında düşündüklərim"

## Qiymətləndirmə

| Standartlar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| 1.2.3. | Şeirdəki bəzi bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | Şeirdə bədii təsvir və ifadə vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirdə bədii təsvir və ifadə vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Şeirdə bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. | Şeirin mövzusunu və konfliktini şərh edir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, suallar verir və müəllimin köməyi ilə əsaslandırılmış münasibət bildirir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, münasibətini, əsasən, əsaslandırır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| 2.1.2. | Şeirin mövzusuna, onda qaldırılmış problemə müqayisələr, bəzi hallarda ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | Şeirin mövzusuna, onda qaldırılmış problemə qismən müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | Şeirin mövzusuna, onda qaldırılmış problemə, əsasən, müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | Şeirin mövzusuna, onda qaldırılmış problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

## İstifadə edilmiş ədəbiyyat / References

1. Ədəbiyyat 8-9. (2021). Qiymətləndirmə tapşırıqları. DİM.
2. Həsənov B., Mustafayeva A., Verdiyeva N., Əliyev S. (2020). Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik.
3. Həsənov B., Mustafayeva A., Verdiyeva N., Əliyev S. (2020). Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı nəşriyyatı, 224 s.
4. Hüseynoğlu S. (2009). "Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim". Bakı.
5. https://www.youtube.com/watch?v=Yk5v1tNo-e4

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 86-92
doi.org/10.48445/r1586-0382-7626-y



# Milli istiqlal şairimiz Əhməd Cavad

***Səbinə Əliyeva***
Magistrant, Bakı Dövlət Universiteti. Azərbaycan.
E-mail: sebineeliyeva2014@mail.ru
https://orcid.org/0000-0002-7071-7969

**XÜLASƏ**
Milli istiqlal şairimiz Əhməd Cavad yaradıcılığı ədəbiyyatımızın ən dəyərli nümunələrindəndir. Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Ə.Cavadın poeziyası Xalq Cümhuriyyətinin, o cümlədən Azərbaycan dövlətçiliyinin tərənnümü baxımından xüsusilə zəngindir. Dövlət müstəqilliyinin əldə edilməsi nəticəsində yaranan milli qürur, sevinc və fəxarət duyğuları Azərbaycan istiqlal ədəbiyyatının nəğməkarı, görkəmli şair Ə.Cavadın yaradıcılığında əsas yeri tutmaqla ədəbiyyatımızda yeni və milli poeziya məktəbi yaratmışdır. Ədibin əsərləri yalnız Azərbaycanda deyil, həmçinin Türkiyədə də sevilir və tədqiq olunur. Onun türk dünyasının istiqlal şairləri ilə əlaqələrin qurulub genişlənməsində də xidmətləri böyükdür. 130 illik yubileyini qeyd etdiyimiz dəyərli sənətkarın yaradıcılığının əsasını milli istiqlal ideyaları, azadlıq mübarizəsi və türkçülük məfkurəsi təşkil edir. Şairin milli ruhda yazdığı şeirlər, xüsusən də Azərbaycan Respublikasının dövlət himni dillər əzbəridir. Əhməd Cavadın adı Azərbaycanın istiqlal şairi kimi yaddaşlarda həkk olunmuşdur.

**AÇAR SÖZLƏR**
istiqlal şairi, türkçülük məfkurəsi, azadlıq ideyaları, vətən sevgisi

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 18.10.2022
qəbul edilib: 05.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 86-92
doi.org/10.48445/r1586-0382-7626-y



# Our national independence poet Ahmad Javad

***Sabina Aliyeva***
Master, Baku State University. Azerbaijan.
E-mail: sebineeliyeva2014@mail.ru
https://orcid.org/0000-0002-7071-7969

**ABSTRACT**
The work of our national independence poet Ahmad Javad is one of the most valuable examples of our literature. The poetry of A.Javad, one of the leading figures of Azerbaijani literature, is rich especially in development of the Democratic Republic, including the Azerbaijani state. The feelings of national pride and joy that arose as a result of the achievement of state independence, by taking main place in the works of the famous poet of Azerbaijani independence literature, A.Javad, created a new and national poetry school in our literature. The author's works are loved and being applied not only in Azerbaijan, but also in Turkey. He also made a great contribution to the establishment and widening of relations with the independence poets of the Turkish world. The ideas of national independence, the struggle for freedom, the ideology of turkism form the basis of the creativity of the valuable artist, whose 130th anniversary we are celebrating.

**KEYWORDS**
poet of independence, ideology of turkism, ideas of freedom, love for country

**ARTICLE HISTORY**
Received: 18.10.2022
Accepted: 05.12.2022

## Giriş / Introduction

Görkəmli Azərbaycan şairi Əhməd Cavad ədəbi-ictimai fikir tariximizdə nasir, publisist, romantizm ədəbi məktəbinin istedadlı nümayəndəsi və milli istiqlal şairi kimi məşhurdur. Bu gün Ə.Cavad adı çəkiləndə ruhumuzun qidası, dilimizin əzbəri olan dövlət himnimiz qeyri-ixtiyari olaraq qulaqlarda səslənir.

Əhməd Cavad M.F.Axundzadə, H.Zərdabi, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, İ.Qaspiralı, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Hadi, H.Cavid və bu kimi bir çox mütəfəkkirlərin təməlini qoyduğu Azərbaycan milli ideyası və türkçülük məfkurəsinin davamçısıdır. Danılmaz həqiqətdir ki, şairin adı milli azadlıq və istiqlal ideyaları ilə sıx bağlıdır [Abbasxanlı T. Bakı, 2012].

Ə.Cavadın bədii dili xalq dilinə, aşıq şeiri üslubuna, xalq kaloritinə əsaslanıb. M.Ə.Rəsulzadə yazırdı: "Əhməd Cavad daha ziyadə heca vəzni ilə lirik parçalar yazır və bu lirizmə eyni zamanda milli və siyasi həyəcan qatırdı". Fikrimizcə, onun sözləri Ə.Cavad yaradıcılığını aydın şəkildə təsvir edir. Belə ki, şairin yaradıcılığında nikbin və bədbin rənglər, fərdi və ictimai duyğular birləşmişdir.

Ə.Cavad poeziyasının ideyası istiqlal və azadlıqla bağlı idi. Şairin 1918-ci ildə yazdığı şeirləri azadlığa və ilk Azərbaycan Demokratik Respublikasının uğurlarına həsr olunmuşdur. Heç təsadüfi deyil ki, Azərbaycan və ana mövzusu ilk dəfə olaraq Ə.Cavadın yaradıcılığında işıqlandırılmışdır. Sonralar isə bu mövzunu Ə.Müznib, Ə.Cənnəti, Ə.Yusif, C.Cabbarlı, M.Şəhriyar, M.Müşfiq, S.Vurğun və digər ədəbi fikir nümayəndələri davam etdirmişdir.

XX əsrin əvvəllərində Azərbaycanın romantik poeziyasının bir nümayəndəsi kimi Ə.Cavadın Türkiyə Cümhuriyyəti ilə ədəbi əlaqələrin qurulub inkişaf etdirilməsində, türkçülük və istiqlal ideyalarının formalaşması və təbliğində, iki ölkə arasında ədəbi-mədəni, ictimai-siyasi əlaqələrin möhkəmlənməsində və türk istiqlal şairləri ilə əlaqələrin genişlənməsində danılmaz xidmətləri olmuşdur. Onu da qeyd etməliyik ki, heç bir Azərbaycan şairi Ə.Cavad qədər qardaş ölkə ilə bu qədər bağlı olmamışdır. Ədibin yaradıcılığının ana xəttini türkçülük, din və dil həmrəyliyi təşkil etmişdir[2].

Azərbaycanın milli istiqlal şairi Əhməd Cavad Türkiyə Cümhuriyyətində də çox sevilir. Şairin "Çırpınırdı Qara dəniz", yaxud "Yol ver türkün bayrağına", "Osmanlı ordusuna", "İstanbul", "Al bayrağına", "Göy göl" və s. şeirləri qardaş ölkədə çox məşhurdur. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin

[2] https://manera.az/index.php?newsid=2220

"Əhməd Cavadın 130 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı da Ankarada böyük rəğbətlə qarşılanmışdır.

Türkiyədə qorunub saxlanılan Əli bəy Hüseynzadənin arxivindəki nadir sənədlərdən biri də Ə.Cavadın öz əl yazısı ilə 1918-ci il 1 may tarixində Gəncədə qələmə alıb Ə.Hüseynzadəyə hədiyyə etdiyi "Çırpınırdı Qara dəniz" adlı şeiridir. Müasir dövrümüzdə də aktuallığını qoruyan bu möhtəşəm əsər haqqında Azərbaycan türkoloqları elmi və dövri ədəbiyyatda müxtəlif yazılarla çıxış etmişlər. Tədqiqatçı alim A.Məmmədlinin fikrincə, bu şeir turançılıq – türkçülüyün son mərhələsi, hədəfidir. Heç şübhəsiz ki, bu hərəkat tam halda Azərbaycan ədəbiyyatında da əks olunurdu [Məhərrəmova T. 2010, Bakı].

Türk milləti üçün canını fəda edən, Qara dəniz sevdalısı Ə.Cavad haqqında filologiya üzrə fəlsəfə doktoru Rəhman Salmanlının "Əhməd Cavadın yaradıcılıq yolu" adlı dəyərli kitabında bir daha şairin vətənə olan sevgisi və türk millətinə olan bağlılığının şahidi oluruq.

Hər zaman haqqın tərəfində olan bu səs rusları, erməniləri narahat edirdi. 1936-cı ildə erməni daşnak dəstələrinin başçısı Lalayan yazırdı: "Daşnak dəstələri tərəfindən tutulan türk kəndləri canlı insanlardan təmizlənir, xarabaya çevrilirdi". Bütün bu baş verənləri görmək Ə.Cavadın qəlbini sızladırdı:

Soranlara, mən bu yurdun
Anlatayım nəsiyəm:
Mən çeynənən bir ölkənin
Haqq bağıran səsiyəm!

Ə.Cavad müharibəyə nifrət edir, bu cür savaşların insan zehnindən və həyatından silinməsini arzulayırdı. Bu səbəbdəndir ki, o, müharibənin bütün canlıların həyatına zərbə vurduğunu şeirlərində də dilə gətirirdi. Akademik B.Nəbiyev yazır: "Əhməd Cavad döyüşün bütün mənfi şəkillərini bizə izah edərkən müharibənin uşaqları məhv etməsinə, yolların qonaqsız qalmasına, təbiətin dağıdılmasına, cəmiyyətin əxlaqının pozulmasına səbəb olduğunu, savaşın bu mənfi yönlərini göstərməklə, insanlara bundan uzaqlaşmağı məsləhət görür".

1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması və türk ordusunun Azərbaycana gəlişi xalqın həyatında öz müsbət təsirini göstərdiyi kimi, Ə.Cavadın yaradıcılığında da böyük inqilaba səbəb oldu. Şair Azərbaycan xalqını bolşevik-daşnak əsarətindən xilas etmək üçün köməyə gəlmiş türk ordusunu öz əsərlərində tərənnüm edir, ordunun yalnız azərbaycanlılar qarşısında deyil, bütün

türklər və tərəqqipərvər dünya qarşısında tarixi xidmətlərini vurğulayırdı. "Türk ordusuna" şeirində xilaskar ordu keçmiş SSRİ ordusunu Turandan qovduğu üçün alqışlanırdı:

Ey şanlı ölkənin şanlı ordusu,
Unutma Qafqaza girdiyin günü!
Gəlirkən qovmağa Turandan rusu,
Ayağını Qara dəniz öpdümü?

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılayan Ə.Cavad bədii yaradıcılığı və əməli işi ilə xalqın azadlığı, xoşbəxtliyi uğrunda əlindən gələni əsirgəmirdi. Türk ordusu Azərbaycan birlikləri ilə birgə Bakını azad edən zaman Ə.Cavad da "Müqəddəs Məhmədciklə" çiyin-çiyinə səngərlərdə düşmənlə vuruşurdu. Şairin bu döyüş meydanında yazdığı "Bismillah" şeiri onun milli dəyərə malik lirik əsərlərindəndir [Əlizadə Ə. 2017, Bakı].

Şair 1918-ci ildə Bakıya gələn türk ordusunu salamlamış, onların şərəfinə "Bismillah", "Türk ordusuna" şeirlərini yazmışdır:

Ey hərbin taleyi, bizə yol ver, yol!
Sən ey coşan dəniz, gəl türkə ram ol!
Sən ey sağa, sola qılınc vuran qol,
Qollarına qüvvət gələr, bismillah!

Fikrimizcə, "Bismillah" şeirindən olan bu misralar ədibin milli ruhunu oxuculara ötürən ən dəyərli nümunələrdəndir.

Danılmaz həqiqətdir ki, şairin ADR dövründə yazdığı şeirlər onun yaradıcılığının zirvəsidir. İstiqlal şairinin "Can Azərbaycan", "Azərbaycan, Azərbaycan" şeirləri isə torpağa məhəbbət, vətən sevgisi ilə doludur. Bütün varlığı ilə Azərbaycana bağlı olan Ə.Cavadın bu dövrdə yazdığı əsərlər arasında üçrəngli bayrağımıza həsr olunmuş şeirləri xüsusi yer tutur.

Ölkəmiz Rusiya tərəfindən işğal ediləndən sonra da Ə.Cavad milli istiqlal ideyalarına sadiq qalır. O, sovet dövrü yaradıcılığında ezop dilindən, rəmzlərdən istifadə etsə də, işarələrlə çatdırmaq istədiyi fikirlər öz açıqlığı ilə seçilirdi.

Ədibin 1920-1925-ci illər ərzində mətbuatda cəmi dörd-beş şeiri çap olunur. O zaman onu "sandıq ədəbiyyatının banisi" adlandırıb tənqid edirlər.

Ə.Cavad yaradıcılığında "Göy göl" şeirinin xüsusi yeri vardır. Bu şeir vaxtilə şairə ciddi problemlər yaratmışdır: burada işlədilən "ay", "ulduz", "yaşıl" sözlərinə görə şairi ittiham edirlər. Bu ittihamlara görə Ə.Cavad şeirdə ötən günləri yada salıb, "Müsavat"ı xatırlamışdır:

Sənin gözəlliyin gəlməz ki saya,
Qoynunda yer vardır, yıldıza, aya.
Oldun sən onlara mehriban daya,
Fələk büsatını quralı, Göy göl!

Ə.Cavad xalqımız üçün yanlız ədəbi deyil, eyni zamanda tarixi şəxsiyyətdir. O, təkcə Azərbaycanın yox, bütün türk dünyası xalqlarının gələcəyini düşünərək onların birliyini arzu edirdi. Bu yolda Türkiyənin roluna xüsusi önəm verən Ə.Cavad ümumtürk mədəniyyətinin birliyini və onun daha da güclənməsini görmək istəyirdi. Onun mədəni türkçülük görüşləri türk birliyi və dövlətçiliyi məsələsinə siyasi türkçülüklə qovuşurdu.

**Nəticə / Conclusion**

Görkəmli sənətkar yaşadığı çox qısa, lakin şərəfli ömür yolunda yalnız vətəninin azadlığını, müstəqilliyini, xalqının, millətinin firavanlığını düşünmüşdür. Öz vətənini, xalqını cani-könüldən sevən bir şairin 1937-ci ildən 1985-ci ilə qədər, hətta adının belə çəkilməsinin qadağan edilməsi ürəkağrıdıcı bir hadisə idi.

Böyük şair Əhməd Cavad ömrünün sonuna kimi milli istiqlal ideyalarına sadiq qalmış, hüquqları çeynənən bir ölkənin haqq səsi olmuşdur. Məhbəsdə işgəncələrə, təqiblərə məruz qalsa da bunların heç biri onun iradəsini sındıra bilməmişdir. O, son nəfəsinə kimi Azərbaycanın azadlığına sadiq qalmış və bu yolda şəhid olmuş vətənpərvər kimi, Azərbaycan istiqlalının böyük şairi olaraq yaddaşlara həkk olunmuşdur.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. Abbasxanlı T. (2012). Qara dənizin sevdalısı. “525-ci qəzet”, 25 aprel. Bakı, 7 s.
2. Əhməd C. (2005). Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”. 296 s.
3. Əlizadə Ə. (2017). Milli istiqlal şairi Əhməd Cavad. “Kaspi” qəzeti, 19 iyun. Bakı, 8 s.
4. Məhərrəmova T. (2010). Əhməd Cavad poeziyasının qüdrəti. “Kaspi” qəzeti, 8-14 may. Bakı, 21 s.
5. https://manera.az/index.php?newsid=2220

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 93-108
doi.org/10.48445/o8517-1631-7483-t



# Cəlil Məmmədquluzadə nəsri sosial mühit və zaman kontekstində

***Təyyar Salamoğlu***
Filologiya elmləri doktoru, professor, Əməkdar müəllim. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan. E-mail: tayyarsalamoglu@gmail.com
https://orcid.org/0000-0001-8364-1580

**XÜLASƏ**
Məqalədə "bədii mətn həqiqətlərindən çıxış" kimi müəyyənləşən konsepsiya əsasında C.Məmmədquluzadənin nəsri "Danabaş kəndinin əhvalatları" və "Poçt qutusu" əsərlərinin nümunəsində yeni istiqamətdə dəyərləndirilir. Mirzə Cəlil qəhrəmanlarına sovet metodologiyasından irəli gələn sinfi yanaşmadan imtina edilir. Yazıçının ideya mövqeyi Azərbaycan kəndlisinin avamlığını, cəhalətini təsvir predmetinə çevirməsində yox, müstəmləkə rejiminin Azərbaycan kəndindəki idarəetmə sisteminin mahiyyətinə tənqidi münasibətində axtarılır. "Danabaş kəndinin əhvalatları"ndakı Məhəmmədhəsən əmi və Zeynəb obrazları məntiqi şəkildə düşünə bilən, ictimai vəziyyəti qiymətləndirməyi bacaran, lakin rejimin zorakılıq siyasəti qarşısında geri çəkilməyə məcbur olan, çarəsiz vəziyyətə düşən XIX əsr Azərbaycan vətəndaşlarının obrazları kimi səciyyələndirilir. "Poçt qutusu" hekayəsindəki Novruzəli obrazı "qul psixologiyası"nın daşıyıcısı yox, sosial ədalətsizliyi dərk edərək, ona qarşı etiraz edən qəhrəman kimi dəyərləndirilir.

**AÇAR SÖZLƏR**
bədii nəsr, sosial mühit, zaman konteksti, sosial proseslər

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 02.10.2022
qəbul edilib: 07.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 93-108
doi.org/10.48445/o8517-1631-7483-t



# Jalil Mammadguluzadeh′s prose in the context of social environment and time

***Tayyar Salamoghlu***
Doctor of Philology Sciences, Professor, Honorable teacher. Azerbaijan State Pedagogical University. Azerbaijan. E-mail: tayyarsalamoglu@gmail.com
https://orcid.org/0000-0001-8364-1580

**ABSTRACT**
Based on the concept defined as "exit from the realities of the literary text" in the article, the prose of J.Mammadguluzadeh is evaluated in a new direction through the example of "Danabash kendinin ehvalatlari" and "Pocht qutusu". The class approach derived from the Soviet methodology to the heroes of Mirza Jalil is rejected. The writer's ideological position is sought not in turning into an object of the description of the ignorance of the Azerbaijani peasantry, but in the critical attitude of the colonial regime to the essence of the system of governance in the Azerbaijani village. In the "Danabash kendinin ehvalatlari", the images of Uncle Mahammad Hasan and Zeynab are described as images of 19th-century Azerbaijani citizens who think rationally, and evaluate the social situation, but are forced to retreat in the face of the regime's violent policy. The image of Novruzali in the story "Pocht qutusu" is considered not as a carrier of "slave psychology" but as a hero who noticed social injustice and opposed it.

**KEYWORDS**
artistic prose,
social environment,
timecontext,
social processes

**ARTICLE HISTORY**
Received: 02.10.2022
Accepted: 07.12.2022

## Giriş / Introduction

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının həmişəyaşar, görkəmli nümayəndələrindən biridir. 2019-cu ildə ölməz sənətkarın anadan olmasının 150 ili tamam oldu. "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərancamı"nda deyilir: "Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır".

Ölkə başçısının bu Sərəncamı Azərbaycan tənqid və ədəbiyyatşünaslığını yeni, konseptual elmi mövqelərə istiqamətləndirir, Mirzə Cəlil irsinə qarşı mətbuatda və sosial şəbəkələrdə səslənən bəzi inkarçı mülahizələrin heç bir elmi əsasa malik olmadığını, sovet ideologiyasının təsiri altında ortaya çıxan ədəbiyyatşünaslıq təhlillərindən güc aldığını sübut etməyin, eyni zamanda, bu yaradıcılığın həqiqi milli məzmununu xalqımıza çatdırmağın vaxtı çatdığını bir vəzifə olaraq qarşıya qoyur.

**Məmmədhəsən əmi obrazı bədii mətndə və ədəbiyyatşünaslıqda**

Ədəbiyyatşünaslığımız Məhəmmədhəsən əmini – "Danabaş kəndinin əhvalatları" əsərinin bu məşhur qəhrəmanını avam, vətəndaşlıq düşüncəsindən məhrum bir adam hesab edir və bunun əsas səbəbini onun dini inancında axtarır. Məhəmmədhəsən əmi "şəriətin onsuz da artığa, canlı cənazəyə, ənənəvi şikəstə çevirdiyi" adam kimi xarakterizə olunur [3, s.181]. Bəli, əsərin mətni də təsdiq edir ki, "bu kişi artıq dindar adamdı". Məhəmmədhəsən əminin "artıq dindar adam olması" onun nə mənliyini, nə şəxsiyyətini, nə də sosial səviyyədə düşünmək qabiliyyətini əlindən almamışdır. Əksinə, onun saflığı, əliaçıqlığı, gözütoxluğu, insanlara yaxşılıq etmək istəyi, ailəcanlılığı milli xarakterin təbiəti ilə birbaşa bağlı olsa da, İslam dininə ürəkdən bağlılığının da burada ciddi təsiri vardır. Məhəmmədhəsən əminin dünya işlərindən ayrı düşməsi müvəqqəti xarakter daşıyır. Bu, onun psixoloji cəhətdən ziyarətə getməyə köklənməsi ilə bağlıdır. Onun "dünya malına əsla və qəta talıb" olmaması maddi dünyadan büsbütün əl üzməsi, fəaliyyətdən və hərəkətdən qalmasının əlaməti deyil, çarəsizliyinin və bu çarəsizliyə qarşı gözütoxluğunun, nəfsinə hakim ola bilmək kimi insani keyfiyyətlərinin əlamətidir.

Məhəmmədhəsən əmidə sosial həyatı dərk etmək və dəyərləndirmək, baş verənlərdən nəticə çıxarmaq qabiliyyəti varmı? Başqa sözlə, Məhəmmədhəsən əmi düşünə bilən, yoxsa düşünməyən qəhrəmandır? Bu suala cavab vermək vacib şərtdir, çünki onun bir şəxsiyyət kimi özünütəsdiqi bu sualın cavabından asılıdır.

Müəllif ədəbiyyatşünaslıqda eynitipli qəhrəmanlar kimi səciyyələndirilən Məhəmmədhəsən əmi və Novruzəli obrazlarını (“Poçt qutusu”) oxşar situasiyalarda imtahana çəkir. Hər iki obrazın ictimai düşüncəsi və sosial fəallığı ictimai ədalətsizliyə – katdanın hər ikisinin başına gətirdiyi müsibət və zülmlərə reaksiyalarında sınağa çəkilir. Sosial ədalətsizliyə və vətəndaş aktivliyinə görə Məhəmmədhəsən əmi Novruzəlidən fərqlənir. Buna baxmayaraq Məhəmmədhəsən əmi Novruzəlinin sələfi statusunu qazana bilir. Onun sosial aktivlikdə Novruzəli ola bilməməsinin özündə də tarixi qanunauyğunluqlar var. Azərbaycan kəndində gedən ictimai hərəkatın təkamülü, milli oyanışın formalaşması baxımından Məhəmmədhəsən əmi XIX əsrin 90-cı illərini, Novruzəli isə yeni əsrin ibtidasını, milli azadlıq hərəkatının ərəfə dövrünü təmsil edir. Bu mənada onları bir-birini təkrar edən qəhrəmanlar kimi təqdim etmək tarixi qanunauyğunluq nöqteyi-nəzərindən də yanlışdır.

“Əhvalatlar”da şəriətlə şəriət adından alver edənlər arasındakı fərqin bədii əksi müəllifin estetik konsepsiyasının tərkib hissəsi kimi çıxış edir. Əslində, müəllifin tənqidinin din, şəriət adından alver edənlərə qarşı çevrildiyi əsərdə bütün təfsilatı ilə əks olunur. Elmi ədəbiyyatda, bir qayda olaraq, Zeynəbin faciəsində şəriətin həlledici rolu önə çəkilir; Xudayar bəyin, qlavanın, kənd mollasının bilavasitə şəriət hökmü ilə Zeynəbi faciəyə sürüklədikləri əsas gətirilir. Halbuki bədii mətndə qazının şəriət hökmlərini saxtalaşdırdığı təfsilatı ilə əks olunur, həqiqi şəriət qanunlarında qadının hüququnun qorunması, onun istəyinin əsas şərt olması qazının öz dilindən çıxan sözlərdə əksini tapır: “ – Əzizim, qəndi və çayı gətirərsən, qoyarsan buraya, sonra gedib üç-dörd nəfər kəndinizin əhlindən gətirərsən mənim yanıma. Amma gərək o şəxslər hamısı sənin rəfiqlərindən ola. Onların birisi gəlib mənə deyər ki, həmin övrət mənim anamdır. Bu şəxsə, yəni sənə gəlmək istəyir və məni də bu xüsusda vəkil eləyibdi. Qeyriləri də şəhadət verərlər. Vəssalam. Mən də siğəni oxuram, qurtarıb gedər”.

Qazının sözləri müəllif mövqeyində şəriətlə şəriət adından alver edənlərin fərqləndirilməsi zərurətini önə çəkir. Bu zaman artıq qazı sözün birbaşa mənasında dinin və şəriətin təmsilçisi rolundan çıxır, qazılıq kürsüsündə oturdulmuş məmur kimi siyasi rejimi təmsil edir. Onun “hökm”ünün bütün hökumət məmurlarının yanında keçərli olması da bunu sübut edir. Buna görə də, cəmiyyətdə baş verən sosial bəlaların (povestdə konkret olaraq üç evdə qurulan matəmin) səbəbkarı kimi şəriətin ittiham edilməsi nə obyektiv tarixə, nə də estetik həqiqətə uyğun gəlir.

Müəllifin tənqid ittihamı qazının saxtakarlığından çox, məhz İslam şəriətinə ləkə gətirənlərin siyasi rejim tərəfindən səlahiyyət sahibinə, dinin təmsilçisinə çevrilməsinə yaratdığı sosial şəraitə qarşı istiqamətlənir.

Azərbaycan ədəbiyyatşünaslığında bir çox hallarda estetik həqiqətlərlə elmi həqiqətlərin üst-üstə düşməyib bir-birini tamamlamama səbəbi obraz və yazıçının dünyagörüşü ilə bərabər tədqiqatçının dünyagörüşü arasındakı fərqlə də bağlıdır. Sovet dövrünün ədəbiyyatşünası dünyagörüşü etibarı ilə materialist, onun təhlil predmetinə çevirdiyi əsərlərin qəhrəmanları (burada Mirzə Cəlilin qəhrəmanları) isə idealistdir. Bu isə o deməkdir ki, Məhəmmədhəsən əminin qəzavü-qədərə, alın yazısına inamında qeyri-adi heç nə yoxdur. Ancaq prinsipial məsələ bu deyil. Prinsipial məsələ kimin məntiqinin daha həyati olmasıdır: ədəbiyyatşünaslığın, yoxsa Məhəmmədhəsən əminin?

"Əhvalatlar"ın qəhrəmanı haqqında mülahizə yürüdərkən onun düşüncələri, həyati qənaətləri sonadək elmi təhlil müstəvisinə gətirilmir. Halbuki, Məhəmmədhəsən əminin gördüyü haqsızlıqlara, düşdüyü müsibətli vəziyyətə açıq etiraz edə bilməməsi son dərəcə həyati bir məntiqlə bağlıdır. O, bu haqsızlıqlara qarşı müqavimətini içində boğanda gerçəkliyin öz məntiqindən çıxış edir. Bu məntiq kifayət qədər əsaslıdır. O, özünün də, Xudayar bəyin də gücünü bilir, arxasızlığını, Xudayar bəyin arxasında dayananların kimliyini dəqiq təsəvvür edir. Məhəmmədhəsən əmi əlacsız qalıb "nəçərnik divanxanası"na üz tutanda şikayət edib-etməmək qərarı onun düşüncəsini bütün varlığı ilə məşğul edir. Son nəticədə özünün də, Xudayar bəyin də gücünü düşüncə tərəzisinə qoyub çəkir. Nəticədə Xudayar bəyin gücü qat-qat ağır gəlir. O, bizi "şikayət etməmək" qənaətində haqlı olduğuna inandırır. Yazıçının Məmmədhəsən əminin düşüncə monoloqu kimi təqdim etdiyi aşağıdakı parça tənqidi realizmin "kiçik" qəhrəmanının həqiqətən düşünmək, öz vəziyyətini, reallığı dürüst qiymətləndirmək bacarığına malik olduğunu göstərir: "Axırda üz qoydu nəçərnik divanxanasına səmt. Məhəmmədhəsən əmi o səbəbə nəçərnik divanxanasına gəlmir ki, şikayət eləsin Xudayar bəydən, ya karvansaraçıdan. Xeyr, Allah eləməsin. Məhəmmədhəsən əmi dinc adamdı. Şər ilə, şıltaq ilə arası yoxdu. Bir də ki, indiki əsrdə şikayət eləməkliyin özü elə bir çətin işdi. Ondan ötrü ki, şikayətçi gərək yəqin eləyə ki, şikayəti möhkəm eləyə biləcək. Şikayət də şahidnən möhkəm olur. Amma Məhəmmədhəsən əminin şahidi yoxdu. Ondan ötrü ki, pulu yoxdu. Söz yox, Xudayar bəyin də pulu yoxdu. Söz orasındadır ki, Xudayar bəyin əlində yekə dəyənək var. Nə vaxt kefi istəyir qaldırır, nə vaxt kefi istəyir yendirir. Danabaş kəndində bu yekəlikdə zoğal dəyənəyinin hörməti heç pulun hörmətindən az deyil. O ixtiyar ki dəyənəkdə var, bəlkə pulda yoxdu. Bu səbəblərin

hamısı və bir də o səbəbə görə ki, Məhəmmədhəsən əmi əslində fəqir adamdı, bu səbəblərin hamısına görə Məhəmmədhəsən əmi heç vaxt Xudayar bəydən şikayət eləməzdi".

Ədəbiyyatşünaslıq "əhvalatlar"ın baş verdiyi mühitdə dəyənəyin qeyri-adi funksiya daşıdığını, qeyri-adi güc olduğunu etiraf edir: "Feodal dəyənəyi burada artıq kapitalist bir məqsədə xidmət edir: mümkün qədər çox var-dövlət, kapital, sərvət toplamaq! Bu faktda kənddə gedən maraqlı ictimai proses öz əksini tapır: kəndlilikdə təbəqələşmənin, kənd "kulakı"nın əmələ gəlməsi! Kapitalistləşməyə doğru meyl" [3, s.182]. Lakin ədəbiyyatşünaslıq çox vaxt "dəyənəyin" simvollaşdırdığı ictimai-siyasi prosesləri müəllif müşahidəsinin məhsulu kimi təqdim edir. "Dəyənək"lə simvollaşan "güc"ün sosial münasibətlərdə oynadığı rolu Məhəmmədhəsən əminin bütün dərinliyi ilə başa düşməsi nəzərə alınmır. Çünki bu halda Məhəmmədhəsən əmilər ədəbiyyatşünaslığın tənqidi realizmdəki "xırda adam" üçün müəyyənləşdirdiyi resept-qəlibdən çıxır. Halbuki, bədii mətndə Xudayar bəyin gücü və gerçəklikdə "dəyənəyin" oynadığı rolla bağlı əsərdə əksini tapan mülahizələr açıq-aydın Məhəmmədhəsən əminin daxili monoloqu, düşdüyü ağır vəziyyətlə bağlı öz-özünə vərə-vürdü kimi təqdim edilir. Hətta bu mülahizələri müəllif mövqeyinin ifadəsi kimi qəbul etsək belə, yenə də Məhəmmədhəsən əminin "bu səbəblərin hamısına görə" şikayət etməkdən imtina etməsi ilə bağlı əsərdə özünə yer alan informasiya müəllifin bu qənaətləri qəhrəmanın başından keçən düşüncələr kimi təhkiyə etdiyini sübut edir.

Tənqidi realistlərdə milli varlığa istiqamətlənmiş və "tənqid, yaxud gülüş yolu ilə islah etməklə dirçəlişə və mənəvi oyanışa nail olmağa" hesablanmış tənqid sosrealist tənqidi düşüncədə milli varlığın tarixi xarakterinə inkaredici münasibətlə əvəz edilirdi [Həbibbəyli İ. Bakı, 2007]. Buna görə də realizmin yeni mərhələsində tənqidin ifşa və inkar pafosu bilərəkdən, həm də şişirdilərək önə çəkilir, təsdiq pafosu isə büsbütün inkar olunurdu. Məhz ədəbiyyatşünaslığın bu istiqamətdəki ardıcıl və məqsədyönlü siyasəti bəzən geniş oxucu kütləsinin böyük sənətkarları düzgün başa düşmələrini çətinləşdirirdi.

Məhəmmədhəsən əmini XIX əsrin son dövrü üçün Azərbaycan kəndlisinin tarixi xarakteri kimi səciyyələndirsək, onun baş verən sosial proseslərə münasibətini də təsəvvür etmək olar. Ədəbi qəhrəmanın həyati proseslərin iştirakçısı olan insandan əsas fərqi odur ki, onun psixoloji dünyası və daxili düşüncələri bilavasitə bədii təhlilin predmetinə çevrilir, əməli işlərilə bərabər, düşüncə dünyasındakı "hərəkət"ləri, psixoloji yaşantıları ilə birlikdə dəyərləndirilir.

Povestdə Məhəmmədhəsən əminin öz eşşəyini dinməz-söyləməz Xudayar bəyə verməsi və həlledici məqamda onun "nəçərnik"ə şikayət etməkdən çəkinməsi mütilik, qul psixologiyasının təzahürü kimi düşünülə bilər. Lakin bu yalnız ilk baxışda belədir və obrazın təbiətinin üst qatdan qavranılmasıdır. Halbuki, qəhrəmanların daxili aləminə elmi nüfuz oradakı gərgin psixoloji yaşantıları, düşüncə tələtümlərini görməyə imkan verir. O zaman Məhəmmədhəsən əminin zahirən sakit və məzlum təbiətinin əsl mahiyyətini təsəvvür etmək olardı. Xudayar bəyin eşşəyi apardığı məqamlarda Məhəmmədhəsən əminin düşündükləri bu mənada səciyyəvidir: "Mən indi ta gedib, eşşəyi ondan alıb, kişini yarı yolda qoya bilmərəm ki! Kişi genə, necə olsa, ağsaqqaldı. Adamın genə işi düşər. Necə ola bilər ki, bir eşşəkdən ötrü hakimi özündən incidəsən?". Hərgah ki, bu tip düşüncənin özündə də gerçəkliyi real qiymətləndirmək, "hakim"ə tənqidi münasibət, eşşəyi verməyəcəyi təqdirdə başına gələnləri, dumanlı şəkildə olsa da, təsəvvür etmək kimi mənalar gizlənib. Məhz bu məna potensialları ilə Məhəmmədhəsən əminin daxili düşüncəsində psixoloji mahiyyətli fırtınaqabağı sakitlik aşkar sezilir. Eşşəyin taleyinin "düyün"ə düşməsi məlum olanda və bu "düyün" Məhəmmədhəsən əminin "ailə dramı"nı gerçəkləşdirəndə xarakterin daxilində bir tələtüm başlayır. Yazıçı obrazın daxili gərginliyini bütün həyatiliyi ilə təsvir edir: "Qeyzindən yazıq kişinin alnından tər axırdı". "Alnından axan tər" daxili etirazın fırtınaya çevriləcək ilk təzahürü idi. Bu etiraz özünə və hərəkətlərinə kəskin tənqidi münasibətdə, özünütəhlildə bir qədər də güclənir: "Eh, vallah, mən bir qəpik pula dəymərəm. Mən, doğrudan da, kişi deyiləm ki! Arvad məndən yaxşıdır". Artıq bu cür düşüncə, baş verənlərə daxili, ruhi etiraz son nəticədə mənəvi oyanışa gətirib çıxarır. Qeyzindən alnından axan tər, özünün kişi olmamasını dilə gətirməsi, "arvad məndən yaxşıdır" etirafı Məhəmmədhəsən əminin daxilindən püskürən qəzəb vulkanıdır ki, bu vulkan onun içindəki bütün mütiliyi, ehtiyatkarlığı – hakimə qarşı çıxmamaq düşüncəsini büsbütün silib atır. Həzrət Abbasa ünvanladığı məktub və bu məktubu çavuşa verərkən ağlaya-ağlaya dedikləri, heç də sovet ədəbiyyatşünaslığında iddia edildiyi kimi, onun fanatizminin və mütiliyinin əlaməti deyil. Məhəmmədhəsən əminin hərəkətində və sözlərində "ağlada-ağlada güldürən, güldürə-güldürə ağladan" müəllifin ağlaya-ağlaya ayılan, ayıldıqca özünü dərk edən, dərk etdikcə daha real düşünən qəhrəmanının etiraz səsini eşidirik:

– Apar, qardaş, apar... O ərizəni apar... Apar Həzrət Abbasa. Apar... Mən gedə bilmədim... Gedə bilmədim. Qoymadılar. Məni qoymadılar... Mənim eşşəyimi oğurladılar. Yedilər. Satdılar. Apar ərizəmi, apar. Mən gedə bilmədim...

Məhəmmədhəsən əmi bizi dünyəvi hakimə yox, Həzrət Abbasa şikayətinin məntiqinə inandırır. Onun məntiqi dünya hakimlərinin qanunu və şikayətçinin haqqını deyil, öz şəxsi mənafelərini qoruduqları real düşüncələrində açılır. Məhəmmədhəsən əmi zamanın reallıqları və amansızlığını dəqiq təsəvvür edir. Onun Xudayar bəyə güzəştinin və ondan şikayət etməkdən çəkinməsinin məntiqi kifayət qədər həyatidir. Məhəmmədhəsən əmi düşünür ki, eşşəyi verməræm, o da: "Günün günorta çağı gəldi, nahaq yerə yaxaladı ki, bu qədər iştirafındı ver, onda bəs necə olsun?". Etiraf edək ki, kifayət qədər həyati məntiqdir və XIX əsr çar üsuli-idarəsindəki reallıqları əks etdirir. Müəllif Məhəmmədhəsən əminin düşüncələrində çar üsuli-idarəsindəki hərc-mərclik, miqyassız özbaşınalıqlar haqqında təsəvvürlərimizi get-gedə dərinləşdirir. Qəhrəmanın düşüncələrində özünə yer alan "eşşəyi verməsəm, onda dəxi kənddə baş gəzdirmək olar?" sualında, reallıqla hesablaşmaq məcburiyyəti ilə birlikdə, ona güclü etiraz jesti də sezilir.

**Məntiqi sualın məntiqi cavabı**

Xudayar bəy Zeynəb xəttində açılır. "Əhvalatlar"a Zeynəb ancaq qadın taleyinin bədii təcəssümü kimi daxil olmur. Bu obraz sadəcə qadın hüquqsuzluğunu, XIX əsr gerçəkliyində qadına yaşadılan acı taleyi simvollaşdırmır. Yeri gəlmişkən, bunu da xüsusi vurğulamaq lazım gəlir ki, XIX əsr qadınının hüquqsuz taleyi məsələsinin ədəbiyyatşünaslıqdakı elmi təfsirinin məntiqilə "Əhvalatlar"ın bədii məntiqi heç də üst-üstə düşmür. Məsələn, ədəbiyyatşünaslıq qadın hüquqsuzluğunu, onlara edilən zülmü çox vaxt milli həyat problemləri, feodal-patriarxal mühitin və şəriətin qanunları ilə bağlayır. Lakin "Əhvalatlar"da qadın problemi milli həyat və şəriət qanunları müstəvisində deyil, siyasi rejimin qadın azadlığını tanımaması müstəvisində qaldırılır. Danabaş kəndində üç evdə qurulan matəmin hər biri "Xudayar bəyin baisliyi" timsalında siyasi rejimin cəmiyyət qanunları ilə birbaşa bağlanır. Müəllif İzzətin də, Zeynəbin də, müəyyən mənada, hətta Şərəfin də milli həyat qanunları çərçivəsindəki xoşbəxt həyatının siyasi rejimin bu həyata nüfuzundan sonra pozulduğunu önə çəkir. Hər şeyin pulla satın alınması, hər şeyin "zoğal dəyənəyi"nin hökmünə tabe edilməsi milli həyat qanunlarından güc almır, çar hökumətinin idarəetmə sistemindəki özbaşınalıqların nəticəsi kimi meydana çıxır. Buna görə də Zeynəb problemi ictimai-siyasi sistem çərçivəsində qadına olan münasibət kimi şərh edilməlidir. Bu səbəbdən də əsərdəki Zeynəb xətti yalnız qadın məsələsi kimi deyil, siyasi rejim daxilində milli cəmiyyət insanının vətəndaş hüquqları müstəvisində araşdırılmalıdır. Çünki povestdə məsələ məhz bu istiqamətdə estetik həllini tapır. Əsərdə Zeynəb həm İzzət və Şərəflə, həm də Məhəmmədhəsən əmi ilə eyni taleyi

bölüşür. Məhəmmədhəsən əminin tale yolu həm də Zeynəbin tale yolunda davam etdirilir. Bu obrazlar assosiativ müqayisə planında milli cəmiyyətin çar üsuli-idarəsinə, onun idarəetmə sisteminə fərqli formalarda etirazlarını ifadə edirlər. Hər ikisi məhz bu ifadə planında bir-birinin davamı olan obrazlar kimi meydana çıxır. Məhəmmədhəsən əminin etirazlarında bir passivlik (şərti mənada) duyulsa da, Zeynəbin etirazları açıq xarakter daşısa da, nəticədə hər ikisinin taleyi eyni olur. Məhəmmədhəsən əminin düşünüb etmədikləri ilə Zeynəbin başına gələnlərin məntiqi eyni nöqtədə birləşir və reallığın acı həqiqəti kimi təsdiq olunur. Zeynəbin başına gələn faciələr Məhəmmədhəsən əminin məntiqinin reallığını üzə çıxarır. Zeynəb vəziyyəti real qiymətləndirə bilmir. O, milli həyat və şəriət qanunlarına, insanlıq qanununa istinadən hərəkət edərək haqlı olduğuna inanır. Çünki cəmiyyətin bu qanunlardan tamam kənar bir qanunla – pulun və "zoğal dəyənəyi"nin hökmü ilə idarə olunduğunu bilmir. Ona görə də son nəticədə hakim qüvvələr onun qarşısına Məhəmmədhəsən əminin dəqiq təsəvvür etdiyi real həyat qanununu çıxarırlar: Qlava Kərbəlayı İsmayıl üzünü Zeynəbə tutaraq deyir: " – And olsun o bizi yaradana, əgər naz-qəmzə eliyəsən, mən səni qoymaram ki, bu kənddə baş dolandırasan".

Müəllif mövqeyində də cəmiyyətdə işlək olan "qanunlar" göstərilir, Zeynəbin təslimindən başqa bir yolunun olmadığı dilə gətirilir. Müəllif mövqeyində Zeynəbin qarşı durduğu qüvvələrin Zeynəblərin (Məhəmmədhəsən əmilərin) qüvvəsindən qat-qat güclü olduğu əks olunur. Məsələlərə tam realist, həyat həqiqətlərinə (burada sosial həyat) uyğun həll verilir. Müəllif Məhəmmədhəsən əmilərin, Zeynəblərin etirazını o həddə qədər gətirə bilir ki, onların gücü ancaq bura qədər çatardı. Beləliklə, Məhəmmədhəsən əmi və Zeynəb Mirzə Cəlilin nəsrinə "etirazçı qəhrəmanlar" kimi daxil olur və eyni taleyi yaşayırlar.

**"Poçt qutusu" qəhrəmanının tarixi və estetik mahiyyəti**

Azərbaycan ədəbiyyatşünaslığı poçtxananın nə olduğunu bilmədiyi və ağasına sədaqətlə qulluq etdiyi üçün Novruzəlini ("Poçt qutusu") avam və nadan, qul psixologiyalı, sosial düşüncədən məhrum obraz kimi xarakterizə etmişdir. Vəli xan obrazından isə varlı təbəqəni təmsil edən istismarçı tip kimi söhbət açılmış, əsərin ideya-məzmunu bütövlükdə sinfi münasibətlər kontekstində şərh olunmuşdur.

Halbuki bədii mətn bizə Novruzəli və Vəli xan obrazlarına, onlar arasındakı münasibətlərə fərqli müstəvidə yanaşmağa imkan verir. Düşünürük ki, bu yanaşma obrazların xarakterini və onlar arasındakı münasibətlərin tarixini, estetik mahiyyətini daha obyektiv şəkildə meydana çıxarır.

XX əsrin ilk illərində Azərbaycanda milli ictimai düşüncənin təşəkkülü və təşkilatlanması prosesi gedirdi. Milli burjuaziya istər sənaye, istərsə də kənd

təsərrüfatında öz yerini möhkəmləndirdikcə çarizmin müstəmləkə siyasətinə müqaviməti də güclənirdi. Bu baxımdan kənd burjuaziyası ən geniş mənada Azərbaycan kəndlisinin müdafiəçisi və arxası rolunda çıxış edirdi. Əlbəttə, kənd burjuaziyası və kəndlisi müxtəlif sosial təbəqələri təmsil edirdilər və onlar arasında iqtisadi mənafe əksliklərindən qidalanan müəyyən ziddiyyətlərin, qarşıdurmaların olması qaçılmaz idi. Lakin milli ictimai şüurun inkişafı sürətləndikcə kənd burjuaziyası və kəndli müstəmləkə zülmünə qarşı çıxır, milli özünüdərk və təsdiq kontekstində birləşə bilir, birincilər ikincilərin öz hüquqlarını dərk etməsi, çar üsuli-idarələri qarşısında öz mənafelərini müdafiə edə bilməsinə maraq göstərirdilər.

"Poçt qutusu"nda cərəyan edən hadisələr, bu hadisələrdə əsas qəhrəman rolunda çıxış edən Novruzəli kənddə gedən sosial proseslərdən, kəndlinin öz hüququ uğrunda mübarizəsini gerçəkləşdirən milli hərəkatdan kənarda deyildi. Fikrimizcə, Novruzəli oxucuya konkret tarixi şəraitin estetik ifadəsi olaraq Azərbaycan kəndlisinin ictimai şüurunda yaranan oyanışın təmsilçisi kimi təqdim olunur. Lakin obrazın estetik funksiyası bununla məhdudlaşmır.

Ədəbiyyatşünaslıq Novruzəli obrazını bu qədər ağır ittihamlarla yükləyəndə onun istinad etdiyi estetik həqiqət nədən ibarət olur? Novruzəliyə qarşı yönəlmiş bütün ittihamlar öz başlanğıcını qəhrəmanın poçt qutusunun nə olduğunu bilməməsi ilə bağlıdır. Heç şübhəsiz, poçt qutusu cəmiyyətin mədəni tərəqqi yoluna çıxmasının əlamətlərindən biridir. Lakin mədəni tərəqqinin bütün vasitələri hər yerə həmişə eyni zamanda çatmır. Radionun, televiziyanın və başqa informasiya mənbələrinin olmadığı bir vaxtda bu, tamamilə qanunauyğun bir prosesdir. Novruzəli cəmiyyətdə gedən texnoloji proseslərdən kənarda qalan ucqar bir kəndin sakinidir. Bu və ya başqa formada özü də buna işarə edir: "Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?". Ədəbiyyatşünaslıq kiçik bir erməni uşağının, qoca rus qadınının bu texniki prosesi öz məişət həyatının tərkib hissəsinə çevirməsini qeyri-millətlərin "seyrə balonlarla çıxması", bizim millətin geridə qalması hesab edərək, qəhrəmanın "baş töhməti"nə çevirir.

"Poçt qutusu" hekayədir. Hekayədə isə hadisələrin təfsilatı yox, detallar, ştrixlər əsasdır. Müəllif öz niyyət və məramını bu detal və ştrixlər əsasında irəli sürür. Bu mənada erməni uşağının, rus qadınının poçt qutusu ilə rəftarı, doğrudan da, mədəni tərəqqinin əlamətidir. Onların poçt qutusundan düzgün istifadə etməyi bacarması tam təbiidir. Çünki onlar mədəni inkişafın içindədirlər. Novruzəlinin poçt-

dan, teleqrafdan xəbərsizliyi cəhalətin, nadanlığın, avamlığın əlaməti yox, mədəni geriliyin əlamətidir. Ancaq erməni uşağı da, rus qadını da şəhərdə yaşayır, Novruzəli isə ucqar bir kənddə. Bu səbəbdən kəşfi və tətbiqi çox da uzaq zamana aid olmayan poçt və teleqraf haqqında məlumatsızlıq Novruzəlinin düşünməyən və hərəkətsiz, ictimai cəhətdən "çəkisizlik" şəraitində yaşayan bir qəhrəman olmasının dəlili ola bilməz. Hekayədə, geniş mənada mədəni tərəqqi baxımından xalqları qarşı-qarşıya qoymaq tendensiyası yoxdur. Çünki əsərdə Novruzəlinin şəhərdə yaşayan soydaşlarının poçt qutusu ilə rəftarına, mədəni tərəqqinin poçt, teleqraf kimi vasitələrindən istifadəsinə kifayət qədər geniş yer ayrılıb. Novruzəlidən fərqli zümrəyə mənsub Vəli xan, hətta Novruzəli ilə eyni ictimai təbəqədən olan nökər də poçtdan, teleqrafdan istifadəni adi məişət işi kimi qəbul edir. Novruzəlinin poçt qutusu ilə rəftarı nə qədər komik situasiyada təsvir edilib, hekayənin süjet xəttində nə qədər iri planda təqdim edilsə də, bu detal eyni zamanda millətin maariflənməsi, mədəni tərəqqisinin zəruriliyini şərtləndirsə də, ancaq Novruzəlini "ictimai məzmun cəhətdən "müflis" elan etməyə" əsas vermir. Bəlkə hekayədə "Novruzəli də diksinməli, hərəkətə gəlməli"dir qənaətinə də yer var, ancaq onu "yuxulayan, yatan qəhrəman" elan etməyə heç bir əsas yoxdur [3, s.179].

Novruzəlinin boynuna qoyuruq ki, o, "düşünməyən qəhrəmandır", "narahat yox, narazı yox, razı qəhrəmandır! Üsyan edən, fəryad edən yox, yuxulayan, yatan qəhrəmandır. Ədalət, həqiqət, haqq, nahaqq haqqında heç düşünmək istəməyən qəhrəmandır" [3, s.178].

Tənqidi realizmdə aparıcı qəhrəman tipi kimi qəbul edilən "kiçik adam"a verilən bu xarakterik xüsusiyyətlər ədəbiyyatşünaslığımızda indiyə qədər heç bir etiraz doğurmamış, yeni realizm tipinə məxsus qəhrəmanın əsas təyinedici əlamətləri kimi birmənalı qəbul olunmuşdur. Lakin Novruzəliyə – "kiçik qəhrəman"ın modelinə verilən bu xarakteristika bədii mətnin həqiqətləri ilə təsdiq olunurmu? Xeyr, təsdiq olunmur.

**Novruzəli şikayətçi qəhrəman statusunda**

Bir janr kimi hekayədə hadisələrin təfsilatlı təsvirinin əsas olmadığını, hadisəyə işarə edən səciyyəvi detalların – ştrixlərin süjetin inkişaf dinamikasını təmin edən, müəllif mövqeyini gerçəkləşdirən, obrazın xarakterini açan uyğun vasitə, prinsip olduğunu artıq qeyd etmişik. Bu prinsiplə yanaşanda hekayədə Novruzəlini razı yox, yuxulayan, yatan yox, narazı, narahat və hətta üsyan edən, fəryad edən bir qəhrəman kimi səciyyələndirməyə əsas verən ciddi detal, işarə var. Axı, Novruzəli ilə ilk tanışlığımızda, ağzını açıb danışanda biz onu mağmun və məzlum birisi kimi yox, mövcud sosial şəraitlə barışmayan, içində yaşadığı mühitdəki sosial ədalətsizliyi

qəbul etməyən və ona tənqidi münasibət göstərən bir insan kimi tanıyırıq. Novruzəlinin sosial düşüncədən məhrumluğunu önə çəkməyi qarşısına məqsəd qoyan ədəbiyyatşünaslıq bütün hallarda onun Vəli xana dediyi "Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam..." – sözlərini ictimai, vətəndaşlıq düşüncəsindən məhrumluğunun əsas göstəricisi kimi dönə-dönə qabardır, təhlil müstəvisinə gətirib mənalandırır. Lakin Novruzəlinin birinci "söz"ünün arxasınca gələn ikinci "söz"ü bu "təkzibedilməz dəlil"i heçə çıxardığı üçün ədəbiyyatşünaslıq onun üstündə təfərrüatlı dayanmağı, qəhrəmanın vətəndaşlıq düşüncəsinin, sosial özünüdərkinin, sosial ədalətsizliyə etirazının, bu etirazı "söz"dən əmələ keçirmək üçün atdığı addımın mahiyyətinə varmağı lazım bilmir. Bu ikinci "söz" nədən ibarətdir? Vəli xanla Novruzəli arasındakı aşağıdakı dialoqa diqqət yetirək:

"Xan üzünü tutdu qonağa:

– Novruzəli, poçtxananı tanıyırsan?

Novruzəli cavab verdi:

– Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?

– Çox əcəb, nəçərnik divanxanasını ki, tanıyırsan?

– Bəli, xan, başına dönüm, tanıyıram, niyə tanımıram. Keçən həftə mən elə gəlmişdim nəçərniyin yanına şikayətə. Xan, and olsun sənin başına, bizi katda çox incidir. Əslinə baxsan bizim bu katdamız özgə tayfadandı; odu ki, bizi görməyə gözü yoxdu, keçən həftə mənim iki buzovum itmişdi. Getdim...".

Dialoqdan məlum olur ki, Novruzəli elə keçən həftə "nəçərnik divanxanası"na şikayətə gəlibmiş. Məqsədi də kəndxudanın onları incitməsi ilə bağlı "nəçərnik"ə şikayət etmək imiş. Novruzəlinin "nəçərnik divanxanası"na şikayətə gəlməsi bir ümumiləşdirici detal olaraq onun "razı" yox, birmənalı şəkildə "narazı" qəhrəman olduğunu sübut edir. Novruzəlinin divanxanaya gəlişi təhtəlşüur yox, düşünülmüş, dərk edilmiş hərəkətdir. Onun kənddəki sosial ədalətsizliklə nəinki barışmamasının, hətta bu ədalətsizliyə aktiv etirazının göstəricisidir. Dialoqdan görünür ki, Novruzəli bir kəndli olaraq haqqını bilir. Onun kəndxudadan şikayətə gəlişi də mövcud qanunlardan baş çıxartması haqqında düşünməyə əsas verir.

**Novruzəli – Vəli xan münasibətləri**

Bu münasibətlər Azərbaycan kənd burjuaziyası ilə kəndlisi arasındakı tarixi gerçəklikləri simvollaşdırmaq baxımından da kifayət qədər maraq doğurur.

Prof. Yaşar Qarayevin qənaətinə görə "möhtəşəm bir xarakter, şəxsiyyət və insan Novruzəliyə çevrilərkən" "şəxsiyyət olmaq haqqı"nı itirir. Novruzəlinin "şəxsiyyət olmaq haqqı"nı itirməsinə əsas kimi Y.Qarayev də daxil olmaqla əksər

ədəbiyyatşünaslar onun Vəli xana münasibətini və ona dediyi aşağıdakı sözləri əsas gətirirlər: "Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam...".

Ədəbiyyatşünaslığın ümumi rəyinə görə, bu sözlər Novruzəlinin xarakterinin qul psixologiyasına köklənməsinin göstəricisi, onun öz sosial hüquqlarını bilməməsi, vətəndaş düşüncəsindən, şəxsiyyət olmaq imkanından məhrumluğunun əlamətidir. Ədəbiyyatşünaslığın bu tipli təhlilləri Novruzəli – Vəli xan münasibətlərini sinfi müstəvidə qiymətləndirmədən təkan alır. Bu zaman onların münasibətlərinin milli zəminə söykənən iqtisadi və mənəvi, həmçinin psixoloji əsasları tamam unudulur. Ədəbiyyatşünaslıq təhlillərində xan tüfeyli və istismarçı sinfin nümayəndəsi kimi qəbul edilir, onun aşağı təbəqəyə (burada Novruzəliyə) münasibəti marksist fəlsəfənin əsaslandırdığı kimi, siniflərarası antoqonist ziddiyyətlər prizmasından şərh edilir. Vəli xan tüfeyli, istismarçı təbəqənin təmsilçisi olaraq Novruzəliyə (Novruzəlilərə) düşmən sinfin nümayəndəsi kimi təsvir edilir.

Ədəbiyyatşünaslıq bunu da etiraf edir ki, "xanın həqiranə gülüşü bizi hiddətləndirir; biz onun gülüş və qəhqəhələrini bir qədər də tündləşdirib, qəzəb hissi ilə yoğurub xanın öz üzərinə yağdırırıq" [2, s.56]. Bədii əsərdə özünə yer alan yuxarı təbəqə nümayəndələrinə ədəbiyyatşünaslığın nifrət dolu, ikrahedici baxış pafosu nəticə etibarı ilə ona gətirib çıxarır ki, bədii mətndə özünə yer alan yuxarı və aşağı təbəqə nümayəndələri ilə qarşılıqlı əlaqə və ünsiyyətinin heç bir mənəvi, psixoloji məqamları elmi təhlilə cəlb edilmir. Vəli xanın Novruzəliyə insani münasibəti, onların bir-birini başa düşüb anlamaq və dəyərləndirmək müstəvisində qarşılıqlı ünsiyyəti Məhəmmədhəsən əmi – Xudayar bəy münasibətləri ilə eyniləşdirilir. Ədəbiyyatşünaslıq Azərbaycan kəndlisinə münasibətdə Vəli xanla Xudayar bəy arasında köklü fərqi bir kənara qoyur, onu elmi təhlilə cəlb etməyə lüzum görmür. Məsələ burasındadır ki,Vəli xanın Novruzəliyə xoş münasibəti əsasında Vəli xanla Xudayar bəy arasında kəskin fərq dayanır. Müəllif bunun fərqinə varır, amma ədəbiyyatşünaslıq yox. Novruzəli ilə xanın münasibətlərini iqtisadi münasibətlərin xarakteri müəyyənləşdirir. Niyə düşünmürük və ya düşünmək istəmirik ki, Novruzəli, doğrudan da, qul psixologiyalı bir adamdırsa, onda o, kəndxudanın zülmkarlığını necə dərk edir, özünün bu zülmü haqq etmədiyini necə başa düşür? Qul psixologiyasına malik adam, müasir anlayışla desək, manqurt düşüncəli insan kəndxudanın zülmkarlığı barədə hakim dairələrə şikayət etmək, başqa sözlə, öz haqqını müdafiə etmək fikrinə düşə bilərmi? Şübhəsiz ki, xeyr. Maraqlıdır, kəndxudanın zülmünü heç bir tərəddüd etmədən yuxarı dairələrə çatdıran və aktiv şəkildə öz haqqını tələb edən Novruzəli niyə Vəli xana yanaşmalarında çevrilib tamam başqa adam olur. Ondan nəinki şikayət etmək, narazı qalmaq haqqında

düşünmür, hətta özünü ona borclu hesab edir, xanı özünün hamisi gözündə görür. İnsan təbiətinə, onun psixologiyasına az-çox bələdlik heç bir şübhə yeri qoymur ki, insan ona zülm edən, qanını soran kimsəyə heç vaxt aşağıdakı sözləri deməz:

" – Bəli, başına dolanım, xan, qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın!..".

Belə sözlər insanın dilinə daxili, ürəkdən gələn minnətdarlıq duyğularının birbaşa təlqini ilə gəlir. "Sənsiz mənim bir günüm olmasın" ifadəsi öz xarakterinə görə alqışdır. İnsanın insana sonsuz məhəbbət hissindən güc alır. Biz Novruzəlini cəsarətli, lazım gələndə öz haqqı, hüququ uğrunda çəkinmədən çarpışan bir insan kimi tanıyırıq. Kəndxudadan şikayəti də, poçt məmuruna qarşı hərəkətləri də qul təbiətinin, məzlumluğun onun xarakterinə yad olduğunu göstərir. Müəyyən münasibətlə Novruzəli özü də buna işarə edir: " – Niyə, mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Məni o qədər də xam bilmə. Heç nəçərnik də bu kağızı mənim əlimdən ala bilməz". Bu sözlər Novruzəlinin dilindən təbii bir duyğunun ifadəsi kimi çıxır və onun ümumiyyətlə özünəxas cəsarətli kəndli təbiətinə malik olmasından xəbər verir. Deməli, "nəçərnik"ə münasibətdə belə cəsarət nümayiş etdirmək gücünə malik bir insanın qarşısında xanın ikiqat əyilməsi qul psixologiyasının təzahürü sayıla bilməz. Bu, Vəli xan – Novruzəli əlaqələrinin hansısa iqtisadi münasibətlə tənzimləndiyini, bu tənzimlənmənin qarşılıqlı hörmətə əsaslandığını, mənəvi bağlılığa gətirib çıxardığını düşünmək üçün bizə əsas verir.

Biz Novruzəlinin yerini bu iqtisadi münasibətlər sisteminin içində arayırıq. Çünki hekayədə məsələnin bu tərəfinə açıq-aydın işarələr edilmişdir. Hekayədə oxuyuruq: "Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisi "İtqapan" kəndinin əhli Novruzəlidi. Bu şəxs çox vaxt xanın yanına gəlib-gedər və hər gələndə olmaz ki, undan, ərişdədən, baldan, yağdan gətirməsin. Bu səfər də Novruzəli əliboş gəlməmişdi". Diqqətimizi o da çəkir ki, Novruzəlinin gətirdikləri xanın malikanəsində "sovqat" kimi qəbul olunur. Xanla nökər arasındakı dialoq bu baxımdan səciyyəvidir:

" – Xan, bu ulaq kimindi, bu şeyləri kim gətirib?

Xan cavab verdi:

– Ədə, o şeyləri yerbəyer elə! Oları bizə itqapanlı Novruzəli sovqat gətirib".

Hekayənin bütöv məzmunundan görünür ki, Vəli xan – Novruzəli əlaqələrində "ictimai yuxarı"nın "ictimai aşağı"ya istismarçı, zülmkar münasibətindən söhbət gedə bilməz. İlk növbədə, xanın gözütoxluğu, öz kəndlisinə hörmətlə yanaşması

diqqət çəkir. “A kişi, Novruzəli! Bu nə zəhmətdi çəkmisən?” sözləri xanın öz kəndlisinə insani münasibətinin ifadəsidir. Novruzəlinin gətirdiklərinin az-çoxluğu ilə də qətiyyən maraqlanmaması, onun gətirdiklərini həqiqətən sovqat şəklində qəbul etməsi xanın istismarçı, zülmkar xarakteri ilə bağlı düşünməyə heç bir əsas vermir. Bizə elə gəlir ki, Vəli xan haqqında “heç bir iş görmədən, zəhmət çəkmədən, hazır mədaxil hesabına yaşayan bir tüfeyli” kimi danışmağın vaxtı çoxdan keçmişdir [4, s.31]. Çünki hekayənin mətn materialı Vəli xanı bizə alicənab, gözütox, mədəni və işgüzar xarakterli bir insan kimi təqdim edir. Hekayədə Vəli xanın işgüzar bir insan olmasına işarə edən, onun daha çox iş həyatı ilə maraqlandığını sübut edən, Novruzəlinin sovqatının onun maddi təminatında əhəmiyyətli yer tutmadığını göstərən xəsiscəsinə işarə edilmiş, lakin çox səciyyəvi bir detal var. Bu detal xanın İrəvan səfərinin vacibliyi ilə bağlıdır: “Xan çox tələsirdi İrəvana getməyə, çünki xanı orada çox vacib işlər gözləyirdi”. Xanın İrəvana səfərində işgüzar məqsəd öndədir. Onun arvadına qayğıkeş münasibəti, Novruzəlinin “ərköyün” hərəkətləri müqabilində səbrli və təmkinli davranışı, “ictimai aşağı”nın nümayəndəsi ilə mədəni rəftarı xanın ziyalı xarakteri haqqında fikir formalaşdırır. Hekayənin mətnaltı qatları bizə bunu deməyə əsas verir ki, belə müsbət xüsusiyyətlərə malik olan xanın öz kəndlisinə çox yaxşılıqları keçmişdir. Biz hekayədə Novruzəlini maddi təminatında heç bir problemi olmayan Azərbaycan kəndlisi kimi görürük. Ədəbiyyatşünaslığımızda da etiraf olunmuşdur ki, “onun bütün hərəkətləri, arzu və istəkləri sadə bir kəndli üçün səciyyəvidir. O, hər dəqiqə bir zəhmətkeş, təsərrüfatçı və iş adamı kimi görünür” [4, s.31]. Ədəbiyyatşünaslıqda onun iqtisadi cəhətdən təmin olunmasına, “zəruri olan hər şeyinin varlığına, bunun “gətirdiyi sovqatdan da aydın görünməsi”nə [Y.Qarayev] də işarə edilmişdir. Mətndə bəzi əlavə detallar da var ki, doğrudan da, Novruzəlinin bir kəndli kimi maddi cəhətdən problem yaşamadığını sübut edir. Elə isə onun maddi cəhətdən təmin olunmasının, əldə etdiyi iqtisadi imkanların mənbələri haqqında düşünmək qaçılmaz zərurətə çevrilir. Novruzəli – Vəli xan münasibətlərindəki məhrəmlik, Novruzəlinin öz ağasına sonsuz minnətdarlıq hissi bu “təminat”ın köklərini Vəli xana bağlayır. Məhz bu “bağlar” Vəli xan – Novruzəli münasibətlərini əks sosial təbəqələrin qarşıdurması yox, aşağı və yuxarı təbəqənin bir-birini başa düşməsi, ictimai şüurun inkişafı nəticəsində milli “ictimai yuxarılar”ın milli “ictimai aşağılar”a qayğı göstərməsi, milli tərəqqinin məhz bu cür milli birlik əsasında təmin olunacağına inamlarının təyin etməsi haqqında düşünməyə əsas verir.

## Nəticə / Conclusion

Beləliklə, Məhəmmədhəsən əmi və Zeynəb Mirzə Cəlilin nəsrinə etirazçı qəhrəmanlar kimi daxil olaraq eyni taleyi yaşayırlar. Lakin onlar bir-birinin təkrarı deyil. Məhəmmədhəsən əmidə sosial həyatda baş verənlərə münasibət daxili etiraz şəklində, Zeynəbdə isə açıq etiraz şəklində təzahür edir. Məhəmmədhəsən əmi və Zeynəb obrazlarından fərqli olaraq Novruzəli onlardan bir addım öndə dayanır. Bu "addımı" ilə o, Mirzə Cəlil nəsrinə şikayətçi qəhrəman statusunda daxil olur.

Məhəmmədhəsən əmi "nəçərnik divanxanası"na gələrkən daxilən son dərəcə qəzəbli olsa da, Xudayar bəydən şikayət etməyə özündə güc tapa bilmir. Novruzəli isə "nəçərnik divanxanası"na şikayət məqsədilə gələrək heç bir tərəddüd etmədən şikayətini edir. Bu fakta əsaslanıb Novruzəlinin Məhəmmədhəsən əmidən bir addım önə keçməsi və katdadan şikayət etməyə cəsarət etməsinin sosial səbəbləri haqqında düşünmək lazım gəlir. Bu zaman nəzərə alınması vacib olan şərt ondan ibarətdir ki, Məhəmmədhəsən əmi və Novruzəli fərqli sosial mühit və zamanları təmsil edirlər. Onların yaşadığı sosial zamanlar arasında onillik zaman fərqi dayanır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Həbibbəyli İ. (2007). Ədəbi tarixi yaddaş və müasirlik. Bakı, Nurlan.
2. Hüseynov F. (1977). Adi əhvalatlarda böyük həqiqətlər. Bakı, Gənclik.
3. Qarayev Y. (1980). Realizm: sənət və həqiqət. Bakı, Elm.
4. Məmmədov M. (1963). Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı, Azərb. SSR EA nəşri.

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 109-118
doi.org/10.48445/k3289-8050-2485-n



# Yeni fars ədəbi dilinin zənginləşməsində Şeyx Nizaminin rolu

***Sevil Mehdiyeva***
Filologiya elmləri doktoru, professor. AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dilinin tarixi şöbəsi. Azərbaycan.
E-mail: mirgulamova@yandex.ru
https://orcid.org/0000-0002-3420-9502

**XÜLASƏ**
Şeyx Nizami Azərbaycan xalqının dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi dahi şəxsiyyət, istedadlı şair, müdrik filosof, dünya elmlərinin sirlərinə bələd mütəfəkkir alimdir. Onun zəngin bədii irsi dünya mədəniyyəti tarixində, əsasən də Yaxın və Orta Şərq poeziya aləmində xüsusi mövqe tutmuş, dünyanın, ümumən yaranışın əşrəfi insana xidmətini qanuniləşdirməyə, humanizmi təbliğ və təqdir etməyə həsr edilmişdir. Dahi şair dövrün tələbinə uyğun olaraq fars dilində yazıb-yaratmış, Şərq dünyasının böyük söz sərrafları – Firdovsi, Hafiz, Sədi kimi poeziya bahadırları ilə rəqabətə qatılmış və bu mübarizədən qalib çıxmışdır. Dünya nizamişünaslarının yekdil fikrincə Şeyx Nizami Gəncəvi fəsahətli və bəlağətli yaradıcılığı ilə ümumşərq poeziyasını daha çox lirik istiqamətdə zənginləşdirmiş, onu incə bədii-poetik, emosional-ekspressiv mənalarla rəngarəng janra çevirmişdir (Mir Cəlal).

**AÇAR SÖZLƏR**
Şeyx Nizami,
yeni fars ədəbi dili,
Azərbaycan-türk şairi,
üslubi məna çalarları

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 15.10.2022
qəbul edilib: 13.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 109-118
doi.org/10.48445/k3289-8050-2485-n



# The role of Sheikh Nizami in the development of the New Persian literary language

***Sevil Mehdiyeva***
Doctor of philological sciences, professor. Institute of Linguistics named after Nasimi ANAS, Historical department of the Azerbaijani language. Azerbaijan.
E-mail: mirgulamova@yandex.ru
https://orcid.org/0000-0002-3420-9502

**ABSTRACT**
Sheikh Nizami is a genius gifted by the people of Azerbaijan to the treasure of world culture, a talented poet, a wise philosopher, and a thinker scientist familiar with the secrets of world sciences. His rich artistic heritage has taken a special position in the history of world culture, mainly in the world of Near and Middle Eastern poetry, dedicated to legitimizing service to the noble man of the world and creation, in general promoting and appreciating humanism. The genius poet wrote and created in the Persian language according to the demand of the time, participated in the competition with the great wordsmiths of the Eastern world – Firdovsi, Hafiz, and Sadi, and won this struggle. According to the unanimous opinion of researchers of Nizami heritage, Sheikh Nizami Ganjavi, with his eloquent and expressive creativity, enriched Middle Eastern poetry in a more lyrical direction, turning it into a colorful genre with subtle artistic poetic, emotional expressive meanings (Mir Jalal).

**KEYWORDS**
Sheikh Nizami, new persian literary language, the Azerbaijani-Turkish poet, shades of stylistic meaning

**ARTICLE HISTORY**
Received: 15.10.2022
Accepted: 13.12.2022

## Giriş / Introduction

Şeyx Nizami Azərbaycan xalqının dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi dahi şəxsiyyət, dünya şöhrətli istedadlı şair, müdrik filosof, dünya elmlərinin sirlərinə bələd mütəfəkkir alimdir. Fikrimizcə, Azərbaycan xalqı dünya mədəniyyət salnaməsinə heç bir töhfə verməsəydi belə, təkcə Şeyx Nizami fenomeni kifayət edərdi ki, bu xalq dünya sivilizasiyası tarixində özünə sanballı mövqe tutsun. O, şəxsiyyət və istedad anlayışlarını öz cismində və ruhunda üzvi surətdə birləşdirən ilk azərbaycanlı türk şairidir.

Şeyx Nizami Gəncənin sakit, füsunkar bir guşəsində, dövrünün hər cür keşməkeşlərindən uzaq, yalnız tapındığı İslam dininin qayda-qanunlarına riayət etməklə yaşamış, zəhmətkeş xalq kütlələri ilə həmnişin münasibətdə olmuş, nadir istedada malik və Tanrıdan verilmiş zəngin bədii-poetik romantikanın təsiri ilə öz müasirlərindən seçilərək Şeyx Nizami "zirvəsini" qazanmışdır. Məhz belə bir həyat tərzi ilə Nizami böyük alman filosof və şairi Hötenin bu fikrini təsdiqləyir ki, insan xarakteri həyat mübarizəsində qazanılır, istedad isə sakit həyat tərzinin məhsuludur [6, c.183].

Hötenin bu fikri Nizami üçün xüsusilə səciyyəvidir. O, heç kəsdən təmənna ummadan öz həyatını yaşamışdır. Dahi şairin təmənnası yalnız sözdən olmuş, onu da Tanrının bəxş etdiyi qüvvətli istedadı ilə təmin etmiş, eyni zamanda yeni söz deməyin də o qədər asan olmadığını vurğulayaraq bu prosesin "can çürütmək" qədər məşəqqətli olmasını qeyd etmişdir [5, s.10].

Təsadüfi deyildir ki, dünya alimləri Nizamini farsdilli poeziyanın nəhəng şairi Firdovsi ilə qarşılaşdıraraq onun daha lirik-romantik şair olduğunu vurğulamış və şairi "distillə edilmiş dağ çeşməsinin şəffaf, billura bənzəyən suyu" ilə müqayisə etmişlər. Alimlərin fikrincə, Nizami farsdilli poeziyanın "Allah"ıdır (A.E.Krımski). Nizamisiz ümumən farsdilli poeziya yarımçıq olardı (Y.E.Bertels).

Şairin poetik təfəkküründün məhsulu olan semantik məna çalarlı, zəngin üslubi mənalı təşbih və bədii təyinlər, orijinal bədii epitetlər Şeyx Nizami "Xəmsə"sinin şah damarıdır ki, bunlar dahi şairin bədii-poetik yaradıcılığının ana xəttini təşkil edir. Doğrudan da, Nizamidə söz özünün son həddindədir! (M.Məmmədova).

Nizami Gəncəvi dövrün gərdişi ilə əlaqədar olaraq öz təkrarsız bədii-poetik yaradıcılığını fars dilində inkişaf etdirmişdir. Çünki bu, dövrün tələbi idi: həqiqi söz sərrafları bütün Yaxın və Orta Şərqdə "poeziya dili" statusunu qazanmış fars dilində yazmalı, möhtəşəm farsdilli poeziya meydanında "at oynatmağı" bacarmalı, Firdovsi, Hafiz, Rumi, Cami, Sədi kimi farsdilli poeziya bahadırları ilə rəqabət aparmalı, yeri

gəldikdə onlardan da yüksək səviyyəli poetik nümunələr yaratmaq qüdrətinə malik olmalı idilər.

Dahi sənətkarın bu kəskin rəqabətlərdən qalib çıxması, nizamişünas akademik Y.E.Bertelsin "Nizamisiz bütövlükdə Şərqin lirik farsdilli poeziyası yarımçıq görünərdi" fikri ilə də öz təsdiqini tapır (А.Е.Крымский). Çünki farsdilli poeziya ənənəsi bütün Şərqdə, həmçinin onun ayrılmaz hissəsi olan Azərbaycan poeziya tarixində, xüsusən qəzəl janrında XI əsrdən XX əsrin əvvələrinə qədər demək olar ki, əsas ifadə vasitəsi olmuşdur (Əliağa Vahidin qəzəllərinin leksik tərkibini müqayisə edək). Təsadüfi deyildir ki, XVIII əsrdə Ağaməhəmməd şah Qacar M.P.Vaqifə "Gərək fars dilində yazsın sənətkar", – deyərək ona da fars dilində yazmağı tövsiyə edir.

Tədqiqatlar göstərir ki, dünya və ümumşərq nizamişünasların fikirləri ümumi bir nöqtədə birləşir: qoca Şərqdə və dünya miqyasında Nizami Gəncəvinin fəsahətli və bəlağətli poeziyası, ümumən Şərq ədəbiyyatını lirik istiqamətdə zənginləşdirmiş, Firdovsi isə poeziyanı daha çox epik istiqamətdə inkişaf etdirmişdir. Əslində, Nizami də, Firdovsi də eyni məqsədə xidmət etmiş, nəticədə farsdilli poeziyanın "Günəş"i kimi şərəfli bir ad qazanmışlar. Lakin poetika bilicilərinin, xüsusən Şərq poetik fikrinin yekdil qərarına görə poeziyanı incə notlarla bəzəyən, zəngin ekspressiv-emosional məna çalarları aşılayaraq onu lirik incə mənalarla "bəzəkli janr"a çevirən farsdilli lirik poeziyanın fatehi Şeyx Nizamidir! (Mir Cəlal). (Etiraf edim ki, bu anda qürurumu möhtərəm oxucularımla bölüşməyə bilmirəm!)

Akademik Həmid Araslının fikrincə, dahi Azərbaycan şairi Nizami tanrının ona bəxş etdiyi istedadı ilə yeni fars ədəbi dilini özünəməxsus orijinal semantik məna çalarları ilə zənginləşdirmiş, fars dilinin poetik vüsətini ənginliklərədək qaldırmışdır!

Ömrünün çox hissəsini Nizaminin söz xəzinəsinin zəngin üslubi çalarlarının araşdırılmasına həsr etmiş filologiya elmləri namizədi Mənzərə Məmmədovanın fikirlərinə həmrəyliyimi bildirməklə, onun sözlərini olduğu kimi Nizami irsinin pərəstişkarı olan oxucularımızın diqqətinə çatdırmağı özümə borc bilirəm. "Nizami Gəncəvi XII əsrə qədər və həmin əsrdə mövcud olmuş yeni fars dilinin bütün leksikonunu, onun bütün gücünü, qüdrətini, zənginliyini hərf-hərf, söz-söz, cümlə-cümlə yaradıcılığının süzgəcindən keçirərək əsərlərinə hopdurmuş, onu daha elastik, daha rəngarəng, daha ahəngdar və daha zəngin etmişdir... Fars dilinin leksik və qrammatik xüsusiyyətlərindən istifadə şairin dilində orijinal və təkrarolunmaz şəkildə özünü göstərir..." [5, s.7]. M.Məmmədovanın Nizaminin söz xəzinəsinə mütəxəssis olaraq vurğunluğunu, böyük nizamişünaslar ordusunun fikirləri ilə səsləşməsini qeyd etmək istəyirik: nizamişünasların əksəriyyəti (Vəhid Dəstgərdi, Şəid Nəfisi, Şibli

Nimani və b.), eləcə də rus və Avropa alimləri Nizaminin Firdovsiyə nisbətən daha romantik-lirik şair olması və Firdovsinin "Şahnamə" əsərinin "quru epopeya", Nizami poeziyasının isə "distillə edilmiş dağ çeşməsinin şəffaf, büllura bənzəyən suyu" ilə qarşılaşdırılması bu iki farsdilli poeziya nəhənglərinin sözə poetik don biçmə istedadları arasında fərqi əyani şəkildə göz önündə canlandıra bilir.

Fərqi daha əyani görmək üçün alimlər Daranın ölüm səhnəsinin Nizamidə və Firdovsidə verilən təsvirini müqayisə edərək bu səhnənin Nizami Gəncəvidə daha lirik-poetik səviyyədə olduğunu, hətta Nizaminin söz inciləri ilə verilmiş təsvirlərinin oxucu gözlərindən yaş axıtmaq gücündə olmasını (İran nizamişünas alimi Vəhid Dəstgərdi) xüsusi olaraq vurğulayırlar [5, s.3-4].

Şeyx Nizaminin farsdilli Şərq poeziyasının təməl daşını qoyanlardan olması həqiqətlərini mükəmməl şəkildə dünya şeir mədəniyyəti tarixində layiqli şəkildə araşdırmış rus alimlərindən A.E.Krımski yazırdı: "Низами был владыкой краснoречия" (Məzmuna xələl gətirməmək üçün tərcümə olunmadı). Burada Ə.Caminin Nizami haqqında söylədiklərini xatırlamaq yerinə düşər: "Nizami poeziyanın Allahıdır!" (K.Quliyeva). Həqiqətən də Şeyx Nizami farsdilli poeziyanın Allahıdır!

Dahi şair yeni fars dilini zənginləşdirərkən öz xələflərini – XVI əsrdən bəri ədəbi dil mütəxəssislərini 7-8 əsr qabaqlamış, XX əsrin ədəbi dil alimlərinin yetişməsi üçün istiqamətverici proqnoz – aydınlatmalar vermiş və nəticə olaraq, XIX-XX yüzilliklərdə dünya səviyyəli V.Q.Belinski, Ə.Haqverdiyev, Ə.Dəmirçizadə, A.Axundov və bu kimi başqa ədəbi dil üzrə mütəxəssislərin yetişməsinə istiqamət vermişdir. Məhz Nizami kimi onun xələfləri də ədəbi dilin zənginləşməsində xalq dilinin müşahidəsini ən vacib keyfiyyət hesab etmişdirlər. Nizami Gəncəvi hər bir xalqın ədəbi-bədii dilinin ilkin yaradıcısı – onu ömrü boyu qoruyub saxladığı ədəbi dili xalqın sərvəti hesab etmiş, onun xalqın şirin dili ilə daima qarşılıqlı, həmahəng zənginləşmə prosesini yaşaya-yaşaya inkişaf etməsini öz bədii yaradıcılığında (yeni fars dilinin materialları əsasında) əks etdirmişdir.

Məlumdur ki, klassik Şərq, eləcə də klassik Azərbaycan ədəbiyyatında qiymətli daş-qaş növləri – yaqut, almaz, firuzə, qızıl, gümüş, ümumən qiymətli metallar təşbih kimi bənzədilən predmetləri müsbət mənada səciyyələndirən əyani vasitələr olmuşdur. "Amma Nizami dilində elə beytlər vardır ki, burada təşbih obrazı kimi işlənən belə cisimlərdən qorxu, vahimə kimi mənfi emosiyaların ifadəsi kimi istifadə olunmuşdur" [5, s.63]. Tədqiqatçı M.Məmmədova Nizami sözünün semantikasının dərinliklərinə vararaq göstərir ki, şairin dilində qiymətli daşlar silsiləsindən olan "əqiq" sözü təpədən dırnağa qədər silahlanmış döyüşçünün bədii

obrazının daha dəhşətli və vahiməli təsviri şairin sənətkarlığının orijinal bir nümayişidir.

Bununla böyük şair sözdən əsl sənətkar kimi istifadə etməyin mümkün variantlarını müəyyən edir: "əqiq" daşında olan parlaqlıq, duruluq, şəffaflıq məqsəd və məramından asılı olaraq şairin qələmində dəhşətli görüntülər yaratmağa xidmət edir. Əlbəttə, bütün bunlar göstərir ki, Nizami yeni fars dilinin məna çalarlarını zənginləşdirmək missiyasını qarşıya məqsəd qoymuş və nəticədə buna nail ola bilmişdir.

Dahi şair sözü öz zəngin istedad ələyindən keçirərək əsərlərində onu gah "nigar", gah "quş" (təbii ki, cənnət quşu), gah da "inci" ilə müqayisə edir, bunun müqabilində sözün təkrarlanmasını qəbul etmir və təkrar olunmuş sözü "dul qadına" bənzədir. Göründüyü kimi, "nigar", "quş" sözləri Nizaminin işlətdiyi məqamda klassik Şərq ədəbiyyatı üçün yeni, təkrarolunmayan təşbihdir. Şair "dul qadın" ifadəsini orijinal sözə antonim kimi işlətmişdir.

Digər bir beytində o, sözü dəniz dalğasına bənzədir. Şairin fikrincə, söz o zaman qüdrətli olur ki, o, (söz) feyz ilə dalğalansın! Məhz bu zaman söz dəniz kimi dərin insan zəkasının qiymətli incilərini üzə çıxara bilər! "Lakin Nizaminin sözləri yalnız dəniz dalğalanmasından yaranan incilər deyildir, həm də daşdan çıxan gövhərlərdir!" [M.Məmmədova. Bakı, 2012]. Nizamini Allah məqamına ucaldan işlətdiyi obrazlı-poetik söz və ifadələr olmuşdur. Şair heç kəsə bənzəməmək və onu təkrar etməmək üçün bəzən adi sözlərə nəzərdə tutduğu mənanın aydınlığını təmin etmək məqsədilə yeni (orijinal) semantik məna çalarları verir və bu yolla yeni fars dilinin əhatə dairəsini genişləndirirdi. Bütün bunlar yeni fars dilinin tarixi leksikasının tədqiqi sahəsinin elmi-nəzəri araşdırılmasında vacib məsələlərdəndir.

Nizami özündən sonra gələn sənətkarlara bədii məzmun yaratmaq istedadı ənənəsini aşılamış, dövrünün xiridar səviyyəli oxucusunu yetişdirmiş və yeni fars ədəbi dilinin inkişafına təminat vermişdir.

Mənbələrə görə şairin poetik ənənəsi nəinki Yaxın və Orta Şərqdə, hətta orta əsr Avropasında – alman, ingilis, italyan, ərəb-islam ədəbiyyatlarına da öz təsirini göstərmişdir [Алиев Г., Академик А.Е.Крымский и его сочинение «Низами и его современники, с.5].

Dövrün nüfuzlu şairlərinin lüğətinin leksikoqrafik tədqiqi, bütün dillərdə olduğu kimi yeni fars dilinin də inkişaf səviyyəsini göstərən amillərdən biri olmuşdur. Orta əsrlər dövrü Şərqdə məşhur şairlərin bədii yaradıcılıqlarının leksikoqrafik tədqiqi bir ənənəyə çevrilmişdir. Bu tip leksikoqrafik əsərlər, əslində, şair dilinin izahlı lüğətləri idi, çünki onlarda "...əsas məqsəd farsca yazan klassik Şərq şairlərinin

əsərlərində təsadüf olunan müxtəlif leksik qrup və vahidləri əhatə edən sözlərin izahını verməkdən ibarət olmuşdur. Bu prinsipin fars leksikoqrafiya tarixinin ilk təşəbbüsçüsü kimi tanınan Qətran Təbrizinin lüğətindən başlayaraq XX əsrə qədər klassik Şərq poeziyasının görkəmli nümayəndələri sırasında Nizami yaradıcılığının xüsusi rolu olmuş, əsərləri leksikoqrafların tez-tez müraciət etdikləri xəzinə hesab edilmişdir" [5, s.16]. Müqayisələr nəticəsində məlum olmuşdur ki, fars lüğətçiliyi tarixində ən çox Nizami söz çələngindən istifadə olunmuş, yaxud da bir sıra farsdilli şairlərin beytləri sənətkarın beytləri ilə əvəz edilmişdir [5, s.22]. Tədqiqatlar göstərir ki, Nizaminin bədii irsi fars dili leksikoqrafiyasının zənginləşməsində mühüm mənbə olmaqla yanaşı, yeni fars dilinin üslubi çalarlarının leksikoqrafik istiqamətdə də tədqiqinə zəngin material vermişdir. Yeni fars dilinin canlı xalq dilindən alınmış söz və ifadələrlə zənginləşməsində şairin bədii-poetik irsi orijinal və mükəmməl mənbə olmuşdur. Bu mənada Nizami Gəncəvinin "Xəmsə"sində istifadə olunan terminlər xüsusi ilə diqqət çəkir. Dahi şairin əsərlərində işlətdiyi elmin müxtəlif sahələrinə aid: təbabət, nəbatət, iqtisadiyyat, incəsənət, mineralogiya, din, dilçilik (xüsusən dilçiliyin leksik-onomalogiya), toponomiya və Şərqin müxtəlif məkanlarında yerləşən atəşgahların adlarının və s. yeni fars dilinə gətirilməsində Nizami irsi müstəsna rol oynamış, Şərq ölkələrini müxtəlif istiqamətlərdən öyrənmək işinin elmi cəhətdən tədqiqi məsələlərini xeyli asanlaşdırmış, beləliklə də, dahi şairin bir alim kimi səciyyəsini təmin etmişdir. Nizami Gəncəvinin yeni fars ədəbi dilinin inkişafında mühüm rol oynayan termin zənginliyi xüsusi maraq doğurur. Bu mənada Şərq musiqi terminləri yeni fars ədəbi dilinin mükəmməlliyinə xidmət edir, muğam və müxtəlif çalğı alətlərinin, xalq mahnılarının elmi tədqiqi zamanı sənətkarın poemaları, xüsusən "Xosrov və Şirin" poeması, eləcə də yeni fars dilinin lüğətçilik sahəsinin, bütövlükdə Şərq mədəniyyəti və onun ən geniş yayılan və öyrənilən musiqi mədəniyyətinin elmi-nəzəri tədqiqi üçün Nizami Gəncəvi irsinin qiymətli bir mənbə olması bütün farsdilli lüğətçilərin etiraf etdikləri gerçəklikdir.

Ümumiyyətlə, yeni fars dilinin zənginləşməsində mühüm mənbə olan poetik dilin izahlı lüğət tərtibi və leksikoqrafik araşdırılması prosesində Şərqin sayılıb-seçilən söz sərrafları sırasında Şeyx Nizaminin söz xəzinəsinin "yeni fars dilinin durumunu daha əhatəli, daha geniş tərənnüm etməsi səbəbindən bu lüğətlər daha böyük həcmli olmuşdur" [5, s.23]. Deməli, Nizami yeni fars dilini bütün incəlikləri, semantik məna çalarları ilə özünün zəngin poeziya dilinə cəlb etmiş və bu yolla yeni fars dilini leksik, semantik baxımdan zənginləşdirmişdir. Bu bir daha onu göstərir ki, Nizami sivil mədəniyyətə malik dahi bir şəxsiyyət olaraq bütün xalqlara, eyni

zamanda fars xalqına, onun mədəniyyətinə hörmət və ehtiramla yanaşmış, tolerant bir insan kimi seçilmişdir.

Müşahidələr göstərir ki, Şeyx Nizami fars xalqına, onun mədəniyyətinə səmimi duyğular bəsləmiş, taleyin qismətilə yer üzünün ən böyük xalqlarından olan türk və fars xalqları arasında isti münasibətlərin yaranmasına xidmət göstərmiş, bu iki xalqın dostluq və əmin-amanlıq şəraitində yaşayıb-yaratmasını alqışlamışdır. Artıq 9 əsrə yaxındır ki, Şeyx Nizami iki qonşu xalqı – Azərbaycan türklərilə farsların bir-birinə dözümlü münasibətdə olmasını poetik yaradıcılığı ilə "təbliğ edən türk təfəkkürlü, farsdilli dahidir".

Artıq 9 əsrə yaxındır ki, Şeyx Nizaminin fars dilində yazmaq kimi xeyirxah ənənəsini davam etdirən türk əsilli farsdilli Azərbaycan şairlər pleadası nəsli yaranmışdır; onlar öz ana dillərində olduğu kimi, fars dilində də yazıb-yaratmış, Nizami ənənəsini davam etdirmişlər. Bu ənənə o qədər qüvvətli olmuşdur ki, XI əsrdən etibarən Azərbaycan ədəbiyyatı tarixində İ.Həsənoğludan başlayaraq bütün Azərbaycan klassikləri Azərbaycan-türk dilində olduğu kimi, Şərqin qalib poeziya dili şöhrətini qazanmış fars dilində də yazıb yaratmış, həmçinin Azərbaycan-türk dilində (ana dilində) olduğu kimi, fars dilində də "Divan" yazmışlar.

Təəssüf ki, Azərbaycan-türk dahi şairlərinin fars dilinin inkişafına təminat verən bu xidmətləri hələki tədqiq edilməmişdir. Bu sahədə ilk dəfə professor Şəfəq Əlibəyli M.Füzulinin farsca "Divan"ına həsr edilmiş doktorluq dissertasiyasında bu mövzuya toxunmuşdur. Lakin bünövrəsi dahi Nizami ilə qoyulan fars dilinin inkişafında Azərbaycan-türk şairlərinin xidmətləri, hələ də kifayət qədər tədqiq edilməmişdir. Qeyd edək ki, sənətkarlarımız fars dilində yazmaqla fars ədəbi dilinin inkişafına zəmin yaratmış, poetik-bədii söz və ifadə yaradıcılıqları ilə bu dilin zənginləşməsində təkzibolunmaz xidmətlər göstərmişdir.

Məlumdur ki, dilin zənginləşməsində mühüm rol oynayan mənbələrdən biri də alınma sözlərdir. Onlar dili leksikoqrafik və semantik-ekspressiv məna çalarları ilə dolğunlaşdırır, onun emosional əlvanlığını artırır, sinonim cərgələrlə zənginləşməsini təmin edir, ifadəlilik imkanlarını genişləndirməklə, həm də dilin lüğət tərkibini inkişaf etdirir. İctimai-siyasi funksiya daşıyan alınma sözlər onların daşıyıcıları olan xalqların qarşılıqlı təminetmə, insanların ümumi mədəniyyətinin zənginləşməsinə rəvac verən ictimai-siyasi və ümumkulturoloji prosesdir.

Alınma sözlər dillərin, xalqların tarixinə bir sıra keyfiyyətlərlə daxil olsa da, onlar tolerantlığın ilkin göstəricisi, xalqlar arasında qarşılıqlı hörmət və anlaşmanın təzahürüdür. Alınmalar həm də xalqların ümumi səviyyəsini göstərən mühüm mədəni hadisədir.

Nizaminin poeziya dilində alınma sözlər üstünlük təşkil edir. Bu da yeni fars dilinin zənginləşmə mənbəyi kimi xüsusilə diqqət çəkir. Onlar, əsasən, ərəb, türk, yunan, nəsrani və s. dillərdən əxz edilmiş müxtəlif sözlər və terminlərdir. Tədqiqatlar göstərir ki, türk sözlərinin üslubi məqamları sənətkarı cəlb etdiyi üçün o, bu sözlərindən daha çox istifadə etmişdir.

Əsərlərində türk dilinin alınmalarının çoxluğu farsdilli tədqiqatçı-alimlərin diqqətindən yayınmamış, onlar "Nizamidən türk qoxusu gəldiyini" etiraf etmək məcburiyyətində qalıb: əz Nizami buye-tork miayəd" – demişlər. Doğru fikirdir! Çünki bu fikir Şeyx Nizamiyə o qədər yaraşır ki! Məhz bu obyektiv fikrə görə biz fars nizamişünas alim həmkarlarımıza sonsuz təşəkkürümüzü bildirir və onların bu jestləri önündə baş əyirik! Çünki onlar bu qızıl həqiqəti dilə gətirməkdən çəkinməyib etiraf etmişlər! Tanrı da ədalət tərəfdarıdır. Bu sözləri deyənləri Tanrım qorusun!

Şeyx Nizami təvazökar və alicənab bir şəxsiyyət olduğu üçün öz türklüyünü dünyaya elan etmədən zəngin poeziya xəzinəsində türkü və türkçülüyü Şərqin poeziya dili olan fars dilində sadəcə vəsf etmişdir! Böyük alim və həkim Cavad Heyət yazırdı: "Farsca yazan şairlərin heç biri "türk" sözlərini Nizami qədər sevgi ilə, sitayişlə işlətməmiş və atalar sözlərindən onun qədər faydalanmamışdır. Nizami "türk" sözünü çox hallarda paklıq, gözəllik, yüksəklik, qüvvət, adil, bilici, qorxmaz, cəngavər, bahadır, qəhrəman mənasında işlətmişdir: torke-delsetan (ürəkaçan dilbər), torke-tənnaz (nazlı dilbər), torke-nazəninəndam (gözəl əndamlı dilbər), çeşmə-torki (türk gözlü). Nizamidə türk və türklük bütün maddi və mənəvi yüksəkliyin simvoludur. O, Çin dənizindən doğub dağları işıqlandıran Günəşdir.

Nizaminin qadın qəhrəmanları, əsasən, türk qızlarıdır. Onların xüsusən mənəvi keyfiyyətləri – pak məhəbbətləri, sevgiyə sədaqətləri, mübariz ruhları, ailəyə bağlılıqları şairi məftun etmişdir!

Türk şəxs adları (Ayxan, Qaraxan, Xatun, Banu), türk süfrə mədəniyyəti və onların adları (dobğa – dovğa, tutmac, ətmək, ayran, bəkməz, qora, eləcə də ayrı-ayrı Azərbaycan-türk sözləri – amac, alaçıq, sancaq (bayraq), tapança – sillə, sav-söz, qırmızı bayraq və s.), eləcə də onlarla atalar sözü və məsəllər (heç kəs öz ayranına turş deməz; oddan kül törəyər; iynə atsan yerə düşməz; ilanı Seyid Əhməd əli ilə tutmaq; özgəsinə quyu qazan, özü düşər və s.) Şeyx Nizami əsərlərinin şah damarının kapilyarlarıdır.

Nizami bunları nə məqsədlə edirdi? – Çünki o, bir türk oğlu idi, Gəncəli türk oğlu!

Hazırda Nizami Gəncəvi kimi tanınan sənətkar, fikrimizcə, ilkin olaraq Nizami Gəncəkli olmuş, sonralar tarixin gedişi ilə "Gəncəkli" sözündə "k" samiti düşmüş, -li

şifahi nitqlə əlaqədar olaraq -vi şəkilçisi ilə əvəz olunmuşdur. Nizami əslində türk qəbilələrindən olan Gəncək qəbiləsində anadan olmuşdur. Onun adı da bu türk qəbiləsinin adından götürülmüşdür.

## Nəticə / Conclusion

Dünya şöhrətli Azərbaycan şairi Şeyx Nizami Gəncəvi yeni fars dilində yazıb-yaratdığı nəhəng bədii yaradıcılığı ilə yeni fars ədəbi dilinin zənginləşməsində misilsiz xidmətləri olan türkəsilli (Azərbaycan əsilli) dahi şairdir. Şərqşünas alim Bertels Krımskinin böyük həqiqəti əks etdirirən fikri bu baxımdan təkzibolunmazdır: "Şeyx Nizamisiz, ümumiyyətlə, Şərqin lirik poeziyası yarımçıq görünərdi".

## İstifadə edilmiş ədəbiyyat / References

1. Araslı H. (1947). Nizami və xalq ədəbiyyatı. Bakı.
2. Araslı N. (2000). Nizami poetikasının türk qaynaqları. Bakı.
3. Aslanov V. (2007). XIII-XIV əsrlər Azərbaycan dili, Azərbaycan ədəbi dili tarixi, I c. Bakı.
4. Cavad Heyət. (2009). "Xəmsə"də türkcə sözlər. Kamillik zirvəsi. Bakı.
5. Məmmədova M. (2012). Nizami Gəncəvi dilinin leksik üslubu. Bakı.
6. Крымский Е.А. (1981). Низами и его современники. Баку, Элм. 488с.

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 119-125
doi.org/10.48445/b5054-5056-1660-n

**Ə D Ə B İ  M Ü H İ T**

# Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzidir

***Ədalət Abbasov***
Filologiya üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası. Azərbaycan.
E-mail: abbasov-edalat@mail.ru
https://orcid.org/0000-0002-9704-1874
***Həmzə Əliyev***
Filologiya üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası. Azərbaycan.
E-mail: hemze.eliyev1965@mail.ru
https://orcid.org/0000-0003-2344-8388

**XÜLASƏ**
Məlum olduğu kimi "multikulturalizm" məfhumu "multi" və "kultura" (latın dilindən tərcümədə çox əhəmiyyətlilik deməkdir) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Multikulturalizmin sosial hadisə kimi təqdim edilməsi onun cəmiyyətin məhsulu olaraq ictimai inkişafın müəyyən mərhələsində, eləcə də cəmiyyətdə cərəyan edən bu və ya digər hadisələrin təsiri altında meydana gəlməsini göstərir. Onun cəmiyyətdə inkişafının sonrakı mərhələsi xalqların həyat tərzinə çevrilməsi ilə bağlıdır. Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmran olduğu dövrdə kifayət qədər sistemsiz və spontan mahiyyətə malik idi. Ölkəmizdə multikulturalizmin dövlət siyasətinin tərkib hissəsi kimi sistemə salınması və konstitusiyamızın ayrı-ayrı maddələrində ondan bəhs edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Həmin siyasət bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**AÇAR SÖZLƏR**
ictimai inkişaf, tolerantlıq, çoxmədəniyyətlilik, etnokulturoloji göstərici, multikultural dəyərlər

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 03.10.2022
qəbul edilib: 07.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 119-125
doi.org/10.48445/b5054-5056-1660-n

L I T E R A R Y  E N V I R O N M E N T

# Multiculturalism is a way of life in Azerbaijani society

***Adalat Abbasov***
Doctor of Philosophy in Philology, Associate Professor. Azerbaijan State Pedagogical University, department of Azerbaijani language and its teaching technology. Azerbaijan.
E-mail: abbasov-edalat@mail.ru
https://orcid.org/0000-0002-9704-1874
***Hamza Aliyev***
Doctor of Philosophy in Philology, Associate Professor. Azerbaijan State Pedagogical University, department of Azerbaijani language and its teaching technology. Azerbaijan.
E-mail: hemze.eliyev1965@mail.ru
https://orcid.org/0000-0003-2344-8388

**ABSTRACT**
As it is known, the concept of "multiculturalism" is a combination of two words: "multi" and "culture" (translated from Latin means very important). The presentation of multiculturalism as a social phenomenon shows that it emerged as a product of society at a certain stage of social development, as well as under the influence of certain events taking place in society. The next stage in the development of multicultu-ralism in society is its transformation into a way of life for nations. As a set of values that have been formed in Azerbaijan for centuries and do not go beyond the socio-artistic, psychological and moral level, it was quite unsystematic and spontaneous, especially during the reign of Soviet ideology. The systematization of multiculturalism as an integral part of the state policy in Azerbaijan and the mention of it in separate articles of our constitution are connected with the name of the national leader of our people Heydar Aliyev. Today, this policy is successfully pursued by President Ilham Aliyev.

**KEYWORDS**
social development, tolerance, multiculturalism, ethnocultural indicator, multicultural values

**ARTICLE HISTORY**
Received: 03.10.2022
Accepted: 07.12.2022

## Giriş / Introduction

Multikulturalizm – bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir. Bu məfhum geniş və dar mənalarda işlədilir. Geniş mənada işlədilən multikulturalizm məfhumu onun etimologiyasını əks etdirir. Məlum olduğu kimi, "multikulturalizm" məfhumu "multi" və "kultura" (latın dilindən tərcümədə çoxmədəniyyətlilik deməkdir) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Buna görə də sözün geniş mənasında bu termin onun etimologiyasından irəli gələrək çoxmədəniyyətlilik məfhumunun sinonimi kimi işlədilir. Çoxmədəniyyətlilik dedikdə isə, ilk növbədə, etnik, irqi və mədəni müxtəliflikləri, eləcə də bu müxtəliflikləri əsasını təşkil edən etnik, dini və mədəni dəyərlər nəzərdə tutulur. Müasir dövrdə, xüsusilə də qloballaşma şəraitində etnik, irqi, dini və ya mədəni müxtəliflikləri mövcud olmadığı ölkə demək olar ki, yoxdur. Dünyanın hər bir ölkəsində qeyd olunan müxtəliflikləri ən azı birinə və ya bir neçəsinə, hətta hamısına rast gəlinir. Bu müxtəliflikləri hər bir xalqın həyatında əhəmiyyətli dərəcədə rol oynayır.

"Multikulturalizmin sosial hadisə kimi tədqiq edilməsi onun mühüm cəhətlərindən birinin qeyd olunması deməkdir. Bu isə onun mahiyyəti və əhəmiyyətinin müəyyən edilməsinə kömək edir" [3, s.17]. Belə ki, multikulturalizmin sosial hadisə kimi təqdim olunması onun cəmiyyətin məhsulu olaraq ictimai inkişafını müəyyən mərhələsində, eləcə də cəmiyyətdə cərəyan edən bu və ya digər hadisələrin təsiri altında meydana gəlməsini göstərir. Məsələn, multikulturalizmin müəyyən bir ərazidə sosial hadisə kimi formalaşmasına müxtəlif xalqların uzun illərdən bəri birgə yaşamaları, miqrasiya prosesləri, xalqlar arasında iqtisadi-ticari əlaqələrin inkişafı və bu kimi digər mühüm amillər təsir göstərir. Bundan başqa multikulturalizmin bir sosial hadisə kimi təqdim edilməsi onun formalaşmasına və inkişaf mərhələlərində digər sosial hadisələrə (siyasətə, iqtisadiyyata, mədəniyyətə, mənəviyyata, ictimai şüurun müxtəlif formalarına və s.) təsiri, onlarla qarşılıqlı münasibətdə olması müəyyən edilir.

## Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzi kimi: formalaşma və inkişaf tarixi

Bir sosial hadisə kimi meydana gələn multikulturalizmin inkişafının sonrakı mərhələsi onun dövlət ideologiyasına, dövlət siyasətinə çevrilməsi ilə bağlıdır. Bu mərhələnin reallaşmasında əsas rol dövlətə məxsusdur. Multikulturalizmin cəmiyyətdə inkişafının sonrakı mərhələsi onun xalqların həyat tərzinə çevrilməsi ilə əlaqəlidir. Bu proses onun inkişafının ən yüksək mərhələsidir. Doğrudur, elə xalqlar

var ki, multikulturalizmin dövlət ideologiyası və siyasətinə çevrilməsindən asılı olmayaraq bu prosesdən çox əvvəl, tarixən yüksək multikultural və tolerantlıq ənənələrinə malik olmuşlar. Belə xalqlar ərazilərində yaşayan digər xalqları heç vaxt ayrıseçkiliyə, təqibə məruz qoymamış, onlara qarşı heç vaxt dözümsüzlük nümayiş etdirməmiş, sülh və əmin-amanlıq şəraitində yaşamışdırlar. Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə kifayət qədər sistemsiz və spontan mahiyyətə malik idi. Tolerantlıq və mənəvi potensial, dini loyallıq və milli özünəməxsusluq, psixoloji səbat və bəşəri dəyərlərə açıqlıq Azərbaycan xalqını multikultural bir rejimə daxil etməyə hazırlayırdı. Bu və buna bənzər xüsusiyyətlər Azərbaycan ədəbi-bədii düşüncə müstəvisində hər zaman kifayət qədər nəzərəçarpan və təsiredici olmuşdur.

Çoxmədəniyyətliliyin qorunub saxlanmasında əsas vasitə olan multikulturalizm Azərbaycanda hələ qədim dövrlərdən mövcud olmuşdur. Bu baxımdan deyə bilərik ki, multikulturalizmin qədim və zəngin tarixi vardır. "Multikulturalizm" və "Azərbaycan xalqı" – bu məfhumlar bir-birindən ayrılmazdır. Hələ ilk tayfaların yarandığı vaxtdan onlar arasında multikultural yaxınlığın izləri olmuşdur. Azərbaycan cəmiyyəti multikultural mədəniyyətə sahibdir. Çünki bu cəmiyyət milli mənsubiyyət baxımından müxtəlif tayfa və xalqlardan təşkil olunmuşdur. Odur ki, bu cəmiyyətin etnokulturoloji göstəriciləri bütün dövrlərdə qismən də olsa təzahür etmişdir. Lakin bu multikultural elementlər ayrı-ayrı zamanların siyasi konyukturası səbəbindən öz inkişafını dayandırmaq məcburiyyətində qalmış, yalnız ədəbi-bədii düşüncələrdə yaşamaqla mövcudluğunu qoruyub saxlaya bilmişdir. Belə ki, tarixən etnik, dini, irqi və mədəni müxtəlifliklər siyasi rejimin təzyiqinə məruz qalmış və inkişafını dayandırmışdır. Buna misal olaraq, "Kitabi-Dədə Qorqud" dastanını nümunə göstərə bilərik. Xalqımızın maddi və mənəvi abidəsi sayılan bu ana kitabımızın təşəkkülündən sonrakı dövrləri bir qədər qaranlıq görünür" [4, s.39]. Xalqımızın dini, dili, tarixi, coğrafiyası və milli-mənəvi dəyərlərini özündə əks etdirən bu dastanın nəşri, oxunuşu, bir sözlə, təbliği zamanla böyük basqılara məruz qalmışdır. Fikrimizi bir qədər də dəqiqləşdirsək, SSRİ iqtidarı zamanı söylədiyimiz fikrin bariz nümunəsini açıq şəkildə görə bilərik. "Türkçülük siyasətinin qarşısını almaq, türk xalqlarının inteqrasiyasına mane olmaq məqsədilə təkcə "Kitabi-Dədə Qorqud" dastanını deyil, türk xalqlarının ortaq mənəvi sərvəti sayılan eposların oxunmasına böyük yasaq qoyulmuşdur" [1, s.222]. Məqsəd bizi öz soy-kökümüzdən, genimizdən, dinimiz və dilimizdən uzaqlaşdırmaq, türk xalqlarını SSRİ xalqları

içərisində əritmək idi. Bu məqsədlə XX əsrin 60-cı illərinə qədər bu cür mənəvi terror siyasəti müxtəlif müstəvilərdə davam etdirilmişdir. Eləcə də, ana kitabımızın nəşrinə, yayılmasına və s. qoyulan yasaq da məhz 60-cı illərdən sonra üzərindən götürülməyə başladı. Bu cür siyasətlə Azərbaycan cəmiyyətindəki multikultural dəyərlərə kölgə salmaq və onları öz çirkin oyunlarına alət etmək istəkləri kütləvi şəkildə baş tutmamışdır. Şifahi xalq ədəbiyyatımızın janrlarından süzülüb gələn humanizm və bərabərlik ideyaları vətənimizdə qədim dövrlərdən məskunlaşan etnik və milli azlıqları titul etnosla bərabər yaşamağa sövq etmişdir. Pərakəndə olsa belə müəyyən dövrlərdə öz inkişafını müxtəlif səviyyələrdə təzahür etdirən multikultural dəyərlər artıq müstəqillik dövrümüzdən etibarən sistemləşdirildi. Hələ XX əsrin 30-cu illərinə qısa ekskurs etsək görərik ki, tarixə "qırmızı terror" adı ilə həkk edilmiş həmin o qanlı-qadalı illərdə xalqımızın düşünən beyinləri məhv edildi, vuran qolları kəsildi. Bu əvvəldə qeyd etdiyimiz siyasi rejimin multikultural dəyərlərə vurduğu ən böyük zərbə hesab edilə bilər. Həmin siyasi diktə ilə xalqların dilini əlindən almaqla onları öz məqsədlərinə uyğun olan vahid dilə tabe etdilər.

Azərbaycanda multikulturalizmin dövlət siyasəti kimi təşəkkülü XVI əsrdə Şah İsmayıl Xətainin qurduğu Səfəvi dövlətinin yaranması ilə hesab edilir. Multikulturalizm yalnız dini, etnik, mədəni dəyərlərin qorunması və inkişafı naminə deyil, həm də milli ideologiyaların formalaşması və inkişafına hesablanmış siyasi bir modeldir. Həmin tarixi dövrdə azərbaycançılıq və türkçülük ideologiyaları təşəkkül tapsa da, uzun müddət yaşaya bilməmişdir. Multikultural dəyərlər də zəif inkişaf dövrünü məhz həmin dövrdə yaşayıb. Qeyd etdiyimiz kimi milli təfəkkür və ədəbi-bədii düşüncələrdə solğunlaşmış bu ideologiya Yaxın Şərqin ilk parlamentli demokratik respublikası olan Azərbaycan Demokratik Cümhuriyyətinin İstiqlal bəyannaməsindən sonra yenidən canlanmağa başladı. Bu ideologiya, yəni multikultural-azərbaycançılıq və multikultural-türkçülük ideologiyaları XX əsrin əvvəllərində bir sıra söz sənətkarlarının, mütəfəkkirlərin yaradıcılığında əsas ideyaya çevrildi.

Azərbaycan Demokratik Cümhuriyyətinin dövlət siyasətinin əsas tərkib hissəsi olan multikulturalizm müasir dövrdə olduğu kimi, keçmişdə də cəmiyyətə öz töhfəsini müxtəlif səviyyələrdə verə bilmişdir. Lakin cümhuriyyətin ömrü qısa olduğu üçün onun bir sıra siyasi xətləri kimi multikultural dəyərlər də zəifləməyə başladı. Azərbaycan Demokratik Cümhuriyyətinin süquta uğraması, bolşevizmin yeni idarəçilik meyarları tətbiq etməsi nəticəsində etnik, dini və mədəni dəyərlərin qorunub saxlanması mümkün olmadı.

Azərbaycanda multikulturalizmin dövlət siyasətinin tərkib hissəsi kimi sistemə salınması və konstitusiyamızda ayrı-ayrı maddələr əsasında təsbit edilməsi bu dəyərlərin daşıyıcıları olan milli və etnik azlıqlarda özünə inam formalaşdırır. Təbii ki, bu uğurun əldə edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hələ hakimiyyətə ilk gəlişindən vətənimizdə multikultural dəyərlərin formalaşmasına doğru ciddi addımlar atmışdır. Bunlara misal olaraq, müxtəlif milli və etnik mənsubiyyətə malik söz sənətkarlarının ildönümlərinin və yaradıcılıq gecələrinin təmtəraqlı keçirilməsini nümunə göstərə bilərik. O, sovet dönəmində ölkəmizdə yaşayan ayrı-ayrı xalqların dil bərabərliyini təmin etmək məqsədilə SSRİ Konstitusiyasına belə bir qanun qəbul etdirməyə müvəffəq olmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Şübhəsiz ki, hakimiyyətə ikinci dəfə gəlişindən sonra da Ulu öndər təməlini qoyduğu multikultural dəyərləri geniş müstəvidə inkişaf etdirdi:

1. "Milli konstitusiyamızın 21-ci maddəsində Azərbaycan Respublikasının Dövlət dilinin Azərbaycan dili olması" [2, s.23];
2. Qədim dövrlərdən bu ölkənin sakinləri olan azsaylı xalqların din, dil, vicdan və şəxsiyyət azadlıqlarının konstitusiyamızın ayrı-ayrı maddələrində təsbit edilməsi və s.

Bu dövlət əhəmiyyətli multikulturalizm siyasi xətti Ulu öndərin ən layiqli davamçısı olan cənab Prezidentimiz İlham Əliyev tərəfindən mükəmməl səviyyədə davam etdirilir. Hazırda Azərbaycan cəmiyyətində etnik, dini və mədəni dəyərlər yüksək səviyyədə qorunur. Azərbaycan böyük bir tolerant ölkədir. Burada yaşayan milli və etnik azlıqlar titul etnosa elə inteqrasiya olmuşdur ki, onları heç bir sahədə bir-birindən ayırmaq mümkün deyildir. Bu isə nəticədə dünyaya, xüsusilə də türk dünyasına inteqrasiyanın əsasını təşkil edir.

## Nəticə / Conclusion

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək gəldiyimiz qənaəti aşağıdakı şəkildə göstərə bilərik:

- Azərbaycan cəmiyyətində multikulturalizm qədim və zəngin tarixə malikdir.
- Multikulturalizm əsasən ədəbi-bədii düşüncəmizdə yaşayaraq bu günümüzədək gəlib çıxmışdır.
- Ayrı-ayrı dövrlərdə mövcud olmuş siyasi rejimlər multikulturalizmi öz siyasi-ideoloji təzyiqi nəticəsində zəiflətmişdir.
- Multikulturalizmin dövlət siyasətinin tərkib hissəsi kimi sistemləşdirilməsi və konstitusiyamızda müxtəlif maddələr əsasında təsbit edilməsi müstəqillik dövründə mümkün olmuşdur.
- Multikulturalizmin dövlət siyasəti kimi formalaşmasının banisi Ulu öndər Heydər Əliyev olmuş, bu siyasətin ən layiqli davamçısı isə cənab Prezident İlham Əliyevdir.
- Hazırda Azərbaycan cəmiyyətində multikulturalizm tolerantlıq siyasətinə əsaslanır, etnik, irqi, dini, milli azlıqların hüquq bərabərliyi və şəxsiyyət azadlıqları ən yüksək səviyyədə təmin edilir.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Babayev Y. (2014). Azərbaycan ədəbiyyatı tarixi (XIII-XIV əsrlər). Bakı, Elm və təhsil. 760 s.
2. Həsənzadə N., Pənahova G., Abbasov Ə. (2016). Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). Bakı, Ecoprint. 255 s.
3. Mehdiyev R. (2019). Multikulturalizmə giriş (Ali məktəblər üçün dərslik). Bakı, Şərq-Qərb. 431 s.
4. Səfərli Ə., Yusifli X. (2008). Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, Ozan. 695 s.

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 126-134
doi.org/10.48445/d4614-2993-5222-e



# Nəsirəddin Tusinin multikultural görüşləri

***Nübar Bayramova***
Pedaqoji və ictimai fənlər kafedrası, baş müəllim, dissertant. ADPU, Quba filialı. Azərbaycan. E-mail: nubar.bayramova.78@mail.ru
https://orcid.org/0000-0001-6298-9617

**XÜLASƏ**
Azərbaycan tarixən uzun və keşməkeşli inkişaf yolu keçmiş, tərkibi dini, milli və etnik azlıqlarla zənginləşərək çoxmillətli bir diyara çevrilmişdir. Müxtəlif konfessiyaların, etnik və milli azlıqların arasında bərqərar olmuş qarşılıqlı tolerant münasibətlər onlara bu torpaqlarda özlərini güvənli və rahat hiss etmələrinə, fərqli mədəniyyətlərə malik olmalarına baxmayaraq sıxılmadan birlikdə yaşamalarına, ana dillərində rahat şəkildə təhsil almalarına, iman gətirdikləri dinlərə sitayiş etmələrinə şərait yaratmışdır. Ölkəmizdə etnik, dini və mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi istiqamətində aparılan siyasət Azərbaycanı bütün dünyada multikultural və tolerant bir dövlət kimi tanıtmışdır. Bu dəyərlərin bugünkü qibtə olunacaq səviyyədə olması heç də təsadüfi deyildir. Tarixi araşdırmalar onun sütununun məhz ədəbiyyatımızın, publisistikamızın, ümumilikdə ictimai fikir tariximizin mütəfəkkirləri olduğunu təsdiq edir. Onların yaratdığı əsərlərdə multikultural əhvali-ruhiyyə və tolerant münasibətlərin təsvirini görürük.

**AÇAR SÖZLƏR**
multikulturalizm, tolerantlıq, alim, rəsədxana, ədalət, bərabərlik

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 17.10.2022
qəbul edilib: 06.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 126-134
doi.org/10.48445/d4614-2993-5222-e



# Nasraddin Tusi's multicultural ideas

***Nubar Bayramova***
Department of Pedagogical and social sciences, senior teacher, dissertatist. ASPU, Guba branch. Azerbaijan. E-mail: nubar.bayramova.78@mail.ru
https://orcid.org/0000-0001-6298-9617

**ABSTRACT**
Azerbaijan has a long and turbulent history that has grown into a multinational country enriched by religious, national and ethnic minorities. Mutually tolerant relations established between different sects, ethnic and national minorities allow them to feel safe and comfortable in these land, and despite to have different cultures, they could live together without getting bored, read comfortably in their mother tongue and worship the religions they believed in. These values, which have been transferred from centuries to the present, are still preserved and transferred to future generations as a result of a successful state policy. The policy carried out in the direction of proper regulation of ethnic, religious and cultural diversity in our country has promoted Azerbaijan as a multicultural and tolerant state all over the world. It is no coincidence that these values are at an enviable level today. Historical research confirms that its pillars are the thinkers of our literature, journalism, and the history of public opinion in general. In all examples of their works we see a description of multicultural mood and tolerant attitudes.

**KEYWORDS**
multiculturalism, tolerance, scientist, observatory, justice, equality

**ARTICLE HISTORY**
Received: 17.10.2022
Accepted: 06.12.2022

## Giriş / Introduction

"Multikulturalizm" bu günün işlək və dəbli termini olsa da, multikultural və tolerant yanaşmalar hər dövrdə yaşayan dahilərin yaratdıqları əsərlərdə öz əksini tapmışdır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sözləri ilə desək: "Leksikonumuzda nisbətən yeni söz olan multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu mövcud olub. Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib" [1, s.4].

Əsərlərinin nüvəsini mutikultural və tolerant dəyərlər təşkil edən dünya şöhrətli alim Nəsirəddin Tusi də bu qəbildən olan mütəfəkkirlərdəndir. Yaratdığı əsərlərində fərqli tolerant baxışları ilə diqqət çəkən alim (1201-1274) Azərbaycan elminin elə zirvəsi sayılır ki, onun əzəməti ilə hər zaman könüllərimiz fərəh və qürur hissləri ilə dolur. Bu, bizə Azərbaycanın yalnız bu gün deyil, tarixən elm məbədi olduğunu əminliklə söyləməyə imkan verir.

Tusi əslində kim idi? Filosof, astronom, riyaziyyatçı, tarixçi, coğrafiyaçı, maaliyyəçi, siyasətçi yoxsa hüquqşünas? Əsərlərinin geniş spektrli areala malik olması əslində onun hansı peşə sahibi olmasını dəqiqləşdirməkdə bizə çətinlik yaradır. Lakin 700 ildən artıq müddət ərzində Yaxın və Orta Şərq ölkələrinin məktəblərində əxlaq dərsliyi kimi şöhrət tapmış "Əxlaqi Nasiri" onun əsərlərinin yüksək elmi-fəlsəfi dəyərə malik olmasına dəlalət edir. Hansı elm sahəsinə aid olmasından asılı olmayaraq Tusinin əsərlərinin multikultural dəyərlərlə zənginliyi təkzibedilməz fakt olaraq qalır. Bu faktın səbəblərini araşdırmaq üçün onun həyat və fəaliyyətinə nəzər salmağa ehtiyac yaranır.

Bəzi mənbələrə görə Muhəmməd ibn Həsən Nəsirəddin Tusi 1201-ci il fevral ayının 18-də Həmədan şəhərinin Bahar bölgəsində anadan olmuşdur. Lakin bir çox tədqiqatçılar üçün onun təvəllüd tarixi mübahisəli olaraq qalır. Məsələn: Qütbəddin Yunini özünün "Zeylmirat əz-zaman" adlı əsərində Tusinin 1274-cü il iyun ayının 25-də doğulduğunu yazır [Qütbəddin Yunini. Heydərabad, 1960].

İlk təhsilini Xorasan vilayətinin Tus şəhərində aldığı üçün özünə "Tusi" təxəllüsünü götürdüyü iddia olunur. Nəsirəddin Tusinin hərtərəfli alim kimi yetişməsində müəllimlərinin böyük rolu olmuşdur. Müəllimlərindən ilk ibtidai və şəriət təhsilini atası Məhəmməd, ilk elmi təhsilini dayısı Nurəddin Səid və ilk hüquq dərslərini əmisi Bəsirəddin Abdullah ibn Həmzədən almışdur. Lakin Tusinin həyatda ən böyük xoşbəxtliyi daha sonralar da görkəmli müəllimlərdən dərs ala bilməsi olmuşdur. Onun ilk peşəkar müəllimi Sədrəddin Sərxəsin tələbəsi Fəxrəddin Dəmadi olmuşdur ki, Sərxəs özü də dahi Bəhmənyar məktəbinin yetirməsi olmuşdur. Onun

ikinci müəllimi Qütbəddin Misri, üçüncü müəllimi isə rəqqaslı saatın ixtiraçısı və "Zic Əkbər əl Hakimi" adlı astronomik kataloqun müəllifi Yunis Misri olmuşdur. İbn Sina və Bəhmənyarın davamçılarından aldığı təhsil onun zəkasını elə işıqlandırır ki, müxtəlif elm sahələrinə verdiyi töhfələrlə zamanın ən parlaq ulduzuna çevrilir.

Tusinin təfəkküründün multikultural dəyərlərlə yoğrulmasının səbəblərindən biri də onun yunan fəlsəfəsinin nümayəndələrindən – Falesin, Platonun, Aristotelin, orta əsr mütəfəkkirlərindən Biruninin, Qəzalinin, Bəhmənyarın, Əl-Fərabinin, İbn-Sinanın yaradıcılığına dərindən bələd olması idi. Heç təsadüfi deyil ki, orta əsr ərəb tarixçisi İbn-Xəldun təbiət elmlərindən bəhs edərkən Tusini İbn-Sinanın "davamçısı" adlandırmışdır. Tusi dünya alimlərini öyrənmək üçün bir çox əcnəbi dillərin öyrənilməsini vacib hesab edirdi. Bu məqsədlə o, yunan, ərəb, fars dillərini mükəmməl öyrənərək öz əsərlərini müxtəlif dillərdə yazmağa nail olur. Yəqin ki, Tusi yaradıcılığının kökündə dayanan multikultural dəyərlər dilini öyrəndiyi xalqların mədəni dəyərlərindən məlumatlı olmasından qaynaqlanırdı.

Uşaqlıqdan mütaliəyə olan böyük həvəsi, fenomenal hafizəyə sahib olması, oxuyub eşitdiyini düzgün analiz və təhliletmə bacarığı ona gələcəkdə qüdrətli və hərtərəfli filosof kimi yetişməsinə imkan yaratmışdır. Gənclik illərindən etibarən, o, müxtəlif teoremlər yaratmağa, alət və cihazlar düzəltməyə meyilli idi.

Tusinin qələmindən çıxan əsərlərin bir qiymətli tərəfi də ondan ibarət idi ki, onun əsərlərində multikultural dəyərlərlə yanaşı, multikultural xarakterli fəaliyyətlərin həyata keçirilmə yolları da təbliğ olunurdu. Tusi fəlsəfəsinin ekvatorunda birgə yaşayışın qanunauyğunluqları dayanırdı. Onun fəlsəfəsinə görə cəmiyyət vahid bir orqanizmdir. Bu orqanizmin orqanları bir-biri ilə mübarizə apardığı zaman o, öz tamlığını itirib məhv olar, lakin bu orqanlar qarşılıqlı, ahəngdar olsalar bir-birini tamamlayar, sağlam və vahid bir orqanizmə çevrilər. Cəmiyyətdə də belədir. Onu təşkil edən təbəqələrin öz aralarında mübarizəsi onun məhvinə səbəb olacaqdır. Tusi yazırdı: "Kim "birliyə" nə qədər yaxın olsa, o qədər kamil olar" [3, s.102].

Tusinin humanist baxışları qeyri-adiliyi və elmiliyi ilə digər mütəfəkkirlərdən kifayət qədər fərqlənirdi. O, əxlaqi-tərbiyəvi ensiklopediya sayılan "Əxlaqi-Nasiri" adlı əsərində humanist yanaşmanın istər etik-əxlaqi, istərsə də sosial-fəlsəfi anlamının izahını böyük dəqiqliklə verirdi. Əslində, bu əsərin multikultural dəyərlərlə zənginliyinin əsas səbəbi onda antik yunan fəlsəfəsinin, qədim İran tərbiyə nəzəriyyəsinin, klassik ərəb əqidəsinin və Azərbaycan iqtisadi-siyasi təcrübəsinin əks olunması idi. "Əxlaqi Nasiri" əsəri iqtisadi, ictimai, əxlaqi, fəlsəfi və tərbiyəvi

baxımdan xüsusilə əhəmiyyətlidir. Əsər "Müqəddimə", "Kitabın yazılması səbəbi", "İlk qeydlər və elmlərin bölgüsü" və 3 məqalədən ibarətdir.

Hazırda tolerantlıq adlandırdığımız baxışlar onun əsərlərində açıq-aydın sezilir. Biz tolerantlıq terminini "dözümlülük" mənasında işlədirik, Tusi isə bunu ədalət hissi kimi qəbul edirdi. Ədalət dedikdə, o, əsas etibarilə "bərabərliyi" və "tarazlığı" nəzərdə tuturdu. Mütəfəkkir insanları həyat yollarında "ədalət"i amal seçdikləri zaman ona 3 sahədə riayət etməyi tövsiyə edirdi:

1. mal və sənət sahəsində;
2. müamilə və mübadilə məsələlərində;
3. məcburi işlərdə – tərbiyə, tənbeh edərkən.

Tusi üçün ədalət hissi dözüm hissindən üstün idi. Lakin o, məhəbbət hissini cəmiyyətin inkişafı üçün daha üstün hesab edirdi. Onun fikrincə, insanlar bir-birinə dözüm nümayiş etdirmək əvəzinə təbii məhəbbət hissi bəsləsələr, o zaman cəmiyyəti yaşatmaq və sağlam inkişaf etdirmək daha asan olar. Yox, əgər insanlar arasında bu hiss yoxdursa, o zaman ədalət və dözümlülükdən söhbət gedə bilməz. Tusiyə görə yalnız bu halda cəmiyyətdə ədalət tərəzisini quraraq nizam-intizama nail olmaq olar. Bir sözlə, bir-birinə dözərək məcburiyyət qarşısında yaşamaq sağlam inkişafa istiqamətlənən cəmiyyət qurmağa imkan vermir. Deməli, hər məsələnin kökündə insanın insanlığa məhəbbəti dayanmalıdır. Tusi "Əxlaqi-Nasiri" əsərində ədalətdən doğan rifahın formalarını aşağıdakı kimi qeyd edirdi:

- "sədaqətli olmaq;
- günah etməmək;
- vəfadar olmaq;
- mərhəmət göstərmək;
- doğmalarla və yaxınlarla əsl səmimi münasibətlər qurmaq;
- insanları mükafatlandırmaq;
- bərabərliyi təmin etmək;
- başqalarının hüquqlarını pozmamaq;
- dostluq münasibətləri yaratmaq;
- əməli saleh olmaq;
- ruhdan düşməmək və həmişə ümid vermək;
- həqiqətə və ədalətə inanmaq" [4, s.319].

Alim əsərin "Ölkə idarəetmə qaydaları" adlı üçüncü məqaləsinin IV fəslində yazır: "Ədalətin üçüncü şərti odur ki, hər sinfin arasında duyğunluq yaratdıqdan və hər bir adamın ləyaqət və istedadına görə rütbə verdikdən sonra onlar arasında olan ümumi gəliri mühafizə etməyə, hərənin öz payına düşəni özünə verməyə səy

göstərməli, burada haqqa və xidmətə fikir verilməlidir" [3, s.231]. Tusi yazırdı ki, ölkə başçısı bütün ölkəyə məsul olduğu kimi, icmanın da həm ümumi, həm də fərdi halda mənafeyini qorumalıdır. O, "ədalət" anlayışından daha geniş danışaraq, onun fəlsəfi, ictimai-siyasi mahiyyətini açmağa çalışır və onu hər şeydən üstün sayırdı. O, xalq arasında ədaləti bərpa etmək üçün əsasən aşağıdakı üç amili zəruri hesab edirdi:

1. "ilahi namus" – vicdanın səsini;
2. "insani hakim" – adil münsif olmasını;
3. "dinar" – pulu.

Tusi yazırdı: "...Mədəni adamlar təbiətcə yaradıcıdırlar, məişətcə isə bir-birinə kömək etmədən dolana bilməzlər. Kömək ondan ibarət olar ki, biri o birinə xidmət edər, birindən alıb o birinə satarlar, elə edərlər ki, müvazinət, tarazlıq və bərabərlik pozulmasın. Məsələn, xarrat öz əməyinin məhsulunu rəngsaza verər, rəngsaz da öz növbəsində əməyinin məhsulunu ona təklif edər. Bu zaman xarratın hazırladığı şey rəngsazınkından daha yaxşı, daha çox və ya əksinə ola bilər, buna görə zəruri olaraq bir tarazlaşdırıcı, bərabərləşdirici vasitəyə ehtiyac meydana çıxar, o da "dinar" (pul) olar" [3, s.18]. Tusi bu fikirləri ilə xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaratmaqla bərabərliyi qoruyub saxlamağın mümkün olduğunu bildirirdi.

Tusinin bütün insanlara – dilindən, dinindən və irqindən asılı olmayaraq bərabər baxışları xüsusi diqqət çəkir. O göstərirdi ki, dünyada beş formasiya mövcuddur: "Hər bir adam bir evin (ailənin) tərkib hissəsi olduğu kimi, hər ev bir məhəllənin tərkib hissəsi, hər məhəllə bir şəhərin tərkib hissəsi, hər şəhər bir xalqın (ölkənin) tərkib hissəsi, hər xalq bütün dünya əhalisinin tərkib hissəsi olar". Yəni Tusi hər zaman insanlara eyni nəzərlə baxır, onları bir-birindən ayırmır və talelərinə biganə qalmamağa çalışırdı.

Böyük filosof multikulturallığın səbəblərini məhəbbətdə, insanlararası sevgiyə əsaslanan ədalət və bərabərlikdə görürdü. Onun "Əxlaqi Nasiri" əsəri multikultural dəyərlərin formalaşması və gənc nəslin təlim-tərbiyəsində əvəzsiz rola malikdir.

Tusi bütün insanları elm və bilik əldə etməyə, bu sahədə təcrübə toplamağa çağırırdı. Onun fəlsəfəsinə görə insan yalnız bu yolla qarşısına çıxan çətinlikləri aradan qaldıraraq güclənə bilər: "Bu, od qüvvəsini xatırladır, od da rütubəti aradan qaldırmayınca qızışıb alovlana bilmir, elə ki alovlandı, get-gedə güclənər və nəhayət, təbiətin qabil olduğu ən yüksək dərəcəyə çatar".

Onun sekulyar baxışları "səadət" anlayışının izahını verərkən də hiss olunur. Tusi "səadət"i 5 yerə ayırmışdı:

1. Bədənin sağlamlığı, hisslərin aydınlığına görə;

2. İqtisadi cəhətdən üstün olub, ona əsaslanaraq yaxşı əməllər yerinə yetirilməsinə görə;
3. Xalq arasında yayılmış gözəl ənənə və xeyirli işlərə görə;
4. Bilik və iradə hesabına məqsədlərin yerinə yetirilməsinə görə;
5. Dini məsələlərdə xəta edilməməsinə görə" [X.N.Tusi. Bakı, 2005].

Bu yanaşmada filosofun insanlar arasında dini ayrı-seçkilik etmədiyini, əslində dini aspektin onun üçün ən sonda dayandığını görmək mümkündür.

Alimin multikultural dəyərləri sonralar onun həyatında, ətrafındakılara qarşı münasibətində də özünü göstərirdi. Uzun illər Hülakü xanın yanında məsləhətçi kimi çalışan alim, böyük hökmdarı alimləri milliyyətinə görə deyil, bacarıq və qabiliyyətlərinə görə qiymətləndirməyə təşviq edirdi.

O, sanki öz dövrünün sülh carçısı idi. Bir siyasətçi kimi, daima Hülakü xana izah edirdi ki, başqa millətlərin xüsusiyyətlərini, mədəni dəyərlərini, tarixini bilmədən, elm adamlarını, alimlərini tanımadan onları idarə etmək mümkün deyildir. Bununla da o, nəinki istila olunmuş ərazilərin xalqlarının mədəni müxtəlifliyini qoruyur, inkişafı üçün şəraitin yaradılmasına imkanlar yaradır, həm də onlara qarşı tolerant münasibətlər bəslənilməsinə nail olurdu. Həmin tarixi dövrlərdə monqol istilaları nəticəsində zəbt edilən torpaqların viran qalması, elm adamları və yerli xalqların mədəniyyətinin ziyan görməsi Tusini çox narahat edirdi. Belə çətin bir zamanda o, hökmdarın yanında olan nüfuzundan istifadə edərək işğal olunan ərazilərdə abidələrin, sənət əsərlərinin məhv edilməsinin qarşısını almağa və elm adamlarının toxunulmazlığına çalışır, onları bir yerə toplayaraq fəaliyyət göstərmələri üçün şərait yaradırdı.

Hər yüzillikdə olduğu kimi Tusinin yaşadığı dövrdə də Azərbaycanda bir çox fərqli mədəniyyətlər bir arada cəm olmuşdu. Ona görə də onun yaratdığı humanist və demokratik ideologiya yalnız həmin dövr üçün zəruri idi.

O, Hülakü xanın dəstəyi ilə Marağada tikdirdiyi rəsədxanada fərqli mədəniyyətlərə mənsub olan alimləri bir yerə toplamışdı. Orada çalışan alimlər arasında dini müxtəlifliyin mövcudluğu isə bu işin maraqlı tərəfi idi. Rəsədxanada müsəlman alimlərlə yanaşı xristianlar, buddistlər, yəhudilər də çalışırdı. Qorunub saxlanılan sənədlərdən məlum olur ki, alimlər arasında farslar, ərəblər, özbəklər, türklər, çinlilər, monqollar və digər xalqların nümayəndələri də olmuşdur. Doğrudan da, rəsədxanadakı alim kollektivinin belə bir beynəlmiləl tərkibi Tusinin multikultural ideyalarının ətrafındakılara da sirayət etdiyindən xəbər verirdi.

Həmin yüzillikdə Azərbaycanda elmin inkişafının sürətlənməsində Nəsirəddin Tusinin misilsiz xidmətləri olmuşdur. Siyasi meydandakı nüfuzundan istifadə

etməklə o, bir çox görkəmli alimləri Azərbaycana dəvət etməyə nail olur. Bunların sırasına – Çindən Fao Mun-Çi, İspaniyadan Məhiəddin Məğribi, Xarəzmdən Cəmaləddin əz-Zeydi Buxari, Anadoludan İzəddin Toğrul ibn Səncər, Hindistandan Əlaəddin Süleyman əl Mutani və Əflatun Hindi, Bağdaddan Nəcməddin Əhməd ibn Əbil Fərəc, Həcməddin ibn Huab Bağdadi, Münəccim Bağdadi, Kəmaləddin Sufi Bağdadi Əbu Əziz, Monqolustandan Taqiəddin Əli Həşşaşi, İsa Monqol, Hələbdən Əbül Fərəc Bar-Ebreus, Tiflisdən Fəxrəddin İxlati, Qəzvindən Nəcməddin Dəbirani, Naxçıvandan Hinduşah ibn Səncər Naxçıvani, Təbrizdən Hüsaməddin Təbrizi, Dəməşqdən Müəyyidəddin Ordi, Şirazdan Qütbəddin Şirazi, Ürmiyyədən Səfiəddin Əbülmömin Ürməvi, Mosuldan Fəxrəddin Marağayi, Damğandan Mahmud Nəcməddin Üsturlabi, İmaməddin əd-Damqani, Şamaxıdan Şəmsəddin Şirvani və s. aid edilir. Bu cür dəyərli mütəfəkkirlərin bir arada fəaliyyət göstərməsinə nail ola bilmək Tusinin yüksək səviyyədə multikultural dəyərlərə sahib olmasından irəli gəlirdi. O, hətta Marağa rəsədxanasında çalışan alimlərə daimi əmək haqqının verilməsinə də nail ola bilmişdi. Akademik Z.Bünyadova görə Nəsirəddin Tusi tərəfindən Marağada yaradılmış rəsədxana və "Dar əl-ilm va-l-hukmanı" nəinki Şərq ölkələrinin, eləcə də o zamanki dünya sivilizasiyasının ilk elmlər akademiyası idi[3]. Melatiya yepiskopu Bar-Ebreus kimi qatı xristianı Marağa rəsədxanasında mühüm vəzifəyə təyin etməsi Tusinin multikultural baxışlarının təsdiqidir. Həmçinin uzun müddət kitabxananın keşikçisi və açarçısı olmuş İbn əl-Füvati "Təzkirə mai qəsədə əl-rəsədxana" adlı əsərində minlərlə yerli və əcnəbi alimlərin, hətta indiyə qədər elm aləminə naməlum olan bir çox tanınmış azərbaycanlı alimin adını çəkmişdir[4].

[3]https://hozir.org/multikulturalizme-giris-fenninin-predmeti-ve-ehemiyyeti-plan-m.html?page=5
[4]https://gsaz.az/articles/view/328/XIII-asrda-Azarbaycan-arazisinda-multikulturalizmin-movcudlugu

## Nəticə / Conclusion

Nəsirəddin Tusi əsərlərində multikultural dəyərləri təbliğ etməklə yanaşı, yaşayıb-yaratdığı dövrdə də multikultural mühit yaratmağa çalışırdı. O, dövrünün bacarıqlı siyasətçisi olaraq siyasi görüşlərində də hər zaman bu ənənəni qoruyub saxlayırdı. Alimin bu xidmətləri yalnız Azərbaycanda elmin inkişafına deyil, həmçinin tolerant ruhlu elmi cəmiyyətin və xalqları birləşdirən multikultural mədəniyyətin formalaşmasına da səbəb olmuşdur. Bu gün Azərbaycanda formalaşan, fəxr və qürurla nümunə göstərəcəyimiz multikultural həyat tərzinin bizə, məhz Tusi kimi alimlərimizdən miras qaldığını əminliklə söyləyə bilərik.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında. (2017). Bakı, 527 s.
2. Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. (2018). Multikulturalizmə giriş: Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Mütərcim. 372 s.
3. Xacə Nəsirəddin Tusi. (2005). Əxlaqi Nasiri. Lider Nəşriyyatı, s.102-279.
4. Qütbəddin Yunini. (1960). Zeylmurat əz-zaman. III cild. Heydərabad, 790 s.
5. https://hozir.org/multikulturalizme-giris-fenninin-predmeti-ve-ehemiyyeti-plan-m.html?page=5
6. https://gsaz.az/articles/view/328/XIII-asrda-Azarbaycan-arazisinda-multikulturalizmin-movcudlugu

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 135-142
doi.org/10.48445/v9255-6252-5628-t



# Cümhuriyyət dövrü türk marşları

***Ülviyyə Qasımova***
AME Elmi Mərkəzi, böyük elmi işçi. Azərbaycan.
E-mail: ulviyya1991@yahoo.com
https://orcid.org/0000-0003-0760-8388

**XÜLASƏ**
Məqalədə Cümhuriyyət dövrü türk ədəbiyyatında meydana çıxan türk marşları araşdırılmışdır. Bu dövr hər sahədə olduğu kimi, ədəbiyyata da zənginlik, müxtəliflik və yenilik gətirmişdir. İstiqlaliyyətin əldə olunması və Türkiyə Cümhuriyyətinin elanından sonrakı mərhələni əhatə edən bu dövr, əsasən, cümhuriyyətə və M.K.Atatürkə həsr olunmuş marşlar, eləcə də məktəb və gənclik marşları, həmçinin müxtəlif sənət-peşə sahələrinə həsr olunmuş marşların üstünlük təşkil etməsi ilə fərqlənir.

**AÇAR SÖZLƏR**
cümhuriyyət, türk ədəbiyyatı, marş, inkişaf, mərhələ

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 25.10.2022
qəbul edilib: 05.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 135-142
doi.org/10.48445/v9255-6252-5628-t

L I T E R A R Y  E N V I R O N M E N T

# Turkish marches of the Republican period

***Ulviyya Gasimova***
AME Scientific Center, senior researcher. Azerbaijan.
E-mail: ulviyya1991@yahoo.com
https://orcid.org/0000-0003-0760-8388

**ABSTRACT**
This article investigated Turkish marches that appeared in Turkish literature of the Republican period. This period, as in every field, brought richness, diversity, and innovation to literature. This period, which covered the period after gaining independence and the proclamation of the Republic of Turkey, is mainly distinguished by the predominance of marches dedicated to the republic and M.K.Atatürk, as well as marches of school and youth, and marches dedicated to various arts and professions.

**KEYWORDS**
republic,
turkish literature,
march, development,
stage

**ARTICLE HISTORY**
Received: 25.10.2022
Accepted: 05.12.2022

## Giriş / Introduction

Etəm Üngör "Türk marşları" kitabında Muzika-i Hümayunun (mehtərdən sonra yaradılan saray orkestri) yaradılmasından, yəni 1963-cü ilə qədər olan dövrü Cümhuriyyətdən əvvəlki (1828-1923) və sonrakı (1923-1963) dövrlərə bölür. Birinci dövrdə, əsasən, əsgər marşları üstünlük təşkil edirdi ki, onların da əksəriyyətinin müəllifləri naməlum idi. Məktəb və gənclik marşları isə digər marşlara nisbətən az sayda idi. Birinci dövrə nisbətən durğun olan ikinci dövr, əsasən, məktəb və gənclik marşlarının üstünlük təşkil etməsi ilə fərqlənirdi. Tədqiqatçı 1963-cü ilə qədər apardığı araşdırmalarında 135 il ərzində 750 marş təsbit edə bilmişdir. E.Üngörün özünün də qeyd etdiyi kimi yüzlərlə, hətta minlərlə marş itmiş, dövrümüzədək gəlib çata bilməmişdir [6, s.41-42].

İstiqlaliyyətin əldə olunması və Türkiyə Cümhuriyyətinin elanından (1923) sonrakı mərhələni əhatə edən ikinci dövrdə yaranan ədəbiyyat daha çox milli səciyyə daşıyırdı. Cümhuriyyət dövrü hər sahədə olduğu kimi ədəbiyyat sahəsinə də xüsusi zənginlik, müxtəliflik və yenilik gətirmişdir. Bu dövrə aid ədəbiyyat daha çox M.K.Atatürk və onun inqilabları ilə bağlı olsa da, həmin vaxt baş verən İkinci Dünya müharibəsi də ədəbiyyata təsirsiz ötüşmədi. Cümhuriyyət dövrü türk şeiri ənənəsinə əsaslanaraq Qərbin təsirində və yeni cizgidə inkişaf edirdi. Yeni rejimin özü ilə gətirdiyi yönümlərin böyük ölçüdə ədəbi müstəvidə əksi olan "məmləkət şeiri" Faruq Nafiz Çamlıbel (1898-1973), Xalid Fahri Ozansoy (1891-1971), İbrahim Əlaəddin Gövsa (1889-1949), Ömər Bədrəddin Uşaqlı (1904-1946), Kamaləddin Kami Kamu (1901-1948), Zəki Ömər Dəfnə (1903-1992) və başqalarının yaradıcılığında öz əksini tapırdı. Bu dövrdə meydana çıxan və milli dəyərləri özündə ehtiva edən marşlar 1950-ci illərdən sonra yaranan nəsillərin yetişməsində mühüm rol oynamışdır. Birinci dövrdən fərqli olaraq, əsasən, inqilablar və siyasi şəxsiyyətlərə həsr olunmuş marşların üstünlük təşkil etməsi ilə səciyyələnən ikinci dövrdə yazılan marşların demək olar ki, əksəriyyəti Cümhuriyyətin banisi M.K.Atatürkə həsr olunmuşdur. Qazanılan zəfərlər və onlara öndərlik edən M.K.Atatürkün böyüklüyünü səciyyələndirən qəhrəmanlıq marşları 1923-1940-cı illər türk şeirində aparıcı yer tutmuşdur. Bunlardan Kılkışlı Hüseyn Hüsnünün "Türklükdür bu!", Haşim Nəzihinin "Qazi", Əhməd Cəmil Miroğlunun "Cumhuriyet on birine basıyor", Yaşar Nəbinin "Baş döndürücü hız" və başqa marşları misal gətirmək olar [5, s.182-85]. Əli Əkrəmin "Cumhur rəisi", Suat Taşərin "Sendendir Atatürk", Ümid Yaşar Oğuzcanın "Mustafa Kemal'i düşünüyorum", "Ölümsüz atam", H.A.Yücəlin "Atatürk", F.H.Dağlarcanın "Atatürkçüyüz", "100 yıl Atatürk marşı", B.S.Ərdoğanın "100 yıl

Atatürk marşı", Fəvzi Xalıcanın "100 yıl Atatürk marşı", Coşqun Ərtəpınarın "100 yıl Atatürk marşı", H.F.Süərdəmin "Atatürk marşı", Yekta Güngör Özdenin "Atatürk yürüyor", Müyəssər Tuncərin "Sen atamsın", Nevzat Üstünün "Mustafa Kemal", Feyzullah Sacit Ülkünün "Atatürk marşı", "Büyük zaferden" və s. marşlarında da M.K.Atatürk tərənnüm olunur.

Bu dövrdə, həmçinin cümhuriyyətə həsr olunmuş marşlar da üstünlük təşkil edirdi. Ömər Bədrəddin Uşaqlının "Akdenize doğru", Uluğ Turanlıoğlunun "Bugün", Celal Emremin "Cumhuriyet" və s. cümhuriyyəti tərənnüm edən marşlar siyahısında idi. Cümhuriyyətin yaradılmasının onuncu ildönümü münasibətilə sözlərini Faruq Nafız Çamlıbel və Behçət Kamal Çağların yazdığı, musiqisini Camal Rəşid Reyin bəstələdiyi "Onuncu yıl marşı" xüsusilə diqqət cəlb edir [1, s.158]. Bundan başqa, Necdət Rüştü Efenin də "Onuncu yıl marşı" (yaxud "İstanbul marşı") məşhurdur. Millətçiliyin ön planda olduğu bu marşda oxuyuruq:

Bize bugün ne mutlu, yeni bir yurt yarattık;
Asırları on yılda birden arkaya attık.
Türklük yüceldi,
Şanile geldi

[6, s.222].

Cümhuriyyətin əllinci ildönümü münasibətilə isə Bəkir Sıtkı Ərdoğan "Ellinci yıl marşı"nı yazmışdır. "Cümhuriyyət marşları"nı tamamlayan digər marşlar bu dövrdə baş vermiş hadisələrlə bağlı idi. Belə ki, "19 Mayıs" (Əli Ertan), "30 Ağustos", "23 Nisan" (M.Faruk Gürtunca) və s. marşlar buna ən yaxşı örnəklərdir. Mehmet Faruk Gürtuncanın uşaqlar günü münasibətilə yazdığı "23 Nisan" marşı bu gün də Türkiyədə çox məşhurdur. Musiqisi Xalid Ozana məxsus olan həmin marşda oxuyuruq:

En yüce gün bugündür geldi Yirmi üç Nisan
Çocuklara düğündür geldi Yirmi üç Nisan
Doğdu bir güneş bir ay, doğdu yüce kamutay
Kuralım bir kurultay geldi Yirmi üç Nisan

[6, s.244].

Bu dövrdə xüsusilə uşaq marşlarına maraq və tələbat artırdı. Hələ Cümhuriyyətin ilk illərində Atatürk çox sevdiyi türk uşaqları üçün marşın yaradılmasını istəmişdir. Aka Gündüzün (1885–1958) hamı tərəfindən bəyənilən şeirinə musiqi bəstələnməsi üçün müsabiqə elan edilmiş və müsabiqəni Zəki Üngör

qazanmışdır. O gündən sonra bu şeir uşaqların marşı olaraq qəbul edilmişdir. Gələcəyin ümid yeri olan uşaqlara müraciət olunan "Uşaq marşı"nda oxuyuruq:

Türk çocukları! Türk çocukları!
Gözler ileri, başlar yukarı
Yarınki hayat, yurt ufukları
Her şey sizindir, Türk çocukları!
[6, s.233].

Avropa siyasi cəmiyyətində gənclərin fəallığı XIX əsrdə milliyətçi hərəkatlarla bağlı idisə, Türkiyədə bu vəziyyət "Gənc türklər" inqilabından (1908) sonra baş vermişdir. Cümhuriyyətdən sonrakı dövrdə inqilabların əsl hədəfi gəncliyin dinamizmi yeni Türkiyənin yaranması istiqamətində qiymətləndirilmişdir. Bu dövrdə yaranan gənclik marşları da Cümhuriyyət dövrü marşları kimi diqqət çəkərək məktəb marşları ilə bütövlük təşkil edirdi. Əgər gənclik marşları bütün gəncliyə xitab edilirdisə, məktəb marşları xüsusiliyinə görə fərqlənirdi: belə ki, hər bir məktəbin, yaxud universitetin özünün ayrıca marşı var idi. Bu marşlardan bəziləri həmin məktəbin müəllimi, yaxud tələbəsi tərəfindən, bəziləri isə dövrünün şairləri tərəfindən yazılırdı. O.Ş.Gökyayın "Konservatuar marşı", Səbahəddin Tokun "Tıbbiyeli marşı", Tofiq Fikrətin "Galatasaray lisesi marşı", Hüsnü Öncünün "Harp okulu marşı", Əbdülqədir Qaraxanın "Yedek subay okulu marşı", Mahir Ünlünün "Askeri Muzika Okulu marşı", B.S.Ərdoğanın "Deniz Harp Okulu marşı", Əngin Özərginin "İstanbul kız lisesi marşı", F.N.Çamlıbelin "Kız lisesi marşı", Xalidə Nüsrət Zorlutunanın "Ankara Atatürk lisesi marşı", Niyazi Çıtakoğlunun "Haydarpaşa lisesi marşı", Mehtap Karanın "Beyoğlu Ticari Meslek lisesi marşı", Gül Kansunun "Okul marşı" və s. məktəb marşları sırasına daxil etmək olar. Göründüyü kimi, *məşrutə dövründən* başlanan məktəb marşları ənənəsi Cümhuriyyət dövründə də davam etmişdir. Bu da Cümhuriyyətin gənclərə verdiyi dəyərin ən bariz göstəricilərindən biri idi. Türkiyənin tarixində iki mühüm günün – 23 aprelin uşaqlara, 19 mayın isə gənclərə həsr edilməsi də təsadüfi deyildir.

Gənclik marşlarından ən məşhuru heç şübhəsiz "Dağ başını duman almış" misrası ilə başlayan "Gənclik marşı"dır. İsveç dilində adı "Şakıyan üç gənc qız" (The trallade jantor) olan bu marşın notlarını Türkiyəyə 1909-cu ildə Səlim Sırrı Tarcan gətirmişdir. Feliks Korlingin bəstəsi olan marşın sözlərini 1916-cı ildə Əli Ülvi Ələvə türk dilinə uyğunlaşdırmışdır. 1919-cu ildə marşı dinləyən Atatürk onu çox

bəyənmişdir. Bundan sonra marş bütün Türkiyədə məşhurlaşmış, 1938-ci il iyirmi iyun tarixli qərarla 19 May "Gənclər və İdman Günü"nün rəsmi marşı kimi qəbul edilmişdir. Həmin marşda oxuyuruq:

Her geceyi güneş boğar,
Ülkemizin günü doğar.
Yol uzun da olsa ne var,
Yürüyelim arkadaşlar
[2, s.136].

Bu mövzuda Noyan Ertəzin, Tacəddin Şimşək və Əhməd Bayülgən də eyniadlı "Gənclik marşı"nın söz yazarlarıdır. Digər "Gənclik marşı"nı isə Kamal Qaya yazmış, Fərid Hilmi Artək isə ona musiqi bəstələmişdir. Həmin marşın sözləri aşağıdakı kimidir:

Bizler demir bilekli Türk genciyiz
Yıldız gibi parıldıyor alnımız.
Yurda hayat dolunca neşemizle
Titriyor ufuk bizim çelik sesimizle
[6, s.228].

Bu dövrdə türk ədəbiyyatında müxtəlif şəhərlərə həsr olunan marşlara da rast gəlmək mümkündür. Say etibarilə digər marşlardan az olmasına baxmayaraq, bu mövzuda da kifayət qədər tanınan marşlar olmuşdur. Mühüm müharibələrin baş verdiyi, qanlı döyüşlərə şahidlik etmiş məkanlara həsr olunmuş bu marşlarda verilən mücadilənin hər zərrəsi duyulur. Başda Çanaqqala olmaqla digər şəhərlərin bu tip marşları zamanla türküyə, şərqiyə çevrilmiş, dildən-dilə dolaşmışdır. Bu tip şəhər marşlarının müəllifləri mənbələrdə ya anonim göstərilir, ya da təsbit edilmir.

Mənbələrdə Vecdi Bingölün "Ankara marşı", Aka Gündüzün "Ankara marşı", M.F.Gürtuncanın "Ankara marşı", Mustafa Sevilənin "Sakarya marşı", A.Giritlinin "Sakarya marşı", İzzət Ülvi Bəyin "Dumlupınar", T.Ülvinin "Dumlupınar", Şükrü Aksəlin "Karadeniz", Salih Bəyin "Edirneye gider iken marşı" və s. marşların müəllifləri göstərilmişdir. Cümhuriyyətin ən çox tanınan marşlarından biri də Həsən Fəhmi Süərdənin "İstanbul marşı"dır. Musiqisini M.Hulusi Öktemin bəstələdiyi marşda oxuyuruq:

Ey sevgili İstanbul, ey dünyanın cenneti,
Ey hürriyet diyarı, şanlı yurdun zineti.

Ey onurlu tarihin güven hayat kudreti,
Sensin büyük milletin hazinesi, serveti
[6, s.259].

Cümhuriyyət dövrü türk marşları arasında müxtəlif sənət-peşə sahələri, eləcə də onların nümayəndələrini tərənnüm edən marş mətnlərinə də rast gəlinir: İsmət Bəy "Uçak marşı", Z.İ.Kızılışık "Öğretmen marşı", İ.H.Ertalyan "Öğretmen marşı", Nejat Səfərcioğlu "Gülhane marşı", Rakım Çalapala "Havacılar marşı", Mustafa Fuad Bəy "Muzaffer ordu marşı", Camal Tural "Silahlı kuvvetlər marşı", Hüsaməddin Güclü "Türk Deniz Kuvvetleri marşı", M.Rza Çalışqan "Mehmetçiğin türküsü marşı", Yəhya Kamal Bəyatlı "Akıncılar marşı", B.K.Çağlar "Toprak marşı", "Ziraat marşı", Reşat Türkeş "Köycülük marşı", Aka Gündüz "Çiftçi marşı", "İktisat marşı", Memduh "Ekonomi marşı", Avni Ozan "Sanat marşı", Can Yücel "İşçi marşı".

Cümhuriyyət dövründə bir çox siyasi partiyaların marşları da meydana gəldi. Onların təsirli melodiyası ilə cəmiyyəti ruhlandırmaq və hərəkətə keçirmək mümkün olduğundan siyasi partiyalar bu üsuldan istifadə edirdi. Cəmiyyət üzərində böyük təsiri baxımından marşlar bəzən siyasi ideologiyaya xidmət etmişdir. Buna görə də partiyalar öz devizlərini marşlarla ifadə edirdi. Avropada bu ənənə 1920-ci illərdən başlasa da, Türkiyədə iqtidarı əlində tutan, Atatürk tərəfindən qurulan Cümhuriyyət Xalq Partiyasının (CHP) marşı yox idi [3, s.3]. Bu səbəbdən 1935-ci ildə partiya marşına dair nizamnamə qəbul edilmiş, ancaq bir müddət sonra bu bənd nizamnamədən çıxarılmışdır.

Göründüyü kimi, Cümhuriyyətin ilk illərindən (1924-1950) türk marşları həm musiqi, həm də ədəbi cəhətdən sürətlə artmağa başladı. Milliləşmə və ictimai səfərbərlik dövrlərinin idealizmi və ideologiyası ilə marşların inkişafı arasında mühüm əlaqə var idi. Fərdi şüurun meydana çıxması ilə marşların azalması arasında paralel əlaqə mövcud idi. Belə ki, İkinci Dünya müharibəsindən sonra marşların inkişafında durğunluq yarandı. Çünki kütlələri səfərbər edəcək ideallar öz yerini fərdi hərəkatlara vermişdi. İstər dövlət, istərsə də vətəndaş hərəkatları ilə marşların ünvanlandığı ən mühüm ünsür cəmiyyətdir; konkret cəmiyyət olmadan marşlar da yaranmaz. Heç bir poetik ünsür ictimai dəyişikliyi marşlar qədər zamanında və doğru şəkildə əks etdirməmişdir. Marşların taleyi cəmiyyətin taleyini göstərmiş, cəmiyyətin taleyi də öz növbəsində daima marşların istiqamətini təyin etmişdir [4, s.27].

## Nəticə / Conclusion

Nəticə olaraq deyə bilərik ki, Cümhuriyyət dövrü meydana çıxan marşları məzmun istiqaməti baxımından üç əsas başlıq altında qruplaşdırmaq olar: millətin, dövlətin ruhunu əks etdirən türklük, qəhrəmanlıq, millətpərvərlik, Atatürk və dövlət kultu ilə bağlı vətən marşları, milli inkişaf ideologiyasının prioritet hədəflərinin ifadəsi olan "sahə marşları" və müxtəlif təhsil təşkilatlarının marşları.

Türk marşlarının tarixinə nəzər saldıqda onun nə qədər zəngin və qədim köklərə qədər gedib çıxdığının şahidi oluruq. Çox təəssüf ki, bu marşların əksəriyyətinin söz və bəstəsi itmiş, dövrümüzədək gəlib çatmamışdır. Bunu nəzərə alan Etəm Ruhi Üngör 1966-cı ildə "Türk marşları" kitabını çap etdirmişdir. Bundan başqa, L.Deliorman "Marşlarımız" (1999), S.Batur "Sözleri ve notaları ile marşlarımız" (1999), O.Kolçak "Ulusal kimliğimizin sesleri marşlarımız" (2003) və digərlərinin kitabları bu sahədə qiymətli nümunələrdəndir.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Çalışkan A. (2010). Ana çizgileriyle Cumhuriyet devri türk şiirine teorik bir yaklaşım (1923-1960). Uluslararası Sosyal Araştırmalar Dergisi, Volume 3/10, s.140-199.
2. Deliorman L. (2005). Marşlarımız. İstanbul, Milli Eğitim Bakanlığı yayınları. 204 s.
3. Duman Önder. (1935-1947). Cumhuriyet Halk Partisinin parti marşı arayışı. Journal of History Studies, Volume 8, Issue 2, s.1-13.
4. Mermutlu B. (2008). Toplumsal zihniyeti inşa ve anlama aracı olarak marşlar. Tarih Bilinci (Tarih ve Kültür dergisi). Ekim-Kasım-Aralık, sayı 6, s.27-37.
5. Timur K. (2005). Ülkü dergisinde yayınlanan Atatürk konulu şiirler. TÜBİAR, XVII, s.177-203.
6. Üngör Etem. (1965). Türk marşları. Ankara, AyYıldız Matbaası. 335 s.

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 143-153
doi.org/10.48445/g0295-9510-4292-c



# Real tarixi şəxsiyyət Alp Ər Tonqa əfsanəvi Turan şahı Əfrasiyabdırmı?

***Aynur Səfərli***
Bakı Dövlət Universitetinin doktorantı, DİN Polis Akademiyası, Elmi tədqiqat və redaksiya-nəşriyyat şöbəsi. Azərbaycan.
E-mail: seferli_1988@bk.ru
https://orcid.org/0000-0002-01104659

**XÜLASƏ**
Ədəbiyyatşünaslığımızda bir sıra məsələlər vardır ki, onlar indiyədək dəqiq araşdırılmamışdır. Bu məsələlər haqqında söylənilən səthi mülahizə və təsəvvürlər yalnız stereotiplər halında bu günümüzədək gəlməkdə davam edir. Belə mülahizələrdən biri də əfsanəvi Turan şahı Əfrasiyabın real tarixi şəxsiyyət Alp Ər Tonqa (və ya Tona) ilə eyniləşdirilməsidir. Halbuki bu iki şəxsiyyətin yaşadığı dövrləri bir-birindən on iki-on üç əsrlik zaman kəsiyi ayırır. Karluqların X əsrdə yaratdığı Qaraxani dövlətinin xanları Alp Ər Tonqanı öz ulu əcdadı hesab edirdilər. Alp Ər Tonqa barədə məlumat verən Mahmud Kaşğarlı və Yusif Balasaqunlu da Qaraxani sarayı ilə birbaşa əlaqəsi olan müəlliflər idi. O zamana qədər Alp Ər Tonqanı öz ulu əcdadı hesab edən Qaraxani hakimləri "Əfrasiyab" adı ilə bağlı olan məlumatların daha geniş miqyasda – fars və ərəblər arasında da yayılmasını, eyni zamanda daha təmtəraqlı səslənməsini gördükdən sonra öz sülalələrini "Beytül-Əfrasiyab" ("Əfrasiyab evi") adlandırmışlar.

**AÇAR SÖZLƏR**
türk dastanları, əfsanəvi Turan şahı, Əfrasiyab, "Avesta" personajı, Alp Ər Tonqa

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 21.10.2022
qəbul edilib: 30.11.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 143-153
doi.org/10.48445/g0295-9510-4292-c



# Is Alp Er Tonga a real historical figure the legendary Turan shah Afrasiyab?

***Aynur Safarli***
Doctoral student of Baku State University, Police Academy of the Ministry of Internal Affairs, Scientific research and editorial-publishing department. Azerbaijan. E-mail: seferli_1988@bk.ru
https://orcid.org/0000-0002-0110-4659

**ABSTRACT**
A number of issues in our literary criticism have not yet been thoroughly studied and the superficial considerations and ideas expressed about them continue to come to us today in the form of stereotypes. One such consideration is the identification of the legendary Turan Shah Afrasiyab with the real historical figure Alp Er Tonga (or Tona). However the periods in which these two personalities lived are separated by twelve or thirteen centuries. The khans of the Karakhani state, created by the Karluks in the 10th century, considered Alp Er Tonga as their great ancestor. Mahmud Kashgarli and Yusif Balasagunlu, who gave information about Alp Er Tonga, are also the authors connected with Karakhani palace. Until then the Karakhanid rulers, who considered Alp Er Tonga to be their great ancestor, called their dynasty "Beyt al-Afrasiyab" ("House of Afrasiyab") after seeing that it sounded more lavish and the spread of information about the name "Afrasiyab" on a larger scale-among the persians and arabs.

**KEYWORDS**
turkish epics, legendary Turan shah, Afrasiyab, "Avesta" character, Alp Er Tonga

**ARTICLE HISTORY**
Received: 21.10.2022
Accepted: 30.11.2022

## Giriş / Introduction

Türk xalqlarının dastan yaradıcılığı qədim və zəngin ənənələrə malikdir. Bu dastanlar onların milli qəhrəmanlıq, iman və düşüncə tarixinin, tarixdən əvvəlki və sonrakı çağlarının bədii ifadəsidir. Dastanlarda ilkin tanrı və tanrılaşdırılmış insanlar, gün işığı, su köpüyü, ağacdan doğulmuş uşaqlar və türklərin savaşları xüsusi yer tutur. Daha doğrusu, türk dastanları türklərin dastanlaşmış tarixi, öz əfsanəvi keçmişinə münasibətinin təcəssümüdür.

Türklərin yenilməz bahadırlıq uğurları, savaşları, yeni yurdlar salması, böyük dövlətlər qurması və mənəvi gözəlliyi bu dastanların yaranması üçün özül olmuşdur. Gerçəkliyin əfsanəyə çevrildiyi bu çağlarda insanların ilkin duyğu və düşüncələri, acılı-şirinli xəyalları, təbiət və onun hadisələrinə qeyri-adi münasibətləri də dastan yaradıcılığının yaranmasında əsas zəmin rolunu oynamışdır.

Eradan öncə XII yüzillikdən başlayıb eramızın IX yüzilliyinə qədər hakimiyyətdə olan Sak, Hun, Göytürk və Uyğur imperiyaları dövründə ilk dastan örnəkləri meydana gəlmişdir. Eramızdan əvvəl VII yüzillikdə yaşamış Turan hökmdarı Alp Ər Tonqa haqqında yazılmış dastan, "Şu", "Hun-Oğuz", "Göytürk", "Doqquz oğuz-on uyğur" və s. dastanları bunun bariz nümunəsidir[5].

Mütəxəssislər adları dövrümüzədək gəlib çatmış digər sak hökmdarları barədə də maraqlı fikirlər söyləmişlər. Bu baxımdan aşşur mənbələrində "Tuq-damme", Herodotda isə "Liqdames" adı ilə tanınan sak hökmdarı barədə yekdil fikir sərgiləyərək onun adının türkcə "Toxtamış" olduğunu yazmışlar. Dilçi alim İ.M.Dyakonov da buna bənzər fikir söyləyərək "Duqdamis" adının üzərində dayanmışdır [10, c.240]. Tuqdammenin oğlu Sandakşatrunun adı da son dövrlərdəki mənbələrdən məlum olan türk adları ilə müqayisə edilmişdir. Məsələn, professor Qiyasəddin Qeybullayev bu adı haqlı olaraq, "Alpamış" dastanındakı Sandaqaç, Firudin Ağasıoğlu isə Alp Arslanın komandanlarından Sandak bəyin adı ilə eyniləşdirmişdir. Sak hökmdarlarından birinin daşıdığı İşpakay adı barədə də maraqlı fikirlər söylənmişdir. Həm Oljas Süleymenov, həm də Firudin Ağasıoğlu bu adı türkcə Köpək (s-k) kimi izah etmişlər [6, s.108].

Ədəbiyyatşünaslığımız və folklorşünaslığımızda bir sıra məsələlər vardır ki, indiyədək dəqiq araşdırılmamış, onlar haqqında söylənilən səthi mülahizə və təsəvvürlər yalnız stereotiplər halında dövrümüzədək gəlib çatmışdır. Belə

[5] https://kayzen.az/blog/edebiyyat/17681/t%C3%BCrk-dastanlar%C4%B1.html

mülahizələrdən biri də əfsanəvi Turan şahı Əfrasiyabın real tarixi şəxsiyyət Alp Ər Tonqa (və ya Tona) ilə eyniləşdirilməsidir. Halbuki bu iki şəxsiyyətin yaşadığı dövrləri bir-birindən on iki-on üç əsrlik zaman kəsiyi ayırır. Çünki birinci haqqında hələ "Avesta"nın ən qədim hissələrində, yəni e.ə. VI–V əsrlərdə yazılmış məxəzlərdə məlumat verildiyi halda, ikincinin adına xronoloji baxımdan ilk dəfə olaraq Bilgə xaqan və Kül tigin abidələrində (VIII əsr məxəzlərində) rast gəlirik. Kül tigin kitabəsində deyilir: "Öncə gəlmiş qoşununu Kül tigin qovub, tokarlardan bir qəbilə, alpağutlardan on döyüşçünü Tonqa tiginin dəfnində mühasirəyə alıb öldürdük". Göytürklərin tarixinə dair yazılmış tədqiqatlardan, həmçinin Orxon kitabələrindəki məlumatlardan aydın olur ki, Tonqa tigin 714-cü ildə Beşbalıkda Mogilyan (gələcək Bilgə xaqan) tərəfindən edam edilmişdir. Mahmud Kaşğarlının "Türk sözləri toplusu"nda Alp Ər Tonqa haqqında verilmiş ağıda da onun Bilgə xaqan tərəfindən edam edilməsinə işarə edilmişdir:

Bilgə boğu yunçıdı,
Ajun anı yançıdı.
Ərdəm əti tınçıdı,
Yerdə təqib sürtülür.
(Bilgə boğub sarsıtdı,
Dünya onu əzdi.
İgid bədəni çürüdü,
Yerə dəyib sürtülür)
[Xəlil A. Bakı, 2011].

Maraqlıdır ki, şeirdə də eyni səbəbdən Bilgə xaqanın adından "xaqan" sözü ixtisar edilmişdir. Bəs Alp Ər Tonqanı nə üçün öldürmüşlər? Bu sualın cavabını Göytürk xaqanlığının tarixi ilə bağlı mənbələrdə tapmaq mümkündür. Tarixçi alim L.N.Qumilyov yazır: "Bilgə xaqan və Kül tiginə qarşı vuruşan karluq, xuluvu və nunişi tayfaları imperiyaya (yəni Çinə - K.H) onları öz himayəsi altına almağı təklif etdilər". Təbiidir ki, Göytürklər bununla barışa bilməzdilər. Karluqların X əsrdə yaratdığı Qaraxani dövlətinin xanları Alp Ər Tonqanı öz ulu əcdadı hesab edirdilər. Buradan da aydın olur ki, VIII əsrdə Alp Ər Tonqa karluqların xanı və ya sərkərdəsi olmuşdur. Ümumiyyətlə, karluqlar "öz azadlıq və müstəqillikləri" uğrunda göytürklərlə mübarizəyə 811-ci ildən başlamış və bu müddət ərzində onlarla bir neçə dəfə döyüşmüşdür. Elə VIII əsrin ortalarında da karluq, uyğur və basmıl tayfaları birləşərək Birinci Göytürk xaqanlığını məhv etdilər. Göytürklər əleyhinə belə üsyanlar tez-tez baş verirdi. 715-ci ildə L.N.Qumilyovun yazdığı kimi: "Bütün fəth

olunmuş xalqlar xan zülmünə və onun insaniyyətsizliyinə qarşı üsyan qaldırırdılar. Karluqlar, türgişlər, tatablar, kidanlar, izgillər, uyğurlar və bayrıklar öz azadlıqlarını müdafiə etməyə başladılar".

Necə olmuşdur ki, XI əsrdə karluqlar tərəfindən qurulan müsəlman Qaraxanilər dövlətində Alp Ər Tonqa Əfrasiyabla eyniləşdirilmişdir? Məlumdur ki, "Avesta" əsatirlərinə əsasən Əfrasiyab Turan şahı olmuş və ölkəsinin İranla apardığı müharibələrə başçılıq etmişdir. Ancaq Alp Ər Tonqa haqqında həm Orxon kitabələrində, həm də Yusif Balasaqunlu və Mahmud Kaşğarlı tərəfindən verilmiş məlumatlarda onun Turanla bağlılığına aid heç bir işarə edilmir. Hətta Alp Ər Tonqanın ölümü münasibətilə yazılmış məşhur ağıda da bu barədə söhbət açılmır. "Avesta"da Əfrasiyabın adı *Frənqrəsian* (döyüşçü), b.e. ilk əsrlərində yazılmış Parfiya (Pəhləvi) mətnlərində *Frəsyak*, X əsrdə və ondan sonra yaranmış fars-ərəb mənbələrində isə *Əfrasiyab* şəklində yazılmışdır[6]. Yusif Balasaqunlu və Mahmud Kaşğarlı da *Frənqrəsian* haqqında olan məlumatları fars mənbələrindən aldıqlarına görə onun adını *Əfrasiyab* kimi qeydə almışlar.

Qədim türk, uyğur yazılarında, ərəb-fars ədəbiyyatının təsirindən kənarda qalmış türk xalqlarının tarix və folklorunda nə Turan, nə də Əfrasiyab adına rast gəlinir. Əfrasiyabın dövründə sak-sarmat tayfa birliyinin məskunlaşdığı ərazilərə Turan deyilirdi. Həmin ərazilər Baykalyanı coğrafi məkanı və Orta Asiyanı əhatə edirdi. Turanlılar öz əcdadları saydıqları Turun adı ilə belə adlanırdılar. Həxamənişilərin dövründə (e.ə. 550-330-cu illər) Turanın Amudərya çayına qədər olan hissəsi iranlılar tərəfindən işğal edilmişdi. Mənşəcə sak olan Zərdüştün həmvətənlərinin təqibləri səbəbindən öz vətənindən İranın tabeliyində olan Orta Asiya ərazilərinə qaçması və buranın canişini, I Daranın atası Viştaspa tərəfindən onun dininin qəbul edilməsi turanlılarla iranlılar arasındakı münasibətləri daha da mürəkkəbləşdirir. Baş verən hadisələr İran-Turan savaşlarına zəmin yaradır. Turanda Pəşəng (Peçeneq) oğlu Əfrasiyab hakimiyyətə gələndən sonra İran-Turan qarşıdurması bir qədər də gərginləşir. Əfrasiyab dəfələrlə iranlılara qalib gəlir, hətta 20 il müddətinə Amudəryadan cənub-qərbdəki sak (Turan) ərazilərini farslardan azad edir. Ancaq sonda o, iranlılar tərəfindən öldürülür.

İranlılar Amudərya çayını həmişə İranla Turan arasında sərhəd hesab edirdilər. VI əsrdə Göytürk xaqanları Amudəryaya qədər olan əraziləri ələ keçirmiş və nəticədə burada məskunlaşmış peçeneq, kəngər və s. Turan tayfaları tədricən türkləşərək onlara qaynayıb qarışdılar. İranlıların nəzərində türklərlə turanlılar məhz bu

[6] https://axar.az/news/kult/84207.html

hadisədən sonra eyniləşməyə başlayır və "Turan" adı tədricən "Türkistan" sözü ilə əvəz olunur.

X əsrdən etibarən bir çox türk xalqları, o cümlədən, karluq, oğuz, yəğma və çigil tayfaları islam dinini qəbul edərək, Qaraxanilər və Qəznəvilər kimi ilk türk-müsəlman dövlətlərini yaradırlar. Saraylarda fars-tacik ədəbi mühiti ilə tanış olan türk ziyalıları burada Əfrasiyab adlı bir türk qəhrəmanı olduğunu öyrənirlər. Bundan sonra fars folkloru və ədəbiyyatında yer alan rəvayət və dastanlar türk ədəbi mühitinə də sirayət etməyə başlayır. İlk dəfə eşitdikləri Əfrasiyab obrazının kimliyi barədə düşündükdə türk ədibləri onu yaddaşlarındakı türk qəhrəmanları ilə müqayisə etməyə başlayırlar. Bu qəhrəmanlar içərisində isə "Əfrasiyab" adına ən çox bənzəyən Alp Ər Tonqanın adı idi. Beləliklə, Qaraxani türkləri bu iki sərkərdəni eyniləşdirir. Yusif Balasaqunlu Qaraxanilər mühitində yaratdığı "Kutadgu bilig" əsərində bu barədə yazır:

Türk bəyləri arasında şanlı insanlar çox olub,
Onlar böyük ölkə başçılarından daha şöhrətlidirlər.
Onların içərisində şanlı igid Alp Ər Tonqa da vardır,
Onun şöhrəti əbədi olaraq hamıya əzizdir...
O öz xalqına rəhbərlik edən dövrdə
Taciklər onu Əfrasiyab adlandırıblar.
Taciklər onu öz kitablarında ("Şahnamə"də) tərifləyiblər,
Əgər belə olmasaydı, onu kim tanıyardı?

[Гумилев Л.Н. Москва, 1993].

Sonuncu sətirdən aydın görünür ki, Qaraxani türkləri Əfrasiyab adını və onun haqqında olan məlumatları ilk dəfə məhz "taciklərdən" eşitmişlər. Alp Ər Tonqa isə karluqların öz şifahi yaddaşında yaşayan şəxsiyyət olmuşdur. Yalnız Qaraxanilər dövründə onlar bu iki şəxsiyyəti eyniləşdirməyə başlamışlar. Alp Ər Tonqa barədə məlumat verən Mahmud Kaşğarlı və Yusif Balasaqunlu da məhz Qaraxani sarayı ilə əlaqəsi olmuş müəlliflərdir. O zamana qədər Alp Ər Tonqanı öz ulu əcdadları sayan Qaraxani hakimləri "Əfrasiyab" adı ilə bağlı olan məlumatların daha geniş miqyasda – fars və ərəblər arasında da yayılmasını, daha təmtəraqlı səslənməsini gördükdən sonra öz sülalələrini "Beytül-Əfrasiyab" ("Əfrasiyab evi") adlandırırdılar [Фомкин М.С. Ленинград, 1990].

Qaraxani hakimləri arasında "Qaraxan" ("Böyük xan") tituluna tez-tez rast gəlinməsi səbəbilə Avropa şərqşünasları onların dövlətini "Qaraxanilər" adlandırsalar da, Qaraxanilər öz sülalələrinin adını Alp Ər Tonqa (Əfrasiyabla) ilə əlaqələndirirlər. Bunun səbəblərinin bir qədər ətraflı izaha ehtiyacı vardır. X əsrin ortalarında karluqlar islam dinini qəbul edib bundan dərhal sonra isə Orta Asiyanın geniş bir ərazisini tutan və müsəlmanlaşmış fars-tacik dövləti olan Samanilər üzərinə hücuma keçdilər. Bu işdə karluqlara çigil və yəğma tayfaları da kömək edirdilər. Onlar Samanilərin bütün ərazisini demək olar ki, heç bir ciddi müqavimətə rast gəlmədən ələ keçirdilər. Çünki Samani hökmdarları əhalini ayağa qalxmağa çağırsalar da, üləmalar fətva verdilər ki, müsəlmanların müsəlmanlara qarşı vuruşması düzgün deyildir; hakim təbəqələr öz məsələlərini özləri həll etməlidirlər. Buna görə yeni Qaraxani hakimləri fars məmurları və fars dilini dövlət sistemində saxladılar. Samanilər sarayındakı fars şairləri də sarayda saxlanıldı, ancaq səlcuqlardan fərqli olaraq, Qaraxani dövlətinin yaradıcıları sarayda türk dilinin yayılması və bu dildə yazan şairlərin olması üçün də çalışırdılar. Onlar istəyirdilər ki, fars şairləri öz qədim qəhrəmanlarını vəsf etdikləri kimi, türk şairləri də öz əcdadlarının şərəfinə şeirlər yazsınlar. Alp Ər Tonqaya həsr olunmuş ağı da buna aid gözəl bir nümunədir. Qaraxanilərin yeni ölkəsi üç hissəyə bölünüb yuxarıda qeyd edilən üç tayfa birləşməsi tərəfindən idarə edilirdi. Burada aparıcı mövqe karluqlara məxsus idi. Qaraxani dövlətində tezliklə Yusif Balasaqunlu və adları bizə məlum olmayan, ancaq şeirlərindən Mahmud Kaşğarlının "Türk sözləri toplusu"nda nümunələr verilən çox sayda türk şairləri meydana çıxdı. Onu da qeyd edək ki, Mahmud Qəznəvinin sarayındakı bu yazarlar arasında da türk şairlərinin olmasına dair bir sıra qeyri-müstəqim məlumatlar vardır. Məsələn, Sultan Mahmudun oğlu I Məsudun saray şairlərindən biri Mənuçöhr öz şeirlərindən birində deyirdi:

Be-rah-e torkimana ka, xübtər qui,
To şer-e torki bər-xan məra-vo, şer-e quzi.
(Daha yaxşı söylədiyin türk tərzi ilə
Sən mənə türk və oğuz şeirləri oxu)
[Hüseynoğlu K. Bakı, 1996].

Bu sətirlərdən belə aydın olur ki, şair onları türk yazarlarından birinə müraciətlə yazmışdır. Qaraxani şairləri, həmçinin türk dilində əruz vəznində şeirlər yazan ilk müəlliflər olmuşlar. O zaman əruz müsəlman poetik ideallarının qanuni daşıyıcısı kimi daha nüfuzlu şeir vəzni hesab olunurdu. Ancaq təəssüf ki, Yusif Balasaqunludan başqa XI əsr türk şairlərindən heç birinin adı dövrümüzədək qorunub

saxlanılmamışdır. Lakin xoşbəxtlikdən onların əsərlərindən nümunələr həmin dövrün yetişdirdiyi görkəmli alim M.Kaşğarlı tərəfindən yazıya alınmışdır. Onun sözlüyünün tapıldığı ilk vaxtlardan burada verilmiş dördlüklərdə yazılı ədəbiyyata məxsus nümunələr B.Bartold, P.Pelo, A.Bombaci kimi tədqiqatçıların diqqətini çəkmişdir. Lakin XX əsrin ortalarından başlayaraq türkologiya elmində belə bir fikir formalaşdı ki, sözlükdə verilən nümunələr əruz vəzninin bəsit növlərində yazılmış, atalar sözləri istisna olmaqla onların əksəriyyəti, dördlüklərin isə hamısı yazılı ədəbiyyata məxsus nümunələrdir. İ.V.Steblevanın tədqiqatlarında isə bu fikir inkarolunmaz faktlarla əsaslandırılmışdır. Həmin dördlüklərin vəznləri, o cümlədən Alp Ər Tonqa haqqında yazılmış ağının vəzni bu sətirlərin müəllifi tərəfindən də yoxlanılmışdır. Fikrimizcə, onların əruz vəznində yazılması heç bir şübhə doğurmur [Hüseynoğlu K. Bakı, 1996]. Həmin şeirlərin sözlüyün ilkin tədqiqatçıları tərəfindən heca vəzninə aid edilməsinin iki səbəbi olmuşdur. Birincisi, əruz vəznində yazılmış şeirlərdə də hecaların sayına görə sətirlərin (nadir istisnalar nəzərə alınmazsa) həmişə bərabər olması prinsipinin tədqiqatçılar tərəfindən nəzərə alınmaması, ikincisi isə həmin dördlüklərdə ərəb-fars mənşəli sözlərin işlədilməməsi, yəni onların təmiz türk dilində olması səbəbindən tədqiqatçıların yanlış nəticəyə gəlməsi. Həmin şeirlərdəki sətirlər daxilində açıq və qapalı hecaların əruz vəzninin prinsiplərinə uyğun şəkildə tənzimlənməsi isə tədqiqatçıların nəzərindən tamamilə yayınmışdır. Alp Ər Tonqaya həsr olunmuş 11 bənddən ibarət şeirdə də bütün dördlüklərdəki sətirlər uzun və qısa (türk sözlərində açıq və qapalı) hecaların tənzimlənməsi baxımından tamamilə əruz vəzninin rəcəz bəhrinin *mürəbbəi-məfu* növünə (müstəf'ilin fA'ilün: --v- // -v-) uyğundur. Qırx dörd sətirdə hecaların eyni prinsiplər üzrə düzülməsini heç cür təsadüfi hesab etmək mümkün deyildir. Bunu yalnız şüurlu surətdə tənzimləmək olar. Deməli, müəllif bu şeiri bilərəkdən əruz vəzninin qaydalarına uyğun şəkildə yazmışdır. Yalnız bir neçə yerdə vəzn pozğunluğu hiss edilir ki, bu da müəllifin günahı səbəbindən deyildir. Mahmud Kaşğarlının sözlüyünü türkcəyə ilk dəfə çevirən Basim Atalay türkcə mətnlərdəki "nun" hərfini bildirən işaəni bəzən "sağır nunla" (nq) transliterasiya etmişdir. Şeirin ilk bəndindəki *Alp Ər Tona* adını da o, *Alp Ər Tonqa* şəklində yazdığına görə həmin sətirdə vəzn pozulmuşdur. Sonrakı nəşrlər də məhz Basim Atalayın nəşrinə əsaslandığına görə indiyədək biz *Tona* adını təhrif olunmuş halda, yəni *Tonqa* şəklində oxumuşuq. Halbuki vəzn göstərir ki, müəllif həmin adı Orxon abidələrində olduğu kimi, yəni *Tona* şəklində yazmışdır. Həmin dördlük belədir:

Alp Ər Tona öldimi?
İsız ajun qaldımı
Özlək öçin aldımı?
İmdi yürək yırtılur.
(Alp Ər Tonqa öldümü?
Yaman dünya qaldımı?
Fələk qisas aldımı?
İndi ürək yırtılır)
[Xəlil A. Bakı, 2011].

Beləliklə, aydın olur ki, Əfrasiyab "Avesta" personajlarından biridir ki, onun adı təxminən 2500 il bundan əvvəl cərəyan edən hadisələrlə bağlıdır. Adının qədim forması olan Frəngrəsian "Avesta" dilində "döyüşçü" deməkdir, halbuki istər Frəngrəsian, istərsə də Əfrasiyab adları qədim türk dilində heç bir məna kəsb etmir. Alp Ər Tonqanın adı isə VIII əsrdə Altayda bəzi qədim türk tayfaları arasında gedən döyüşlərlə bağlı tarixə düşmüşdür. Onun adı "İgid ərən Tona" mənasını verir ki, "Tona" adı da qədim türk dilində "bəbir" deməkdir. Türklərdə heyvan mənşəli adların yayılması adi hal idi. Məsələn, türk xaqanlarından birinin titulu "İrbis İşibra Cabqu xaqan", digərininki isə "Arsalan Tobo xan" idi. "İrbis" sözü türk dilində "qar bəbiri" mənasını verir. Həm də, L.N.Qumilyovun yazdığı kimi: "Türklər avropalılarda olduğu kimi doğulandan ölənə qədər eyni adı daşımırdılar. Türkün adı həmişə onun cəmiyyətdəki mövqeyinə işarə edirdi. Uşaqlıq dövründə o, ləqəb, yeniyetməlik dövründə (inisiasiya sınağından sonra – K.H.) rütbə, yetkinlik dövründə isə titul adı daşıyırdı". Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında Buğac bu adı buğa ilə döyüşüb, ona qalib gəldikdən sonra alır. Alp Ər Tonqanın adı Mahmud Kaşğarlının onun haqqındakı ağını yazıya almasından sonra məşhur olmuşdur. Bu ilk türk filoloqunun özü də Qaraxanilər nəslinə mənsub olmuş, lakin sonralar təqiblərə məruz qalması səbəbilə Bağdada qaçmışdır. Onun öz lüğətindəki digər şeir nümunələri də məhz Qaraxanilər sarayında yaşamış və əruz vəznində ilk dəfə olaraq qələmini sınayan türk şairlərinə mənsub olmuşlar. Epik türk qəhrəmanlarından olan Tonqa tigin barədə xalq yaddaşında qalan rəvayətlər, sözsüz ki, Qaraxanilər dövründə də geniş yayılmışdır. Köçəri xalqlar öz epik tarixini və qəhrəmanlarını yalnız şifahi yaddaşda saxlayaraq nəsildən-nəslə ötürürdülər. Xalqın azadlığı yolunda qəhrəmancasına həlak olmuş insanların epik yaddaşda xüsusi yeri vardır. Tonqa tigin haqqında yazılmış emosional ağı da xalqın qəhrəmanının xatirəsinə olan böyük ehtiramından xəbər verir.

## Nəticə / Conclusion

Ümumiyyətlə, türk dastanları türklərin dastanlaşmış tarixidir. Onların yenilməzliyi, gücü, qüdrəti, döyüşləri, daxili mənəvi aləmi, dövlət quruculuğu kimi xüsusiyyətləri məhz bu dastanların yaranması üçün mənbə olmuşdur. Yüzillər boyunca türkün həyat tərzinin, duyum və düşüncə biçiminin əsas axarını bahadırlıq, cəngavərlik təşkil etdiyindən etnik-mənəvi sistemin güzgüsü olan folklorda, o cümlədən dastançılıq ənənəsində qəhrəmanlıq motivinin geniş və qabarıq şəkildə yer alması tarixi zərurətdən irəli gəlmişdir. Qədim türk cəmiyyətində dastan təfəkkürü istisnasız olaraq bahadırlıq düşüncəsinin obrazlaşdırılmasına yönəldiyindən həmin mərhələyə məxsus epik ənənənin özəyində qəhrəmanlıq motivi və bu motivin ifadəsi olan müxtəlif qəhrəmanlıq süjetləri dayanır. Epik düşüncədə sonrakı tarixi dövrlər ərzində lirik təmayül də müəyyən qədər yer tutmağa başlayır. Bu zaman məhəbbətlə qəhrəmanlıq hüdudlarında dayanan, bir növ hər iki motivin qovuşuğunu əks etdirən dastanlar meydana çıxır. Epik ənənədə lirik təmayülün güclənməsi sırf məhəbbət motivinə bağlı dastanların meydana gəlməsilə nəticələnir [5, s.133-139]. Orta əsrlər aşıq ədəbiyyatı məhəbbətin gerçək və simvolik ürfani-fəlsəfi anlamlarını birləşdirərək özünəməxsus sənət keyfiyyətinə malik məhəbbət dastanlarını meydana çıxarmışdır. Bu dastanlar spesifik süjet və kompozisiya tərkibinə malik orijinal epik folklor örnəklərdir [1, s.4-6]. Dünya xalqlarının əksəriyyətində, o cümlədən türk folklor ənənəsində qəhrəmanın qeyri-adi, möcüzəli doğuluşu geniş yayılmış bir motivdir. İlkin ibtidai təxəyyülün məhsulu olan nağıl və dastanlarda da möcüzəli doğuluşa tez-tez rast gəlinir.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Azərbaycan dastanları. (2005). Beş cilddə, I cild. Bakı.
2. Hüseynoğlu K. (1996). Azərbaycan şeir mədəniyyəti. Bakı, Ozan.
3. Xəlil A. (2011). Mahmud Kaşğarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər. Bakı.
4. Səfərli A. (2019). Ümumtürk ədəbiyyatında "dastan" anlayışı. Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD). Türkiye. İyun, cild 3, sayı 1, s.133-139.
5. Süleymanov O. (1993). Az-Ya. Bakı, Azərnəşr, s.224.
6. Bombaci A. (1964). The Turkish literatures. Introductiry notes on the history and stile. Wisbaden.
7. Pelo P., Pelliot P. (1930). Sur la legende d'Uyuz-Khan en ecriture ouigoure. Türkische Turfan tekste.
8. Гумилев Л.Н. (1993). Древние тюрки. Москва.
9. Дьяконов И. (1956). История Мидии с древнейщих времен до конца. Москва-Ленинград, с.240.
10. Стеблева И.В. (1971). Развитие тюркских поэтических форм в XI веке. Москва.
11. Фомкин М.С. (1990). Сокровищница восточной мудрости. Баласагуни Юсуф. Благодатное знание. Ленинград.
12. https://kayzen.az/blog/edebiyyat/17681/t%C3%BCrk-dastanlar%C4%B1.html
13. https://axar.az/news/kult/84207.html

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

*«Azərbaycan dili və ədəbiyyat tədrisi» jurnalında dərc ediləcək məqalələr üçün texniki tələblər*

## Məqalələrin məzmunu

Məqalələr aktual mövzulara həsr olunmalı, jurnalın məzmun və üslubuna uyğun akademik tələblərə cavab verməli, «Xülasə» (Abstract), «Giriş» (Introduction) və «Nəticə»dən (Conclusion) ibarət olmalıdır. «Xülasə»də məqalənin əhatə dairəsi təsvir edilməli, «Giriş»də mövzunun aktuallığı əsaslandırılmalı, «Nəticə»də isə elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllifin gəldiyi elmi qənaət, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə verilməli, təklif və tövsiyələr irəli sürülməlidir.

## Məqalələrin strukturu və tərtib edilmə qaydaları

1) Redaksiyaya təqdim edilən məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu şərtlər də daxil olmaqla aşağıdakı tələblərə cavab verməlidir:

- ✓ Məqalənin adı, müəllifin adı və soyadı, vəzifəsi, elmi dərəcəsi (əgər varsa), işlədiyi qurumun adı, elektron poçt ünvanı və ölkə adı məqalənin titul səhifəsində yazılmalıdır.
- ✓ «Xülasə» Azərbaycan və ingilis dillərində eyni məzmunda olmaqla, təxminən 70-120 söz həcmində verilərək, tədqiqat işinin əhatə dairəsini təsvir etməlidir.
- ✓ «Açar sözlər» Azərbaycan və ingilis dillərində verilərək 3-5 söz və ya söz birləşməsindən ibarət olmalıdır.

2) Məqalənin mətni Microsoft Word proqramında, A4 (210x297mm) formatda, Times New Roman — 14 şriftində yığılmalı, intervalı – 1,15, həcmi 6-15 səhifə olmalıdır.

3) Məqalənin adı və yarımbaşlıqları yalnız ilk hərfi böyük olmaqla, qalın şriftlə yazılmalıdır. Başlıq və yarımbaşlıqlardan, cədvəl və şəkillərdən (həmçinin tənliklər və düsturlardan) əvvəl və sonra bir sətir ara boşluğu buraxılmalıdır. Səhifələr ardıcıl olaraq aşağı sağ küncdə nömrələnməlidir.

4) Cədvəl və şəkillərin adı olmalı və bu ad cədvəllər üçün cədvəlin üstündə sol küncdə, şəkillər üçün şəklin altında sol küncdə yerləşdirilərək, ardıcıl nömrələnməlidir.

5) Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə zəruri istinadlar olmalı, sonda verilən «İstifadə edilmiş ədəbiyyat»da istinad olunan ədəbiyyatlar mətnin içində [Kazımov Q. Bakı, 2007] və ya [1, s.52] kimi verilməli, sonda isə əlifba ardıcıllığı ilə nömrələnməlidir. Elmi ədəbiyyata mətndə onlayn istinad olarsa 1 qoyaraq aşağıda internet linki göstərilməlidir. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam, dəqiq və orijinalın dilində olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. Mətndə istinad olunan bütün mənbələr, səhifə nömrələri ilə birlikdə «İstifadə edilmiş ədəbiyyat» siyahısında aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

a) *Kitablara istinad:* Kazımov Q. (2007). Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Təhsil. 496 s.

b) *Jurnallara istinad:* Həsənova S. (2021). Aşıq Ələsgər və ədəbi dilimiz. "Azərbaycan dili və ədəbiyyat tədrisi", № 4. Bakı, "N print studiya", s.25-34.

c) *Toplularda məqaləyə istinad* (konfrans, simpozium və digər): "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri". (2010). Respublika elmi-praktiki konfransının materialları. Bakı, Şərq-Qərb, s.314-316.

ç) *Dissertasiyalar və avtoreferatlar:* Məmmədov H.B. (2013) Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi. Elmlər doktoru dissertasiyasının avtoreferatı. Bakı, Elm. 44 s.

d) *Müəlliflik şəhadətnamələri və patentlər*: Алиев С.Г., Джалалов К.Х. А.С. 163514, СССР Б.И. 1988, № 4, s.50 Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.

e) *İnternet səhifələri:* İnternet səhifələrinə istinadlar tam göstərilməlidir. Məsələn: http://www.tall.edu.az

6) Məqalədə son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

7) Məqalə redaksiyaya 3 formada: ya elektron poçtla (*tall@edu.gov.az*), ya jurnalın saytı (http://*tall.edu.az)* üzərindən, ya da çap formasında müəllifinin özü tərəfindən təqdim edilməlidir. Orijinal nüsxədə müəllif(lər)in imzası vacibdir.

## Məqalələrin qəbul edilməsi və dərci

Təqdim edilən məqalələr redaksiyada nəzərdən keçirildikdən sonra oxunuş üçün (müəllifin adı gizli saxlanılmaqla) mütəxəssislərə göndərilir. Məqalə jurnalın profilinə uyğun olduğu təqdirdə və tələblərə cavab verərsə, çapa təqdim edilir. Müəllif istəsə, ona məqaləsinin qəbul edilməsi barədə sənəd verilə bilər. Məqalələr növbəlilik prinsipi ilə dərc edilir.

## Müəlliflik hüquqları

Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları *«Azərbaycan dili və ədəbiyyat tədrisi»* jurnalına aiddir. Jurnalda çap edilmiş məqalələrin eyni ilə digər nəşrlərdə (məqalənin tezis şəklində dərc olunmuş variantı istisnadır) dərcinə yalnız redaksiyanın yazılı icazəsi, sitatların verilməsinə isə mənbə göstərilmək şərti ilə yol verilir. Əvvəllər çap olunmuş və ya çap olunmaq üçün başqa bir dövri nəşrə göndərilmiş əlyazmaların jurnala təqdim edilməsi müəlliflik etikasına ziddir. Yuxarıda göstərilən tələblərə cavab verməyən məqalələr qəbul edilmir. Dərc olunmuş məqaləyə görə müəllifə jurnalın bir nüsxəsinin verilməsi nəzərdə tutulur.

# FOR AUTHORS

*Requirements to the articles submitted for publication in «Teaching of Azerbaijani language and literature»*

## Content of articles

The articles should be devoted actual topics, meet the academic requirements of journal's style and content and consist of "Abstract", "Introduction" and "Conclusion". The "Abstract" should mention the main aspects of the article, the "İntroduction" should contain a thesis that will assert the main argument. In the "Conclusion" the author should reinforce the importance of the main idea, emphasize his scientific contention and appreciate his topic in personally relevant ways, and it is notable to shine the scientific novelty and the benefits of the work and to offer suggestions and recommendations.

## Rules of preparing of articles and scope

1) The articles submitted for the editorial must meet the following requirements, including the conditions set out for the periodical scientific publications presented by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan:

- ✓ Title of the article, author's name, surname, position, academic degree, name and address of the organization where he works, E-mail address should be written on the title page of the article.
- ✓ Abstract (in Azerbaijani and English) should be approximately 70-120 words, with the same content.
- ✓ Keywords (in Azerbaijani and English) should consist of 3-5 words or phrases.

2) The text should be typed in Microsoft Word, A4 (210x297mm), Times New Roman — 14, interval – 1, 15, size 6-15 sheets.

3) The title and subheadings of the article should be written in bold, with only the first letter capitalized. Before and after the headline and subheadings, tables and figures (also equations and formulas), a single line spacing should be added. Pages should be numbered in the lower right corner.

4) The table and pictures must be named, and the name should be placed in the left hand corner above the table, and pictures name should be placed in the left-hand corner under picture.

5) There should be references to scientific sources related to the topic of the article, as well as the sources noted at the end in "used works" should be mentioned in the text as [Kazimov G. Baku, 2021] or [1, p.52], and finally numbered in alphabetical

order. If there is an online reference in the text, you should put an internet link below and number it from one. The information on each reference in the Literature List must be in full, accurate and the native language. The bibliographic description of the source should be based on its type (monograph, textbook, scientific article, etc.). The name of the article, report or thesis should be cited when referring to scientific articles, materials or theses of symposium, conference or other prestigious scientific events. All sources referenced in the text should be cited in the "Used Works or References" list, along with the page numbers, as specified in the following examples:

a) *References to books:* Kazimov G. (2007). Modern Azerbaijani language. Syntax. Baku, Tahsil. 496 p.

b) *References to journals:* Hasanova S. (2021). Ashug Alasgar and our literary language. "Teaching of Azerbaijani language and literature", № 4. Baku, "N print studio", p.25-34.

c) *Reference to the articles in scientific events:* «End of a transitional period in Azerbaijan economy: analysis and conclusions. Problems of National Development Model Formation" (2010). Materials of the scientific-practical conference of the Republic. Baku, East-West, p.314-316.

d) *Dissertation thesis and abstracts*: Mammadov H.B. (2013) The Republic of Azerbaijan as an actor in contemporary international political processes. Doctoral dissertation abstract, Baku, Science. 44 p.

e) *Copyright and Patents:* Aliev S.G., Jalalov K.Kh. A.S. 163514, USSR // B.I. 1988, No. 4, p.50 Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.

f) *Internet pages* (references to web pages should be indicated in full): For example: http://www.tall.edu.az

6) The article should give preference to scientific materials, monographs and other reliable sources for the last 5-10 years.

7) The article must be submitted to the editorial office in 3 forms: by e-mail *(tall@edu.gov.az),* or through the journal's website *(http://tall.edu.az),* or in printed form by the author of the article. The original signature of the author is important.

**Acceptance and publication of articles**

After review, the presented article will be sent to experts to be read out. If the article corresponds to the journal profile and meets the requirements, the printing is provided. If the author wishes, a document on his / her article acceptance may be issued. Articles are published on the principl of rotation.

## Copyright

The articles published in the journal are copyrighted and all publishing rights of these articles belong to the *"Teaching of Azerbaijani language and literature"*. The articles published in the journal are allowed to be published in other publications (except the variant of the article published in the form of a thesis) only with the written permission of the editorial board, and the source of quotation must be provided. It contravenes the authorship ethics to submit manuscripts previously sent or published in another periodical. Articles that do not meet the above requirements are not accepted. According to the published article, the author will get a copy of the journal. Dear Authors don't send please your conflicts of interests and published articles in anywhere.

# К СВЕДЕНИЮ АВТОРОВ

*Технические требования к статьям опубликованным в журнале «Преподавание Азербайджанского языка и литературы»*

## Содержание статей

Статьи должны быть посвящены актуальным темам и соответствовать академическим требованиям в соответствии с содержанием и стилем журнала. Статьи должны состоять из *«Аннотация»* (Abstract), *«Введение»* (Introduction) и «*Заключение»* (Conclusion). В *«Аннотации»* должно указыватсья основные аспекты статьи, в *«Введение»* должно обосновываться актуальность темы, а *«Заключения»* должно основываться на характере области статьи. Важность приложения, научный вывод, сделанный автором, научная новизна работы, экономические выгоды и т. д. должны быть четко указано и должны быть выдвинуты предложение и рекомендации.

## Структура и правила составления статей

1) Статьи, представленные в редакцию, должны соответствовать следующим требованиям, в том числе условиям, установленным Высшей Аттестационной Комиссией при Президенте Азербайджанской Республики, для периодических научных публикаций:
   - ✓ На титульном листе статьи должны быть указаны название статьи, имя и фамилия, должность, ученая степень, название и адрес организации, адрес электронной почты автора.
   - ✓ Ключевые слова (на азербайджанском и английском языке) должны состоять из 3 - 5 слов или фраз.
   - ✓ Резюме (на азербайджанском и английском языке) должна составлять примерно 70-120 слов с одинаковым содержанием.

2) Текст статьи должен написан в программе Microsoft Word, A4 (210x297 мм), Times New Roman — 14, интервал — 1, 15, объем 6-15 страниц.

3) Названия статьи должен писаться с жирным шрифтом с большой буквой. До и после заголовка и подзаголовков, таблиц и рисунков (также уравнений и формул) должен быть выпущен один междустрочный интервал. Страницы должны располагаться последовательно в правом нижнем углу.

4) Таблицы и рисунки должны иметь имя и это имя для таблиц должен перемещаться над таблицей в левом углу, а для рисунков под рисунки в левом углу и последовательно пронумероваться.

5) Необходимые ссылки на научные источники, относящиеся к теме статьи, должны быть приведены в тексте как ссылки на «использованную литературу» в тексте [Казымов Г. Баку, 2021 г.] или [1, с.52] и в конце должны быть упорядочены в алфавитном порядке. Если в тексте есть онлайн-ссылка на научную литературу, интернет-ссылка должна быть показана ниже, поставив 1. Информация по каждой ссылке в списке литературы должна быть полной, точной и на языке оригинала. Библиографическое описание справочного источника следует представить в зависимости от его типа (монография, учебник, научная статья и т). При ссылке научных статей, симпозиумов, конференций, тезисов и других престижных К сведению авторов требования к рукописям научных мероприятий следует указывать название статьи, отчета или тезиса. Все источники, на которые есть ссылки в тексте, должны быть включены в список «Использованная литература» вместе с номерами страниц в следующих примерах:

а) *Ссылки на книги:* Казимов Г. (2007). Современный азербайджанский язык. Синтаксис. Баку, Тахсил. 496 с.

б) *Ссылка на журналы:* Гасанова С. (2021). Ашуг Алесгар и наш литературный язык. «Преподавание азербайджанского языка и литературы». № 4, Баку, «N print studio», с.25-34.

в) *Ссылки на статьи в сборнике (конференция, симпозиум и т. д.):* «Конец переходного периода в экономике Азербайджана: анализ и итоги. Проблемы формирования модели национального развития». (2010). Материалы республиканской научно-практической конференции. Баку, Восток-Запад, с.314-316.

г) *Диссертации и авторефераты:* Мамедов Х.Б. (2013) Азербайджанская Республика — современная международная политика как актер в процессе. Автобиография докторской диссертации, Баку, Наука, с.44.

д) *Авторские свидетельства и патенты:* Алиев С.Г., Джалалов К.Х. А.С. 163514, СССР. БИИ 1988, № 4, с.50 Langsam M., Savoca A. C.L. Патент 4759776, США,1988

е) *Ссылки на веб-страницы:* Ссылки на веб-страницы должны быть полностью показаны. Например: http://www.tall.edu.az

6) В статье предпочтение отдается научным статьям, монографиям и другим надежным источникам написанном последние 5-10 лет.

7) Статью можно представить в редакцию в 3-х формах: либо по электронной почте *(tall@edu.gov.az)*, либо через сайт журнала *(http://tall.edu.az)*, либо в печатном формате автором статьи. В оригинале обязательна подпись автора(ов).

**Прием и публикация статей**

Представленные статьи после ознокомлений в редакции отправляют (после того, как имя автора останется конфиденциальным) экспертам для прочтения. Если статья соответствует профилю журнала и требованиям, тогда предоставляется в печать. По желанию автора может быть выдан документ о его принятии статьи. Статьи публикуются по принципу очереди.

**Авторские права**

Авторские права на статьи, публикуемые в журнале защищены и все права на публикации этих статей принадлежит журналу *«Преподавание Азербайджанского языка и литературы».* Статьи, опубликованные в журнале, допускаются только с письменного разрешения редакции для других опубликованных публикаций (кроме статьи, опубликованной как тезис). А для использования цитатов можно только с одним условиям показать источника. Рукописи, отправленные для печати в другое периодическое издание или в раннем времени напечатанные в другом журнале подача в редакцию, противоречит этику авторов. Статьи, не соответствующие вышеуказанным требованиям, не принимаются. Для опубликования статьей предназначен представить автору одну копию журнала.

QEYD

ДЛЯ ЗАМЕТОК

*Jurnal* ***"Ecoprint"*** *mətbəəsində hazır diapozitivlərdən*
*ofset üsulu ilə çap olunmuşdur.*

E-mail: masterkitab21@gmail.com
Tel.: +994 55 615 94 83

Qarnitura: Times New Roman, Cambria, Calibri
Şərti çap vərəqi: 9,5
Formatı: 70x100 1/16
Tiraj: 80